**İLHAM ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ OTUZ ÜÇÜNCÜ KİTAB

## DEKABR 2023 - FEVRAL 2024

AZƏRNƏŞR
BAKI - 2024

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2024

**ƏLİYEV İLHAM**
**İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2024, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Xankəndi şəhərində Azərbaycan Respublikasının növbədənkənar Prezident seçkilərində səsvermədə iştirakına və inamlı qələbəsinə dair materiallar, müstəqilliyimiz dövründə ilk dəfə Azərbaycanın bütün ərazisində keçirilmiş Prezident seçkilərində qazandığı qələbə münasibəti ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, digər dövlət və hökumət rəhbərləri, ayrı-ayrı nüfuzlu şəxslər tərəfindən göndərilmiş təbrik məktubları verilmişdir.

Kitabda dövlət başçısının Lənkəran və Neftçala rayonlarına səfərlərinə, yerli televiziya kanallarına genişməzmunlu müsahibəsinə, Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində silahlanmaya yeni qəbul edilmiş «Akıncı» hücum PUA-larının uçuşlarını izləmə mərasimində iştirakına aid materiallar, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə Azərbaycan xalqına müraciəti yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

© Azərnəşr, 2024

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*30 dekabr 2023-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım etmişdir.*

*Paylaşdığı fotonun üzərində:* «Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni iliniz mübarək!» *sözləri yazılıb.*

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

2023-cü il arxada qalır. 2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq o hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır. 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir, işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması təmin edilmişdir, düşmən ordusu məhv edilmiş, düşmənin hərbi texnikası məhv edilmiş və ya qənimət kimi götürülmüşdür. Bu tarixi hadisə münasibətilə bir daha bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm.

2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi.

Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq. Əfsuslar olsun ki, bu belə olmadı. Üç il ərzində Ermənistan öz

üzərinə götürdüyü öhdəlikləri nəinki yerinə yetirmədi, əksinə, bizə qarşı yeni hərbi təxribatlar hazırladı və onları həyata keçirdi. Qanunsuz olaraq torpağımızda məskunlaşmış 15 minlik Ermənistan ordusu Qarabağdan çıxarılmadı. Əksinə, yeni silahlar, sursatlar, hərbi texnika, minalar Qarabağa gətirildi və bizə qarşı mina terroru davam etdirildi.

Təbii ki, biz bu vəziyyətlə barışa bilməzdik. Dəfələrlə Ermənistan rəhbərliyinə və onun arxasında dayanmış Qərb ölkələrinə xəbərdarlıq etmişdik ki, bu vəziyyət davam edə bilməz. Ya separatçı rejim özünü buraxmalıdır, Ermənistan ordusu ərazimizdən çıxarılmalıdır, ya da biz güc tətbiq edərək, dövlət suverenliyimizi özümüz bərpa edəcəyik. Əfsuslar olsun ki, sözümüzə diqqət yetirilmədi. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələndi. Separatçı rejim çökdü, bizim qarşımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu, torpaqlarımızdan əbədi olaraq çıxarıldı və tarixin zibilxanasına atıldı. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm – bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz.

Azərbaycan Ordusu bir daha peşəkarlıq, qəhrəmanlıq, əsgər və zabitlərimiz fədakarlıq göstərmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır. Onu da bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmadı. Həm Birinci, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı zamanı şəhid

olmuş əsgər və zabitlərimizin, mülki şəxslərin, Xocalı qurbanlarının qisası döyüş meydanında alındı.

2023-cü ilin aprel ayında isə ərazi bütövlüyümüzü tam bərpa etdik. Azərbaycan–Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsi qurulmuş və o gündən bəri Azərbaycanın ərazi bütövlüyü tam bərpa edilmişdir. Azərbaycan xalqı yaxşı xatırlayır ki, dünyada, xüsusilə Qərb ölkələrində Ermənistanın arxasında dayanan, onlara daim dəstək göstərən ölkələrdə nə qədər hay-küy qaldırılmışdı, bizə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Heç bir ittiham, heç bir təzyiq bizim iradəmizə təsir edə bilmədi. Mən o vaxt da demişdim ki, heç kim bizim iradəmizə təsir edə bilməz. Biz haqq yolundayıq, öz sərhədimizi özümüz nəzarətə götürmüşük və heç kimə imkan verməyərik ki, bizim torpağımızda at oynatsın. Bu bizim torpağımızdır, bu torpağın sahibi bizik, nə lazım biliriksə, onu da edəcəyik, beynəlxalq hüquq çərçivəsində, o cümlədən beynəlxalq humanitar hüquq çərçivəsində. O da dərs olmadı işğalçılara, onların arxasında dayanan anti-Azərbaycan qüvvələrə. Ona görə sentyabr ayında keçirilmiş antiterror əməliyyatı labüd idi və biz bunu keçirdik, bununla da fəxr edirik, qürur duyuruq. Hər bir Azərbaycan vətəndaşı, dünyada yaşayan hər bir azərbaycanlı haqlı olaraq qürur hissi keçirir.

Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilibdir. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq bu il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Bu ilin mart ayında – Novruz bayramı ərəfəsində

Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışlar. Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Bu il Laçın şəhərinə Müstəqillik Gününü qeyd edərkən köçkünlər qayıtmışlar – 28 May tarixində Laçında böyük bayram günü idi. Ondan əvvəl, bildiyiniz kimi, Ağalı kəndində köçkünlər məskunlaşmışlar və beləliklə, 5 yaşayış məntəqəsində indi həyat bərpa edilmişdir.

Onu da bildirməliyəm ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar. Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar.

Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz – bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı dağıdaraq bütün evləri, tarixi binaları, məscidlərimizi yerlə yeksan etmiş, bizə qarşı soyqırımı, eyni zamanda, urbisid, ekosid törətmişlər. Bizim çaylarımız zəhərlənib, bizim meşələrimiz qırılıb. Bütün bunları edən Ermənistan dövləti idi. Əfsuslar olsun ki, bu cinayətlərə görə onlar bu günə qədər Qərbdə qınaq obyektinə çevrilməyiblər.

Bu gün Qərbdə ikili standartlar hökm sürür. Azərbaycan xalqı bunu yaxşı bilir və eyni zamanda, yaxşı bilir ki, biz bütün təzyiqlərə, bütün hədə-qorxulara,

əsassız ittihamlara baxmayaraq bildiyimizi edəcəyik. Necə ki, etmişik, bundan sonra da edəcəyik. Ermənistan rəhbərliyi də bu tarixi dərslərdən nəticə çıxarmalıdır və özünü elə aparmalıdır ki, daha qəzəbimizə tuş gəlməsin.

Biz bu il iqtisadi sahədə öz siyasətimizi uğurla aparmışıq. Müstəqil iqtisadiyyat bizə imkan verir ki, heç kimdən asılı olmayaq, heç bir beynəlxalq maliyyə institutundan asılı olmayaq və asılı deyilik.

Biz ordumuzu xeyli dərəcədə gücləndirmişik, həm peşəkarlıq artdı, həm yeni silahlı birləşmələr yaradıldı və bu silahlı birləşmələr digər silahlı birləşmələrlə birlikdə antiterror əməliyyatında çox böyük peşəkarlıq göstərdilər. Yeni silahlar, hərbi texnika alındı, gətirildi, bir çox yeni kontraktlar imzalandı. Onu da bildirməliyəm ki, gələn il hərbi təyinatlı yerli istehsal böyük dərəcədə artacaq. Gələn il həm dövlət, həm özəl sektor tərəfindən hərbi təyinatlı məhsulların istehsalına ən azı 1 milyard manat sərmayə qoyulacaq. Beləliklə, biz nəinki özümüzü əsas vasitələrlə təmin edəcəyik, Azərbaycan dünya miqyasında çox ciddi ölkəyə çevriləcək, bizim hərbi təyinatlı məhsulların həcmi və sayı böyük dərəcədə artacaqdır.

Bizim beynəlxalq nüfuzumuz gündən-günə artır. Dekabr ayında dünyanın ən böyük beynəlxalq konfransının Azərbaycanda keçirilməsi haqqında bütün dünya ölkələri yekdil qərar qəbul etmişlər – COP29 gələn il Azərbaycanda keçiriləcək. Bu bizə dünya ictimaiyyəti tərəfindən göstərilən böyük hörmət və rəğbətdir, bizim «yaşıl enerji»yə keçidimizə olan böyük qiymətdir. «Yaşıl enerji»yə keçid bizim

prioritet məsələmizdir və bu il Azərbaycanda bölgənin ən böyük bərpa olunan elektrik enerji stansiyası istifadəyə verilmişdir – 230 meqavat gücündə Günəş elektrik stansiyası artıq bizim enerji sistemimizə tam inteqrasiya edilmişdir. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında yaxın bir neçə il ərzində Azərbaycanda 10 min meqavat bərpa olunan enerji növləri, enerji mənbələri yaradılacaq və bu sahədə də Azərbaycan dünyada liderlər sırasında olacaqdır. COP29 – iqlim dəyişikliyinə həsr edilmiş bu beynəlxalq konfransın Azərbaycanda keçirilməsi bir daha bu sahədə bizim uğurlarımızı əyani şəkildə göstərir.

2023-cü il Azərbaycanda «Heydər Əliyev ili» elan edilmişdi. Ulu öndərin 100 illiyi ölkə üzrə qeyd edildi. Mən mənim üçün bu əziz günü – atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək, öz ürək sözlərimi bildirdim və dedim ki, ulu öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. Hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə qaldırdığım Dövlət bayrağımız ulu öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız da ulu öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir.

Bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər. Bu gün dünya azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq 3 ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan

xalqı kimi, ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayır.

Tarixi Zəfərimiz – İkinci Qarabağ müharibəsindəki Zəfər, antiterror əməliyyatı, işğalçılardan azad olunmağımız, separatçı rejimin çökməsi bütün azərbaycanlıları haqlı olaraq bir araya, bir yumruq halına gətirir. «Dəmir yumruq» bizim Zəfər salnaməmizin rəmzi idi. Bu gün eyni zamanda, «Dəmir yumruq» birliyimizin rəmzidir və Azərbaycan xalqını, bütün dünya azərbaycanlılarını əmin etmək istəyirəm ki, «Dəmir yumruq» hər zaman yerində olacaqdır.

Əziz bacılar və qardaşlar, sizə cansağlığı, uğurlar arzulayıram. Arzu edirəm ki, 2024-cü il də ölkəmiz üçün, xalqımız üçün uğurlu olsun. Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2023-cü il*

**KUBA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİGEL DİAS-KANEL BERMUDESƏ**

Hörmətli cənab Prezident!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan–Kuba ənənəvi dostluq münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu xoş fürsətdən istifadə edərək, yeni 2024-cü il münasibətilə də Sizə ən səmimi təbriklərimi çatdırır, dost Kuba xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 yanvar 2024-cü il*

**AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA**

Hörmətli həmvətənlər!

Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda ayrı-ayrı xalqların və dinlərin mənsubları yüz illərdir ki, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşayırlar. Biz cəmiyyətimizin üstün keyfiyyətlərindən olan etnik-dini müxtəlifliyi dövlətçiliyimizin misilsiz nailiyyəti kimi qiymətləndirir, ölkəmizdə hökm sürən demokratik birgəyaşayış mühitinin qorunub saxlanılmasını, humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin təbliği və təşviqini dövlət siyasətimizin prioritet istiqamətlərindən biri hesab edirik.

Təqdirəlayiq haldır ki, xristian həmvətənlərimiz nümunəvi dövlət–din münasibətlərinin yaratdığı geniş imkanlardan yararlanaraq, özünəməxsus adət-ənənələri, dil və mədəniyyəti yaşadır, ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi həyatımızın bütün sahələrində digər etiqadların nümayəndələri ilə birlikdə yaxından iştirak edirlər.

Əziz həmvətənlər!

Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı*, 5 yanvar 2024-cü il*

## YAPONİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ KATSUYA VATANABE İLƏ GÖRÜŞ

*7 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Katsuya Vatanabenin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*Səfir Katsuya Vatanabe Yaponiya İmperatoru əlahəzrət Naruhitonun Yaponiya–Azərbaycan əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı arzusunu dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev minnətdarlığını bildirərək, onun da xoş arzularını Yaponiya İmperatoruna çatdırmağı xahiş etdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq münasibətlərinin 30 ildən artıqdır ki, müxtəlif sahələri əhatə etdiyini vurğulayaraq, bütün istiqamətlərdə yaxşı nəticələrin əldə olunduğunu bildirdi, qarşıdan gələn illərdə əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev ənənəvi sahələrdən başqa, əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi.*

*Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.*

*Azərbaycan Prezidenti ilə görüşdən böyük şərəf hissi duyduğunu deyən Katsuya Vatanabe xoş sözlərə görə minnətdarlığını bildirdi. O, ölkələrimiz arasında dostluq və xoş münasibətlərin mövcud olmasında dövlətimizin başçısının rolunu xüsusi qeyd etdi.*

*Səfir COP29-un bu il Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilmiş qərar münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi və qeyd etdi ki, «yaşıl iqtisadiyyat»a keçid, yüksək texnologiyaların inkişaf etdirilməsi Azərbaycanın prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan COP29 çərçivəsində Yaponiya ilə birgə iş birliyinə hazırdır.*

*Katsuya Vatanabe öz növbəsində qeyd etdi ki, ölkəsi «yaşıl» cəmiyyətin qurulması yüksək texnologiyalar əsasında inkişafa mühüm əhəmiyyət verir və bu sahədə də ölkələrimiz arasında əməkdaşlıq üçün böyük imkanlar vardır. Səfir Azərbaycan–Yaponiya əlaqələrinin inkişafı üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.*

## LÜKSEMBURQ BÖYÜK HERSOQLUĞUNUN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ALAİN DE MUYSER İLƏ GÖRÜŞ

*7 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də Lüksemburq Böyük Hersoqluğunun ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Alain de Muyserin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*Səfir Alain de Muyser Lüksemburqun Azərbaycanda akkreditə edilmiş ilk səfiri olmasından məmnunluğunu bildirərək, bu təyinatın və səfir kimi fəaliyyətinin ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına, eyni zamanda, insanlar arasında təmasların artmasına xidmət göstərəcəyini qeyd etdi.*

*Prezident İlham Əliyev Lüksemburq Böyük Hersoqluğu səfirinin Azərbaycanda akkreditə olunmasını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Lüksemburq arasında əlaqələrin həm də Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev əməkdaşlığın inkişafı üçün səylərin fəallaşdırılmasının zəruriliyini bildirdi.*

*Alain de Muyserin səfir kimi əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvarlığını ifadə edən Azərbaycan Prezidenti ona fəaliyyətində uğurlar arzuladı.*

*Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı surətdə məlumatlandırmanın və iqtisadi təmasların artırılmasının vacibliyi qeyd olundu.*

*Səfir COP29-un Azərbaycanda keçirilməsi barədə qəbul edilmiş qərarla bağlı təbriklərini dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.*

*«Yaşıl enerji»yə keçid, yüksək və kosmik texnologiyalar sahələrində Lüksemburqun zəngin təcrübəyə malik olduğunu deyən səfir bu sahədə də əməkdaşlıq üçün böyük imkanların olduğunu qeyd etdi. O, Lüksemburqun əsas daşıma şirkəti olan «Cargolux» ilə Azərbaycanın uğurlu əməkdaşlıq etdiyini vurğuladı.*

*Söhbət zamanı ölkələrimiz arasında bank, maliyyə, nəqliyyat və digər sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparıldı.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHYANIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*8 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından yanvarın 8-də ölkəmizdə rəsmi səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Məhəmməd bin Zaid əl-Nəhyanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ziyafətdə iştirak etdilər.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHYANIN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*9 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Məhəmməd bin Zaid əl-Nəhyanın yanvarın 9-da rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Məhəmməd bin Zaid əl-Nəhyanı qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə raport verdi.*

*President şeyx Məhəmməd bin Zaid əl-Nəhyan Azərbaycan əsgərlərini salamladı.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Birləşmiş Ərəb Əmirliklərinin və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Azərbaycan nümayəndə heyəti Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, Birləşmiş Ərəb Əmir-*

*liklərinin nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Məhəmməd bin Zaid əl-Nəhyanın qarşısından keçdi.*

*Dövlət başçıları rəsmi foto çəkdirdilər.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX MƏHƏMMƏD BİN ZAİD ƏL-NƏHYAN İLƏ GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*9 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 9-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Məhəmməd bin Zaid əl-Nəhyan ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin qardaşı, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş Nazirin müavini, Prezident Divanının rəhbəri şeyx Mansur bin Zaid əl-Nəhyan, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin qardaşı, Xarici İşlər naziri şeyx Abdulla bin Zaid əl-Nəhyan, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin oğlu şeyx Həmdan bin Məhəmməd əl-Nəhyan iştirak etdilər.*

**İlham Əliyev**: Hörmətli cənab Prezident, əziz qardaşım!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz!

Sizin Azərbaycana səfər etməyiniz tarixi hadisədir. Bu, Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, bu səfər iki ölkə arasındakı dostluq, qardaşlıq münasibətlərinin inkişafına böyük töhfə verəcək.

Biz sizinlə dünən rəsmi ziyafət zamanı bir çox məsələləri ətraflı müzakirə etdik və bizim strateji tərəfdaşlığımızı bir daha təsdiqlədik. Şadam ki, bizim şəxsi görüşlərimiz müntəzəm xarakter alır. Keçən ay biz sizinlə Dubayda görüşmüşdük.

Fürsətdən istifadə edərək, COP28 konfransının uğurla keçirilməsi münasibətilə sizi bir daha təbrik edirəm. COP29-un Azərbaycanda keçirilməsi ilə əlaqədar verdiyiniz dəstəyə görə bir daha minnətdarlığımı bildirirəm. Fürsətdən istifadə edərək, BMT Təhlükəsizlik Şurasındakı mövqenizə görə, Azərbaycana verdiyiniz dəstəyə görə sizə bir daha xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün bir çox önəmli sənədlər imzalandı, bir azdan sənədlərin mübadiləsi mərasimi keçiriləcək. Əminəm ki, bu sənədlər gələcək əməkdaşlığımız üçün çox güclü zəmin yaradacaqdır.

Əməkdaşlığımız çoxşaxəlidir, bir çox sahələri əhatə edir və yaxın keçmişdə enerji sahəsində, xüsusilə «yaşıl enerji» sahəsində çox önəmli addımlar atılmışdır. Keçən ilin oktyabr ayında Azərbaycanda 230 meqavat gücündə Günəş elektrik stansiyasının açılışı olmuşdur. Bu stansiyanın yaradılması ölkənizin investisiyaları hesabına mümkün olmuşdur. Bu, birinci addımdır. İmzalanmış kontraktlar və anlaşma memorandumları əsasında sizin ölkənizin sərmayələri hesabına Azərbaycanda 10 qiqavat «yaşıl enerji» istehsalı nəzərdə tutulur.

Keçən ay Bakıda daha iki önəmli sənəd imzalanmışdır. Onlardan biri – Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında imzalanmış sənəd əsasında

1 milyard dollarlıq maliyyə imkanı olan Birgə İnvestisiya Fondu yaradıldı. İkinci önəmli sənəd informasiya-kommunikasiya sektoruna aiddir.

Biz bunu çox yüksək qiymətləndiririk, çünki ölkəniz sizin rəhbərliyinizlə çox böyük uğurlara imza atıb, dünyanın ən inkişaf etmiş, ən uğurlu ölkələrindən birinə çevrilib. Bilirəm ki, bir çox ölkələr üçün sizin uğurlu təcrübəniz bir nümunədir.

Əminəm ki, sizin səfəriniz bizim strateji tərəfdaşlığımızı möhkəmləndirəcək, xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərini daha da gücləndirəcək. Bir daha xoş gəlmisiniz!

**Şeyx Məhəmməd bin Zaid əl-Nəhyan**: Cənab Prezident, Azərbaycana səfər etməkdən çox böyük məmnunluq duyuram, qonaqpərvərliyə və səmimi qəbula görə Sizə minnətdarlığımı bildirirəm. Xüsusən də dünən rəsmi ziyafət zamanı bizim apardığımız danışıqlar və iki ölkə arasında əlaqələrin perspektivinə dair əldə etdiyimiz razılaşmalar sevindiricidir. Cənab Prezident, sizin dövlətinizə, sizin xalqınıza uğurlu il arzu edirəm.

Biz iki ölkə arasında bu gün imzalanmış Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunu qeyd etmək istəyirik. Bu Anlaşma Memorandumu ilə ölkələrimiz arasındakı əlaqələr strateji əhəmiyyət kəsb edir. Ticarət, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, mədəniyyət, təhsil sahələrində də əlaqələrimizin və əməkdaşlığımızın inkişafı istiqamətində səylərimizi səfərbər edəcəyik.

İki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir və biz müxtəlif sahələrdə daimi tərəqqi

və uğurun şahidi oluruq. Biz də Birləşmiş Ərəb Əmirliklərində iki ölkə arasında ölkələrimizin və xalqlarımızın rifahı naminə müxtəlif sahələrdə əməkdaşlığın inkişafına hazırıq.

Qeyd etdiyiniz kimi, münasibətlərimizin inkişafı öz başlanğıcındadır. Biz də öz növbəmizdə, ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi və yeni körpülərin yaradılması istiqamətində səylərimizi səfərbər edirik.

Cənab Prezident, bu il Azərbaycanın COP29 tədbirinin keçirilməsi ilə bağlı seçilməsi münasibətilə Sizə bir daha təbriklərimi çatdırmaq istəyirəm. Bu da öz növbəsində, bütün dünyanın Azərbaycana etimadının bir təzahürüdür və bu münasibətlə Sizə uğurlar arzulayıram. Keçən dəfə Dubayda görüşdüyümüz zaman qeyd etdiyimiz kimi, əlbəttə, Azərbaycan bu kimi mötəbər tədbirlərin keçirilməsinə qadirdir və hazırdır.

Cənab Prezident, qonaqpərvərliyə, səmimi qəbula və xüsusən də dünən 2 saatdan artıq keçirdiyimiz gözəl vaxta görə – həqiqətən, bu 2 saat ərzində mən bizim görüşümüzdən çox həzz aldım – Sizə bir daha minnətdarlığımı bildirmək istəyirəm.

Cənab Prezident, dünən də qeyd etdiyim kimi, Birləşmiş Ərəb Əmirliklərinin bütün təcrübəsi hesab edin ki, sizin əlinizdədir. Hər bir sahədə biz öz təcrübəmizi sizinlə bölüşməyə, xüsusən də COP29-un keçirilməsində öz təcrübəmizi sizinlə paylaşmağa hazırıq.

Bildiyiniz kimi, Birləşmiş Ərəb Əmirliklərinin bir çox sahədə böyük təcrübəsi vardır. Biz də sizin kimi qardaş ölkələrlə bu təcrübəni paylaşmağa, bölüşməyə

hər zaman hazırıq. Amma bəzi məqamlar, bəzi sahələr var ki, o sahələrdə biz də öyrənirik. Çox sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Təşəkkür edirəm.

*Sonra səfər çərçivəsində imzalanmış sənədlərin mübadiləsi mərasimi oldu.*

*Səfər çərçivəsində «Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin İqlim Dəyişmələri və Ətraf Mühit Nazirliyi arasında Niyyət Protokolu», «ADA Universiteti ilə Anvar Qarqaş Diplomatik Akademiyası arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Energetika Nazirliyi və Birləşmiş Ərəb Əmirliklərinin İnvestisiya Nazirliyi arasında elektrik enerjisinin ötürülməsi layihələri üzrə İnvestisiya Əməkdaşlığına dair Anlaşma Memorandumu», «Azərbaycanın bərpa olunan və təmiz enerji potensialından istifadənin daha da gücləndirilməsi və «yaşıl enerji»nin ixracı əməliyyatlarına imkan verən Strateji Əməkdaşlıq üzrə Çərçivə Müqaviləsi», «Azərbaycanda quruda quraşdırılacaq 1 GVt gücündə Günəş və külək layihələrinin inşası üçün Tədbirlər Təqvimi», «ADNOC və SOCAR şirkətləri arasında Strateji Əməkdaşlıq Sazişi» imzalanmışdır.*

*Daha sonra danışıqlar təkbətək görüş əsnasında davam etdirildi.*

## YERLİ TELEVİZİYA KANALLARINA MÜSAHİBƏ

*10 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə vermişdir.*

**R ö v ş ə n  M ə m m ə d o v** (*«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin sədri*): **Cənab Prezident, hər vaxtınız xeyir olsun. Öncə müsahibəyə görə hər birimizin adından Sizə təşəkkür edirik. Suverenliyimizin tam bərpa olunmasından, xüsusən də Xankəndi Zəfərindən sonra belə bir görüş, belə bir müsahibə hər birimizin arzusu idi. Odur ki, bu arzumuzu nəzərə aldığınıza görə Sizə təşəkkür edirik.**

**Cənab Prezident, yeni tarixi reallığı, yeni tarixi mərhələni yaşayırıq. Ən böyük reallıq qeyd etdiyimiz kimi, Qarabağın tam azad olunması, Qarabağdan separatizmin, terrorizmin təmizlənməsi və Sizin təbirinizcə desək, tarixin zibilliyinə atılmasıdır.**

**Hər bir reallığın arxasında güc, prinsipiallıq, əzm, iradə və Sizin «Dəmir yumruğunuz»dur. Məhz ona görə də mən istərdim elə ilk sualımı bugünkü reallıqlardan son 20 illik fəaliyyətə nəzər salmaqla başlayaq. Bu gün ərazi bütövlüyünü tam bərpa etmiş Azərbaycanımızdan, suverenliyimizi tam bərpa etmiş**

**Azərbaycanımızdan son 20 illik fəaliyyətə nəzər salsaq, hansı mənzərə canlanır? Biz bu 20 ildə haradan haraya gəlmişik?**

**İlham Əliyev:** Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi. Çünki hesab edirəm ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi. Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqlədi, yəni Heydər Əliyev siyasəti davam etdirildi. Əgər tarix başqa istiqamətdə getsəydi, bilmək olmaz, xalqımız, dövlətimiz hansı bəlalarla, faciələrlə üzləşə bilərdi. Hər halda, müstəqilliyimizin ilk 2 ili əyani şəkildə göstərir ki, güclü lider olmadan və düşünülmüş siyasət olmadan istənilən ölkə, xüsusilə gənc müstəqil ölkə çox ciddi təhlükələrlə üzləşə bilər. 2003-cü ildə əsası 1993-cü ildə qoyulmuş siyasətə bir daha dəstək verildi. Hesab edirəm ki, bugünkü reallıqları biz 2003-cü illə yox, 1993-cü illə müqayisə etməliyik, çünki məhz o tarixdən başlayaraq Azərbaycan inkişaf yoluna qədəm qoydu, sabitlik təmin edildi, vətəndaş müharibəsinə son qoyuldu və ölkəmiz beynəlxalq təcriddən çıxdı. 1993–2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq–iqtidar birliyi artıq önəmli bir amilə çevrildi.

Son 20 ilin tarixinə gəldikdə isə hər şey göz qabağındadır. Əgər biz bu haqda geniş danışsaq, yəqin ki, bütün müsahibəni buna həsr etməli olarıq.

Sadəcə olaraq, onu demək istəyirəm ki, bugünkü Azərbaycan, sözün əsl mənasında, dünya miqyasında güclü ölkələr sırasındadır. Hesab edirəm ki, bu həm beynəlxalq aləmdə, həm regionda, eyni zamanda, daxili siyasət prioritetlərinin düzgün seçilməsində bir çox ölkələr üçün nümunə ola bilər. Bu, təkcə mənim fikrim deyil, mənim bəzi həmkarlarım da bu barədə kifayət qədər açıq danışıblar.

Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni, siz də qeyd etdiyiniz kimi, bir neçə ay əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə, ümumi kontekstdən çıxarıla bilməz. Yəni sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır.

**Mirşahin Ağayev** (*«Real» Televiziyası*): **Cənab Prezident, oktyabrın 15-də Siz Xankəndidə Azərbaycan bayrağını qaldırdınız və mənə elə gəlir ki, bu, yalnız Sizin əl deyildi, bu, ulu öndər Heydər Əliyevin əli idi, bu, Pənahəli xanın əli idi, bu, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının əli idi və bütün əllər məhz Sizin əlinizdə cəmləşmişdi. Mən Xankəndini tərk etdiyim təxminən 30 il əvvəl – 1991-ci ildə tərk etmişdim, orada Matvey Radayev ilə müsahibəm ol-**

**muşdu, «Orqkomitet»də, sonradan separatçılar iqamətgaha çevirdilər. Mənim üçün çox maraqlıdır, o an hansı hissləri yaşadınız? Bu sualın cavabını mən həm də adlarını çəkdiyim bütün o ulu insanların ruhu ilə bağlayacağam.**

**İ l h a m Ə l i y e v:** Bilirsiniz, yəqin ki, Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bu kadrları görəndə hamımız eyni hissləri keçirmişik, o cümlədən mən də. Mənim hisslərim Azərbaycan vətəndaşlarının hisslərindən heç də fərqlənmirdi, qürur və sevinc hissi, əlbəttə ki. Fikirləşirdim ki, ədalətə inanmaq lazımdır. Çünki 30 il ərzində ədalətə inam Azərbaycan cəmiyyətində müəyyən dərəcədə sarsılmışdı və istənilən cəmiyyət üçün bu, yaxşı hal deyil. Bu, istər-istəməz insanların şüuruna mənfi təsir göstərir, ruh düşkünlüyünə gətirib çıxara bilir, bədbinlik hisslərinin cəmiyyətdə geniş vüsət almasına şərait yaradır. Yəni cəmiyyətin, sağlam cəmiyyətin yaranması, möhkəmlənməsi üçün bu amillər çox təhlükəlidir. Ona görə ədalətə inanmaq üçün əsas olmalıdır. Onu da biz hamımız bilməliyik ki, ədalət özü-özünə gəlmir, ədaləti sən gərək təmin edəsən. Müasir dünyada biz bunu artıq çoxdan başa düşmüşük. Əgər mənim çıxışlarıma nəzər salsanız, bəlkə də son 10–15 il ərzində mən dəfələrlə deyirdim ki, dünyada beynəlxalq hüquq işləmir. Bu mexanizmlər ancaq zəif ölkələr üçün işə salınır. Böyük dövlətlər buna məhəl qoymur. Onlar üçün sanki qanun qanun deyil, beynəlxalq hüquq hüquq deyil. Belə olan halda, ədaləti tələb edən, haqlı olaraq tələb edən ölkələr bu ədaləti özləri təmin etməlidir.

Biz məhz bu prinsipi rəhbər tutaraq, son illər ərzində fəal işlədik və ədaləti özümüz bərpa etdik. Ona görə bu, o cümlədən bu nöqteyi-nəzərdən də önəmlidir, çünki ədalətə inam bərpa edildi. Yəni biz hamımız gördük ki, bəli, ədalət zəfər çaldı, biz öz haqq işimizi yekunlaşdırdıq və ədaləti özümüz bərpa etdik.

Halbuki əfsuslar olsun ki, beynəlxalq aləmin əsas oyunçuları bizim bu fikrimizə şərik olmadılar. Əksinə, bizi ittiham etməyə, bizə qarşı müxtəlif təzyiq mexanizmlərini işə salmağa çalışdılar. Yəni biz bu ədaləti beynəlxalq müstəvidə siyasi və diplomatik savaş apararaq əldə etmişik. Ona görə bizim Zəfərimizin əhəmiyyəti daha önəmlidir.

Bir də gözümün önünə, bax, sizin də qeyd etdiyiniz o kadrlar gəlirdi. Həmin meydan, həmin şəhər, ancaq tam fərqli mənzərə. O meydanda, o meydanın başında yerləşən – onu da deməliyəm ki, Azərbaycan memarı, səhv etmirəmsə, Həsən Məcidov adlı bir Azərbaycan memarı, həmin o «Obkom» deyilən binanın müəllifi olmuşdur – həmin o binada, həmin o meydanda, o vaxt Azərbaycana qarşı çox çirkin bir oyunun başlanğıcına hamımız şahid olmuşduq. Siz də o hadisələrin canlı şahidi kimi yaxşı xatırlayırsınız, o vaxt Qarabağda yaradılmış Xüsusi Komitə faktiki olaraq, Qarabağın Azərbaycanın əlindən alınması üçün bir mexanizm idi. O Xüsusi Komitə, ona rəhbərlik edən şəxs və digər şəxslər, onların bütün addımları və hərəkətləri Qarabağı Azərbaycandan qoparıb Ermənistana bağlamaq idi.

Yəni bütün bu kadrlar gözümün önünə gəldi və təbii ki, hisslərin çoxluğu deməyə imkan vermir ki, hansı üstünlük təşkil edirdi. Təbii ki, Xocalıda bayrağı qaldıranda fikirləşirdim: bax, bu gün biz tam əminliklə deyə bilərik ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Xocalıda bayrağın qaldırılması daha da həyəcanlı idi, onu açıq deyə bilərəm. Xankəndidə isə bayrağın qaldırılması ədalətin tam bərpası idi və Zəfərimizin son nöqtəsi idi.

Yəni bunlar tarixi anlardır. Biz hamımız xoşbəxtik ki, bu dövrdə yaşayırıq, bu dövrün şahidləriyik, bu böyük Zəfərin əldə olunmasında iştirak etmişik, hərə öz yerində, siz media nümayəndələri kimi, mən Ali Baş Komandan kimi, xalqımızın bütün təbəqələri öz işi ilə bu Qələbəni yaxınlaşdırırdılar. Bu, ümummilli bir məsələyə çevrildi, ümummilli hərəkata çevrildi və 30 il ərzində bir çox beynəlxalq tərəfdaşlarımızın səylərinə baxmayaraq, bu mövzu unudulmadı. Bunu bizə unutdurmaq istəyirdilər.

Müxtəlif bəhanələr altında – Ermənistanla əməkdaşlıq, insanları, cəmiyyətləri sülhə hazırlamaq üçün müxtəlif QHT-lər vasitəsilə təmasların yaradılması məhz o məqsədi güdürdü ki, Azərbaycanda yetişən gənc nəsil bu məsələdə fərqli istiqamətdə yetişsin. Bizim isə məqsədimiz o idi ki, yetişən gənc nəsil vətənpərvər olsun, bu ədalətsizliklə barışmasın və əgər bu tarixi ədaləti bərpa etmək bizə nəsib olmazsa, gələcək nəsillər onu etsin.

Bir məsələni də deməliyəm: təbii ki, hamımız istəyirdik ki, biz öz ərazi bütövlüyümüzü nə qədər mümkünsə, bir o qədər tezliklə bərpa edək. Ancaq

tarix nöqteyi-nəzərindən 30 il o qədər də böyük dövr deyil. Bu müddət ərzində danışıqlar prosesi zamanı bir çox təkliflər irəli sürülmüşdü və bəziləri düşünə bilərdi ki, nə üçün Azərbaycan bu təklifləri qəbul etmir? Axı bu təkliflər əsasında rayonların bir neçəsi Azərbaycana heç bir müharibə aparılmadan qaytarılacaq, oraya keçmiş köçkünlər qayıdacaq, vəziyyət normallaşacaq. Nə üçün Azərbaycan bu təkliflərlə razılaşmır və barışmır? Təbii ki, danışıqlar prosesinin öz strategiyası, öz taktikası var idi. Təbii ki, biz danışıqları elə aparırdıq ki, öz məqsədlərimizə çatmaq üçün minimum xarici təzyiqlə üzləşək. Amma mənim üçün əsas məsələ o idi ki, bu, tarixi məsələdir, bu, ümummilli məsələdir və burada hansısa əlverişli görünə biləcək nailiyyət dalınca qaçmaq lazım deyil. Biz məsələni köklü şəkildə həll etməliyik, birdəfəlik həll etməliyik, ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməliyik. Ölkəmizdə separatizm yuvası qalmamalıdır və əgər bizim nəslimizə bunu etmək nəsib olmasa, elə gənc nəsil yetişdirməliyik ki, 20 ildən sonra, 30 ildən sonra, 50 ildən sonra onlar gəlib bunu etsinlər. Bax, əsas məsələ bu idi. Əlbəttə, hamımız xoşbəxtik ki, biz bu tarixi günləri gördük, yaşadıq və bu tarixi Zəfər Azərbaycan xalqının, dövlətinin tarixində əbədi qalacaqdır.

**Çinarə Nurməmmədova** (*«ARB 24» Televiziyası*): **Cənab Prezident, ötən ilin ən mühüm hadisələrindən biri həm də «Laçın» sərhəd-buraxılış məntəqəsinin yaradılması idi. Bundan dərhal sonra Azərbaycana qarşı təzyiqlər başladı, «Qarabağda humanitar böhran yaradılır» ittihamı irəli sürüldü. Həmin dövrdə hələ Xan-**

**kəndidə Azərbaycan bayrağı ucaldılmamışdı, separatçılar orada müəyyən fəaliyyət göstərirdilər və təzyiqlər də daha çox idi. Hazırda vəziyyət dəyişib və tamamilə yeni reallıqlar yaranıb. Hansı məqamlar, hansı nüanslar var ki, artıq biz onlardan danışa bilərik. Yəni Azərbaycan sərhəd-keçid məntəqəsini yaradarkən hansı riskləri gözə almışdı?**

**İ l h a m Ə l i y e v:** Bilirsiniz, biz 10 noyabr üçtərəfli Bəyanatı imzaladıqdan sonra, əlbəttə ki, gələcək addımlarımızla bağlı ciddi düşünməli idik. Çünki 10 noyabr hadisəsi də bir dövr idi və müharibə nə ilə nəticələnəcək, noyabrın 8-də mən tam deyə bilməzdim, yəni tam əminliklə deyə bilməzdim. Əlbəttə, mən bilirdim ki, bizim Zəfərimizlə nəticələnəcək, amma necə və nə vaxt, noyabrın 8-də demək mümkün deyildi. Çünki noyabrın 8-də təbii ki, çox böyük hadisə baş verdi – Şuşa işğaldan azad edildi və faktiki olaraq, separatçıların müqaviməti, belə deyək, strateji nöqteyi-nəzərdən mənasız oldu. Əlbəttə, əgər müharibə davam etsəydi, Kəlbəcər və Laçın rayonlarını özü də artıq qış mövsümündə azad etmək çox çətin olardı. Halbuki biz bunu da edəcəkdik. Amma itkilərimiz həddindən artıq çox ola bilərdi, hətta 44 günlük müharibədə verdiyimiz şəhidlərin sayından qat-qat çox ola bilərdi. Biz hamımız bunu yaxşı bilirdik, çünki indi də oralara gedən, o bölgələrə gedən hər bir insan görür ki, nə dərəcədə çətin relyefdə yerləşən bir ərazidir. Ancaq Ermənistan kapitulyasiya aktına imza atmasaydı biz müharibəni son nöqtəyə qədər davam etdirəcəkdik.

Ona görə 8 noyabrdan sonra – ertəsi gün bütövlükdə səhərdən axşama qədər, gecəyə qədər Rusiya Prezidenti vasitəsilə Azərbaycan–Ermənistan danışıqlarına həsr edilmişdi. Üçtərəfli Bəyanatın qəbul edilməsi, o şərtlərlə qəbul edilməsi, hesab edirəm ki, bizim böyük siyasi uğurumuzdur. Əlbəttə, əgər Şuşa işğaldan azad olunmasaydı, o şərtləri biz o Bəyanata saldıra bilməzdik. Yəni bizim Qələbəmiz, güclü olmağımız imkan verdi ki, biz hətta bu məsələyə aid olmayan şərtləri də oraya saldıraq, xüsusilə Zəngəzur dəhlizi ilə bağlı.

Ancaq hər halda, 10 noyabrdan sonra müəyyən bir vakuum yarandı. Heç kim bilmirdi bundan sonra nə olacaq. O vaxt hələ meydanda olan Minsk qrupunun həmsədrləri, demək olar ki, özləri də bilmirdilər nə ilə məşğul olacaqlar və bəzi səfərlər də oldu. Ermənistandakı vəziyyət təbii ki, birmənalı idi. Azərbaycanda xalq sevinc içində idi. Ancaq mən bilirdim ki, bu, işin sonu deyil. Çünki bir çox tamamlanmamış məsələ var və o məsələlərə aydınlıq gətirilməlidir, ilk növbədə, ovaxtkı Laçın dəhlizi ilə bağlı olan məsələ.

Müəyyən müddətdən sonra, xüsusilə görəndə ki, bu yol vasitəsilə Ermənistan Qarabağa silah, sursat, minalar göndərir, hərbi birləşmələrin rotasiyası həyata keçirilir, biz məsələ qaldırmağa başladıq ki, artıq biz bu yola nəzarət etməliyik. Əfsuslar olsun ki, o vaxt Rusiya tərəfi buna müsbət yanaşmadı. Ancaq biz yenə də öz səylərimizi davam etdirirdik, mən dəqiq deyə bilərəm ki, uzun müddət ərzində – 5 dəfə Rusiya tərəfinə ən yüksək səviyyədə müraciət

edilmişdi ki, gəlin bu yola birlikdə nəzarət edək. Çünki belə çıxır ki, siz buna tam nəzarət edə bilmirsiniz, hətta yəqin yadınızdadır, orada aşkarlanmış minaların istehsal müddəti çox böyük suallar yaratdı. 2021-ci ildə Ermənistanda istehsal edilmiş minalar oraya necə gətirilmişdi? Yəni təbii ki, bu minalar həmin o Laçın–Xankəndi yolu vasitəsilə gətirilmişdi. Ona görə biz məsələ qaldırdıq ki, gəlin birgə postda biz də dayanaq və nəzarəti gücləndirək, eyni zamanda, Rusiya sülhməramlı qüvvələrinə olan tənqidi yanaşma da səngiyər. Çünki biz məsuliyyəti sizinlə bir növ bölüşdürmüş olacağıq. Ancaq əfsuslar olsun ki, buna razılıq verilmədi. Nəhayət, aprelin 23-də bizim başqa çarəmiz qalmadı, biz daha gözləmək fikrində deyildik. Biz bir neçə saat ərzində həmin o Həkəri çayının üzərindəki körpüdə yerləşdik. Təbii ki, buna hazırlıq aparılmışdı və bəzi səylərə baxmayaraq, oradan artıq heç yerə getmədik.

Beləliklə, Qarabağa qanunsuz silahların, sursatların, minaların və canlı qüvvənin daşınması və göndərilməsi artıq mümkünsüz olmuşdu. Ancaq buna baxmayaraq, biz humanitar gediş-gəlişə heç bir əngəl törətməmişdik. Hamımız yaxşı xatırlayırıq ki, o vaxt Qırmızı Xaç xətti ilə xəstələr təxliyə edilirdi, aparılırdı, gətirilirdi. Bir müddətdən sonra Qarabağda yaşayan ermənilər o yoldan istifadə etməyə başladılar və heç bir problem onlar üçün yaradılmırdı. Sadəcə olaraq, onların maşınları yoxlanılırdı, öz maşınları ilə gedib-gəlirdilər. Azərbaycan sərhədçiləri maksimum dərəcədə diqqətli idilər və belə də tapşırıq almışdılar ki, mülki şəxslərə qarşı hər

hansı bir hörmətsizlik edilməsin. Ancaq ondan sonra hərbi təxribat törədildi. Bizim postumuz atəşə tutuldu və biz təbii olaraq, istintaqı aparmaq üçün o yolu müvəqqəti olaraq bağladıq, amma sonra yenə də açdıq. Ondan sonrakı hadisələri siz yaxşı xatırlayırsınız, bu barədə çox danışmaq istəmirəm. Ermənistan dövlətinin tör-töküntüləri və bəzi yerli separatçılar faktiki olaraq, özləri-özlərini humanitar yardımdan məhrum etmişdilər.

Yəni 23 aprel hadisələri çox önəmli bir tarixdir. O vaxt və ondan sonra mən demişdim ki, 23 aprel tarixində bizim ərazi bütövlüyümüz tam bərpa edildi. Bütün sərhədlərə biz nəzarət etməyə başladıq və bir daha göstərdik ki, bu torpaqların sahibləri bizik. Biz 23 aprelə qədər də bir neçə dəfə Ermənistana və yerli separatçılara nümayiş etdirmişdik ki, bu bizim torpağımızdır, həm «Fərrux» əməliyyatı, «Sarıbaba–Qırxqız» əməliyyatı, «Qisas» əməliyyatı – bütün bunlar tərəfimizdən aparılmış önəmli hərbi əməliyyatlar idi. Bu əməliyyatlar nəticəsində o vaxt nəzarətimizdə olmayan Qarabağ bölgəsinin strateji təpələri, yüksəklikləri bizim tərəfimizdən götürülmüşdü və 19–20 sentyabr əməliyyatı üçün bunun çox böyük əhəmiyyəti var idi. Yəni o əməliyyatlar, sadəcə olaraq, kortəbii seçilməmişdi, məqsədyönlü əməliyyatlar idi. Çünki müharibədə, xüsusilə bizim relyefi nəzərə alsaq, əsas məsələ təpələrin kimin əlində olmasıdır və 19–20 sentyabr əməliyyatının qısa müddət ərzində aparılmasının əsas səbəbi də məhz dediyim o vaxta qədər keçirilmiş əməliyyatlardır və təbii ki, Laçın istiqamətində Azərbaycan–Ermə-

nistan sərhədinin nəzarətdə olması. Çünki separatçılar artıq silah-sursata malik olmaq üçün bu imkanlardan da məhrum edilmişdilər.

**Fikrət Doluxanov** (*İctimai Televiziya*): **Cənab Prezident, 2023-cü ilin sentyabrında Azərbaycanın suverenliyinin tam bərpa olunmasını və qeyd etdiyiniz kimi, tarixi ədalətin bərqərar olunmasını təmin edən lokal xarakterli antiterror tədbirlərini hansı amillər şərtləndirdi? Güc tətbiq etmədən keçinmək mümkün idimi və Ermənistan, erməni separatçıları Sizin dəfələrlə etdiyiniz təklif və xəbərdarlıqları nəyə arxalanaraq düzgün dəyərləndirmədilər?**

**İlham Əliyev:** Yəqin onlar gözləmirdilər ki, bu əməliyyat keçiriləcək və kimsə, görünür, onları inandırmışdı ki, onlar sona qədər orada öz separatist qurumunda, o qurum çərçivəsində fəaliyyət göstərə biləcəklər. Halbuki bizim onlara göndərdiyimiz bütün mesajlar açıq və birmənalı idi. Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatandan bir müddət sonra yerli ermənilərin bəziləri bizim nümayəndələrimizə çıxaraq təmaslar haqqında təkliflər vermişdilər və biz də imtina etməmişdik. Çünki bizim məqsədimiz suverenliyi tam bərpa etmək və burada yaşayan əhalini inandırmaq idi ki, onlar vahid Azərbaycan dövləti çərçivəsində rahat və təhlükəsiz yaşaya bilərlər. Bizim niyyətimiz çox açıq, aydın idi və o təmaslar əsnasında bəzi müsbət addımlar da atılmışdı. Yəni ki, yeni Laçın–Xankəndi yol marşrutunun müəyyən edilməsi, çəkilməsi çox önəmli hadisə idi və 23 aprel hadisələrinin elə bil ki, təməlini qoymuşdu. Çünki biz artıq yeni yol çəkərək, Laçın şəhə-

rini özümüzə qaytardıq. Onu da bildirməliyəm ki, avqustun əvvəlində artıq yol hazır olandan sonra biz Rusiya sülhməramlı qüvvələrinin komandanlığına xəbər göndərdik ki, biz avqustun 5-də artıq o yola çıxırıq və Laçını nəzarətimizə götürürük. Yəni o, bir bildiriş idi. O, bir xahiş deyildi, bildiriş idi. Ondan sonra bilirsiniz ki, yerli ermənilər vaxt istəmişdilər, avqustun 25-nə qədər. Biz də razılıq verdik və avqustun 26-da Laçına girdik. Yəni ki, bütün bunlar sentyabr hadisələrinə gedən yolun bir hissəsidir.

Digər müsbət sayıla biləcək hadisələr də olmuşdur, o cümlədən Zabux kəndində evlərin yandırılmaması. Halbuki mən sizə deyə bilərəm ki, ermənilər tərəfindən tikilmiş bütün evləri biz sökdük, yerlə yeksan etdik və Zabuxda indi yerləşən Azərbaycan vətəndaşları bizim tərəfimizdən tikilmiş evlərdə yaşayırlar. Ancaq o fakt özlüyündə bir göstərici idi. Biz də bunu müsbət qarşıladıq. Sanki Kəlbəcərdə, Laçında evlərin yandırılması və ağacların kəsilməsi kimi vəhşiliklərindən sonra bu, bir qədər normal addım sayılır. Yəni bütün bu müsbət hadisələr deməyə əsas verirdi ki, qan tökülmədən, heç bir əməliyyat aparılmadan biz öz suverenliyimizi bərpa edəcəyik və Qarabağ ermənilərinə də dəfələrlə deyilmişdi ki, yeganə yolunuz budur: kim istəyir burada qalır, Azərbaycan vətəndaşı kimi yaşayır, kim istəmir, Ermənistana və başqa yerə gedir. Hətta Laçında keçmiş məcburi köçkünlərlə görüş zamanı – may ayının 28-də mən açıq demişdim ki, onların bir yolu var: qanunsuz qurumu buraxmaq, bizə təslim olmaq və bizə tabe olmaq. Bunu mən açıq demişdim. Mən bu və

bütün başqa məsələlərdə, bütün çıxışlarımda tam səmimiyəm və hesab edirəm ki, Ermənistan tərəfi artıq bunu bilir. Nəyi deyiriksə, onu da edirik və onu nəzərdə tuturuq. Ancaq görünür ki, başqa mesajlar da verilmişdi onlara. Təbii ki, burada beynəlxalq aktorlar da çox mənfi rol oynamışdı. Ermənistana və separatçılara müəyyən ürək-dirək mənası daşıyan mesajların verilməsi onlarda belə bir fikir yaratmışdı ki, onlar bu vəziyyətlə bağlı heç nə etməməlidirlər. Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında qeyri-rəsmi razılıq əldə edilmişdi ki, orada heç nə dəyişilməyəcək, yəni necə var, elə də qalır. Təbii ki, orada qanunsuz seçkilərin keçirilməsi bu razılaşmanın pozulması idi. Bildiyiniz kimi, sentyabrın 9-da həmin qanunsuz seçkilər keçirildi və o, ikinci qırmızı xətt idi. Çünki birinci qırmızı xətt Ermənistanın baş naziri Paşinyanın sentyabrın 2-də separatist rejimə təbrik məktubunun göndərilməsi idi. Bu həm qırmızı xəttin pozulması idi, həm də ki, ümumiyyətlə, çox təzadlı bir addım idi. Çünki ondan qabaq Ermənistanın baş naziri Qarabağı Azərbaycan torpağı kimi rəsmən tanımışdı və bunu dəfələrlə bəyan edirdi. Belə olan halda bu təbrik nədir və sentyabrın 9-dan sonra təbii ki, artıq başqa variant qalmamışdı. Xüsusilə nəzərə alsaq ki, mina terroru bizə qarşı davam edirdi və bizim bir neçə hərbçimiz o hadisələr ərəfəsində mina terrorunun qurbanı olmuşdur.

Antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişlər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqi-

qə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq, separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar. Başqa variant ola bilməzdi. Bizdə olan məlumata görə, oradakı hərbi birləşmələrdə təqribən 15 minə yaxın hərbçi xidmət göstərirdi. Onlar daha tez təslim oldular. Ondan sonra, sadəcə olaraq, danışıqlar gedirdi. Daha doğrusu, danışıqlar yox, onlar sanki şərtlərimizi müzakirə edirdilər. Ancaq biz hansı şərtlər qoymuşduqsa, o şərtlər də təmin edildi, o cümlədən separatist qurumun buraxılması və bütün digər şərtlər. Biz dedik ki, təslim olsanız əməliyyatı dayandıracağıq. Bizim məqsədimiz orada Ermənistan ordusunu məhv etmək yox, oradan Ermənistan ordusunun çıxarılması idi və biz bu müraciəti dəfələrlə etmişdik. Bizdən xahiş olundu ki, əgər onlar silahları yerə qoysalar, onların təhlükəsizliyi təmin olunsun. Təbii ki, günahı olmayan hərbçilərə qarşı biz hər hansı bir sanksiya tətbiq etmək fikrində deyilik. Halbuki separatçıların başçıları ilə bağlı bizim mövqemiz birmənalı idi – onların tutulması. Bəzilərini artıq Laçın yolunda oradan qaçmağa cəhd edəndə, bəzilərini Xankəndidə, bəzilərini də başqa yerlərdə biz tapıb tutmuşduq. Biz onların yerlərini bilirdik. Biz, ümumiyyətlə, deyə bilərəm ki, İkinci Qarabağ müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ tam nəzarət edirdik.

Yəni bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik. Həm Ermənistan rəhbərliyinə, həm beynəlxalq aktorlara deyirdim ki, bir dəqiqə ərzində mən düyməyə basıb bu əməliyyatı keçirəcəyəm, heç nə də edə bilməyəcəksiniz. Açıq deyirdim onlara. Bu hadisələrin gedişatı onu göstərdi ki – hesab edirəm bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır –bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil.

Yenə də deyirəm, əməliyyat hərb elmi nöqteyi-nəzərindən də çox uğurlu idi. «Şuşa» əməliyyatına oxşar bir əməliyyat idi. Əlbəttə, «Şuşa» əməliyyatı xüsusi peşəkarlıq tələb edən əməliyyat idi, amma bu da çox uğurlu idi. Yəni bütün vəzifələr yerinə yetirildi və beləliklə, separatçılığa son qoyuldu.

**Lidiya Molodtsova** (*CBC Televiziyası*): **Cənab Prezident, icazənizlə, sualları rus dilində verərdik, çünki CBC beynəlxalq kanaldır və rusca yayımlanır. Son zamanlar Fransanın rəsmi şəxsləri tərəfindən tez-tez anti-Azərbaycan bəyanatlarının, Parisin BMT Təhlükəsizlik Şurasına təqdim etməyə çalışdığı qətnamələrin, həmçinin Ermənistanın silahlandırılmasının şahidi oluruq. Fransanın belə mənfi münasibətinin səbəbi nədir? Paris Bakıdan nə istəyir?**

**İlham Əliyev:** Yaxşı sualdır. Biz özümüz də bunu bilmək istəyirik. Belə ki, münasibətlərimizin tarixinə nəzər salsaq, hər şey çox yaxşı başlamışdı. Həm ötən əsrin 90-cı illərində, həm də artıq mənim Azərbaycana rəhbərlik etdiyim dövrdə münasibətlər

kifayət qədər normal idi. Bunun bizim torpaqlarımızın işğal altında olması, yaxud sadəcə, Fransanın siyasi müstəvisində nəsillərin dəyişməsi ilə bağlı olması başqa məsələdir. Mənim üçün bunu söyləmək çətindir. Amma bütün hallarda balans qorunub saxlanılırdı. Artıq müsahibələrimdən birində Fransanın necə ATƏT-in Minsk qrupunun həmsədri olması barədə danışmışam. Təkrar etmək istəmirəm. Hərçənd bu məsələni unudanlara və ya bilməyənlərə xatırlatmaq yerinə düşər ki, Fransa Prezidenti Jak Şirak uzun müddət atamı Fransanın həmsədrliyinə razı salmaq istəyirdi və o bundan imtina edirdi. Sonradan Prezident Şirakla keçirdiyim görüşlər əsnasında o dəfələrlə onu necə razı salmaq istədiyini və Fransanın neytral olacağını vəd etdiyini xatırladırdı. Həmçinin mənim qarşımda əlavə edirdi ki, bu vədi atamın həyatda olmadığı vaxtda da yerinə yetirir. Mən bunu həmişə müsbət qəbul edirdim. Ancaq zahirən də, ümumilikdə bütün bunlar onun dediyi kimi təsir bağışlayırdı. Hərçənd bilmirəm ki, pərdə arxasında nələr baş verirdi, lakin son vaxta qədər balans zahirən saxlanılırdı. Balans Fransa tərəfindən hətta İkinci Qarabağ müharibəsinə qədər pozulmuşdu və bu, görünür ki, Fransanın xarici siyasətində fundamental əsasların nəsil dəyişikliyi səbəbindən baş vermişdi. Biz hazırda bunu təkcə Fransada deyil, həm də Avropa ölkələrinin əksəriyyətində müşahidə edirik. Öz ölkəsində və beynəlxalq arenada böyük nüfuz sahibi olan insanlar siyasət səhnəsindən getdilər və ümumilikdə təsadüfi adamlar – populistlər, demaqoqlar gəldilər və bunun nə ilə nəticələndiyini hamımız görürük.

Münasibətlərin gərginləşməsinə gəlincə, bu, artıq İkinci Qarabağ müharibəsi zamanı başladı. Həmin vaxt 44 gün ərzində Fransa Prezidenti dəfələrlə, hətta deyərdim ki, bu ifadəni işlətmək mümkündürsə, həddindən çox dəfələrlə zəng edirdi və baş verənlərə öz münasibətini bildirirdi. Detallara varmaq istəmirəm, çünki bu danışıqlar məxfi xarakter daşıyırdı, lakin danışdığımız məsələlərin bir hissəsi artıq ictimaiyyətə məlumdur. Hər halda, onlar heç nəyə nail ola bilmədilər və müharibə Prezident Makronun və ya hər hansı başqa şəxsin deyil, Putinin vasitəçiliyi ilə dayandırıldı. Üçtərəfli Bəyanat da Fransa, Azərbaycan və Ermənistan arasında deyil, Rusiya, Azərbaycan və Ermənistan arasında imzalandı.

Düşünürdüm ki, bu hadisələrdən sonra münasibətlərimizdə sağlam məntiq üstün olacaq və körpülər yandırılmayacaq, çünki bu, prinsip etibarilə nə Fransaya, nə də bizə lazımdır. Hərçənd hər bir ölkə bir-birini unudaraq sakit yaşaya da bilər. Bununla yanaşı, bütün bu proseslər davam edirdi və bildiyiniz kimi, həm parlament, həm də Senat qondarma «Artsax»ı tanıdı. Amma mənim qondarma «Artsax»ın dislokasiyası barədə tövsiyələrimi də yəqin ki, heç kim unutmayıb. Yeri gəlmişkən, onlar öz qüvvəsindədir, bəlkə də indi lokasiyanı dəyişmək olar, çünki bilirəm ki, Paris meri Qarabağdan çıxanlara fəxri vətəndaşlıq verib. Təklif edərdim ki, bəlkə də fəxri sözünü real vətəndaşlıq ilə əvəz etsinlər, onları Parisin mərkəzində yerləşdirsinlər və orada «Artsax respublikası» elan etsinlər. Amma bunu elə-belə, şərh qismində söylədim.

Hazırkı şəraitə gəldikdə, İkinci Qarabağ müharibəsindən sonra münasibətlərin gərgin olduğu dövr idi, bununla belə, münasibətlər mövcud idi. Siz də bilirsiniz ki, biz Prezident Makronun Praqadakı görüşdə iştirakına razılıq verdik və başqa səviyyələrdə də təmaslar oldu – həm Fransa Xarici İşlər nazirinin Azərbaycana səfəri, həm də bizim nümayəndələrin səfərləri. Yəni münasibətlər davam edirdi, amma antiterror əməliyyatından sonra bu münasibətlər mahiyyətcə dayandırıldı, yenə də bu bizim günahımız ucbatından baş vermədi. Sadəcə, Fransa artıq heç bir başqa amillərlə maskalanmayaraq açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparmağa başladı – qətnamələrin qəbul edilməsi cəhdləri, bundan sonra BMT Təhlükəsizlik Şurası platformasında Azərbaycana qarşı sanksiyalar tələbi. Zənnimcə, ən azı 5 dəfə bu cür cəhdlər edildi və onların hamısı tam uğursuzluqla nəticələndi, çünki ölkələrin əksəriyyəti bizi dəstəklədi və bu qətnaməni qəbul etdirmək üçün onlar dövlətlərin zəruri sayını toplaya bilmədilər. Bu onlar üçün çox güclü siyasi zərbə idi, belə desək, onlara öz meydançalarında qalib gəldik. Həmçinin düşünürəm ki, Avropa İttifaqının onlara qoşulmaması da böyük bir zərbə oldu, hərçənd məlum oldu ki, Avropa İttifaqı diplomatiyasının rəhbəri təəssüf ki, Fransanın Azərbaycana qarşı siyasətinə dəstək verənlərin arasında yer alıb. Lakin ümumilikdə Avropa İttifaqı ölkələri Azərbaycana münasibətdə vahid mövqe üzrə razılığa gələ bilmədilər, Fransa isə məhz sanksiyalarda və başqa addımlarda israr edirdi. Artıq bu

tezislər səsləndirilib və onlar, belə desək, havadan asılı qalıb, sözdən əmələ keçməyib.

Amma bundan sonra onlar artıq öz-özlüyündə vandalizm aktı olan Natəvanın heykəlinin təhqir edilməsi, onun sellofana bükülməsi, bu şəhər ilə İsmayıllı arasında qardaşlıq sazişinin ləğv edilməsi kimi lüzumsuz hərəkətlərə əl atmağa başladılar. Təbii ki, biz də adekvat cavab verirdik və indi də buna davam edirik. Bu, deyə bilərəm ki, kin, gücsüzlük və isterikanın özünü heykəldə göstərdiyi mənəvi deqradasiyanın dibidir. Yəni burada onlar praktik olaraq, ermənilərdən az fərqlənirlər. Çünki ermənilər Natəvanın Ağdamdakı məzarını qazıblar, heykəlini məhv ediblər. Biz onu bərpa etdik, yenidən dəqiq surətini ucaltdıq. Fransa isə Natəvanın həmin ölkədəki heykəlini təhqir edir. Göründüyü kimi, burada bir oxşarlıq var.

Ona görə də indi vəziyyət belədir, biz bütün bunlara cavab verəcəyik. Biz təkcə müdafiə olunan və özünə bəraət qazandıran ölkə deyilik. Biz adekvat cavablarveririk və verəcəyik. Belə ki, fransız imperializminin müstəmləkə ölkələrində törətdiyi vəhşiliklər haqqında dünyanın xatırlayacağı faktlar həddən artıq çoxdur. Buraya Əlcəzairdə indi də istifadə olunmayan böyük əraziləri zəhərləyən nüvə sınaqları daxildir. Həmçinin mina terrorunu da əlavə etmək olar, yeri gəlmişkən, fransızların Əlcəzairdə basdırdıqları minalardan insanlar indi də həlak olurlar. Bir milyon yarım əlcəzairlinin soyqırımı və digər faktlar da var. Müstəmləkə ölkələrində başqa cinayətlər də törədilib və bu, neokolonializmin rüsvayçı təzahü-

rüdür. Bu gün Fransa müstəmləkələrə sahib olmağı, onları idarə etməyi, sıxışdırmağı, viran qoyulmuş ölkələrin bu müstəmləkə zülmündən qurtulmasına imkan verməməyi adi hal kimi qəbul edir. «Qoşulmama Hərəkatı»nın sədri kimi, biz bu məsələni qaldırdıqda və Bakı təşəbbüsünü irəli sürdükdə müstəmləkə ərazilərinin – Fransanın dənizaşırı adlanan ərazilərinin nümayəndələrinin iştirakı ilə tədbirlər həyata keçiririk. Onların hər cür təzyiqlərə məruz qalması bizə məlumdur. Onları çağırır, profilaktikadan keçirir, hədə-qorxu gəlirlər. Bu yaxınlarda Yeni Kaledoniyada bir azərbaycanlı jurnalist qadını saxlayıblar. Ümumiyyətlə, bu hansı çərçivəyə sığır? Ondan casusluqda da şübhələniblər. O, hadisələri işıqlandırmağa gəlmişdi. Fransa tərəfinin xahişi ilə İsveçrədəki Avropa qeyri-hökumət təşkilatlarından birinin nümayəndəsini də saxlayıblar. O, Cenevrədə neokolonializmə həsr olunmuş tədbirə gedirdi. Düzünü desək, mən İsveçrə hökumətinin Fransanın iradəsinə tabe olmasından və belə rüsvayçı aktı törətməsindən təəccüblənirəm. Həm də bu jurnalist çox böyük Avropa ölkəsinin vətəndaşıdır. Yəni onların əsl xisləti bundan ibarətdir. Biz bu əsl xisləti üzə çıxardıq. Nədənsə bütün bunlar haqqında indiyədək danışılmırdı. Bunların hamısı barədə susurdular, əlaqədar olmaq istəmirdilər, problemlərdən qorxurdular, təhdidlərdən çəkinirdilər və sairə. Amma biz qorxmuruq. Zənnimcə, bu gün baş verənlər BMT Təhlükəsizlik Şurasında və Avropa İttifaqında bir fiaskodur, onların Avropa parlamentindəki nümayəndələri vasitəsilə bizə müəyyən mənada zərər vermək, ola bilər ki, hətta

qıcıqlandırmaq kimi boş cəhdlərinin hamısı faydasızdır. Təbii ki, biz yolumuza davam edəcəyik. «Qoşulmama Hərəkatı»nda sədrliyimiz başa çatır, amma Bakı Təşəbbüs Qrupu yaşayacaq, biz fransız neokolonializminin ifşa olunmasını və fransız müstəmləkələrinin Fransanın zülmündən azad olunması prosesini dəstəkləyəcəyik.

**Günel Kərbəliyeva** (*«Xəzər» Televiziyası*): **Cənab Prezident, Tbilisidə İpək Yolu Forumunda Ermənistanın baş naziri «sülhün kəsişməsi» deyə bir layihədən bəhs etdi, hansı ki, bu, «erməni qovşağı» layihəsinin adı dəyişdirilmiş formasıdır. Sözdə layihə guya Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Ermənistan arasında kommunikasiyaların, belə deyək, inkişafını nəzərdə tutur. Halbuki Azərbaycan bu təklifi 3 ildir irəli sürür. Ermənistanın baş naziri bunu yeni bir təşəbbüs kimi səsləndirdi. Ümumiyyətlə, regionda Azərbaycanın razılığı olmadan belə layihələrin baş tutması mümkündürmü?**

**İlham Əliyev:** Əlbəttə ki, yox. Yəqin ki, siz də yaxşı bilirsiniz, mümkün deyil. Hesab edirəm ki, bu, sadəcə olaraq, piar aksiyadır. Çünki Ermənistan, bildiyiniz kimi, 10 noyabr üçtərəfli Bəyanatının bir müddəasını yerinə yetirmir və faktiki olaraq, öz öhdəliyinə laqeyd yanaşır. Ona görə bunu pərdələmək, eyni zamanda, «Zəngəzur dəhlizi» sözünü sildirmək üçün belə bir təklif irəli sürmüşlər. Onu da bildirməliyəm ki, «Zəngəzur dəhlizi» sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır – Şimal–Cənub dəhlizi var, Azərbaycan

ərazisindən keçir. Bu o deməkdeyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq–Qərb dəhlizi var – amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir. Ona görə bu erməni «sülh yol kəsişməsi» faktiki olaraq, piar aksiyadan başqa bir şey deyil.

Onlar ilk növbədə, Zəngilanla Ordubad arasındakı ərazidə bizə maneəsiz keçid verməlidirlər. Bu onların öhdəliyidir. Mən artıq demişəm, bir daha demək istəyirəm, Azərbaycandan Azərbaycana gedən yüklər, vətəndaşlar və avtonəqliyyat vasitələri heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst keçməlidirlər. O ki qaldı digər ölkələrin yüklərinə, əgər, məsələn, Orta Asiyadan Türkiyəyə bir yük Ermənistan ərazisindən göndərilirsə və hətta Azərbaycandan Türkiyəyə hansısa bir yük göndərilirsə, təbii ki, bütün gömrük rüsumları da ödənilməlidir. Yəni bu çox ədalətli mövqedir.

Bir məsələ də önəmlidir, bu yolun təhlükəsizliyi. Çünki mən dəfələrlə Ermənistan rəhbərliyinə demişəm ki, Ermənistanın qarantiyaları bizə kifayət deyil. 10 noyabr Bəyanatında göstərilmişdi ki, Rusiya sərhədçiləri 42-43 kilometr ərazidə təhlükəsizliyi və nəzarəti həyata keçirirlər və bu öhdəlik yerinə yetirilməlidir. Ermənistan isə bundan indi boyun qaçırmaq istəyir. Halbuki bu da məntiqli deyil. Çünki Rusiya sərhədçiləri Ermənistanın, İrəvanın aeroportundadırlar, Ermənistan–İran, Ermənistan–Türkiyə sərhədindədirlər. Niyə orada onlar qala bilərlər, amma burada qala bilməzlər? Sadəcə olaraq, bir

bəhanədir ki, yol açılmasın. Biz 3 il gözləmişik, bizi ittiham edirdilər ki, biz güc tətbiq edərək o yolu açacağıq. Halbuki bu, cəfəng bir ittiham idi. Onu da bildirməliyəm ki, bu şayiələri, belə ucuz şayiələri yayan da Fransadır. Biz dəqiq bilirik ki, hər yerdə danışırdılar və bu gün də yəqin davam edir ki, bu gün-sabah Azərbaycan Ermənistana hücum edəcək. Halbuki bunun heç bir əsası yoxdur, heç bir hazırlıq da getmir və bu gün hazırlığı gizlətmək də mümkün deyil. Çünki hər şey yuxarıdan, peykdən görünür, digər informasiya mənbələri vardır. Biz sadəcə olaraq, 3 il gözlədik, görəndə ki, bu alınmır, bizim başqa yolumuz qalmadı. Biz qısa yolla Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməliyik və bildiyiniz kimi, İranla artıq razılıq da əldə edildi, nəinki razılıq, təməlqoyma mərasimi keçirildi. İndi Ağbənd istiqamətində artıq birinci körpünün inşası başlanmışdır və ikinci körpü də Ordubad istiqamətində nəzərdə tutulur. Yəqin ki, bu il biz ona da başlayacağıq.

Beləliklə, Ermənistan yenə dalan olaraq qalacaq. Onlar indi, necə deyərlər, bundan duyuq düşərək əl-ayağa düşdülər ki, biz kənarda qaldıq və hətta bildiyiniz kimi, Amerika Dövlət Departamenti rəhbərinin müavini də bir anlaşılmaz açıqlama vermişdi ki, ya Ermənistandan keçəcək, ya da ki, biz imkan verməyəcəyik. Yaxşı, biz bunu 3 ildir deyirik ki, bu, Ermənistandan keçsin, Ermənistan imkan vermir. İndi də ittiham edirlər ki, biz başqa yol seçirik. Yəni siz şərait yaradın Ermənistanın ərazisindən keçsin, Mehri ərazisindən keçsin, mən dedi-

yim şərtlərlə, onda digər varianta ehtiyac qalmayacaq. Yoxsa bu da anlaşılan deyil. Bu gün Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yenə də İran ərazisindən həyata keçirilir. Niyə buna etiraz edilmir, məhz Mehri hissəsinə etiraz edilir? Ermənistan–İran ticarəti gündən-günə artır, çiçəklənir. İran Qərbi Zəngəzurda konsulluq açıb. Niyə bu heç bir sual yaratmır? Yəni belə məntiqsiz və cəfəng açıqlamalar heç kimə şərəf gətirmir və «biz buna imkan verməyəcəyik» deyəndə – mən artıq bunu demişəm – Amerika nəyi nəzərdə tutur, necə imkan verməyəcək? Gələcək Zəngəzurda bir sədd qoyacaq, ya Zəngilanda bir qoşun yerləşdirəcək, ya İran ərazisində? Necə imkan verməyəcək? Bu bizim suveren işimizdir. Bu yaxınlarda bizim İranla Astaraçay üzərində körpünün açılışı olmuşdur. Nə üçün? Çünki Şimal–Cənub dəhlizində yükdaşımaların həcmi iki dəfə artıb və hazırda Astaradakı terminal bütün o yükləri götürə bilmir. Rusiya ilə ikinci keçid açmışıq Xanobada və indi Rusiya–Azərbaycan sərhədində 2 keçid var, bir idi. İranla da 2 keçid var. Yəni bu bizim suveren işimizdir.

Ona görə Ermənistan tərəfinə məsləhətim odur ki, burada manipulyasiyalarla məşğul olmasın. Azərbaycanın əsas hissəsindən Naxçıvana gedən onların təklif etdiyi marşrut tamamilə yararsızdır və ilboyu o marşrutdan istifadə etmək mümkün olmayacaq. Çünki orada hava şəraiti də, relyef də çox sərtdir. Ən düzgün variant Mehri ərazisindəndir. Onsuz da sovet vaxtında oradan dəmir yolu

keçirdi və avtomobil yolu da tikilirdi. Həm dəmir yolu, həm də avtomobil yolu oradan keçməlidir. Azərbaycandan Azərbaycana, dediyim kimi, heç bir yoxlama aparılmadan insanlar və yüklər keçməlidir. Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir.

**R ö v ş ə n M ə m m ə d o v: Cənab Prezident, həmkarlar yəqin ki, Azərbaycan–Ermənistan münasibətləri ilə bağlı sualları davam etdirəcəklər. Amma mən mövzudan bir qədər kənara çıxmaq və bu gün ictimaiyyəti düşündürən digər bir mövzuya keçid almaq istərdim. Bu, növbədənkənar Prezident seçkiləri ilə bağlıdır. Məlumdur ki, bu il fevralın 7-nə təyin olunub və müxtəlif fikirlər, müxtəlif versiyalar səsləndirilir. Amma ən doğru cavabı Sizdən ala bilərik. Cənab Prezident, belə bir addımın atılmasını şərtləndirən əsas amillər nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Düzdür, bu barədə müxtəlif versiyalar var. Yaxşı ki, bu sualı verdiniz, mən bunun əsas səbəblərini həm sizin üçün, həm də ictimaiyyət üçün açıqlayım. Birinci səbəb təbii ki, suverenliyimizin tam bərpasıdır, çünki seçkilər bir dövrə yekun vurur. Sentyabr ayında biz elə bir dövrə yekun vurduq ki, bu, epoxal bir hadisədir. Yəni Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar Zəfər olmamışdır. Bütün amilləri – siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, hesab

edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, Prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyimizin tam bərpa edilməsi yeni dövrün başlanğıcı idi. Bu, birinci səbəbdir.

İkinci səbəb ondan ibarətdir ki, ilk dəfə olaraq müstəqil həyatımızda seçkilər ərazilərimizin hər bir yerində keçiriləcək. Prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğu üçün hesab etdim ki, bütün ərazilərdə keçiriləcək birinci seçkilər Prezident seçkiləri olmalıdır. Əgər biz seçkiləri vaxtında, yəni 2025-ci ilin aprelində keçirməli olsaydıq, o zaman bələdiyyə seçkiləri daha tez keçiriləcəkdi. Mən hesab etdim ki, bu, düzgün olmaz. Azad edilmiş ərazilərdə və ölkəmizin hər bir yerində Prezident seçkiləri birinci seçkilər olmalıdır.

Digər səbəb ondan ibarətdir ki, mənim Prezident kimi fəaliyyətimin 20 ili tamamlandı. Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik. 20 ildən sonra yenidən Prezident seçkilərinin keçirilməsi təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur. Yəni əsas səbəblər bunlardır. Amma mən bu səbəbləri, bu sıralamanı əhəmiyyəti üzrə etmişəm. Birinci səbəb yeni dövrün başlanğıcıdır və Prezident seçkiləri bu yeni dövrə də xeyir-dua verəcəkdir.

**R ö v ş ə n  M ə m m ə d o v: Bunu həm də yeni missiyanın başlanğıcı kimi qəbul etmək olarmı?**

**İlham Əliyev:** Əlbəttə. Çünki bütövlükdə, hesab edirəm ki, cəmiyyətdə də bu barədə yəqin müzakirələr gedəcək. Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar təbii ki, həlledici olacaq. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır.

Təbii ki, yeni dövrün yeni hədəfləri olmalıdır. Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi və indi bəzi ölkələr var ki, öz tarixi keçmişini, tarixi uğurları illər boyunca, onilliklər ərzində istismar edirlər. Halbuki onların özlərinin o zəfərlərə heç bir aidiyyəti yoxdur. Yəni biz o ölkələrdən olmaq istəmirik. Biz nə etmişiksə etmişik, xalq da bunu qiymətləndirir və qiymətləndirəcək. Ancaq bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz. Çünki birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır.

Birincisi, biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi

ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir.

Təbii ki, bizə qarşı olan mənfi münasibət, ənənəvi mənbələrdən gələn mənfi münasibət dayanmayacaq. Ermənistanı silahlandırma cəhdləri bu məqsədi daşıyır ki, bizi daim təzyiq altında saxlasınlar. Bu bizi bundan sonra da rahat yaşamağa qoymamaq üçün səylərdir və əfsuslar olsun ki, burada da Fransa yenə də ön plandadır. Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır. Ona görə mən deyəndə ki, Fransanın siyasəti Qafqazda gərginliyin artmasına səbəb olur, məhz bunu nəzərdə tuturdum.

Ermənistanda yersiz illüziyalar yarana bilər ki, nə vaxtsa Qarabağı yenidən bizdən qopara bilərlər. Belə fikirlər onların cəmiyyətində dolaşır, o cümlədən rəhbər qruplaşma daxilində də belə fikirlər var. Mən istisna etmirəm ki, bu fikirlər, necə deyərlər, getdikcə daha geniş yer tutacaq.

Ona görə biz heç vaxt sakitləşməməliyik və mən, xatırlayırsınızsa, İkinci Qarabağ müharibəsindən sonra demişdim və bunu da etdik, daha güclü ordu yaratmalıyıq. Biz son 3 il ərzində böyük yol keçmişik. İndi bunların hamısını demək yəqin ki, düzgün olmaz, amma mətbuatda olan məlumat kifayətdir. Yeni silahlı birləşmələr antiterror əməliyyatında çox önəmli rol oynadılar, yeni texnika, yeni sursat-

lar, ən müasir avadanlıqlar. Mən artıq bunu demişəm, bu il müdafiə sənayesi kompleksinin nəzdində olan zavodlarımıza həm dövlət, həm özəl sektor tərəfindən ən azı 1 milyard manat investisiya qoyulacaq. Yəni biz özümüzü daha böyük həcmdə lazım olan vasitələrlə təmin edəcəyik. Yəni biz heç vaxt sakitləşə bilmərik. Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir ki, o nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olarsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin: biz görsək ki, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq «Bastion» maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik.

Ona görə cəmiyyətdə sakitləşmə olmamalıdır. Demirəm, hər an biz fikirləşməliyik ki, yeni müharibə olacaq. Yox, mən əminəm ki, olmayacaq və əlimdən gələni edəcəyəm ki, olmasın. Yetər, müharibələr kifayətdir. Ancaq yeni konseptual inkişaf strategiyamız, milli ideologiyamızın yeni istiqamətləri və əldə edilmiş uğurlarla sakitləşmək sanki müəyyən durğunluğa gətirib çıxara bilər. Bu, ayrı bir böyük söhbətin mövzusudur. Bəlkə nə vaxtsa ayrıca bu məsələ ilə bağlı da biz danışarıq. Amma hər halda, sualınıza cavab verərək deməliyəm ki, bəli, yeni dövr başlayır və əminəm, bu dövr də ölkəmiz üçün uğurlu olacaq.

**Mirşahin Ağayev: Möcüzələrin adiləşdiyi dövrdə yaşayırıq, cənab Prezident, biz oturmuşuq bura-**

**da, qalib xalqın qalib liderinə suallar veririk, cavablar alırıq və hörmətli tamaşaçılar baxır bizə. Mən inanmaq istəyirəm ki, bu tamaşaçılar arasında heç vaxt ağlımıza gətirmədiyimiz, amma reallığa çevrilmiş Arkadi Qukasyan da var, Bako Saakyan da var, Araik Arutunyan da var, Ruben Vardanyan da var və bu adamlar Azərbaycan xalqının Qələbəsinin real göstəriciləridir – məğlubiyyət formatında göstəriciləridir. Mən eyni zamanda, sülh müqaviləsi ətrafında danışmaq istəyirəm. Ona görə ki, sülh müqaviləsi üzərində iş yəqin ki, bütün bu proseslərin sonunu gətirməli olan işdir. Amma başqa bir tərəfdən də fikirləşirsən ki, Ermənistanın ipinin üstünə odun yığmaq olarmı və nəzərə alsaq ki, bu ip onların əlində deyil və çoxdan deyil.**

**İlham Əliyev:** Bilirsiniz, bizim tarixi Qələbəmiz o qədər parlaq idi və cəmi bir neçə saat ərzində davam edən əməliyyat nəticəsində suverenliyimiz bütün ərazidə bərpa olunanda bunu bəziləri qavraya da bilmədilər. O qədər tez bir zamanda başladı və sona çatdı ki, bu parlaq Qələbə fonunda dediyiniz o personajların da tutulması bir qədər kölgədə qaldı. Halbuki bu özlüyündə böyük bir tarixi hadisədir. Bizə qarşı qanlı müharibə aparan, vandallıq törədən, Xocalı soyqırımını törədən, torpaqlarımızı, şəhərlərimizi, kəndlərimizi yerlə yeksan edən canilər bu gün həbs olunub, saxlanılıb və ədalət qarşısında cavab verəcəklər. Onların arasında Qarabağda olmuş bütün keçmiş «liderlər», Qarabağa ixrac edilmiş «baş nazir» və digərləri var. O qruplaşmada təkcə 2 nəfər çatışmır, onlar İrəvandadırlar, onlar da

olsa, tam heyət formalaşır. Bu doğrudan da ədalətin zəfəridir və mən deyəndə ki, ədalətə inanmaq lazımdır və ədaləti təmin etmək üçün mübarizə aparmaq lazımdır, məhz bunu nəzərdə tuturdum. Onların heç ağlına gələ bilməzdi ki, bu gün onlar Bakıda çay içmək istəyini belə reallaşdıracaqlar, istintaq təcridxanasında oturacaqlar və ədalət məhkəməsinin qərarını gözləyəcəklər.

Sülh müqaviləsinə gəldikdə isə mən bir daha qeyd etməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda bir vakuum yaradılmışdı və heç kim bilmirdi ki, bundan sonra nə olacaq. Çünki doğrudan da çox unikal bir situasiyadır və o zaman məhz Azərbaycan tərəfi bu boşluğu doldurmaq üçün təklif etdi ki, yəqin sülh müqaviləsi olmalıdır. Hər halda, danışıqlar başlanmalıdır, hətta o vaxt hələ fəaliyyətdə olan Minsk qrupunun nümayəndələri də gələndə məndən soruşmuşdular ki, biz indi nə ilə məşğul olaq? Yəni Sizin məsləhətiniz nədir? Mən dedim ki, indi Qarabağ məsələsi artıq bağlandı. Əgər nə iləsə məşğul olmaq istəyirsinizsə, bir xeyir gətirmək istəyirsinizsə, siz Ermənistan–Azərbaycan normallaşma prosesində iştirak edə bilərsiniz. Amma onlardan hər hansı bir təklif gəlmədi. Onda biz bu təklifi irəli sürdük. Amma irəli sürəndən sonra da heç bir cavab gəlmədi. Sonra biz məlum 5 prinsipi rəsmiləşdirdik və bu prinsiplər əsasında faktiki olaraq, danışıqlar başlanmışdır. Düzdür, o vaxt Ermənistan və bəzi başqa ölkələr bu prinsiplərə Qarabağla bağlı mövzunu da əlavə etmək istəmişdilər. Halbuki biz ilk gündən bunun əleyhinə idik. Çünki mən deyirdim ki, Qarabağ bizim daxili

işimizdir, əgər sülh müqaviləsi imzalanarsa, bu, dövlətlər arasında müqavilə olacaq. Onu da bildirdim ki, bu çox yığcam bir sənəd olmalıdır. Yəni 5–10 cildlik yox, maksimum 5–10 səhifəlik əsas prinsiplərdir. Onu da burada, necə deyərlər, velosiped icad etmək lazım deyil, sadəcə olaraq, beynəlxalq hüququn prinsipləri oraya salınmalıdır.

Ancaq bir müddət danışıqların aparılması o qədər də böyük ümidlər doğurmurdu. Çünki Ermənistan və onun arxasında dayanan bəzi ölkələr mütləq Qarabağla bağlı mövzunu oraya salmaq istəyirdilər, xüsusilə status məsələsini. Bir müddətdən sonra artıq hesab edirəm ki, real vəziyyət, bizim addımlarımız və mövqemiz, o cümlədən statusun göndərdiyim o ünvanın göstərilməsi müəyyən dərəcədə onların mövqeyində dəyişikliyə səbəb oldu və artıq status yox, «Qarabağda yaşayan ermənilərin hüquqları və təhlükəsizlik məsələləri də oraya salınmalı idi» iddiası ilə həm Ermənistan, həm də onun havadarları buna çalışırdılar. Biz isə deyirdik ki, əgər belə olsa, onda vaxtilə Ermənistandan qovulmuş azərbaycanlıların da hüquqları və təhlükəsizliyi eyni ifadələrlə orada təsbit edilməlidir. Hər şey qarşılıqlı olmalıdır və burada onların arqumentasiyası da – yəni «Ermənistan plyus» adlandıraq bu qruplaşmanı – çox məntiqsiz idi ki, onlar 30 il bundan əvvəl qovulmuşlar, amma bunlar buradadır. Yəni ki, onlar bərabər hüquqa malik deyillər. Halbuki bu, faktiki olaraq, rasist bir yanaşma idi. Yəni bizim mövqemiz dəyişməz olaraq qalırdı, ya bu məsələ sülh müqaviləsində əks olunmur, ya da ki, hər iki nümayəndənin hüquqları və təhlükəsizliyi əks olunacaq.

Danışıqların belə səmərəsiz keçməsinin də əsas səbəbi bu idi.

Sentyabr hadisələrindən sonra isə biz yeni bir vəziyyətlə üzləşdik. Ermənistana verilən vədlər – xüsusilə də həm BMT-də, həm Avropa İttifaqında Azərbaycana qarşı sanksiyalar tətbiq ediləcək, Azərbaycan böyük təzyiq altına düşəcək, dırnaqarası bu əməliyyat Azərbaycana baha başa gələcək – bütün bu kommunikasiyalar Ermənistanda əminlik yaratdı ki, onlar sülh müqaviləsini istədikləri kimi tərtib edə bilərlər və bizə də kimsə təzyiq edib bizi də razı sala bilər. Məhz buna görə 70 gün ərzində bizim təklifimizə – çünki burada təkliflər mübadiləsi 5-6 dəfə gedib, mətnlər göndərilir şərhlərlə – cavab verilmirdi. Biz artıq rəsmi qaydada bildirəndə ki, 70 gün, yəni o vaxt deyəsən 60 gün gözləyirik, ondan sonra təklif verdilər və hazırda onların təklifində, yəni onların şərhlərində Qarabağla, Qarabağ erməniləri ilə bağlı bir kəlmə belə, yoxdur. Yəni bu mövzu artıq çıxarılıb və faktiki olaraq, sülh müqaviləsinin imzalanması üçün real şərait məhz indi yaradılıb – məhz sentyabr əməliyyatından sonra yaradılıb. Onu da bildirməliyəm ki, biz onlardan fərqli olaraq, öz şərhlərimizi 70 gündən sonra yox, 30 gündən sonra göndərdik və ondan 2 həftə sonra onlar bu ayın 4-də yeni şərhlər göndərdilər. Yəni yenə də sual yaranır: əgər bu şərhləri iki həftə ərzində vermək olarsa, sən keçən dəfə 70 gün nəyi gözləmisən? Yəni mənim fərziyyəm tam sübuta yetirilir.

Yəni bu belə pərdəarxası hadisələrin bir qədər izahatı idi. Məncə, sizə və ictimaiyyətə maraqlı olar.

Amma əsas məsələ odur ki, hesab edirəm, sülh müqaviləsinin imzalanması üçün əsas şərtlər indi yaradılmışdır. Ona görə mətn üzrə işlər fəal getməlidir. Bir məsələ də var. Yəqin siz də bunu bilirsiniz, Ermənistan istəyir ki, bu sülh müqaviləsinin zəmanətçiləri olsun. Biz hesab edirik ki, buna heç bir ehtiyac yoxdur. Bu, iki suveren dövlət arasında imzalanacaq sülh müqaviləsidir. Biz orada heç bir zəmanətçilərə ehtiyac duymuruq və əgər bu, ikitərəfli formatda imzalanacaqsa, imzalanmalıdır. Əgər kimsə kömək etmək istəyirsə, biz buna da etiraz etmirik. Ancaq bu kömək elə olmalıdır ki, məcburi olmasın. Çünki bəziləri indi yarışa çıxıblar ki, danışıqlar bu ölkədə keçirilsin, o ölkədə keçirilsin, ya üçüncü ölkədə keçirilsin. Bu, bir qədər geosiyasi rəqabətə bənzəyən bir şeydir. Mən bunu istəməzdim. Mən, ümumiyyətlə, istəməzdim ki, Ermənistan–Azərbaycan münasibətləri geosiyasi mövzuya çevrilsin. Bu bizim iki ölkə arasındakı məsələmizdir, özümüz də bunu həll etməliyik. Əgər razılığa gəlsək, sülh müqaviləsi imzalanacaq. Əgər razılığa gəlməsək, deməli, ya danışıqlar davam etdiriləcək, ya danışıqlar dayandırılacaq. Hər iki variant da mümkündür.

**– Dörd il bundan qabaq yanvarın 21-də Davos İqtisadi Forumunda Sizə bir moderator sual vermişdi: cənab Prezident, Avrasiyada xeyli qüvvələr birləşib, Rusiya və Çin xatırlanmışdı və belə bir sual verilmişdi ki, Azərbaycan Prezidenti olaraq, Siz ilk növbədə kimə zəng edərdiniz? Mən o sualın da, cavabın da verildiyi an orada idim və bu gün həmin sualı təkrarlamaq istəyirəm. Niyə? Ona görə ki, o sual veriləndə**

**Azərbaycan hələ 20 faiz əskik idi, ərazi bütövlüyümüz bərpa olunmamışdı. Bu gün dövlət müstəqilliyini, suverenliyini bərpa etmiş bir liderə bu sualı vermək istəyirəm. Azərbaycan Respublikasının Prezidenti kimi, Siz kimə zəng edərdiniz?**

**İ l h a m Ə l i y e v:** Prinsipcə, deyə bilərəm ki, mən, ümumiyyətlə, çox nadir hallarda hansısa dövlət başçısını telefon zəngi ilə narahat edirəm. Çünki hesab edirəm ki, mənim həmkarlarımın hamısı çox məşğul insanlardır və elə bir ciddi mövzu yoxdur ki, bu mövzu ilə bağlı nəsə təcili demək lazımdır. Adətən, hər hansı bir mövzu olanda Xarici İşlər Nazirliyi vasitəsilə bu mesajlar göndərilir, ya da ki, köməkçim vasitəsilə. Mən dövlət başçılarının bəzilərini ancaq onların doğum günlərində telefonla zəng edib təbrik edirəm. Əlbəttə, İkinci Qarabağ müharibəsi zamanı ən çox telefonla danışdığım insanlar Türkiyə Prezidenti və Rusiya Prezidenti idi. Bu da təbiidir, Türkiyə Prezidenti müharibənin ilk günündən son gününə qədər bizim yanımızda idi və Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bir çoxlarına mesaj idi. Bu sadəcə olaraq, Azərbaycan xalqına həmrəylik və dəstək mesajı deyildi. Bu, müharibəyə qarışmaq istəyənlərə bir ciddi mesaj idi ki, kənarda durun. Ona görə Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır. Biz daim zəngləşirdik, söhbətləşirdik, mənim qardaşım Rəcəb Tayyib Ərdoğan maraqlanırdı müharibənin gedişatı ilə bağlı və məni Şuşa qələbəsi münasibətilə ilk təbrik edən də o olmuşdur. Prezident Putinlə də dəfələrlə söhbətim olmuşdur. Çünki bilirsiniz ki, Rusiya bir ne-

çə dəfə müharibəni dayandırmaq üçün səylər göstərmişdi və mən də şərtləri qoymuşdum. Mən hələ oktyabrın ilk ongünlüyündə aramızda olan telefon söhbəti zamanı demişdim ki, biz dayanmağa hazırıq, amma şərtlərimiz var. Onlar bizim torpağımızdan çıxmalıdırlar və mənə tarix verməlidirlər, təqvim verməlidirlər ki, nə vaxt çıxacaqlar. Mən artıq bunu Azərbaycan ictimaiyyətinə də dedim, yəqin ki, yadınızdadır. Mənim televiziya çıxışlarım da yəqin yadınızdadır, Ermənistan bizə vaxt versin, tarix versin və biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Noyabrın 10-da bizə tarix verildi və biz müharibəni dayandırdıq. Ona görə təmaslar daha çox bunun ətrafında idi və əlbəttə ki, noyabrın 9-da, dediyim kimi, səhərdən noyabrın 10-da erkən saatlara qədər bu razılaşma, mətn razılaşması prosesi getmişdir. Bu gün prinsip etibarilə mən kimi doğum günü münasibətilə təbrik edirəm, bu, mətbuatda var. Məni də kim təbrik edir, onların sayı çox deyil, 4-5 Prezidentdir, mən də 4-5 Prezidentə zəng edib telefonla təbrik edirəm. Amma yəqin bu gün əgər hansısa ciddi bir məsələ ölkəmiz qarşısında dursa, ilk növbədə, qardaşım Rəcəb Tayyib Ərdoğana zəng edərəm, onu məlumatlandıraram.

**F i k r ə t D o l u x a n o v: Cənab Prezident, bir qədər öncə gələcək inkişaf, yeni dövr və yeni missiya barədə söhbət açıldı. Bu yerdə Böyük Qayıdış Proqramına toxunmaq istərdim. Siz çıxışlarınızın birində belə bir ifadə işlətmişdiniz ki, Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir. Biz görürük ki, orada sürətli bərpa və yenidən qurulma işləri aparılır. 2024-cü il**

**baxımından gözləntiləriniz nədir və yerli sahibkarların, xarici investorların bu işlərə daha da fəal cəlb olunması üçün hansı institusional addımların atılması nəzərdə tutulubdur?**

**İ l h a m Ə l i y e v:** Bu günə qədər görülən işlər göz qabağındadır. Bu haqda çox danışmaq istəməzdim. Sadəcə olaraq, bütün böyük infrastruktur layihələri ilə yanaşı, hesab edirəm ki, əsas nailiyyətimiz odur ki, 5 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıtmışlar. Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin o yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılması davam edəcək. Bu ilin İnvestisiya Proqramı yaxın günlərdə mənim tərəfimdən təsdiq olunacaq, bir neçə dəfə artıq müzakirədən keçib. Həm Qarabağa, Şərqi Zəngəzura, həm də ölkəmizin digər yerlərinə aid İnvestisiya Proqramı bərpa üçün bizim əsas alətimizdir.

Bu il Qarabağda, Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam etdiriləcək. Bunlar nəhəng layihələrdir. Bildiyiniz kimi, su anbarları, yollar, körpülər, dəmir yolları, məktəblər, xəstəxanalar, artıq başlamışdır onların inşaatı, bəziləri artıq istifadəyə verilmişdir. İçməli su xətləri, elektrik enerjisi ilə bağlı layihələr, suvarma ilə bağlı qeyd etdiyim su anbarları, məsələn Sərsəng su anbarı – bu gün anbarda ancaq 50 faiz su var. Çünki işğal dövründə ermənilər ancaq onu istismar ediblər, amma oraya bir qəpik də vəsait qoyulmamışdı. Xaçınçay su anbarı tamamilə məhv edilmişdi, indi bu yaxınlarda açıldı. Yaxın gələcəkdə Füzulidəki Kondələnçay su anbarının açılışını edəcəyik. Suqovu-

şanı biz yenidən qurduq, indi kanallar çəkilir. Ondan sonra Zabuxçay su anbarının inşası bu il tamamlanacaq, o da böyük ərazini suvarma suyu ilə təmin edəcək. Yəni keçmiş köçkünlər qayıdanda artıq orada əkin-biçin üçün şərait olmalıdır. Onu da bildirməliyəm ki, qayıdan keçmiş köçkünlərin məşğulluğu ilə bağlı bizim qurumlarımız ciddi məşğuldur və həm gedənə qədər onlar üçün treninqlər keçirilir, həm də yerlərdə yeni istehsalat sahələri, sənaye müəssisələri yaradılır və yaradılacaqdır. Ağdamda və Cəbrayılda 2 böyük sənaye zonası artıq fəaliyyətə başlayıb və bu il o zonaların fəaliyyəti böyük dərəcədə genişlənəcəkdır.

Bütün bu infrastruktur layihələri imkan verir ki, biz bu il daha böyük sayda keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytaraq və onların bu il qaytarılacaqları şəhərlər arasında 5 şəhər – Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi və Xocalı şəhəri olacaq. Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur. Bununla paralel olaraq bir çox kəndlərdə – hansılarda ki, mən təməl qoymuşam – inşaat davam edəcək, bir neçə kəndə keçmiş köçkünlər qayıdacaqlar. Məsələn, Laçın rayonunun Sus kəndi hazır olacaq. Ondan sonra Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına artıq start veririk. Kəndlər tamamilə dağılmış vəziyyətdədir. Mən Qarabağa son səfərim zamanı oraya baş çəkdim. Tamamilə dağılmış vəziyyətdədir, Malıbəyli məscidi dağılmış, vandallar ondan peyin anbarı kimi istifadə etmişlər. Yəni sada-

ladığım ən azı bu şəhər və kəndlərə keçmiş köçkünlər qayıdacaqlar. 2026-cı ilin sonuna qədər isə bu, artıq bəyan edilib, hədəfimiz 140 min keçmiş köçkünü öz dədə-baba torpaqlarına qaytarmaqdır. Əminəm ki, biz buna da nail olacağıq. Onu da bir daha bildirməliyəm ki, bütün bunları biz öz daxili imkanlarımız hesabına edirik. Heç bir donor təşkilatı, heç bir digər tərəf bizə kömək etmir. Ancaq Özbəkistan və Qazaxıstan Füzulidə iki məktəbin tikintisi ilə bağlı bizə qardaş dəstəyi göstəribdir, bütün qalan layihələr daxili imkanlar hesabına reallaşdırılır.

Özəl sektoru da siz qeyd etdiniz, mən çox şadam və bir daha özəl sektora müraciət edərək onlara çağırış etmək istəyirəm ki, Qarabağa və Şərqi Zəngəzura daha fəal investisiya qoysunlar. Artıq Hadrut qəsəbəsində, Daşaltı kəndində və Ağdam şəhərində bir neçə layihə özəl sektor tərəfindən icra edilir.

Dövlət öz üzərinə düşən vəzifəni icra edəcək, biz keçmiş məcburi köçkünləri qaytaracağıq. Amma eyni zamanda, hesab edirəm ki, Qarabağda və Şərqi Zəngəzurda ancaq o bölgədən çıxmış insanlar yaşamamalıdır. Azərbaycanın istənilən yerindən insanlar orada yaşamaq üçün imkanlara malik olmalıdırlar. Təbii ki, məsələn, Bakıdan, ya Sumqayıtdan oraya gedib yaşamaq istəyən getsin, ev alsın özünə, mənzil alsın, torpaq alsın, ev tiksin və orada yaşasın. Yəni onun üçün dövlət, təbii ki, heç bir ev tikən deyil.

Onu da mən bizim bütün aidiyyəti qurumlarımıza bildirmişəm ki, biz orada yaşamaq istəyənlər üçün

evlər tikirik, orada bir bağ evi əldə etmək istəyən üçün yox. Ora bağ evi deyil, ora yaşamaq yeridir. Kim orada yaşamaq istəyirsə, dövlət onun üçün pulsuz ev də tikir, hər şey də təşkil edir. Əgər kimsə oraya, sadəcə olaraq, gözəl təbiəti və təmiz havanı nəzərə alaraq köçmək istəyirsə, özəl sektor onlar üçün orada, məsələn, Ağdam şəhərində indi özəl sektor bir yaşayış kompleksi inşa edir, çoxmərtəbəli ev, kim istəyir gedib ondan ev alar, orada da yaşayar. Daşaltıda da, Hadrutda da bu gün bu layihələr icra edilir.

Ona görə özəl sektora da mənim tövsiyəm budur ki, bundan istifadə etsin. Çünki vaxt gələcək, dediyim o Qarabağı və Zəngəzuru cənnətə çevirəcəyik, bu, reallığa çevriləcəkdir. Mənim heç bir şübhəm yoxdur, çünki şəhərlərin bütün baş planları təsdiqlənib. Şəhərlərin bütün baş planları dünyanın, daha doğrusu, Avropanın ən qabaqcıl şirkətləri tərəfindən hazırlanıb, o cümlədən Şuşa şəhərinin. Şuşa elə bir şəhərə çevriləcək ki, bunun dünyada bənzəri olmayacaq, memarlıq və təbiət bir vəhdət təşkil edəcək.

Ona görə bizim özəl sektorumuz Bakıda, Sumqayıtda hər tində ev tikməkdənsə, getsinlər orada evlər tiksinlər və görərlər ki, bu, iqtisadi cəhətdən də səmərəli olar və eyni zamanda, biznesin sosial məsuliyyəti nöqteyi-nəzərindən də önəmli olar. Çünki bu gün biznes dairələri üçün Azərbaycanda çox gözəl şərait yaradılır və dövlət tərəfindən dəstək göstərilir. Ona görə biznesin sosial məsuliyyəti, hesab edirəm ki, bu olmalıdır. Getsinlər, müəssisələr qursunlar, evlər tiksinlər, zavodlar, fabriklər inşa etsinlər, dövlət

isə öz üzərinə düşən bütün işləri görəcək – infrastruktur, xəstəxanalar, məktəblər, su anbarları, qazlaşdırılma, içməli su, elektrik enerjisi, evlər, yollar, körpülər. Ancaq Murovdağın altındakı tunelin uzunluğu təxminən 12 kilometrdir. İndi təsəvvür edin, bir tunel 12 kilometrdir, amma belə tunellərin sayı – düzdür, o ölçüdə yox – onlarladır. Yəni 2024-cü ildə bu işlərə çox güclü təkan veriləcək və bütün qarşıda duran vəzifələr təmin ediləcək.

**Çinarə Nurməmmədova: Cənab Prezident, bu gün biz Böyük Qayıdışdan, bərpa işlərindən danışırıq, amma qarşımızda duran digər vəzifələr də var: sərhədlərin delimitasiyası və demarkasiyası. Ermənistanın baş naziri Nikol Paşinyan sərhədlərin delimitasiya və demarkasiyasının 1975-ci il xəritələrinə əsasən aparılmasını vacib sayır və bəzi ölkələr də bu iddia ilə çıxış edir. Niyə bu gün Ermənistan məhz 1975-ci il xəritələrinə istinad edilməsini istəyir? Azərbaycan üçün hansı xəritələr daha əsasdır və xüsusilə də istərdim Naxçıvanın Kərki və Qazaxın 7 kəndi ilə bağlı məsələyə də münasibətinizi öyrənək ki, delimitasiya və demarkasiya çərçivəsində bu məsələ necə tənzimlənəcək?**

**İlham Əliyev:** Bu gün işğal altında qalan 8 kəndin məsələsi daim gündəlikdədir. Bu məsələ həm mənim Ermənistanın baş naziri ilə təmaslarım əsnasında müzakirə edilir, o cümlədən Sankt-Peterburqda ayaqüstü son söhbət zamanı mən bu məsələni qaldırmışdım və eyni zamanda, delimitasiya ilə bağlı komissiyaların gündəliyində də bu məsələ dayanır. Onu da bildirməliyəm ki, komissiyaların növbəti

görüşü bu ay nəzərdə tutulur və orada bir mövzu olacaq: Qazax–Tovuz bölgəsinin delimitasiya məsələsi.

Nə üçün 1975-ci ilin, yaxud da ki, indi bəzi təkliflərdə ötən əsrin 70-ci, 90-cı illərinin xəritələri götürülür, cavab çox sadədir və mən bu gün bu barədə açıq danışmaq istəyirəm. Sirr deyil ki, XX əsrdə Azərbaycan torpaqları hissə-hissə Ermənistana verilmişdir. 1918-ci ildə Azərbaycan Demokratik Respublikası yaranandan bir gün sonra, əfsuslar olsun ki, İrəvan şəhəri Ermənistana verildi. Halbuki bunun heç bir əsası yox idi. Bu, qədim Azərbaycan şəhəridir. Azərbaycan xalqı əsrlərboyu orada yaşayıb və İrəvanın tarixi, yəni bu gün silinməkdə olan tarixi görkəmi Azərbaycan memarlıq abidəsinin mövcudluğunu, çoxəsrlik mövcudluğunu təsdiqləyir. İrəvan o şəhərlərdəndir ki, sanki orada köhnə şəhər yoxdur, sadəcə olaraq, Azərbaycan şəhəri olub, o da sökülüb, dağılıb. O qərara gəldikdə isə hesab edirəm və yəqin ki, hamı mənimlə razılaşar, o, böyük bir tarixi cinayət idi, səhv yox, cinayət. Birincisi, İrəvanda o vaxt yaşayan azərbaycanlılardan soruşulmadı. İkincisi, nə qaçaqaç idi? Hara tələsirdilər? Yəni 28 mayda respublika elan olunur, 29 mayda İrəvan Ermənistana verilir. Onun da izahatı heç bir məntiqə sığmır ki, bunu verməklə Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkir. Əl çəkdimi? Yox, daha da azğınlaşdı. İrəvandan olan nümayəndələrin – o vaxt Azərbaycan Xalq Cümhuriyyətində təmsil olunmuş nümayəndələrin etirazı nəzərə alınmadı. Yəni o, böyük tarixi cinayət idi və o, bir başlanğıc idi. 1920-ci ilin aprelində sovetləşmədən sonra noyabr ayında

artıq sovet hökuməti Qərbi Zəngəzurun böyük hissəsini Azərbaycandan qoparıb Ermənistana vermişdir. Bu da tarixi faktdır, xəritələr var, XX əsrin əvvəllərinin xəritələri var. Azərbaycan Xalq Cümhuriyyətinin xəritəsi var və orada Zəngəzur – şərqi, qərbi yoxdur – bütün Zəngəzur Azərbaycan ərazisidir və bu, sovet dövründə baş verib. Belə torpaq hədiyyələri illər keçdikcə davam edirdi. Sonuncu torpaq hədiyyəsi 1969-cu ilin may ayında edilmişdir. O vaxta qədər hissə-hissə bizim torpaqlarımız Ermənistana verilirdi və təxminən 100 min kvadratkilometrdən – mən Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini nəzərdə tuturam – 86,6 min kvadratkilometrə düşdü. Heydər Əliyev 1969-cu ilin iyul ayında rəhbər seçiləndən sonra artıq bu torpaq hədiyyələri, bu proses dayandı. O vaxta qədər hissə-hissə verilirdi.

Onlar məhz buna görə ötən əsrin 70-ci illərinin xəritələrini əsas götürmək istəyirdilər. Mən sual verəndə ki, yaxşı, niyə 1970-ci illər? Deyin, mənə izah edin, bunun hansı metodoloji əsasları var, siyasi əsasları var? Yoxdur. Əgər biz siyasi əsaslara istinad etsək, onda istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrünü, ya da sovetləşmə dövrünü götürməliyik. O olar siyasi metodologiya. Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəllərində xəritələr nə idi, gəlin bu xəritələr üzərində işimizi quraq. Yəni siz keçən əsrin 60-cı, 50-ci, 40-cı illərini kənara qoyursunuz və məhz 70-ci illərinə istinad etmək istəyirsiniz. Məhz ona görə ki,

bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, ötən əsrin 70-ci illərinin xəritəsini əsas götürmək istəyən təkcə Ermənistan deyil, eləcə də «Ermənistan plyus» qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik.

Bizim mövqemiz çox ədalətli və məntiqlidir. Ya siyasi metodologiya əsas götürülməlidir, ya xronologiya götürülməlidir, ya da biz bütövlükdə heç bir xəritə əsasında işimizi qurmamalıyıq. Komissiya yaradılıb. Komissiyanın işini fəallaşdırmaq üçün ekspert qrupları yaradılmalıdır. Getsinlər qarış-qarış o yerləri gəzib o sərhədi müəyyən etsinlər. Çünki bu gün bizim sərhədimiz şərti xarakter daşıyır.

O ki qaldı işğal altında olan kəndlərə, hesab edirəm ki, bizim təklifimiz də çox məntiqlidir. Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin 4 kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır. O kəndlər ki, anklav kəndlərdir – çünki Ermənistanın bir anklav kəndi Azərbaycan ərazisindədir – həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir. Yəni bizim mövqemiz bundan ibarətdir. Ermənistanın mövqeyi nədən ibarətdir, biz bunu başa düşə bilmirik. Sadəcə olaraq, bildirmək istəyirəm ki, onlar nə deyirlər. Deyirlər ki, tərəflər güzgü şəklində geri çəkilsin. Amma hara çəkilsin? Bu məsələ ilə bağlı sualı hələ 2021-ci ilin may

ayında mənə bəzi həmkarlarım vermişdi. Yadınızdadır, o vaxt sərhəddə müəyyən dəqiqləşmə aparılmışdı və bir telefon zəngi əsnasında dedilər ki, xahiş edirik, siz qayıdasınız. Deyirəm, haraya qayıdaq? Deyirlər ki, haradan gəlmisiniz oraya. Deyirəm, biz Bakıdan gəlmişik, Bakıya qayıdaq? Biz 30 il orada olmamışıq. Əgər o sərhəd sərhəd idisə, onda Ermənistan onu sərhəd kimi tanıyaydı, sərhəd nişanlarını qoyaydı. O axı bu sərhədi tanımırdı. O, hesab edirdi ki, onun sərhədi Ağdamdadır. Ona görə biz oraya Bakıdan gəlmişik, biz orada olmamışıq. İndi hara qayıdaq? Deyin hara qayıdaq, biz də qayıdaq. Bax, mənim o sualıma cavab olmadı.

Ona görə də biz heç yerə qayıdan deyilik. Nə 2021-ci ilin may ayındakı mövqelərdən, nə də 2022-ci ilin sentyabr ayındakı mövqelərdən biz bir addım da geri gedən deyilik, çünki o sərhəd müəyyən edilməlidir. Ancaq indi Ermənistan tərəfindən mübahisə edilən yerləşməyimiz heç bir yaşayış məntəqəsini əhatə etmir. Bizim durduğumuz mövqelərdə, təpələrdə heç vaxt yaşayış olmayıb. Ermənistan isə bu gün bizim kəndlərimizi işğal etməkdə davam edir və bu dözülməzdir. Yenə də qeyd etmək istəyirəm və hesab edirəm ki, komissiyaların bu ayın sonunda görüşü əsnasında bu məsələyə aydınlıq gətiriləcək.

**Çinarə Nurməmmədova: Cənab Prezident, bu, sülh müqaviləsinin predmeti olacaqmı? Çünki bir sıra rəsmilər tərəfindən açıqlama verilib ki, delimitasiya və demarkasiya məsələsi sülh müqaviləsinin predmeti olmayacaq.**

**İ l h a m Ə l i y e v:** Bəli. Prinsipcə, sülh müqaviləsində delimitasiya və demarkasiya ilə bağlı hər hansı bənd ola bilər. Ancaq biz delimitasiyanı gözləyib sülh müqaviləsini təxirə salsaq, onda sülh müqaviləsi heç 30 ildən sonra da imzalanmaya bilər. Məsələn, biz dəfələrlə demişik ki, bizim dost və qonşu Gürcüstanla delimitasiya hələ də başa çatmayıb. Sərhədin cəmi 70 faizi müəyyən olunub və təsdiqlənib. Rusiya ilə bizim delimitasiya prosesimiz 20 il davam etdi, 2012-ci ildə imzalandı və bu günə qədər 12 il keçib, bütün o dirəklər, nişanlar hələ də qoyulmayıb, demarkasiya hələ ki, tam aparılmayıb. Ona görə əgər biz bu iki mövzunu qarışdırsaq, onda sülh müqaviləsi uzanacaq, bəlkə də 30, 50 il bundan sonraya. Biz hesab edirik ki, sülh müqaviləsi imzalanmalıdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Yəni demək istəmirik ki, bizim şərtlər əsasında. Ancaq hesab edirəm ki, bizim şərtlərimiz ən ədalətli şərtlərdir. Delimitasiya prosesi isə davam etməlidir. Kəndlər bizə qaytarılmalıdır. Anklavlarla bağlı komissiyanın işi nəticəsində də razılığa gəlmək olar. Yəni hesab edirəm ki, bu, tam məntiqli yanaşmadır.

**G ü n e l K ə r b ə l i y e v a: Cənab Prezident, Azərbaycanın bərpa olunan enerji potensialı ildən-ilə artır. Xəzər regionu Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilir. Hətta 2030-cu ilə qədər bu potensialın 30 faiz artırılması planlaşdırılır. Eyni zamanda, ölkəmiz COP29 kimi böyük bir tədbirə ev sahibliyi edəcək. Qarşıda duran hədəflər, əsas istiqamətlər nələr olacaq?**

**İ l h a m  Ə l i y e v:** Bəli, bu məsələyə indi çox ciddi önəm veririk və hesab edirik ki, biz burada da istədiyimizə nail olacağıq. Məqsəd də odur ki, biz bu gün dünyada, xüsusilə dünyanın enerji məkanında gedən proseslərdən geridə qalmayaq. Çünki indi hamımız yaxşı bilirik ki, bir çox aparıcı keçmiş neft şirkəti hətta öz adlarını da dəyişdirib enerji şirkətlərinə çevirirlər və getdikcə «yaşıl enerji»yə tələbat artacaq. Neft-qaz sahəsində fəaliyyət göstərən şirkətlərin investisiya portfelində əgər «yaşıl enerji» layihələri olmasa, onlar böyük çətinliklərlə üzləşəcəklər. Orada müxtəlif məhdudlaşdırıcı addımlar da istisna deyil.

Ona görə biz bu ümumi trendin içində olmalıyıq. Xüsusilə nəzərə alsaq ki, bizim misilsiz potensialımız var. Dəfələrlə bu barədə rəqəmlər deyilib və təkcə biz tərəfdən yox, Beynəlxalq Maliyyə Korporasiyası – o da Dünya Bankının bir qoludur – Xəzərdəki bizim potensialımızı 157 min meqavat həcmində təsdiqləyib. Ona görə indi enerji sahəsində bu istiqamət prioritetdir. Artıq keçən ilin oktyabr ayında birinci böyük Günəş elektrik stansiyası istismara verildi və qrafik üzrə biz yaxın 3-4 ilə bərpa olunan enerji növlərinin həcmini təqribən 3-4 min meqavat səviyyəsinə çatdıracağıq. Müqayisə üçün deyə bilərəm ki, ümumi elektrik stansiyalarımızın potensialı hazırda təqribən 7-8 min meqavatdır və 1200 meqavatlıq yeni stansiya da inşa edilir, yaxın zamanlarda istifadəyə veriləcək. Hazırda bizim elektrik stansiyalarımızda il ərzində təqribən 5 milyard kubmetr təbii qaz elektrik enerjisinin istehsalına sərf edilir. İndi bərpa olunan enerji

növləri bizə, o cümlədən imkan verəcək ki, həmin o 5 milyard kubmetr qazı yox, bəlkə 1-2 milyard kubmetr qazı elektrik enerjisinin istehsalına xərcləyək, qalan qazı isə ixrac edək. Onsuz da Avropada bizim qazımıza tələbat gündən-günə artır və biz bunu ancaq bərpa olunan enerji hesabına edə bilərik.

İndi imzalanmış kontraktlar və anlaşma memorandumları 10 min meqavat istehsalı nəzərdə tutur. Bizim imzaladığımız kontraktlar və memorandumlar dünyanın aparıcı «yaşıl enerji» şirkətləri ilədir. Ona görə fərz etmək olar ki, onların hamısı icra ediləcək və bu bizim bütün daxili tələbatımızı ödəyəcək. Təbii ki, bunun iqlim dəyişikliyi məsələlərinə də müsbət töhfəsi olacaq və bu bizə imkan verəcək ki, təbii qazı daha böyük həcmdə ixrac edək. Əgər 10 min meqavatın yarısı həll olunsa, bu bizə kifayət edəcək. Ancaq hesab edirəm ki, bu 10 min meqavatla bizim işimiz kifayətlənməyəcək, çünki potensial həddən artıq böyükdür. Həm quruda, həm dənizdə yerlər təsdiq edildi və növbəti böyük Günəş və külək stansiyalarının gələn il istifadəyə verilməsi nəzərdə tutulur. Bax, əsas məsələ bundan ibarətdir və hesab edirəm ki, bunun potensialı həm iş yerlərinin yaradılmasına, həm yeni texnologiyaların Azərbaycana gətirilməsinə, həm də bölgələrin inkişafına böyük təsiri olacaqdır. Çünki Xəzər dənizindən kənarda bizim bütün qalan potensial stansiyalarımız bölgələrdə yerləşir, o cümlədən Qarabağ bölgəsində.

**Fikrət Doluxanov: Cənab Prezident, dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya–Bolqa-**

**rıstan qaz interkonnektorunun açılışı mərasimi baş tutdu və mərasimdə «Azərbaycan Avropanın etibarlı enerji tərəfdaşıdır» fikri bir daha səsləndirildi. Sizin bu layihələrin həyata keçirilməsində xüsusi rolunuz bir daha vurğulandı. Bu gün Azərbaycanın Avropa üçün rolunu və gələcəyini necə qiymətləndirirsiniz?**

**İ l h a m  Ə l i y e v:** Bu, vacib mərasim idi və mənim orada iştirakım Azərbaycanın artan rolunun təzahürüdür. Çünki burada Azərbaycan qazından söhbət gedir və Serbiya Azərbaycan qazını alan sayca səkkizinci ölkədir. Bu vaxta qədər Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan artıq qaz sistemimizə qoşulmuşlar, müxtəlif interkonnektorlar da yaradılmışdır və bütün bu interkonnektorların təkanverici qüvvəsi «Cənub Qaz Dəhlizi» olmuşdur. Çünki biz vaxtilə bu təşəbbüslə çıxış etməsəydik və nəinki təşəbbüslə, əgər bunu həyata keçirməsəydik, təbii ki, bu gün hər hansı bir interkonnektordan söhbət gedə bilməzdi. Bütün interkonnektorlar, o cümlədən Yunanıstan–Bolqarıstan və Bolqarıstan–Serbiya, Rumıniya və Macarıstan «Cənub Qaz Dəhlizi»nin bir budağıdır. Yəni bu gün 8 ölkə Azərbaycan qazını alır, onlardan 6-sı Avropa ölkəsidir. Gələcəkdə bu ölkələrin sayı artacaq. Çünki biz bir neçə Avropa ölkəsi ilə indi danışıqlar aparırıq və deyə bilərəm ki, danışıqlar önəmli mərhələdədir.

Tələbat var və artacaq, resurslarımız var, «Şahdəniz» qaz yatağı dünyanın ən böyük qaz-kondensat yatağıdır. Keçən il başlanmışdır, amma bu il 1,5 milyard kubmetr qaz «Abşeron» qaz yatağından çıxarı-

lacaqdır. Bu, əlavə resursumuzdur. Ondan sonra ümid edirəm ki, hər halda, qarşıya belə vəzifə qoyulub, bu ilin sonuna – dekabr ayına qədər «Azəri–Çıraq–Günəşli» yatağında «Dərin qaz» adlandırılan layihə çərçivəsində də ilk qaz əldə olunacaq. Orada da potensial çox böyükdür.

Bizim digər layihələrimiz və «Abşeron» qaz yatağının ikinci fazası – bu barədə də qərar qəbul edilməlidir, yəni investisiya qərarı. Bu qərar qəbul olunarsa, əminəm ki, olunacaq, «Abşeron»da illik hasilatın həcmi 5 milyard kubmetr təşkil edəcək, bu çox əhəmiyyətli rəqəmdir. «Şəfəq», «Asiman», «Ümid», «Babək», «Naxçıvan», «Qarabağ» – bütün bu yataqlarda bu gün hazırlığa doğru işlər gedir və onların da resurs bazası kifayət qədər böyükdür. Mən vaxtilə deyəndə ki, 100 il bundan sonra da Azərbaycan tərəfdaşlar üçün önəmli tərəfdaş olacaq, bunu nəzərdə tuturdum və bu gün bu reallaşır. Onu da bildirməliyəm ki, «Cənub Qaz Dəhlizi» indi tam gücü ilə işləyir və əgər bu dəhlizlə biz əlavə qaz həcmini göndərmək istəsək, onda o gərək genişləndirilsin. Oraya əlavə vəsait qoyulmalıdır. Amma bu, nasos stansiyaları vasitəsilə genişləndirilə bilər və tələbat da vardır. Prinsip etibarilə Azərbaycanda gələcəkdə yeni qaz infrastrukturunun yaradılması məsələsinə də baxıla bilər, biz bunu da nəzərdən keçiririk.

Avropa Azərbaycanın bu sahədəki fəaliyyətini nəinki dəstəkləyir, hətta bir çox hallarda bizə müraciətlər də olmuşdur və bu müraciətlərə biz müsbət cavab vermişdik. Avropa Komissiyası qeyd etdiyiniz kimi, Azərbaycanı etibarlı tərəfdaş adlandırıb. Av-

ropa İttifaqının Enerji Komissiyası isə Azərbaycanı Panavropa qaz təchizatçısı adlandırmışdır və onlar tam haqlıdırlar. Bizim Avropa məkanına göndərdiyimiz qazın həcmi çox da olmasa, təqribən 12 milyard kubmetrə yaxındır. Halbuki bu bizim ixracımızın yarısıdır. Amma ölkələrin əhatəsi məhz o ifadəni tamamilə haqlı edir – Panavropa təchizatçısı.

Bu bizim böyük nailiyyətimizdir. Bu bizə böyük dividendlər gətirir, həm iqtisadi, həm də təbii ki, siyasi. Çünki sirr deyil ki, qaz amili enerji təhlükəsizliyi nöqteyi-nəzərindən ön plandadır. Bizim üstünlüyümüz məhz ondadır ki, biz böyük yatırım qoyaraq müasir qazpaylayıcı şəbəkə yaratmışıq. Resurs bazamız kifayət qədər böyükdür və artacaq. Avropada tələbat da mütləq artacaq. Çünki onlar nə qədər «yaşıl enerji»yə keçid etmək istəsələr, yenə də təbii qaza ehtiyacları olacaq.

«Yaşıl enerji»yə gəldikdə, yenə də burada Azərbaycan öz rolunu oynayacaq. Çünki «yaşıl enerji» dəhlizi, o cümlədən Qara dənizin altı ilə çəkiləcək kabel də Azərbaycan resurslarına hesablanıb. Qazla, neftlə bağlı bütün məsələlər həll olunub. «Yaşıl enerji»ni ixrac etməklə bizim önəmimiz daha da artacaq. Avropa Komissiyasında bunu yaxşı başa düşürlər və martın əvvəlində Bakıda «Cənub Qaz Dəhlizi»nin növbəti Məşvərət Şurası keçiriləcək. Bu Məşvərət Şurasına Azərbaycanla Avropa Komissiyası həmsədrlik edir.

Ancaq bu məsələ ilə bağlı bir məqama diqqət yetirmək istərdim. Əfsuslar olsun ki, Avropada bəzi siyasətçilər ya bunu anlamırlar, ya onlarda kifayət

qədər informasiya yoxdur və sentyabr hadisələrindən sonra hətta bəziləri bəyan edirdilər ki, Azərbaycanla Avropanın qaz əməkdaşlığı dayandırılmalıdır. Belə açıqlamalar bizim əməkdaşlığımızı gücləndirmir. Düzdür, bu açıqlama Avropa Parlamentinin sədri tərəfindən verilmişdi. Avropa Komissiyası heç vaxt belə açıqlamalar verməyib və təbii ki, verməyəcək. Amma Avropa Parlamentinin sədri kiçik vəzifə deyil və əgər bu şəxs bunu deyirsə, deməli, burada düşünməyə mövzu var. Amma onu bəri başdan bildirməliyəm ki, əgər hər hansı bir səbəbə görə bu mövqe üstünlük təşkil etsə, onda bizimlə uzunmüddətli kontraktlar imzalamış şirkətlər yüz milyonlarla, bəlkə də milyardlarla avro dəyərində cərimələr ödəməli olacaqlar. Ona görə belə cəfəng açıqlamalar verən məsul şəxslər daha diqqətli olmalıdırlar.

Azərbaycan qaz ixracından neft ixracı ilə müqayisədə qat-qat az gəlir əldə edir. Prinsip etibarilə əgər fərz etsək ki, bu gün bizim qaz ixracımız yoxdur, adi vətəndaş bunu heç vaxt hiss etməyəcək. Əgər bizim qazımızın Avropaya nəqli hansısa səbəbə görə kəsilsə, onda bir çox ölkələr daha çətin vəziyyətə düşəcək və bunu Avropada hər kəs başa düşməlidir, o cümlədən məsuliyyətsiz bəyanatlar verən Avropa Parlamentinin sədri də bunu bilməlidir.

**Lidiya Molodtsova: Cənab Prezident, məlum olduğu kimi, «Qoşulmama Hərəkatı»na üzv ölkələrin yekdil qərarı ilə Azərbaycan 2019-cu ildən bu beynəlxalq təşkilatda 3 il müddətinə sədrliyə başladı. Mənim əvvəlki sualıma cavabınızda Sizin qeyd etdiyiniz kimi, respublikaya etimadın örnəyi olan Bakı**

**Təşəbbüs Qrupunun yaradılması üzrə irəli sürülmüş təşəbbüslər və uğurlu fəaliyyət sayəsində Azərbaycanın Hərəkatda sədrliyi daha bir il müddətinə uzadıldı. Bu nüfuzlu təşkilata sədrlik Azərbaycana nə verdi və həmin illər ərzində Hərəkat hansı uğurlara imza atdı?**

**İ l h a m Ə l i y e v:** Bu sədrlik bizə BMT-dən sonra ən iri təşkilata rəhbərlik etmək kimi əvəzolunmaz təcrübə verdi və doğru yolda olduğumuza dair daha böyük əminlik yaratdı. Çünki Hərəkatın yaranmasının təməl prinsiplərini – daha dəqiq desək, dövlətlərin suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini həmişə tam dəstəkləmişik və dəstəkləyirik, həmçinin Hərəkatın qurucularının 60 ildən də çox müddət əvvəl rəhbər tutduqları ideyaları bölüşürük. Məhz böyük geosiyasi mərkəzlərdən uzaq durmaq və heç kimin dediyi ilə oturub-durmamaq. Yəni bu, mahiyyət etibarilə müstəqillik uğrunda, müstəqil siyasət uğrunda Hərəkat olub. Hesab edirəm ki, Hərəkat daha qlobal oyunçular adlanan güclərin əleyhinə deyil, öz seçimi, öz ləyaqəti, ölkələrin xalqlarının istədikləri kimi yaşamaq istəyir. Biz bu prinsipləri həmişə bölüşmüşük və indi də bölüşürük.

Fikrimcə, hazırda beynəlxalq analitiklər Azərbaycanı daha yaxşı tanıyırlar, bizim rəhbər tutduğumuz prinsiplərə bələddirlər. Gözəl başa düşürlər ki, siyasət uzaqlaşma deyil, dostluq zəminində aparılmalıdır, necə deyərlər, Azərbaycanda deyildiyi kimi, «səninki səndə, mənimki məndə». Bu, əməkdaşlıq üçün ən yaxşı yoldur. İnteqrasiya prosesləri könüllülük əsasında həyata keçirilməlidir. Heç bir inteqrasiya əsas

inteqrantın üstünlüyünə gətirib çıxarmamalıdır. İndi Avropa İttifaqı məkanında bəzi Avropa ölkələrinin, onların öz ölkəsində böyük dəstəyə malik olan rəhbərlərinin necə «ağ qarğaya» çevrildiyini görürük, çünki onların mövqeyi ümumi istiqamətdən fərqlənir. Bəs onda demokratiya prinsipləri harada qaldı, bu strukturun guya əsaslandığı bərabərlik prinsiplərinə nə oldu? Əgər təşkilatın hər hansı üzvü hansısa məsələyə dair fərqli fikirdədirsə, ona qarşı ayrı-seçkilik, sanksiyalar tətbiq etmək, tamamilə qanunsuz olaraq maliyyə vəsaitindən məhrum etmək lazım deyil. Bütün bunlar dünyanın gözü qarşısında baş verir, artıq maskalar da çıxarılıb.

Bu səbəbdən biz könüllü inteqrasiya planını dəstəkləyirik, amma bu, məntiqli olmalı, ölkələrin maraqlarına cavab verməlidir. Ona görə də «Qoşulmama Hərəkatı» məhz qərarların qəbul edilməsində müstəqil olan alternativ struktur kimi yaradılıb, belə ki, həmin ölkələrin əksəriyyəti də müstəmləkəçiliyin nə demək olduğunu bilir. Amma zaman keçdikcə bu struktur bir az deqradasiyaya uğrayıb və hətta beynəlxalq arenada onu çox az adam xatırlayırdı. Biz bu təşkilata rəhbərlik etməyə başlayanda, təbii ki, formal rəhbər ola bilməzdik. Nəyin naminə oraya gəlmişdik? Sadəcə, vaxt keçirmək üçün deyil. Biz öz siyasətimizi aparmaq üçün gəlmişdik. Əlbəttə, Azərbaycanın yekdilliklə seçilməsi və yekdil qərarla sədrlik müddətinin uzadılması bu siyasəti inamla aparmağa imkan verdi, çünki biz 120 ölkədən 119-nun mandatına malik idik. Təbii ki, əsas diqqəti ərazi bütövlüyü, suverenlik məsələsinə yönəltdik. Bu mövzu bizim üçün çox vacib

idi, amma təkcə onunla kifayətlənmədik. Bütün milli nümayəndə heyətləri ilə apardığımız mütəmadi iş nəticəsində yeni platforma yarada bildik. Əlbəttə, başa düşürdük ki, funksional dinamika da lazımdır. Həmçinin bilirdik ki, təşkilata üzv ölkələrin bəziləri arasında barışmaz ziddiyyətlər mövcuddur və bu, Hərəkata təşkilat qismində transformasiya etməyə imkan vermirdi. Ona görə də platformaları yaradacaq strukturların təsis olunması yolu ilə getməyə qərar verdik. Bütün bunları dərhal etmək mümkün deyildi. Belə ki, biz Hərəkatın cəmi 10 il üzvü olduqdan sonra onun sədri seçildik. Bu səbəbdən bir neçə təşəbbüs irəli sürdük və onlar dəstəkləndi. Parlament, gənclər, qadın platformaları da belə yarandı. Bütün bunlar Hərəkata yeni nəfəs verdi. Biz bir neçə sammit və nazirlər səviyyəsində tədbirlər keçirdik, xüsusən COVID-lə üst-üstə düşdüyü zaman bu tədbirlər bizim vaksin milliyyətçiliyi ilə mübarizə sahəsində aktiv fəaliyyətimizə və Hərəkata yeni impuls verdi. Deməliyəm ki, bunlar sadəcə, siyasi bəyanatlar deyildi, həm də əməli baxımdan Ümumdünya Səhiyyə Təşkilatı vaksinasiya aparılması üçün bizim məlumat bazamızdan istifadə edirdi.

Biz özünün əsl simasını göstərən ölkələrə qarşı fəal və çox aşkar çıxış edirdik. Məsələn, bu ölkələrdən biri uzun müddət dünyada mənəvi liderliyə iddia edirdi, hərçənd bunun üçün heç bir əsası yox idi. Mən Kanadanı nəzərdə tuturam. Amma onun «mənəvi liderliyi» özünü onda göstərdi ki, bu ölkə lazım olduğundan 5 dəfə artıq vaksin aldı. Sonra onların istifadə müddəti qurtardı və hamısını tulladılar. Bu vaksinlərə

ehtiyacı olan bir çox ölkələr sadəcə, özünün minlərlə, on minlərlə vətəndaşını itirirdi. Həmin vaxt məsələ onda deyildi ki, bu ölkələrin pulu yoxdur, sadəcə, vaksinlərə əlçatanlıq olmayıb. Elə biz də əlçatanlıqla bağlı problemlə üzləşdik. Həmin vaxt mən Çin Xalq Respublikasının Sədrinə məktubla müraciət etdim. Yeri gəlmişkən, Mirşahinin sualından kimə zəng vurduğumu xatırladım. Cənab Si Cinpinə müraciət edərək, Azərbaycana vaksin kvotası ayrılmasını xahiş etdim və çox minnətdaram ki, Sədr Si Cinpin olduqca operativ şəkildə cavab verdi və bizə 500 min vaksin ayrıldı, sonra əlavə 500 min, yəni 1 milyon doza. Beləliklə, biz Çindən bu köməyi aldığımıza görə, bir çox ölkələrdən əvvəl, yanvarın 20-dən etibarən vaksinasiyaya başladıq. Bizim satın almaq üçün pulumuz var idi, amma imkanlarımız yox idi. Kanadanın ehtiyacından 5 dəfə çox vaksin satın aldığı bir vaxtda bu təbiidir. Həmin vaksinlər necə yayılırdı? Axı Çin istisna olmaqla, vaksin istehsalçıları əsasən Qərb ölkələri idi. Nə olsun ki? Onlar bunu necə yayır-dılar, biz bütün bunları xatırlayırıq: ancaq özlərinə, sonra isə qalanını tullayırdılar. Yerdə qalanlar ölsə də, ölməsə də, xəstələnsə də – onların vecinə deyildi. Bütün bunlar bizi demokratiyaya, bərabərliyə, ədalətə, insan haqlarına öyrətməyə çalışanların əsl simasını bir daha aşkara çıxarır. Mən bunu yalançılıq, ikiüzlülük və riyakarlıq kimi xarakterizə edərdim. Biz maliyyə yardımı göstərirdik və sonra aldığımız vaksinlərin bir hissəsini ehtiyacı olan ölkələrə – 80-dən çox dövlətə verdik. Yəni Azərbaycanın miqyasını götürsək, əhali və adambaşına düşən ümumi potensiala

görə, yəqin ki, biz hamıdan çox yardım etdik. Bunu tamamilə düzgün hesab edirdik, çünki hər zaman yardım əlini uzatmaq lazımdır. Düşünürəm ki, bizim xarici siyasətimizi uğurlu edən amillərdən biri müraciət edildikdə və imkanımız olduqda həmişə yardım etməkdir. Hesab edirəm ki, həyatda da belədir, imkanın varsa kömək etmək lazımdır, yoxdursa bunu başa düşmək olar. Bu gün, sədrliyimizin başa çatdığı bu ayda onu Uqandaya təhvil veririk. Biz artıq tamamilə başqa struktur təhvil veririk və hələ Uqanda ilə üçlükdə yer alacağıq. Uqandadan sonra Özbəkistan rəhbərlik edəcək. Beləliklə, biz neokolonializm ilə mübarizədə daxil olmaqla, fəaliyyətimizi davam etdirəcəyik. Əlbəttə, dediyim və sizin də qeyd etdiyiniz kimi, Bakı Təşəbbüs Qrupu artıq həyata vəsiqə alıb, onu heç kim heç vaxt yerindən tərpədə bilməz. Hərəkatda aparıcı rola malik olmağımızdan asılı olmayaraq, Bakı Təşəbbüs Qrupu bizim fəaliyyətimizin nəticəsidir. Müstəmləkə ölkələr azadlıq əldə etmədikcə, biz bu məsələdə onlara kömək edəcəyik.

**R ö v ş ə n M ə m m ə d o v: Cənab Prezident, beynəlxalq əlaqələrdən söz düşmüşkən, bir qədər öncə dediyiniz fikirdən çıxış edərək, sonuncu sualımı ünvanlamaq istərdim. Bildirdiniz ki, Qarabağ probleminin həlli qlobal arenada layları tərpətdi və təbii ki, biz həm düşmənlərimizi gördük, onların maskaları yırtıldı, həm də dostlarımızı daha yaxından tanıdıq. Məhz bu baxımdan Azərbaycanın beynəlxalq diplomatiyada atdığı önəmli addımlardan biri də dostlarının sayını artırmaq, əməkdaşlıq coğrafiyasını genişləndirməkdir. Həmçinin Azərbaycanın nümayiş etdirdiyi modellərdən biri də qlobal**

**tədbirləri ölkəmizdə keçirməkdir. Artıq nəinki Bakı, işğaldan azad olunmuş ərazilər belə, qlobal tədbirlərə ev sahibliyi edir və elə son 3 ildə biz onlarla belə tədbirin adını çəkə bilərik. 2023-cü il 2 mühüm hadisə ilə yadımızda qaldı. Bu həm COP29-un, həm də Urban Forumunun Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsidir. Bax, bu toplantılardan, bu qlobal platformalardan Azərbaycan həm əməkdaşlıq coğrafiyasının artırılması, həm də ədalətli mövqeyini bir daha bütün dünyaya çatdırmaq baxımından necə istifadə edəcək?**

**İ l h a m Ə l i y e v:** Bəli, bunlar çox önəmli hadisələrdir, bir daha Azərbaycanın beynəlxalq nüfuzunu və bizim uğurlu siyasətimizi göstərir. Çünki COP29-la bağlı hadisələrin gedişatını indi hər kəs bilir və yenə də tam səmimiyyətlə deyə bilərəm ki, bizim çox dəqiq və düşünülmüş diplomatik addımlarımız nəticəsində bu mötəbər tədbiri Azərbaycanda keçirmək üçün imkan əldə etdik. Bilirsiniz ki, COP30-un ev sahibi bəlli olsa da – Braziliya, COP29-un ev sahibi son günlərə qədər bəlli deyildi. Xüsusilə son həftələr ərzində, hətta COP konfransı Dubayda başlayandan sonra da hələ aktiv diplomatik təmaslar davam edirdi və biz burada da istədiyimizə nail olduq. Halbuki burada da yenə də bizim «ənənəvi dostlarımız» hər iki tədbirdə bizə əngəl törətməyə çalışırdılar, COP29-da, necə deyərlər, daha gizli formada. Çünki bölgədə sülhə doğru bir addım nəzərdə tutulurdu və bu addıma qarşı getmək heç kimə şərəf gətirməzdi. Ona görə pərdəarxası fəaliyyət daha çox özünü göstərirdi. Dünya Urban Forumu ilə bağlı isə açıq şəkil-

də bizə qarşı kampaniya gedirdi. Səsvermə ərəfəsində bir çox ölkələrə təzyiqlər göstərilirdi ki, amanın günüdür, Azərbaycana səs verməyin. Ancaq orada da iflasla üzləşdilər və bu iki tədbirin keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunu artıracaqdır.

Bir də ki, əgər bu günə qədər keçirilmiş COP tədbirlərini nəzərə alsaq, hətta Urban Forumu, adətən, inkişaf etmiş ölkələrdə, böyük ölkələrdə belə tədbirlər keçirilir. Çünki qonaqların sayına görə bu, ən böyük tədbirdir. Məsələn, Dubayda təqribən 70–75 min xarici qonaq var idi və bütün başqa amillərlə yanaşı, bu qədər qonağı qarşılamaq, şərait yaratmaq, bütün təşkilati məsələləri həll etmək böyük potensialdan xəbər verir. Yəni bu, ölkəmizin imkanlarının növbəti nümayişidir. Eyni zamanda, «yaşıl» gündəliyə bizim münasibətimizdir və biz artıq bu şərəfə layiq görüləndən dərhal sonra bizə qarşı yenə də media kampaniyası başlamışdır. Ənənəvi aktorlar – «Washington Post», «New York Times» – yadınızdadır, Prezident Tramp onları çox haqlı olaraq feyk-nyus adlandırmışdı – «Fiqaro» və başqaları heç bir əsası olmadan dərhal bizə qarşı çirkin kampaniyaya başlamışlar. Hətta mənim tərəfimdən COP29-a təyin etdiyim bizim Ekologiya nazirini də atəşə tutmuşlar. O, yəqin ki, belə hallarla ilk dəfə rastlaşır. İrad tutdular ki, o, uzun illər neft şirkətində işləyib. Bu nə deməkdir? Mən də 9 il neft şirkətində işləmişəm, sonra? Bu adam neft şirkətində ekologiya üzrə vitse-prezident vəzifəsində işləyib. Ondan sonra 6 ildir ki, Ekologiya naziri işləyir. Bütün bunlar kənara qoyulur, sanki bu elə deyil. Amma onun neft şirkətində çalışma bioqrafiyası var.

Hər halda, bunlar təbiidir, çünki bütün beynəlxalq tədbirlər keçiriləndə biz belə bir kampaniya ilə üzləşirik, istər Avropa oyunları olsun, istər «Eurovision», hətta Astronavtika Konqresi. Yəni necə deyərlər, artıq bu olmasa, biz təəccüblənərik. Əcəba, nə olub? Nəyi düzgün etməmişik ki, bizi indi tərifləyirlər Qərbdə. Yəni əgər onlar bizi tərifləyirlərsə, deməli, biz, necə deyərlər, xəta törətmişik.

Hər halda, bu iki tədbirin keçirilməsi doğrudan da böyük hadisədir və əminəm ki, hər iki tədbir uğurla keçiriləcək və gələn qonaqlar Azərbaycan reallıqları ilə tanış olacaqlar. Mahiyyət nöqteyi-nəzərindən, hesab edirəm ki, neft-qaz hasil edən və neft-qaz keçmişi olan ölkələrdə belə tədbirlərin keçirilməsi daha önəmlidir. Çünki bu bizə irad tutulur. Hətta Birləşmiş Ərəb Əmirliklərinə də, ondan əvvəl Misirə də belə bir irad tutulur ki, neft-qaz hasil edən ölkələrdə bu, üçüncü dəfə baş verir. Amma buna başqa nöqtədən yanaşmaq lazımdır. Bax, bu ölkələr – neftlə, qazla zəngin olan ölkələr bu prosesin içindədir. Onlar ümumi işimizə töhfə vermək istəyirlər. Azərbaycan da, bizdən daha çox Birləşmiş Ərəb Əmirlikləri də «yaşıl enerji» olmadan da rahat enerji təhlükəsizliyini nəinki təmin edir, bir çoxlarının enerji təhlükəsizliyini təmin edir. Amma bu, böyük bir məsuliyyət rəmzidir. Biz istəyirik öz vəsaitimizi bu sahəyə ayıraq ki, həm ölkələrimizdə, necə deyərlər, «yaşıl enerji» inkişaf etsin, həm də dünyaya töhfə verək. Burada, əlbəttə ki, indi mahiyyət üzrə də çox ciddi proseslər gedəcək. Azərbaycan COP29-un prezidenti kimi xüsusi rola malik olacaq. Proseslərin

gedişatı bizim mövqemizdən böyük dərəcədə asılı olacaq. Biz artıq bir neçə ölkədən əməkdaşlıq təklifi almışıq. Bizimlə bu hazırlıq dövründə əməkdaşlığın istiqamətləri müəyyən ediləcək və biz bütün ölkələrlə əməkdaşlığa hazırıq, bu bizim üçün də böyük bir təcrübə olacaq. Çünki bu, hesab edirəm ki, dünyanın bir nömrəli beynəlxalq tədbiri, beynəlxalq konfransıdır. Dünya ictimaiyyətinin diqqəti nöqteyinəzərindən də bu konfrans BMT Baş Assambleyasından da mötəbərdir. Çünki BMT Baş Assambleyasında, adətən, prezidentlər gəlir, çıxış edirlər. Çıxış etdikləri zaman zalda onların nümayəndə heyətlərindən başqa, adətən, heç kim olmur. Bundan sonra da çıxıb gedirlər. Amma burada real iş aparılacaq, müzakirələr, ola bilər müəyyən fikir toqquşmaları, yəni maraqlı bir proses olacaq və Azərbaycanın bu prosesə rəhbərlik etməsi, əlbəttə ki, qürurvericidir.

**M i r ş a h i n  A ğ a y e v: Cənab Prezident, Sizə bayaqdan diqqətlə qulaq asıram, belə baxanda Fransa güclü dövlətdir, nüvə dövlətidir. Biz onlara Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının sədri olduğu dövrdə nəinki uduzmadıq, hətta qalib gəldik. Belə baxanda, mübarizə apardığımız Qərb dövlətlərinin hamısı kifayət qədər qüdrətli dövlətlərdir. Amma zəifləyiblər və Azərbaycan onların heç birinin iradəsi qarşısında sınmır. Belə bir sual vermək istəyirəm. Nədədir Prezident İlham Əliyevin gücü və nədədir onların zəifliyi? Məsələn, niyə onların Azərbaycana gücləri çatmır, bir qadının heykəlindən acıq çıxırlar? Əməkdaşlarımız Fransada olublar, Natəvanın heykəlinə bükülmüş örtü-**

**yü qaldırıb, görüblər ki, onu boyayıblar. Nədir onları belə zəif edən və nədir Sizi belə güclü edən?**

**İ l h a m Ə l i y e v:** Mən hesab edirəm ki, gücümüzün əsas mənbəyi haqlı olmağımızdır. Çünki biz haqlıyıq və istənilən auditoriyada, istənilən tədbirdə öz haqlı olmağımızı sübut etmək üçün kifayət qədər əsaslarımız var. Qarabağ məsələsində biz tamamilə haqlıydıq və heç kim bizi bu haqdan məhrum edə bilməz. Müstəqillik ideyalarımızı rəhbər tutmağımızda da haqlı idik. Çünki biz müstəqil ölkəyik. Əgər biz müstəqil ölkəyiksə, nə üçün kiminsə sözü ilə oturub-durmalıyıq? Onda gəlin müstəqil ölkə olmayaq. Əgər kimsə hesab edir ki, bizi idarə edəcək, səhv edir, yenə haqsız odur. Belə cəhdlər olub. Son vaxtlar daha yoxdur. Çünki artıq gördülər. Amma olub. Biz heç bir ölkənin daxili işlərinə qarışmırıq, heç vaxt qarışmamışıq. Hətta Ermənistanın da daxili işlərinə heç vaxt qarışmırdıq. Hətta işğal dövründə belə, onların daxili proseslərinə heç vaxt qarışmırdıq. Halbuki bizim kifayət qədər imkanlarımız var idi. Bu gün də var, bu gün də qarışmırıq. Baxın, bizim daxili işlərimizə nə qədər qarışma cəhdləri olub. Nə qədər məkrli planlar qurulub bizə qarşı. Siz bunların hamısını yaxşı xatırlayırsınız. Hələ ötən əsrin 90-cı illərinin əvvəllərində bizə qarşı əsassız 907-ci düzəliş qəbul edilmişdi. Nəyə görə? Guya ki, biz Ermənistanı blokadada saxlayırıq. Axı bizim torpaqlarımız işğala məruz qalıb, biz necə blokadada saxlaya bilərik? O vaxt hələ Heydər Əliyev hakimiyyətə gəlməmişdi, o vaxt Qərbin təqdir etdiyi «demokratik hakimiyyət» Azərbaycanda var idi. Görün o vaxt anti-Azərbaycan hissləri nə qədər geniş vü-

sət almışdı və ondan sonra biz nə qədər belə əsassız ittihamlara məruz qalmışdıq. Tamamilə əsassız.

Yəni biz bu məsələdə də haqlı idik, öz müstəqilliyimizi qoruyurduq, necə deyərlər, öz hədəfimizə doğru gedirdik və indi keçmiş hadisələri yeni prizmadan təhlil edərkən görürəm ki, yəqin bizə qarşı olan bu ədalətsizliklərin təməlində Qarabağ məsələsinin həll olunmaması dayanmışdı. Çünki daim bizi təzyiq altında saxlamaq, daim Azərbaycanı diktatura, avtokratiya, demokratiyanı əzən bir ölkə kimi göstərmək lazım idi ki, bizim başımız buna qarışsın, biz gecə-gündüz özümüzü müdafiə edək, yaxud da gedək onların qabağında baş əyək, deyək ki, siz bizə sataşmayın. Amma biz nə etdik? Biz əksinə, bizə olan hücumlara qarşı öz mövqemizi ortaya qoyduq və onlar da gördülər ki, bizimlə keçmir və Qarabağı azad etməyimizi də ona görə bizə bağışlamırlar ki, onların əlindən bu rıçaq çıxdı. Azərbaycan, məcazi mənada desək, bu qarmaqdan çıxdı. Artıq bu amil yoxdur. İkinci Qarabağ müharibəsindən sonra status və Qarabağ ermənilərinin hüquqları mövzularını ortaya atmışdılar ki, yenə də burunlarını oraya soxa bilsinlər. Beynəlxalq missiyanın oraya göndərilməsini təkidlə tələb edirdilər ki, yenə də vəziyyəti qarışdırsınlar. O rıçaq da əllərindən çıxdı. Ona görə indi yeni bir mövzu axtaracaqlar. Sizin sualınıza bir qədər geniş cavab verirəm, Amma bunun əsas platforması budur. Biz hər zaman haqlı olmağımızda tam əmin idik və bir dənə də nahaq iş görmədik. İndi yenə də deyirəm, bizi ittiham edirlər ki, biz Ermənistana hücum etmək istəyirik. Mən bunu

artıq demişəm, bir daha deyirəm tam səmimiyyətlə, istəsəydik girərdik, lap axıra qədər gedərdik. Cermuk şəhəri – keçmiş əsl adı İstisu olan bizim şəhər gözümüzün qabağında idi. Kim idi bizi saxlayan? Bizim niyyətimiz yox idi. Bizim niyyətimiz sərhədimizi mühafizə etmək idi. Elə təpələr əlimizdə olmalı idi ki, biz ermənilərin planlarını gözümüzlə görək. Bu mövzu ilə bağlı bir qərbli qonağımla söhbət əsnasında mənə dedi ki, axı sizin peykiniz var, siz peykdən də görə bilərsiniz. Dedim, mənim peykim mənim gözlərimdir. Mən gözlərimlə görməliyəm. Bir dənə də nahaq iş görməmişik, bu əsasdır, əsas amildir. İkincisi də gücümüz cəmiyyətimizin, xalqımızın birliyidir və bu birlik olmasaydı, biz heç vaxt müharibəni uda bilməzdik. Birmənalı sizə deyirəm. Çünki bu Zəfəri şərtləndirən xalqın ruhu idi və əsgəri qabağa göndərən də xalqın ruhu idi, onun tərbiyəsi idi. Nə qədər silahın olsa, nə qədər ordun peşəkar təlimlərdə olsa, əgər ruh yoxdursa, sən heç bir təpəni də götürə bilməzsən. Ölümə gedirdilər, siz yaxşı bilirsiniz.

Bizə qarşı olanlar haqqında mən çox danışmışam, bəlkə də kifayətdir bu müsahibə üçün. Amma onlar bizi düzgün qiymətləndirə bilmədilər, yəqin ona görə də uduzdular. Əgər bizi düzgün qiymətləndirsəydilər, bizə qarşı çıxmazdılar, bizə qarşı çıxmaq hər birinə çox baha başa gələ bilər. Qeyd etdiyiniz bu hadisələr həm BMT-də, həm Avropa İttifaqında bunun əyani sübutudur.

**R ö v ş ə n  M ə m m ə d o v: Cənab Prezident, artıq 3 saata yaxındır ki, müsahibə davam edir və 20-dək istiqamət üzrə suallarımızı cavablandırdınız. Müsahi-**

**bəyə görə təşəkkür edirik və gələcək fəaliyyətinizdə, xüsusən də yeni missiya uğrunda fəaliyyətinizdə hər birimiz adından Sizə uğurlar arzu edirik, minnətdarıq.**

**İ l h a m Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Sizə də uğurlar, cansağlığı, yeni ildə yeni qələbələr arzulayıram.

## DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN YENİ HƏRBİ HOSPİTAL KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*15 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev yanvarın 15-də Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi. Sonra Bakının Fətəli xan Xoyski küçəsi, 99 ünvanında yerləşən hospital kompleksi barədə dövlət başçısına məlumat verildi.*

*Bildirildi ki, hərbi hospitalın köhnə binası XX əsrin 70-ci illərində inşa olunub. Yeni hərbi hospitalda ən son elmi-texniki nailiyyətlərə və müharibə təcrübəsinə əsaslanan tibbi müayinə və müalicə imkanları yaradılıb. Dünyanın qabaqcıl ölkələrində istehsal olunan tibbi avadanlıqlarla təchiz edilmiş hərbi hospitalın ürək-damar cərrahiyyəsi, invaziv kardiologiya, nevrologiya və digər tibbi fəaliyyət sahələri xəstələrə ən yüksək səviyyədə çoxfunksionallı xidmət göstərəcək.*

*Səkkiz mərtəbədən və köməkçi binalardan ibarət hərbi hospitalın inşası müasir texnologiyalar və qabaqcıl təcrübələr əsasında həyata keçirilib. Ümumi sahəsi 24760 kvadratmetr olan 240 çarpayılıq binada 903 otaq, 17 şöbə, 80 palata mövcuddur. Hərbi dövrdə çarpayı sayının 700-ə çatdırılması imkanları vardır. Burada yaradılmış Təcili Tibbi Yardım Mərkəzi durumu son dərəcə kritik olan xəstələrin 24 saat qəbulunu həyata keçirməyə imkan verəcək.*

*İl ərzində hərbi hospitalda 100–110 min ambulator, 17–20 min xəstə stasionar müalicə oluna bilər.*

*Hərbi hospitalın Cərrahiyyə şöbəsində quraşdırılmış avadanlıqlar istənilən növ ağır əməliyyatları aparmağa imkan verir. Tibb ocağında 11 əməliyyatxanadan ibarət xüsusi blok yerləşir. Hospitalda uçuş heyətinin və dalğıcların müayinəsi və müalicəsi üçün respublikada ən müasir hiperbarik oksigenasiya avadanlığı (barokamera) quraşdırılıb.*

*Binada gözləmə, konfrans, yataq, yemək otaqları yaradılıb, intensiv terapiya və tibbi heyət üçün bölmələr fəaliyyət göstərir. DSX-də qadın hərbi qulluqçuların sayı nəzərə alınaraq, hərbi hospitalda doğum mərkəzi də yaradılıb.*

*Hərbi hospitalın Laboratoriya şöbəsində ən yeni müayinə üsullarını özündə birləşdirən və tibbi tələblərə tam cavab verən dünyanın aparıcı şirkətlərinin laborator avadanlığı quraşdırılıb. Müalicə ocağı dövrün tələblərinə uyğun çağrı və nəzarət sistemləri ilə təmin olunub. Hərbi hospitalda klinik fəaliyyətin, yəni tibbi*

*tədris işinin təşkili və ixtisaslı hərbi həkimlərin hazırlanması şəraiti yaradılıb.*

*Hərbi hospitalın yerləşdiyi 3 hektar ərazidə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq sahələri salınıb.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## LƏNKƏRAN RAYONUNA SƏFƏR

*16 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəran rayonuna səfər etmişdir.*

*Dövlətimizin başçısı «Lenk Fruit» Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) Lənkəran rayonunun Separadi kəndində yeni salınmış sitrus bağında yaradılmış şəraitlə tanış oldu.*

*«Lenk Fruit» MMC-nin direktoru Namiq Cəbiyev Prezident İlham Əliyevə yeni sitrus bağı haqqında məlumat verdi. Bildirildi ki, bağın ümumi ərazisi 150 hektardır. Burada əsasən Türkiyədən gətirilmiş 141 min ədəd sitrus meyvələri, şaftalı və nektarin ağacı əkilib. Ümumi dəyəri 10,7 milyon manat olan layihə üçün Sahibkarlığın İnkişafı Fondu tərəfindən müəssisəyə 1 milyon manat güzəştli kredit və Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 148 min manat faizsiz kredit verilib.*

*Ən müasir aqrotexniki xidmətlərin göstərildiyi bağda damcı üsulu ilə müasir suvarma şəbəkəsindən istifadə edilir. Bundan başqa, sitrus bağında respublikada ilk dəfə olaraq qış aylarında şaxtanın temperaturunu normal dərəcəyə salan, dəyəri 2,2 milyon ABŞ dolları olan 15 ədəd xüsusi avadanlıq quraş-*

*dırılıb. Bir avadanlıq 9 hektar ərazini şaxtadan qoruyur. Növbəti illərdə daha 5 ədəd belə avadanlığın quraşdırılması nəzərdə tutulub.*

*Bildirildi ki, hazırda təsərrüfatda 110 hektar sahədə naringi və limon, 20 hektarda şaftalı, 5 hektar sahədə nektarin və 7 hektarda giləmeyvə bağı salınıb. Sitrus əkin sahələrinin məhsuldarlığı hər hektardan 35–40 ton təşkil edəcək ki, bu da yerli növlərlə müqayisədə 2-3 dəfə çoxdur.*

*Qeyd olundu ki, 2023–2024-cü təsərrüfat ilində 3 min ton məhsul yığılıb və hazırda yığım davam etdirilir. İstehsal olunan meyvələr ölkə bazarlarında satılmaqla yanaşı, Rusiyaya da ixrac edilir. Gələcəkdə təsərrüfatın daha da genişləndirilməsi, o cümlədən dağətəyi ərazilərdə terras əkin sxemləri ilə sitrus sahələrinin yaradılması üçün hazırlıq işləri aparılır.*

*Hazırda təsərrüfatda 140 nəfər işlə təmin olunub.*

## Lənkəran regional «ASAN xidmət» Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəran regional «ASAN xidmət» Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, Lənkəran regional «ASAN xidmət» Mərkəzi rayonun Qurumba kəndində inşa edilib.*

*Mərkəz üçün ayrılmış 2 hektar ərazidə üçmərtəbəli inzibati bina, fəvvarə, yerüstü avtomobil dayanacağı, istirahət və uşaq əyləncə meydançası, «ASAN kafe» yaradılıb.*

*Dövlətimizin başçısı Lənkəran regional «ASAN xidmət» Mərkəzini işə saldı.*

*Məlumat verildi ki, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarında qeydiyyatda olan ümumilikdə 500 minə yaxın vətəndaşa xidmət edəcək mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək. Burada 214 əməkdaş və 40 könüllü çalışacaq.*

*Mərkəz videomüşahidə kameraları, yanğınsöndürmə, mərkəzləşdirilmiş havalandırma sistemləri, «ASAN ödəniş» terminalları, elektron şikayət, elektron rəy sorğusu, Çağrı Mərkəzinə zəng köşkləri və müasir avadanlıqlarla təchiz edilib.*

*Regionda startapların inkişafını təmin etmək məqsədilə burada INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi də fəaliyyət göstərəcək.*

*Burada, həmçinin ASAN İnnovativ İnkişaf Mərkəzinin fəaliyyət göstərməsi nəzərdə tutulur. Əsas məqsəd qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət qurumlarında çalışan kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə müsbət töhfələr verməkdir.*

*Qeyd olundu ki, fevralın 7-də keçiriləcək Prezident seçkiləri ilə əlaqədar «ASAN xidmət» mərkəzlərində innovativ həll təmin edilib. Belə ki, mərkəzlərdə olan «ASAN növbə» terminallarına «Seçici statusunu yoxla» adlı funksional bölmə əlavə olunub. Vətəndaşlar şəxsiyyət vəsiqələrini qeyd edilən yerdə oxudaraq, ad-*

*larını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər. Həmçinin qeydiyyat üzrə seçki dairəsi və məntəqəsi, səs veriləcək seçki məntəqəsinin ünvanı haqqında məlumatları əldə etmək mümkündür. Bu yeni layihə Mərkəzi Seçki Komissiyası və «ASAN xidmət»in birgə layihəsi çərçivəsində reallaşdırılıb. Eyni zamanda, «Yaşıl dünya naminə həmrəylik ili» çərçivəsində «ASAN xidmət» tərəfindən həyata keçiriləcək tədbirlərlə bağlı da konseptual plan hazırlanıb. Plana əsasən, bir sıra forum, müsabiqə, hakaton və festivallar təşkil olunacaq.*

*Dövlət başçısına Lənkəran «ASAN xidmət» Mərkəzində tətbiq olunacaq innovativ yeniliklər – İntellektual məhsul ixracı, Etimad Fondu, Dövlət Xidmətlərinin Akselerasiya Mərkəzi, Universal operator, Süni intellekt əsaslı xidmətlər və smart qolbaq barədə məlumat verildi. İşğaldan azad olunmuş ərazilərdə «ASAN xidmət»lə əlaqədar bildirildi ki, mərkəzlərin qurulması üçün Dövlət Agentliyi tərəfindən 7 rayonda təhlillər aparılıb. Təhlillər nəticəsində proqnozlaşdırılan müraciət sayı və əlverişli coğrafi mövqeyə uyğun olaraq Ağdam, Laçın və Cəbrayıl rayonlarında «ASAN xidmət» mərkəzlərinin qurulmasının məqsədəuyğunluğu müəyyənləşdirilib. Eyni zamanda, hazırda Şuşa şəhərində də «ASAN xidmət»in binasının inşası davam etdirilir.*

*Hazırda ölkəmizdə 26 «ASAN xidmət» Mərkəzi fəaliyyət göstərir. Lənkəran «ASAN xidmət» Mərkəzi sayca 27-cidir.*

*«ASAN xidmət» mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən vətəndaşlara ümumilikdə 400-ə yaxın, «ASAN kommu-*

*nal» mərkəzlərində isə «Azərişıq» ASC, «Azərsu» ASC və «Azəriqaz» İB tərəfindən 55 xidmət göstərilir.*

*Bu il yanvarın 8-dək «ASAN xidmət» mərkəzlərinə 8 milyon 890 mindən çox vətəndaş tərəfindən 70 milyona yaxın müraciət daxil olub. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faiz təşkil edir.*

*Dövlət Agentliyi «ASAN xidmət» modelinin ixracı ilə bağlı 20-dən çox ölkə və beynəlxalq təşkilatla müqavilə imzalayıb.*

## Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Ədliyyə Nazirliyinin Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Ədliyyə naziri Fikrət Məmmədov dövlət başçısına yeni penitensiar müəssisə barədə məlumat verdi.*

*Bildirildi ki, ümumi saxlama limiti 1300 nəfərlik olan penitensiar kompleks iki zonadan ibarətdir. Burada istintaq təcridxanasında barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin, cəzaçəkmə müəssisəsində isə məhkumların məhkəmə hökmünə əsasən, müxtəlif rejimlərdə saxlanılması nəzərdə tutulur. Müəssisədə əsasən cənub zonası və bu bölgəyə yaxın olan ərazilərdə yaşayan şəxslər saxlanılacaq ki, bununla onlar öz ailələri ilə daha asan və rahat görüşə biləcəklər.*

*Kompleksdə kamera tipli 7 korpus inşa olunub və burada hər cür şərait yaradılıb. Məhkumların hüquqlarının etibarlı təmin olunması məqsədilə onların ailələri ilə uzunmüddətli görüş üçün zəruri məişət avadanlığı ilə təchiz edilmiş 19 studio mənzil tipli otaqlar, habelə qısamüddətli görüşlər üçün kabinələr istifadəyə verilib. Burada məhkumların asudə vaxtlarını səmərəli keçirmələri üçün kitabxana, televizor otağı, idman meydançası vardır. Müəssisədə istehsalat sahələri yaradılıb, bərbərxana, dərzi xidmətləri təşkil edilib.*

*Diqqətə çatdırıldı ki, saxlanılan şəxslərə yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi üçün kompleksin müasir avadanlıqlarla və geniş dərman çeşidləri ilə təchiz olunmuş Tibb-sanitar bölməsi fəaliyyət göstərir. Bölmədə kardioloq, stomatoloq, fizioterapevt, rentgen, ultrasəs müayinəsi, cərrahiyyə, manipulyasiya, ambulator və stasionar şəraitdə müayinə və müalicə otaqları, laboratoriya, intensiv terapiya çarpayıları olan kamera-palatalar mövcuddur.*

*Kompleksdə saxlanılan şəxslər üçün, həmçinin psixoloq və ibadət otaqları ayrılıb. Eyni zamanda, məhbusların keyfiyyətli qidalanmasını təmin etmək üçün müasir avadanlıqlarla təchiz edilmiş mətbəx, yeməkxana, habelə sənaye tipli qurğuları olan camaşırxana yaradılıb. Mühafizəni təmin edən əsgərlər üçün ərazidə kazarma, təlim otaqları, qarovul binası, kinoloji mərkəz, avtopark inşa olunub.*

*Bundan əlavə, məhbusların məhkəmə iclaslarında məsafədən – videokonfrans vasitəsilə iştirakı, habelə telefon danışıqları və videogörüş üçün lazımi avadanlıqla təchiz olunmuş xüsusi otaqlar qurulub, istintaq*

*hərəkətlərinin aparılması, vəkilləri ilə görüşləri üçün zəruri şərait yaradılıbdır.*

*Kompleksla tanışlıq zamanı dövlət başçısına müəssisədə quraşdırılmış ƏN TEZ (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) Xidmət platforması nümayiş etdirilib.*

*Ədliyyə Nazirliyinin innovativ məhsulu olan ƏN TEZ Xidməti əmək, maliyyə və digər resurslara qənaət etməklə istənilən yerdə virtual platforma əsasında vətəndaşlara nazirliyə videozəng vasitəsilə müraciət edərək, məsafədən müxtəlif ədliyyə xidmətlərindən (notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkəməyə müraciət və məhkəmə qərarlarının icrası və s.) eyni vaxtda yararlanmaq imkanı verir. Həmçinin əhaliyə xidmət sahəsində ölkədə ilk dəfə bu platformada tətbiq edilən «süni intellekt» insanın davranışını vizuallaşdıraraq, xidmət üçün müraciət etmiş şəxslə ünsiyyət qurur, istəyinə uyğun sənədlərin hazırlanmasını və təqdim olunmasını təmin edir.*

*Smart konsepsiyaya əsaslanan ƏN TEZ Xidmətində vətəndaşın şəxsiyyəti «Üztanıma» sistemi əsasında avtomatlaşdırılmış qaydada eyniləşdirilir, xidmət üzrə sənədlər isə ani vaxt rejimində icra edilərək yerindəcə çap olunur.*

*Bu yeni platforma Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST, habelə «ASAN xidmət» mərkəzlərində, Heydər Əliyev Beynəlxalq Hava Limanında artıq tətbiq edilir.*

*ƏN TEZ Xidmətin Lənkəran penitensiar kompleksində istifadəyə verilməsi məhkumlara, onlarla görüşə gələn vətəndaşlara, eləcə də müəssisənin əməkdaşları-*

*na ədliyyə xidmətlərindən yerində bəhrələnmək imkanı verəcək.*

*Kompleksin yerləşdiyi ərazidə əməkdaşlar üçün altımərtəbəli 30 mənzilli xidməti yaşayış binası inşa edilib.*

*Prezident İlham Əliyevə Bakının Umbakı qəsəbəsində yeni istifadəyə verilmiş penitensiar kompleks barədə də məlumat verildi. Bildirildi ki, beynəlxalq standartlara uyğun inşa olunmuş Umbakı penitensiar kompleksi də qarışıq rejimli olmaqla iki zonadan – istintaq təcridxanasından və cəzaçəkmə müəssisəsindən ibarətdir. Təcridxanada təqsirləndirilən şəxslər, müəssisədə isə ağır və digər cinayət törətməyə görə azadlıqdan məhrum edilmiş məhkumlar saxlanılırlar. Kompleksdə 19 müxtəlif rejimli kamera tipli korpus mövcuddur. Burada məhkumların hüquqlarının daha etibarlı təmin olunması, yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi, asudə vaxtın səmərəli təşkili üçün hər cür şərait yaradılıb.*

*Paytaxtda və bölgələrdə yeni penitensiar müəssisələrin tikilməsi ölkəmizdə aparılan köklü islahatların tərkib hissəsidir. Bu müəssisələrdə yaradılmış müasir şərait məhkumların hüquqlarının təminatına, onların öz ailələrinə yaxın ərazilərdə cəza çəkmələrinə və cəmiyyətə reinteqrasiyasına xidmət edir.*

**«Laran» Məhdud Məsuliyyətli Cəmiyyətin qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəranda «Laran» Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olmuşdur.*

*«Laran» Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru Nurlan Nurəliyev dövlət başçısına müəssisədə yaradılmış şərait və istehsal olunan məhsullar barədə məlumat verdi.*

*Bildirildi ki, ümumi dəyəri 5 milyon manat olan layihənin həyata keçirilməsinə dövlət dəstəyi olaraq Sahibkarlığın İnkişafı Fondu 1,2 milyon manat güzəştli kredit ayırıb. İllik istehsal gücü natura ifadəsində 2000–2500 ton (hazırda 1500–1800 ton istehsal edilir) olan müəssisədə 5 növdə və 56 çeşiddə, o cümlədən karamel, lokum, şokoladlı lokum, marmelad, şokoladlı marmelad istehsal edilir. Burada quraşdırılmış avadanlıq Braziliya, Türkiyə, Çin və Rusiya istehsalıdır. Müəssisədə istehsal edilən məhsullar daxili bazarla yanaşı, Rusiya, İsrail, Özbəkistan, Qazaxıstan, Türkmənistan, Moldova və İraqa da ixrac olunur.*

*Hazırda müəssisədə 120 nəfər çalışır. Ümumi sahəsi 4900 kvadratmetr olan müəssisənin ərazisində əsas bina, qazanxana, keçid məntəqəsi, yanğın əleyhinə su anbarı, transformator yarımstansiyası inşa edilib. Ərazidə geniş yaşıllıq sahəsi yaradılıb.*

## Lənkəran şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəran şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoydu.*

## NEFTÇALA RAYONUNA SƏFƏR

*16 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Neftçala rayonuna səfər etmişdir.*

*Dövlətimizin başçısı Neftçala şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

### İçməli su təchizatı sistemlərinin istismara verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Neftçala şəhərinin içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak etmişdir.*

*Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlət başçısına görülmüş işlər barədə məlumat verdi.*

*Bildirildi ki, Neftçala şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi dövlət büdcəsi hesabına həyata keçirilir. Layihə Neftçala rayonu üzrə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla, 89 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb.*

*Prezident İlham Əliyevin təsdiqlədiyi «Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı»na uyğun olaraq, qısa müddət ərzində Şirvan–Muğan qrup su kəmərindən Neftçala şəhərinə qədər diametri 560 millimetr, uzunluğu 40 kilometr olan birinci magistral su kəməri çəkilib və Salyan şəhəri yaxınlığında tutumu 7500 kubmetr olan su anbarı inşa edilib. 2020-ci ilin noyabr ayında Neftçala şəhərinə suyun verilməsi təmin olunub. 2023-cü ildə Neftçala rayonunun qəsəbə və kəndlərinin su təchizatına xidmət edəcək diametrləri 560–450 millimetr, uzunluğu 36 kilometr olan ikinci magistral su kəmərinin tikintisi işləri yekunlaşıb.*

*Bununla paralel olaraq, Neftçala şəhərində ümumi uzunluğu 150 kilometr içməli su təchizatı şəbəkəsi inşa edilib və 5060 sayğac quraşdırılaraq, şəhərin su təchizatı sisteminin yenidən qurulması işləri tam yekunlaşıb. Eyni zamanda, layihə çərçivəsində şəhərdə ümumi uzunluğu 145 kilometr tullantı su şəbəkəsi, 8,5 kilometr kanalizasiya kollektoru, 9 nasos stansiyası və məhsuldarlığı gündə 4 min kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası planlaşdırılır. Ötən dövr ərzində uzunluğu 9,6 kilometr kanalizasiya kollektoru və 1 nasos stansiyası inşa edilib.*

*Yeni yaradılmış infrastrukturun imkanları hesabına ötən müddətdə Neftçala şəhəri ilə yanaşı, rayonun içməli suyun qıtlığından əziyyət çəkən 39 yaşayış məntəqəsinin problemi həll edilib. Neftçala rayonunun qalan 11 yaşayış məntəqəsi və Salyan rayonunun 6 kəndi də daxil olmaqla, ümumilikdə 17 yaşayış mən-*

*təqəsinin su təminatının yaxşılaşdırılması məqsədilə 76 kilometr uzunluğunda kəmər, tutumu 7500 kubmetr olan su anbarı və 1 su nasos stansiyasının inşası layihələndirilib.*

*Qeyd olundu ki, indiyədək su xəttinin 64 kilometrlik hissəsi çəkilib, anbarların və nasos stansiyasının tikintisi davam etdirilir.*

*Prezident İlham Əliyev Neftçala şəhərinin içməli su təchizatı sistemlərini işə saldı.*

## SYERRA-LEONE RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ALİE BADARA KAMARA İLƏ GÖRÜŞ

*18 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Syerra-Leone Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Alie Badara Kamaranın etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*Səfir ilk növbədə Syerra-Leone Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Syerra-Leonenin dövlət başçısına çatdırmağı xahiş etdi.*

*Görüşdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri, «Qoşulmama Hərəkatı» və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Azərbaycanın yaxın günlərdə «Qoşulmama Hərəkatı»na sədrliyinin başa çatacağını qeyd edən dövlətimizin başçısı Hərəkat çərçivəsində Syerra-Leoneyə üzv ölkə olaraq göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev ölkəmizin Hərəkata*

*sədrliyinin başa çatmasından sonrakı dövrdə də bu təşkilat çərçivəsində Azərbaycan ilə Syerra-Leonenin əməkdaşlıq edəcəyinə ümidvar olduğunu söylədi.*

*Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında çox maraqlı olduğunu diqqətə çatdıran səfir Syerra-Leonenin eboladan əziyyət çəkən zaman Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi. O həmçinin Azərbaycanın «Qoşulmama Hərəkatı»na uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı. Səfir Azərbaycan və Syerra-Leonenin beynəlxalq təşkilatlarda bir-birinə verdiyi dəstəyi yüksək dəyərləndirdi.*

*Alie Badara Kamara Azərbaycan rəsmiləri ilə görüşlər keçirməyi planlaşdırdığını bildirdi, əlaqələrin genişləndirilməsi məqsədilə yeni istiqamətlərin və yolların müəyyənləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Azərbaycan Prezidenti ölkələrimiz və xalqlarımız arasında təmasların artırılmasının vacibliyinə toxundu.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan «Qoşulmama Hərəkatı»nın sədri olaraq, təsisat çərçivəsində parlament, gənclər və qadınlar platformalarının yaradılması təşəbbüsləri ilə çıxış edib.*

*Prezident İlham Əliyev bildirdi ki, «Qoşulmama Hərəkatı»nın yaradılmasının müstəmləkəçiliyə qarşı mübarizənin təməl prinsiplərindən və fəaliyyət istiqamətlərindən biri olduğunu nəzərə alaraq, Azərbaycan neokolonializmə qarşı mübarizəni də prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib və bu prosesə öz dəstəyini verib. Bakı Təşəbbüs Qrupunun 2023-cü ildə həm Bakıda, həm də BMT-nin Cenevrə*

*ofisində neokolonializm mövzusunda vacib tədbirlər keçirdiyini qeyd edən Azərbaycan Prezidenti vurğuladı ki, müstəmləkəçi ölkələr Afrikada, Asiyada, Latın Amerikasında müstəmləkə altında saxladığı xalqlardan və dövlətlərdən ən azı üzr istəməlidirlər. Dövlətimizin başçısı onu da əlavə etdi ki, müstəmləkəçiliyin forması dəyişsə də, mahiyyəti dəyişməyib və o, müxtəlif formalarda saxlanılıb.*

*Beynəlxalq institutlara üzv olduqlarından sui-istifadə edərək, müstəmləkəçi imperiyaların müstəmləkə altına saldıqları ölkələrdə törətdikləri cinayətləri ört-basdır etməyə çalışdıqlarını deyən dövlətimizin başçısı bu cinayətlərin dünya ictimaiyyətinə daha geniş çatdırılmasının zəruriliyini vurğuladı.*

*Prezident İlham Əliyev Syerra-Leone Prezidentini bu il Bakıda keçiriləcək COP29 tədbirinə dəvət etdi.*

*Görüşdə iqtisadiyyat, kənd təsərrüfatı, investisiya, insan kapitalının inkişafı, mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı, yaxşı idarəçilik sahəsində təcrübə mübadiləsi, bu xüsusda «ASAN xidmət» təcrübəsi qeyd edildi, Azərbaycanın bu sahədə təcrübəsini bölüşməyə hazır olduğu bildirildi.*

## SENEQAL RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ŞEYX QEYE İLƏ GÖRÜŞ

*18 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Seneqal Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Şeyx Qeyenin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*Səfir Seneqal Prezidentinin qardaş salamlarını dövlətimizin başçısına çatdırdı. Qeyd etdi ki, Seneqal Prezidenti ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi əzmindədir.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Seneqal dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyi bildirildi. İndiyədək Azərbaycanla Seneqalın BMT və «Qoşulmama Hərəkatı» çərçivəsində bir-birinə göstərdiyi daimi dəstək müsbət amil kimi qeyd edildi.*

*Prezident İlham Əliyev BMT və «Qoşulmama Hərəkatı» çərçivəsində əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz arasında ali səviyyədə aparılan diplomatik yazışmalar və beynəlxalq, milli günlərdə qarşılıqlı təbriklər yüksək qiymətləndirildi.*

*Dörd il ərzində Azərbaycanın «Qoşulmama Hərəkatı»na sədrlik etdiyini vurğulayan Prezident İlham Əliyev ölkəmizin təşkilata sədrliyinin daha 1 il uzadılmasına Seneqalın da dəstək verdiyini qeyd edərək, buna görə bir daha minnətdarlığını ifadə etdi.*

*Seneqalın səfiri ölkəmizin bu Hərəkata uğurlu sədrliyi münasibətilə təbriklərini çatdırdı.*

*İkitərəfli əməkdaşlığa toxunan Prezident İlham Əliyev siyasi əlaqələrin daha da inkişaf etdirilməsi və iqtisadi-ticari sahədə imkanların araşdırılmasının zəruriliyini vurğuladı.*

*Dövlətimizin başçısı səfirin Azərbaycanda keçirəcəyi rəsmi görüşlərin və onun fəaliyyətinin əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş perspektivlərin olduğu qeyd edildi, siyasi, iqtisadi, ticari, mədəni, humanitar və təhlükəsizlik sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.*

*Səfir Seneqalda da neft aşkarlandığını bildirərək, ölkəsinin neft hasil edən dövlətlər sırasına qoşulduğunu və bu xüsusda Azərbaycanın təcrübəsinin Seneqal üçün çox maraqlı olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanın neft və enerji sahəsində fəaliyyət göstərən ali təhsil müəssisələrində Seneqaldan olan tələbələrin təhsil almaları imkanlarını da qeyd etdi.*

*Ölkəmizin bu il COP29-a ev sahibliyi edəcəyini bildirən Azərbaycan Prezidenti Seneqalın dövlət başçısını bu tədbirə dəvət etdi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MARK LİBBİ İLƏ GÖRÜŞ

*18 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Mark Libbinin etimadnaməsini qəbul etmişdir.*

*Etimadnaməni qəbul etdikdən sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*

*Azərbaycan Prezidenti səfiri yeni təyinatı münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.*

*Səfir ikitərəfli əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə münasibətlərin perspektivlərinə, həmçinin beynəlxalq və regional məsələlərə dair fikir mübadiləsi aparıldı. İqtisadi, enerji sahələrində və iki ölkənin biznes dairələri arasında əməkdaşlıq məsələlərinə toxunuldu.*

*Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi barədə fikir mübadiləsi aparıldı.*

*ABŞ səfiri COP29-un bu il Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.*

*Görüşdə COP29 çərçivəsində Azərbaycanla ABŞ arasında iqlim dəyişikliyi mövzusunda əməkdaşlıq imkanlarına da toxunuldu.*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*19 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım etmişdir.*

*Paylaşımdakı fotonun üzərində:* «20 Yanvar 1990-cı il» *sözləri yazılıb.*

## ÜMUMXALQ HÜZN GÜNÜNDƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2024-cü il*

*Qanlı 20 Yanvar faciəsindən 34 il keçir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 34-cü ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət etmişlər.*

*Dövlətimizin başçısı ölkəmizin azadlığı uğrunda həlak olanların xatirəsini yad etdi.*

*Prezident İlham Əliyev «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

* * *

*34 il bundan əvvəl 20 Yanvar günü Azərbaycan xalqının tarixinin həm faciəli, kədərli səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Ümummilli lider Heydər Əliyev vaxtilə 20 Yanvar hadisələrini belə səciyyələndirirdi. Ulu öndər böyük uzaqgörənliklə deyirdi ki, biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərindən dərk edəcəyik.*

*Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi oldu.*

*Həmin faciəli günlərdən artıq 34 il keçir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, 20 Yanvarın tariximizdə tutduğu yeri bu gün daha aydın görürük. Həmin gün Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar. Xalqın birliyi və milli ləyaqət hissi top-tüfəngə qalib gəldi və bu, 20 Yanvarı səciyyələndirən ən mühüm məqamlardan biridir.*

*Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi ümummilli lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin ertəsi günü – yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və ozamankı respublika rəhbərlərinin xəyanəti üzündən baş vermiş siyasi səhv olduğunu bəyan etdi. O, faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirib Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş əks-səda doğurdu.*

*Azərbaycan xalqının qəlbində ümid çırağı yandı. 1990-cı ilin iyulunda Moskvadan vətənə qayıdan ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən qərar qəbul edildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar ulu öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilirdi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı.*

*Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: «Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişlər. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər».*

*Ümummilli lider Heydər Əliyevin «20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında» 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə Qanlı Yanvar hadisələri ilə bağlı xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmaq tövsiyə edildi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarda 20 Yanvar faciəsi-*

*nin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Şəhidlərin xatirəsi əbədiləşdirildi, Şəhidlər xiyabanında «Əbədi məşəl» abidə-kompleksi ucaldıldı, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirildi.*

*Ölkəmizdə 20 Yanvar əlillərinə və şəhid ailələrinə daim diqqət və qayğı göstərilir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb, 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin ediliblər.*

*Bu gün əminliklə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki 2020-ci ildə qalib Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad edərək, bölgədə yeni reallıq yaratdı. 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri davam etdirilir. Artıq keçmiş məcburi köçkünlər işğaldan azad olunmuş ərazilərə, doğma torpaqlarına qayıdırlar. İndi bu torpaqlarımızda həyat yenidən canlanmağa başlayır.*

*Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması həm də 20 Yanvar şəhidlərinin,*

*ümumilikdə torpaqlarımızın işğaldan azad edilməsi yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin qanının yerdə qalmadığının sübutudur. Odur ki, xalqımız 20 Yanvar faciəsinin 34-cü ildönümünü xüsusi qürur hissi ilə qeyd edir.*

## BAKI AĞ ŞƏHƏRİN MƏRKƏZİ PARK KVARTALINDA HƏYATA KEÇİRİLƏN İNŞAAT, İNFRASTRUKTUR, ABADLIQ İŞLƏRİ VƏ TİKİNTİSİ YEKUNLAŞMIŞ BAKI AĞ ŞƏHƏR OFİS BİNASINDA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*22 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında həyata keçirilən inşaat, infrastruktur və abadlıq işləri, həmçinin tikintisi yekunlaşmış Bakı Ağ Şəhər Ofis binasında yaradılmış şərait ilə tanış olmuşdur.*

*Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına görülən işlər barədə məlumat verdi.*

*Hazırkı Ağ Şəhərin ərazisi 150 ildən çox idi ki, Qara şəhər kimi tanınırdı. Buraya Qara şəhər adının verilməsi də təsadüfi deyildi. Ərazi neft sənayesi tullantılarından çirklənmişdi. Burada çox sayda bataqlıq, gölməçə və neft tullantıları var idi. Bir sözlə, Qara şəhər əsl ekoloji fəlakət zonasına çevrilmişdi.*

*Bütün bu amilləri nəzərə alan Prezident İlham Əliyevin təşəbbüsü ilə Qara şəhərin yerində hazırda dünyanın ən müasir ekoloji layihəsi olan Ağ Şəhərin salınmasına başlanıldı.*

*Nadirliyi ilə seçilən Bakı Ağ Şəhər layihəsinin təməli Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva tərəfindən 2011-ci il dekabrın 24-də qoyulub. Bakının ekoloji cəhətdən ən çox çirklənmiş bu ərazisində aparılmış irimiqyaslı tədbirlər nəticəsində həm şəhərsalma, həm memarlıq, həm sakinlərin rahat yaşayışı, həm də ekoloji baxımdan, sözün əsl mənasında, möcüzəvi layihə reallaşdırılıb.*

*Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün Kompleks Tədbirlər Planı» çərçivəsində həyata keçirilən Bakı Ağ Şəhər layihəsi irimiqyaslı ekoloji şəhərsalma layihəsi kimi də artıq dünyada tanınıb. Dünyanın aparıcı şirkətlərinin yerli mütəxəssislərlə birgə layihələndirdiyi bu yaşayış məkanı bir çox beynəlxalq sərgilərdə dünyanın qabaqcıl və müasir ekoloji şəhərsalma layihəsi kimi müxtəlif beynəlxalq və yerli mükafatlara layiq görülüb. İndi bu ərazi Bakı sakinlərinin və şəhərimizin qonaqlarının ən sevimli yaşayış və gəzinti zonalarından birinə çevrilməkdədir.*

*Ümumilikdə 1650 hektar ərazini əhatə edən Bakı Ağ Şəhərdə müxtəlif üslublu 10 rayonun salınması, 120 min yaşayış və xidmət obyektinin tikintisi, 350 hektar landşaft işlərinin görülməsi, 10 kilometr bulvar xəttinin yaradılması nəzərdə tutulub. İndiyədək 91 binanın inşası yekunlaşıb. Layihənin tam yekunlaşmasından sonra burada 280 min sakin yaşayacaq və 240 min iş yeri yaradılacaq.*

*Məlumat verildi ki, inşası mərhələli şəkildə həyata keçirilən Bakı Ağ Şəhərin Mərkəzi Park rayonunda*

*bir sıra binaların, ictimai yerlərin tikintisi artıq başa çatıb, infrastruktur işləri həyata keçirilib. Müxtəlif küçələrin tikintisi, yeraltı kommunikasiya infrastrukturunun qurulması ilə bağlı işlər də yekunlaşıb. Layihələndirmə işləri zamanı Bakı Ağ Şəhərdə inşası nəzərdə tutulmuş Bakı Metropoliteni stansiyalarının memarlıq üslubu üzrə konsepsiya hazırlanıb. Tamamlama işləri çərçivəsində əlil arabaları üçün pandüslar, yerüstü piyada keçidləri, qoruyucu dayaqlar tikilib, videomüşahidə kameraları qurulub, İT kanal sistemləri çəkilib.*

*Mərkəzi Park rayonu 2017-ci ildə istifadəyə verilmiş Paris evlərindən başqa, 36, 20 və 8 mərtəbəli binalardan, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binalarından, ticarət və iaşə obyektlərindən, orta məktəbdən, ofis və inzibati binalardan ibarətdir. Layihələndirmə zamanı Ağ Şəhərin Mərkəzi Park rayonunun yaşayış massivinin ərazisində yaşıl zonalar – parklar və xiyabanlar nəzərdə tutulub. Onların arasında Dağdağan bağı da vardır.*

*Vətəni Qarabağ olan dağdağan ağacı Azərbaycanın rəmzlərindən biridir. Prezident İlham Əliyev 2021-ci ilin mayında Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri çərçivəsində Ağdam şəhərində dağdağan ağacı əkib. Dağdağan ağacları Ağ Şəhərə Qarabağdan gətirilib.*

*Dövlətimizin başçısı bağın ərazisində dağdağan ağacı əkdi.*

*Son illər Bakı Ağ Şəhər həm də bir sıra yerli və beynəlxalq incəsənət ustalarının öz əsərlərini nümayiş etdirdiyi bir məkana çevrilib. Ağ Şəhərin mərkəzi küçələ-*

*rindən olan və inşası əsasən tamamlanmış Bulvar küçəsində yerli və xarici rəssamların incəsənət əsərləri quraşdırılıb.*

*Heykəltəraş Enrike Kabreranın «Böyük alma» əsəri onun ən mühüm sənət layihələrindən biridir. Nyu Yorkda quraşdırılmış «Böyük alma» bu şəhərin rəmzini təcəssüm etdirməklə onun sakinləri və qonaqları arasında çox məşhurdur. Bu əsərin ikincisi isə Bakı Ağ Şəhərdə sərgilənir.*

*Azərbaycan MAAS incəsənət qurumunun müasir üslubda hazırladığı hündürlüyü 4,2 metr olan «Əjdaha» heykəli 2024-cü ilin rəmzinə həsr olunub. Şərq təqviminə görə 2024-cü ilin rəmzi əjdahadır.*

*Cozef Klibanskinin «Mütəfəkkir» əsəri müasir insanın texnoloji inkişaf dövrünü, ekoloji və qlobal istiləşmə problemlərindən yaranan həyəcanlarını əks etdirir. Bürüncdən hazırlanmış heykəl artıq bütün dünyada sənətsevərlərin rəğbətini qazanıb. Heykəlin müəllifi 2014-cü ildə Bakının zəngin memarlığından, qədimliyin və müasirliyin vəhdətindən ilhamlanaraq, Azərbaycanın paytaxtının gözəlliyini tərənnüm edən «Gözəl Bakı» əsərini yaradıb.*

*Prezident İlham Əliyev tikintisi başa çatmış Bakı Ağ Şəhər Ofis binası ilə də tanış oldu. Binanın inşasına 2020-ci ildə başlanılıb, Azərbaycanın Vətən müharibəsində Qələbəsinə və suverenliyinin bərpasına həsr olunub.*

*Binada dünyanın aparıcı memarlıq şirkətləri tərəfindən layihələndirilmiş müasir tikililərin maketləri təqdim olunur. Yeni binaların layihələndirilməsi zamanı Ağ Şəhərin ekoloji ənənələrinə və dünyanın*

*müasir ekoloji tələblərinə uyğun olaraq, «yaşıl bina», enerjidən qənaətli istifadə prinsiplərinə və beynəlxalq qurumların sertifikatlarına uyğunlaşdırılmasının geniş istifadəsi qarşıya məqsəd qoyulub. Ofis binasının birinci mərtəbəsində iaşə obyektləri üçün sahələr ayrılıb.*

*Ofis binası ətraf mühitin mühafizəsi siyasətinə tam uyğundur və beynəlxalq ekoloji sertifikatlaşdırma təşkilatından (BREEAM) sertifikat alıb. «Ağ Şəhər 2020 – Biznes Mərkəzi» 2014-cü ildə istifadəyə verilmiş birinci Bakı Ağ Şəhər Ofis binasından sonra BREEAM ekoloji sertifikatı alan və «yaşıl bina» standartlarına uyğunluğu təsdiq olunan növbəti binadır.*

*Qeyd edildi ki, 2030-cu ildən sonra dünya iqliminin temperaturunun 1,5 dərəcə artması proqnozu ilə əlaqədar müvafiq (CRREM) tələblərə uyğunluğu təmin etmək məqsədilə binanın damında günəş panellərinin quraşdırılması nəzərdə tutulub.*

*Binada eyni zamanda, Qarabağ atlarının dünyada təbliği məqsədilə İspaniyanın tanınmış «Lladro» şirkəti tərəfindən hazırlanmış Qarabağ atının farfordan stolüstü heykəli təqdim olunur. Bu heykəl məhdud kolleksiyadır və şirkətin 100-dən çox ölkədə olan şəbəkəsi vasitəsilə satışa çıxarılacaq.*

*Diqqətə çatdırıldı ki, binada 150 ofis yerləşir. Biznes nümayəndələrinin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün burada hər cür şərait vardır. Binada informasiya texnologiyalarından dayanıqlı istifadə məqsədilə «data center» yaradılıb.*

*Binanın ətrafında əsaslı abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib, müasir infrastruktur yaradı-*

*lıb, yerli iqlimə uyğunlaşdırılmış müxtəlif ağaclardan ibarət yaşıllıq zolağı salınıb, yaşı 1000 ildən çox olan nadir zeytun ağacı əkilib.*

*Ərazidə qoyulmuş Qarabağ atı heykəli Qarabağ Atları meydanında yerləşəcək «Qarabağ atları» monumenti kompleksindəki 7 atdan biridir. Təməli dövlətimizin başçısı tərəfindən 2022-ci ilin dekabrında qoyulmuş kompleks Azərbaycanın Qarabağın 30 illik işğaldan azad edilməsi uğrunda Vətən müharibəsindəki Zəfərinə həsr edilib. Kompleksin yaradılması orijinal əsərləri ilə dünyada məşhur olan amerikalı heykəltəraş Robert Sammers tərəfindən həyata keçirilir.*

## AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU ZATİ-ALİLƏRİ CƏNAB DEVİD CON HÖRLİYƏ

Hörmətli cənab General-Qubernator!

Avstraliya İttifaqının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan–Avstraliya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2024-cü il*

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDR MÜAVİNİ, HÖKUMƏTLƏRARASI KOMİSSİYANIN HƏMSƏDRİ ALEKSEY OVERÇUK İLƏ GÖRÜŞ

*23 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Rusiya Federasiyası Hökumətinin Sədr müavini, Hökumətlərarası Komissiyanın həmsədri Aleksey Overçuku qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla bağlı nəticələr baxımından 2023-cü ilin uğurlu olduğu bildirildi. Ötən ilin dekabrında Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşü çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin təmasları məmnunluqla xatırlandı.*

*Söhbət zamanı iqtisadi əməkdaşlığın geniş gündəliyə malik olduğu vurğulanaraq, qarşıda bu sahədə yeni istiqamətlər üzrə planların nəzərdə tutulduğu bildirildi. Ticarət dövriyyəsinin 17,5 faiz, həmçinin yük və tranzit daşımalarının davamlı artımı əməkdaşlığımızın yaxşı göstəricisi kimi dəyərləndirildi. Azərbaycan–Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024–2026-cı illər üçün «Yol Xəritəsi»nin imzalanmasının əhəmiyyəti vurğulandı. Aleksey Overçukun səfə-*

*rinin əlaqələrimizin genişləndirilməsi işinə xidmət edəcəyinə əminlik bildirildi.*

*Görüşdə nəqliyyat-logistika, Şimal–Cənub nəqliyyat dəhlizinin təşviqi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN DEPUTATI, PARLAMENTİN MİLLİ MÜDAFİƏ KOMİSSİYASININ SƏDRİ, TÜRKİYƏ RESPUBLİKASININ SABİQ MİLLİ MÜDAFİƏ NAZİRİ HULUSİ AKARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 yanvar 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq Milli Müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Hulusi Akar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

*Hulusi Akar Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin ulu öndər Heydər Əliyevin dediyi kimi, «Bir millət – iki dövlət» prinsipi üzrə inkişaf etdiyini və bunun örnək olduğunu vurğuladı. Qonaq Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərinin ölkələrimiz arasında*

*əlaqələrin strateji müttəfiqlik səviyyəsinə çatmasında mühüm rol oynadığını qeyd etdi.*

*Hulusi Akar Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbədə Prezident, Ali Baş Komandan İlham Əliyevin müstəsna rolunu bir daha vurğuladı.*

*Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsinin ilk günlərindən Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin Azərbaycana göstərdiyi mənəvi, siyasi və diplomatik dəstəyi bir daha yüksək qiymətləndirdi.*

*Söhbət zamanı ötən il sentyabrın 19–20-də Azərbaycanın 23 saatdan da az bir müddətdə həyata keçirdiyi antiterror tədbirləri zamanı ərazimizdə qeyri-qanuni silahlı birləşmələrin mövcudluğuna və təcavüzkar separatizmə son qoyulduğu, suverenliyimizin tam bərpa olunduğu vurğulandı.*

*Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsindən sonra da Azərbaycan Silahlı Qüvvələrində yeni islahatların aparıldığını, ordumuzun döyüş qabiliyyətinin daha da gücləndiyini qeyd etdi və bütün bunların ötən ilin sentyabrında keçirilmiş antiterror tədbirlərində bir daha özünü bariz şəkildə göstərdiyini bildirdi.*

*Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafı və yeni sahələri əhatə etməsi məmnunluqla qeyd olundu, bu təşkilatın parlamentlər xətti ilə də müvafiq komitələr səviyyəsində əlaqələrin yaradılması və bu komitələrin birgə iclaslarının keçirilməsinin vacibliyi diqqətə çatdırıldı. Şuşa Bəyannaməsinin əhəmiyyəti vurğulandı, Azərbaycan ilə Türkiyə arasında hərbi, müdafiə sənayesi,*

*təhlükəsizlik, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, hər iki ölkənin silahlı qüvvələri tərəfindən birgə keçirilən hərbi təlimlərin əhəmiyyəti xüsusilə qeyd edildi.*

*Sonda Hulusi Akar dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

## PARLAMENTLƏRARASI İTTİFAQIN BAŞ KATİBİ MARTİN ÇUNQONQ İLƏ GÖRÜŞ

*1 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul etmişdir.*

*Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi, bunun Azərbaycan xalqı və dövləti üçün tarixi məqam olduğunu qeyd etdi, bu yeni şəraitin regionda sülhün və sabitliyin gücləndirilməsi üçün imkanlar yaratdığını vurğuladı.*

*Dövlətimizin başçısı bildirdi ki, Minsk qrupu 28 il ərzində münaqişənin həlli prosesi ilə məşğul olsa da heç bir nəticə əldə edilmədi, Azərbaycan torpaqları işğaldan azad olunmadı, məcburi köçkünlərin geri qayıtması təmin edilmədi. Azərbaycan tərəfi isə torpaqları işğal altında olan zaman haqlı şəkildə Minsk qrupunun üzv dövlətlərini Ermənistana təzyiq göstərmək, ona müvafiq sanksiyalar tətbiq etmək barədə təkliflər irəli sürdüyü halda, o vaxt Minsk qrupu tərəfindən bu istiqamətdə heç bir addım atılmadı.*

*Prezident İlham Əliyev diqqətə çatdırdı ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra Azərbaycan regionda sülh gündəliyinin təşəbbüskarı olaraq Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış edib. Amma Ermənistan tərəfindən buna adekvat reaksiya verilməyib. Ona görə də Azərbaycan sülh müqaviləsinin əsaslarını təşkil edən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip irəli sürüb ki, bunun əsasında da sülh müqaviləsi üzrə danışıqlar prosesinin təşəbbüskarı Azərbaycan olub.*

*Dövlətimizin başçısı 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra üçtərəfli Bəyanat çərçivəsində Ermənistanın üzərinə götürdüyü bir sıra öhdəliklərini yerinə yetirmədiyini, son 3 il ərzində Azərbaycanın Qarabağ bölgəsində separatizmi maliyyə, hərbi və digər vasitələrlə dəstəkləməkdə davam etdiyini bildirdi.*

*Azərbaycan Prezidenti ötən il sentyabrın 2-də Ermənistan rəhbərliyinin qondarma «Dağlıq Qarabağ respublikası»nın «müstəqilliyi» münasibətilə göndərdiyi təbrikin, həmçinin sentyabrın 9-da keçirilmiş «Prezident seçkiləri»nin sülh prosesinə ciddi zərbə vurduğunu, Azərbaycanın özünün ərazi bütövlüyünü və suverenliyini təmin etmək üçün antiterror tədbirləri keçirməli olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan ilə Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Er-*

*mənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.*

*Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, Ermənistanın müstəqillik haqqında Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var və bu sənədə istinadlar da Ermənistanın Konstitusiyasında öz əksini tapıb. Həmçinin Ermənistanın digər normativ-hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddiaları, Ermənistanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlər mövcuddur. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Ermənistanın beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı irəli sürdüyü iddiaların əsasını da Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmaması, Qarabağın Azərbaycandan ayrılması kimi məsələlər təşkil edir.*

*Azərbaycan Prezidenti qeyd etdi ki, bu iddialara son qoyulduğu, Ermənistan Konstitusiyasında və digər normativ-hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər. Ermənistanda bunun tez bir vaxtda həyata keçirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı vurğuladı ki, hazırda Ermənistanda bu mövzuda ölkədaxili müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.*

*Qonaq Beynəlxalq Parlamentlər İttifaqının Ermənistanın və Azərbaycanın parlament nümayəndələri*

*arasında dialoq üçün platforma ola biləcəyi təklifi ilə çıxış etdi. Dövlətimizin başçısı bu təşəbbüsü yüksək qiymətləndirərək, iki ölkənin parlamentləri arasında məhz bu platformada dialoqun aparılmasının Azərbaycan tərəfindən dəstəkləndiyini diqqətə çatdırdı.*

*Fransanın regionda dağıdıcı siyasət həyata keçirərək, od üstünə benzin tökmək prinsipindən çıxış etdiyini, Ermənistanın militarizasiya siyasəti apardığını, geosiyasi intriqaların təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev rəsmi Parisin regionda vəziyyətin gərginləşməsinin səbəbkarı olduğunu, müxtəlif beynəlxalq təşkilatlarda və parlament müstəvilərində anti-Azərbaycan siyasəti yürütdüyünü də diqqətə çatdırdı. Dövlətimizin başçısı Fransanın Cənubi Qafqaz regionunda aparıcı mövqeyə nail olmaq və nüfuzunu gücləndirmək məqsədilə siyasət yürütdüyünü, lakin onların bu istiqamətdəki cəhdlərinin əbəs olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini vurğulayaraq bildirdi ki, bu, ümumiyyətlə, parlament platformasının ənənələri ilə ziddiyyət təşkil edir. Azərbaycan nümayəndə heyətinin hüquqlarının bərpa edilməli olduğunu deyən dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq.*

*Martin Çunqonq Parlamentlərarası İttifaqın parlamentarilər arasında dialoqa, inklüzivliyə çağırdığını, eksklüzivliyin tərəfdarı olmadığını, bu kimi yanaşmaların düzgün qəbul edilmədiyini, beynəlxalq parlamentarizm ənənələri ilə uyğun gəlmədiyini diqqətə çatdırdı.*

*Qonaq COP29-la bağlı dövlətimizin başçısını təbrik edərək, COP29 keçiriləcəyi zaman Parlamentlərarası İttifaq çərçivəsində parlament nümayəndə heyətlərini bir araya gətirən, ətraf mühit və iqlim dəyişikliyi istiqamətlərində beynəlxalq səyləri dəstəkləyən bir tədbirin təşkil olunma təşəbbüsü ilə çıxış etdi. Bu təşəbbüsü dəstəkləyən dövlətimizin başçısı qonağı Azərbaycanın ev sahibliyi edəcəyi COP29-a dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.*

*Parlamentlərarası İttifaqın baş katibi Azərbaycanın «Qoşulmama Hərəkatı»na uğurlu sədrliyi münasibətilə də təbriklərini çatdırdı, ölkəmizin Hərəkatın parlament ölçüsünün yaradılması təşəbbüsünü təqdir etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın «Qoşulmama Hərəkatı»na 4 illik sədrliyi müddətində bu təsisatın beynəlxalq nüfuzunun artırılması, yeni əməkdaşlıq sahələrinin yaradılması, bu xüsusda parlament, gənclər ölçülərinin və qadın platformasının təsis olunması istiqamətində təşəbbüslərlə çıxış etdiyini vurğuladı.*

*Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*1 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım etmişdir.*

*Paylaşdığı fotonun üzərində:* «Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər» *sözləri yazılıb.*

## BMT-nin İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ İCRAÇI KATİBİ SAYMON STİL İLƏ GÖRÜŞ

*2 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stili qəbul etmişdir.*

*Bakının gözəlliyinin onda heyranlıq doğurduğunu deyən Saymon Stil COP29-un Azərbaycanda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.*

*Qonaq BMT-nin faktaraşdırıcı missiyasının artıq Azərbaycanda olduğunu və Azərbaycan tərəfi ilə səmərəli müzakirələr apardığını, İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un keçirilməsi ilə bağlı Azərbaycan tərəfindən görülən hazırlıq işlərinin yüksək qiymətləndirildiyini qeyd etdi. Saymon Stil BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası əməkdaşlarının Azərbaycanda müxtəlif sahələr üzrə tərəfmüqabilləri ilə çox məhsuldar görüşlər keçirdiklərini və müzakirələr apardıqlarını vurğuladı. O, COP29-un keçirilməsi üzrə Azərbaycanda yaradılmış təşkilat komi-*

*təsində qadınların yer almasını müsbət dəyərləndirdi. Qonaq qeyd etdi ki, artıq COP-un 28 dəfə təşkil edilməsi və təmsil etdiyi təşkilatın heyətinin COP-un keçirilməsi üzrə zəngin təcrübəsini nəzərə alaraq, BMT ailəsi olaraq, Azərbaycanı dəstəkləməyə və təcrübələrini bölüşməyə hazırdırlar.*

*Prezident İlham Əliyev vurğuladı ki, beynəlxalq ictimaiyyətin yekdil mövqeyi ilə COP29-un Azərbaycanda keçirilməsi barədə qərar ölkəmizə etimadın və hörmətin təzahürüdür. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan tərəfi bu tədbirin uğurla keçirilməsi üçün bu təşkilatla və bütün BMT ailəsi ilə yaxından əməkdaşlıq etməyə hazırdır. Azərbaycanın beynəlxalq tədbirlərin təşkili üzrə zəngin təcrübəsinin olduğunu vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, COP29 ölkəmizdə keçirilən və ümumiyyətlə, dünyada miqyasına görə ən çox iştirakçının qatıldığı tədbirlərdən biri olacaq. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfindən həm təşkilati, həm də tədbirin mahiyyəti nöqteyi-nəzərindən bütün zəruri addımlar atılır və bu baxımdan ölkəmiz beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlığı yüksək qiymətləndirir. Azərbaycan Prezidenti COP29-un təşkili prosesinə könüllülərin də yaxından cəlb olunacağını söylədi.*

*Dövlətimizin başçısı qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi barədə qərar regional sülh gündəliyinin irəliyə aparılması kontekstində əldə edilib və bu da ümumiyyətlə, COP-un tarixində yeni bir inkişafdır.*

*Prezident İlham Əliyev Azərbaycanın milli və regional səviyyədə «yaşıl enerji»yə keçid istiqamətində*

*təşəbbüsləri barədə məlumat verdi, COP29-un Azərbaycanda keçirilməsinin ölkəmizin «yaşıl enerji»yə keçid istiqamətində səylərinə və bu sahədə beynəlxalq tərəfdaşlarla əməkdaşlığının daha da inkişafına təkan verəcəyinə əminliyini bildirdi.*

*Qonaq COP çərçivəsində Azərbaycanın sədrliyinin çox mühüm mövzuya – iqlim maliyyələşdirilməsi mövzusuna həsr olunduğunu və bunun COP-un gündəliyində duran ən vacib məsələlərdən biri olduğunu qeyd edərək, bu xüsusda çoxtərəfli diplomatiyanın və bütün tərəfdaşlarla inklüziv şəkildə işin aparılmasının vacibliyinə toxundu.*

*Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan həmişə çoxtərəfli diplomatiyaya mühüm əhəmiyyət verib və beynəlxalq təşkilatlarda, çoxtərəfli platformalarda daim çox fəal siyasət yürüdüb. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycanın «Qoşulmama Hərəkatı»na uğurlu sədrliyini və bunun Hərəkata üzv dövlətlər tərəfindən yüksək qiymətləndirildiyini qeyd etdi, ölkəmizin digər beynəlxalq təşkilatlarla da uğurlu əməkdaşlığını vurğuladı.*

*Görüşdə COP28-ə ev sahibliyi etmiş Birləşmiş Ərəb Əmirlikləri, COP29 və COP30-a müvafiq olaraq ev sahibliyi edəcək Azərbaycan və Braziliya arasında üçtərəfli əməkdaşlığın vacibliyi vurğulandı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

2023-cü ilin fevralında Türkiyədə baş vermiş və on minlərlə insanın həyatına son qoymuş dəhşətli zəlzələlərdən bir il ötür. Bu faciə nəticəsində həlak olmuş bacı-qardaşlarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir, onlara uca Allahdan rəhmət, doğmalarına və yaxınlarına səbir diləyirəm.

Bu fəlakət Türkiyəni olduğu kimi, Azərbaycanı da dərindən sarsıtdı. Xalqımız həmin ağır günlərdə qardaş Türkiyə xalqı ilə bir ürək olaraq, faciənin ağrı-acısını bölüşdü, sonsuz kədərini birlikdə yaşadı. Zəlzələ xəbərinin ilk dəqiqələrindən heç bir yardım çağırışını gözləmədən Azərbaycan xalqı və dövləti öz qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi. Baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması işlərinə və axtarış-xilasetmə əməliyyatlarına cəlb olunmuş xilasedicilərimiz, həkimlərimiz və könüllülərimiz türkiyəli həmkarları ilə çiyin-çiyinə böyük cəsarətlə, əzmlə və fədakarlıqla fəaliyyət göstərdilər. Dövlət və özəl qurumlarla yanaşı, kiçikdən böyüyə hər bir soydaşımız zəlzələ qurbanlarına dəstək və mənəvi dayaq olmaq üçün əlindən gələni əsirgəmədi.

Sizin qətiyyətli rəhbərliyiniz altında Türkiyə hökuməti zəlzələnin səbəb olduğu irimiqyaslı dağıntıların aradan qaldırılması, zərər çəkmiş bölgənin dirçəldilməsi, evsiz qalan milyonlarla insanın evlə təmin edilməsi üçün var qüvvəsi ilə çalışır. Azərbaycan da hazırda Kahramanmaraş vilayətində humanitar fəaliyyətini davam etdirərək, burada aparılan yenidən qurulma və bərpa işlərində, sosial obyektlərin inşasında yaxından iştirak edir. Biz bu nəcib və şərəfli missiyada Türkiyənin yanında olmağımızdan böyük qürur duyuruq.

Bütün bunlar Azərbaycan–Türkiyə sarsılmaz birliyinin və həmrəyliyinin növbəti təzahürü olaraq qardaşlıq salnaməmizə əbədi olaraq həkk olundu. Türkiyə yaxşı gündə və hüznlü gündə Azərbaycanın yanında olduğu kimi, biz də daim Türkiyənin yanındayıq və bundan sonra da olacağıq. Çünki biz «Bir millət – iki dövlət»ik.

Əminəm ki, Sizin liderliyiniz, Türkiyə xalqının mübarizə əzmi, həmrəylik ruhu və mətin iradəsi sayəsində qüdrətli Türkiyə dövləti bu çətinliklərin də öhdəsindən tez bir zamanda gələcək, bu acı sınaqdan şərəflə və daha da güclənmiş çıxacaqdır.

Bu hüznlü gündə bir daha Türkiyənin kədərinə şərik olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından başsağlığı verirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 fevral 2024-cü il*

## XANKƏNDİ ŞƏHƏRİNDƏ 122 SAYLI SEÇKİ DAİRƏSİNİN 14 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİNDƏ SƏSVERMƏDƏ İŞTİRAK

*7 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri fevralın 7-də Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində Azərbaycan Respublikasının növbədənkənar Prezident seçkilərində səsvermədə iştirak etmişlər.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 7-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefonla zəng etmişdir.*

*Türkiyə Prezidenti İlham Əliyevi Prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə səmimi-qəlbdən təbrik etdi, ölkəmizin daha da inkişaf etdirilməsi və xalqımızın rifahı naminə prezidentlik fəaliyyətində ona yeni uğurlar arzuladı. Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycanın Qələbə çalmasının və suverenliyimizin tam bərpa olunmasının böyük önəm daşıdığını bir daha vurğuladı, bu xüsusda Azərbaycanda Prezident seçkilərinin bütün ölkə ərazisində keçirilməsi münasibətilə də təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan–Türkiyə dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə gələcəkdə də inkişaf edəcəyinə və möhkəmlənə-*

*cəyinə, «Bir millət – iki dövlət» prinsipi əsasında ölkələrimizin və xalqlarımızın bundan sonra da çiyin-çiyinə irəli gedəcəklərinə əminliklərini ifadə etdilər.*

*Telefon söhbəti zamanı əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 7-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev telefonla zəng etmişdir.*

*Özbəkistan dövlətinin başçısı İlham Əliyevi Prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik etdi, ölkəmizin daha da inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində yeni uğurlar arzuladı. Şavkat Mirziyoyev Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmizin böyük nailiyyətlər qazanmasının və Azərbaycan torpaqlarının geri qaytarılmasının önəmini bir daha vurğuladı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Şavkat Mirziyoyevə minnətdarlığını ifadə etdi.*

*Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə və əməkdaşlığımızın daha da möhkəmlənəcəyinə əmin olduqlarını bildirdilər, ikitərəfli münasibətlərin perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi apardılar.*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 7-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko telefonla zəng etmişdir.*

*Aleksandr Lukaşenko İlham Əliyevi Prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi, ona ölkəmizin inkişafı və firavanlığı naminə fəaliyyətində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Belarus Prezidentinə minnətdarlığını bildirdi.*

*Dövlət başçıları Azərbaycan–Belarus dostluq əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi apardılar.*

## MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 7-də Macarıstanın Baş Naziri Viktor Orban telefonla zəng etmişdir.*

*Viktor Orban İlham Əliyevə Prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı, ona Azərbaycanın inkişafı naminə prezidentlik fəaliyyətində uğurlar arzuladı.*

*Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Viktor Orbana minnətdarlığını bildirdi.*

*Telefon söhbəti zamanı ikitərəfli münasibətlərimizin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

## İRAQ RESPUBLİKASININ PREZİDENTİ ƏBDÜLLƏTİF CAMAL RƏŞİD İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 7-də İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid telefonla zəng etmişdir.*

*İraq Prezidenti İlham Əliyevi Prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi, ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirdi.*

*Telefon söhbəti zamanı Azərbaycan ilə İraq arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunaraq, əməkdaşlığın genişlənəcəyinə əminlik bildirildi.*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 8-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev telefonla zəng etmişdir.*

*Qazaxıstan dövlətinin başçısı İlham Əliyevi Prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi, ona ölkəmizin hərtərəfli inkişafı və tərəqqisi naminə fəaliyyətində uğurlar arzuladı. Kasım-Jomart Tokayev dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə böyük uğurlar qazanmasının və ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinin önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Dövlət başçıları Azərbaycan–Qazaxıstan dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi apardılar.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin telefonla zəng etmişdir.*

*Vladimir Putin İlham Əliyevə Prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırdı, ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Vladimir Putinə minnətdarlığını ifadə etdi.*

*Dövlət başçıları müttəfiqlik və strateji tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirərək, əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə etdilər.*

## QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROV İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 8-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov telefonla zəng etmişdir.*

*Qırğız Prezidenti dövlətimizin başçısı İlham Əliyevə Prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbriklərini çatdırdı. Sadır Japarov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının önəmini bir daha qeyd edərək, ölkəmizdə sürətli inkişaf proseslərinin getdiyini və dövlətimizin beynəlxalq mövqelərinin daha da gücləndiyini vurğuladı.*

*Qırğız dövlətinin başçısı ikitərəfli münasibətlərimizin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu ehtiramla qeyd etdi.*

*Sadır Japarov Prezident İlham Əliyevə Azərbaycanın tərəqqisi naminə fəaliyyətində uğurlar arzuladı.*

*Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirdi.*

*Telefon söhbəti zamanı Azərbaycan və Qırğız prezidentləri ikitərəfli dostluq və qardaşlıq münasibətlərimizin bundan sonra da hərtərəfli inkişaf edəcəyinə əminliklərini bildirərək, əlaqərimizin perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 8-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon telefonla zəng etmişdir.*

*Emoməli Rəhmon İlham Əliyevi Prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə təbrik etdi, ona ölkəmizin inkişafı və xalqımızın rifahı naminə fəaliyyətində uğurlar arzuladı.*

*Tacikistan dövlətinin başçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin son illər bütün sahələrdə böyük nailiyyətlər qazanmasının və Azərbaycanın dünyada nüfuzunun daha da artmasının əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə etdi.*

*Azərbaycan və Tacikistan prezidentləri dostluq və qardaşlıq münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə əmin olduqlarını bildirərək, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.*

## TÜRKİYƏNİN MİLLİYYƏTÇİ HƏRƏKAT PARTİYASININ SƏDRİ DÖVLƏT BAXÇALI İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 8-də Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı telefonla zəng etmişdir.*

*Dövlət Baxçalı İlham Əliyevə Prezident seçkilərində qazandığı qələbə münasibətilə təbriklərini çatdırdı, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzuladı. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Qələbənin və suverenliyimizin tam bərpa olunmasının önəmini bir daha vurğuladı.*

*Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirdi.*

*Telefon söhbəti zamanı Azərbaycan–Türkiyə dostluq və qardaşlıq əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf edəcəyi vurğulandı.*

## ŞİMALİ KİPR TÜRK CÜMHURİYYƏTİNİN PREZİDENTİ ƏRSİN TATAR İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 8-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ərsin Tatar telefonla zəng etmişdir.*

*Ərsin Tatar Prezident seçkilərində inamlı qələbə münasibətilə dövlətimizin başçısını təbrik etdi, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.*

*Telefon söhbəti zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın önəminə toxunularaq, bu əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminlik bildirildi.*

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ BAYRAM BEQAY İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 8-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay telefonla zəng etmişdir.*

*Bayram Beqay dövlətimizin başçısını Prezident seçkilərində qələbə münasibətilə təbrik etdi, ona prezidentlik fəaliyyətində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Dövlət başçıları Azərbaycan–Albaniya ikitərəfli münasibətlərin inkişafından məmnunluqlarını ifadə etdilər, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliklərini bildirdilər.*

## İRAQ KÜRDÜSTAN REGİONUNUN BAŞÇISI NEÇİRVAN BƏRZANİ İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 8-də İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani telefonla zəng etmişdir.*

*Neçirvan Bərzani Prezident seçkilərində qələbə qazanması münasibətilə İlham Əliyevə təbriklərini çatdırdı, ona fəaliyyətində uğurlar arzuladı.*

*Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev və Neçirvan Bərzani keçirdikləri görüşləri məmnunluqla xatırladaraq, bunun əməkdaşlığın genişlənməsi işinə xidmət etdiyini vurğuladılar.*

## AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 8-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel telefonla zəng etmişdir.*

*Şarl Mişel fevralın 7-də Azərbaycan Respublikasında keçirilmiş seçkilərdə qələbə münasibətilə Prezident İlham Əliyevi təbrik etdi və yeni mandatın icrasında dövlətimizin başçısına uğurlar arzuladı.*

*Telefon danışığı əsnasında Azərbaycan və Avropa İttifaqı arasında əlaqələrin müxtəlif aspektləri, xüsusilə energetika və nəqliyyat sahəsində əməkdaşlıq məsələləri geniş müzakirə olundu. Şarl Mişel nəqliyyat və bağlantılar sahəsində Avropa İttifaqının region ölkələri ilə əlaqələri inkişaf etdirmək üçün konkret layihələrlə çıxış etdiyini vurğuladı.*

*Tərəflər COP29-un Azərbaycanda keçirilməsi və bu çərçivədə Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxundular.*

*Şarl Mişel üçtərəfli formatda Brüsseldə Azərbaycan, Ermənistan və Avropa İttifaqı arasında görüşlərin bərpa edilməsi ilə bağlı Prezident İlham Əliyevdən mövqeyini bildirməsini xahiş etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın həmişə Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə keçirilən üçtərəfli görüşləri dəstəklədiyini bildirdi.*

*Söhbət zamanı Ermənistanla Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparıldı, Azərbaycan Respublikası Prezident Administrasiyası və Ermənistanın baş nazirinin aparatı arasında dekabrın 7-də ikitərəfli əsasda qəbul edilmiş birgə bəyanatın irəliyə doğru mühüm addım olduğu vurğulandı.*

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN BAŞ KATİBİ SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Müstəqil Dövlətlər Birliyinin baş katibi Sergey Lebedevi qəbul etmişdir.*

*Sergey Lebedev Prezident İlham Əliyevə seçkilərdə inamlı qələbə münasibətilə təbriklərini çatdırdı.*

*Dövlətimizin başçısı Sergey Lebedevə və MDB müşahidə missiyasının bütün üzvlərinə bu seçkiləri müşahidə etdiklərinə görə təşəkkürünü bildirdi, MDB müşahidə missiyasının Azərbaycanda bu və daha əvvəlki seçkilərdə də müşahidələrdə fəal şəkildə iştirak etdiyini vurğuladı.*

*Sergey Lebedev qeyd etdi ki, Azərbaycanda seçki prosesini müşahidə etmək onlar üçün böyük şərəf və eyni zamanda, məsuliyyətdir. Vurğuladı ki, bu, Azərbaycan xalqı üçün tarixi bir gün və tarixi seçkilər idi. Ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, regionda uzunmüddətli və davamlı sülh üçün yaxşı imkanların yarandığını deyən qonaq bu seçki prosesində sadə insanlarla, seçicilərlə, müşahidəçilərlə geniş söhbətlərinin olduğunu, Azərbaycan xalqının bu seçkilərdə xüsusi rəğbət hissi ilə öz seçki hüququndan istifadə etdiyini bildirdi.*

*Müstəqil Dövlətlər Birliyinin baş katibi Azərbaycan xalqının ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olunandan sonra ilk dəfə seçkilərin keçirilməsi prosesində iştirak etdiyini dedi, həmçinin işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və quruculuq işlərini, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıtmasını və həmin ərazilərdə seçki hüquqlarından istifadə etdiklərini vurğuladı.*

*Sergey Lebedev MDB müşahidə missiyasının 170-ə yaxın müşahidəçi ilə seçki prosesində təmsil olunduğunu dedi. Qonaq hər bir seçkinin ölkələrin qanunvericiliyinə uyğun və Seçki Məcəlləsi əsasında keçirilməli olduğunu qeyd etdi və bu seçkilərin də Azərbaycan Respublikasının müvafiq qanunlarına uyğun qaydada açıq, demokratik şəkildə təşkil olunduğunu bildirdi.*

*Baş katib bu gün mətbuat konfransı keçirəcəklərini və seçki müşahidə missiyasının fəaliyyəti haqqında hesabatlarını geniş ictimaiyyətə təqdim edəcəklərini qeyd etdi.*

*Dövlətimizin başçısı seçkilərin ilk dəfə Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü təmin olunmuş şəkildə ölkəmizin bütün ərazisində, o cümlədən Xankəndidə, Şuşada və digər rayonlarda keçirildiyini bildirərək, bunun Azərbaycan xalqı üçün xüsusi tarixi əhəmiyyət daşıdığını vurğuladı.*

*Keçmiş məcburi köçkünlərin artıq bir hissəsinin işğaldan azad olunmuş ərazilərə qaytarıldığını və bunun üçün Böyük Qayıdış Proqramı əsasında məcburi köçkünlərin geri qayıdışına dair layihələrin icra edildiyini deyən Prezident İlham Əliyev birinci mərhələnin*

*2026-cı ildə başa çatdırılacağını, bundan sonrakı mərhələlərdə də məcburi köçkünlərin geri qayıtmalarının təmin olunacağını diqqətə çatdırdı.*

*Söhbət zamanı MDB-nin aidiyyəti strukturları ilə Azərbaycan arasında əməkdaşlıq məsələlərinə də toxunuldu, Azərbaycanın MDB çərçivəsində əlaqələrə və müzakirələrə töhfə verdiyi, MDB ölkələri arasında siyasi, mədəni, iqtisadi və digər sahələrdə əməkdaşlıq layihələri barədə fikir mübadiləsi aparıldı.*

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ BAŞ KATİBİ KUBANIÇBEK ÖMÜRALIYEV İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyevi qəbul etmişdir.*

*Seçkilərdə inamlı qələbəsi münasibətilə Prezident İlham Əliyevə Türk Dövlətləri Təşkilatı adından təbriklərini çatdıran Kubanıçbek Ömüralıyev Təşkilatın geniş müşahidə missiyası ilə bu seçkiləri müşahidə etdiklərini, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Şuşada, Xankəndidə və azad edilmiş digər ərazilərdə olduqlarını, TDT ailəsinə daxil olan başqa təsisatlarla əlaqələndirilmiş şəkildə bu seçki prosesini müşahidə etdiklərini vurğuladı. Qonaq seçkilərin çox mükəmməl və peşəkarlıqla təşkil olunduğunu qeyd etdi.*

*TDT-nin baş katibi şanlı Qarabağ Zəfəri və ölkəmizin ərazi bütövlüyünün tam təmin olunması ilə əlaqədar Azərbaycan xalqının bu seçkilərdə xüsusi əhvali-ruhiyyə ilə seçki hüquqlarından istifadə etdiyini dedi.*

*Kubanıçbek Ömüralıyev qeyd etdi ki, bu gün TDT-nin müşahidə missiyasının mətbuat konfransı*

*olacaq və missiya seçkilərlə bağlı müşahidələrinin nəticələrini bəyan edəcək.*

*Prezident İlham Əliyev TDT-nin müşahidə missiyasının bütün üzvlərinə seçkiləri müşahidə etdiklərinə görə minnətdarlığını bildirdi.*

*Kubanıçbek Ömüralıyev qeyd etdi ki, Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya prosesinə və tərəfdaşlığın daha da yüksəlməsinə daim öz töhfələrini verir.*

*Görüşdə bu il Azərbaycanda TDT-nin qeyri-rəsmi Zirvə toplantısının keçiriləcəyi məmnuniyyətlə qeyd edildi. Təşkilatın bundan sonra da inkişafının, əməkdaşlığı və tərəfdaşlığı daha da gücləndirəcək yeni layihələrlə çıxış etməsinin vacibliyi diqqətə çatdırıldı.*

## ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ CAN MİN İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Can Mini qəbul etmişdir.*

*Prezident İlham Əliyev müşahidə missiyasında iştirakına görə Şanxay Əməkdaşlıq Təşkilatının baş katibinə, müşahidə qrupunun üzvlərinə və üzv dövlətlərə minnətdarlığını bildirdi.*

*Can Min Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının fəal tərəfdaşlarından biri olduğunu və Azərbaycan ilə əlaqələrin hərtərəfli inkişafına əhəmiyyət verdiklərini bildirdi. Ölkəmizlə müxtəlif sahələrdə yaxın tərəfdaşlıq əlaqələrinin olduğunu deyən Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Heydər Əliyev Fondunun xətti ilə qurulan mədəni-humanitar əməkdaşlığı xüsusilə qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin hərtərəfli inkişafı üçün böyük imkanların olduğunu bildirdi, ölkəmizin eyni zamanda, Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə də ikitərəfli qaydada çox sıx əlaqələrini vurğuladı. Bu xüsusda dövlətimizin başçısı Prezident seçkilərində qələbə münasibətilə ilk təb-*

*rikləri Təşkilata üzv ölkələrdən aldığını qeyd etdi. Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş Zirvə toplantısında iştirakını məmnunluqla xatırlatdı.*

*Qonaq Azərbaycanın COP29-a ev sahibliyi münasibətilə təbriklərini çatdırdı, bunun Azərbaycanın insaniyyətə və bəşəri inkişafa verdiyi töhfənin bariz nümunəsi olduğunu bildirdi. Can Min COP29 çərçivəsində də Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq məsələlərini qeyd etdi.*

## TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASININ (TÜRKPA) BAŞ KATİBİ MƏHMƏT SÜRƏYYA ƏR VƏ TÜRKPA BEYNƏLXALQ SEÇKİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ, TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÜZVÜ OSMAN MESTEN İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) baş katibi Məhmət Sürəyya Əri və TÜRKPA beynəlxalq seçki müşahidə missiyasının rəhbəri, Türkiyə Böyük Millət Məclisinin üzvü Osman Mesteni qəbul etmişdir.*

*Prezident İlham Əliyev seçkilərdə müşahidəçi qismində iştirakına görə TÜRKPA nümayəndə heyətinə və müşahidə missiyasının bütün üzvlərinə təşəkkürünü bildirdi.*

*Müşahidə missiyasının üzvləri Prezident seçkilərində inamlı qələbə münasibətilə dövlətimizin başçısını təbrik etdilər. Onlar həm Şuşada, həm də Xankəndidə səsvermə prosesini müşahidə etdiklərini məmnunluqla bildirdilər və bunu tarixi məqam kimi qiymətləndirdilər.*

*Prezident İlham Əliyev bu seçkilərin tarixi hadisə olduğunu deyərək, ailə üzvləri ilə birlikdə Xankəndi*

*şəhərində təşkil olunmuş səsvermə prosesində iştirak etdiyini xüsusi vurğuladı.*

*Qonaqlar bildirdilər ki, Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan xalqının Qarabağ Zəfəri bütün Türk Dünyasının zəfəridir və bu, Türk Dünyasının özünəinamını daha da gücləndirib.*

*Söhbət zamanı Türk Dünyasının bir ailə olduğu və bu çərçivədə əməkdaşlığın bütün sahələrdə daha da dərinləşdirilməsinin və genişləndirilməsinin vacibliyi qeyd edildi.*

## AZƏRBAYCAN–TÜRKİYƏ PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ŞAMİL AYRIMIN BAŞÇILIQ ETDİYİ TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Azərbaycan–Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Türkiyə Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev seçkiləri müşahidə etdiklərinə görə nümayəndə heyətinə minnətdarlığını bildirdi.*

*Şamil Ayrım nümayəndə heyəti adından çıxış edərək, dövlətimizin başçısını Prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi.*

*Qonaq Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın səmimi dostluğunun və qardaşlığının ölkələrimiz arasında əlaqələrin inkişafında xüsusi rolunu vurğuladı.*

*Dövlətimizin başçısı seçkilərdə qazandığı qələbə münasibətilə Rəcəb Tayyib Ərdoğanın ona təbrik*

*məktubu göndərdiyini və Türkiyə Prezidenti ilə telefonla danışdıqlarını məmnunluqla qeyd etdi.*

*Şamil Ayrım Prezident İlham Əliyevin və ailə üzvlərinin Xankəndidə səs vermələrinin böyük əhəmiyyət daşıdığını bildirdi.*

*Dövlətimizin başçısı da Xankəndidə səsvermənin böyük siyasi və rəmzi mənası olduğunu vurğuladı.*

*Şamil Ayrım 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında Prezident İlham Əliyevin və Azərbaycanın dünyaya bir nümunə göstərdiyini qeyd etdi. Ümummilli lider Heydər Əliyevin vəsiyyətinin dövlətimizin başçısı tərəfindən yerinə yetirildiyini deyən qonaq vurğuladı ki, Azərbaycan xalqı ilk dəfə olaraq bu seçkilərdə ərazi bütövlüyü və suverenliyi təmin olunmuş şəkildə qürurla iştirak edib.*

*Azərbaycan Prezidenti Vətən müharibəsində Qələbədə Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, qardaş Türkiyənin mənəvi-siyasi dəstəyinin yüksək qiymətləndirildiyini bir daha qeyd etdi.*

*Görüşdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə qarşı ədalətsizlik vurğulandı, Türkiyə Böyük Millət Məclisinin bunun əleyhinə olduğu və Türkiyə parlamentində də bununla əlaqədar müvafiq bəyanatların və müraciətlərin qəbul olunacağı qeyd edildi, Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməsinin vacibliyi bildirildi.*

*Söhbət zamanı Türk Dövlətləri Təşkilatı və Türk Dövlətləri Parlament Assambleyası çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, Türk Dövlətləri Təşki-*

*latında əməkdaşlığın və tərəfdaşlığın daha da dərinləşdirilməsinin önəmi qeyd olundu.*

*Nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının daha da inkişafı üçün fəaliyyətini yüksək qiymətləndirdiklərini vurğuladılar.*

# HƏRBİ HAVA QÜVVƏLƏRİNİN HƏRBİ OBYEKTLƏRİNDƏ SİLAHLANMAYA YENİ QƏBUL EDİLMİŞ «AKINCI» HÜCUM PUA-larının UÇUŞLARINI İZLƏMƏ MƏRASİMİ

*9 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və oğlu Heydər Əliyev fevralın 9-da Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olmuşlar və silahlanmaya yeni qəbul edilmiş «Akıncı» hücum PUA-larının uçuşunu izləmişlər.*

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Prezident İlham Əliyev PUA Akademiyasında yaradılmış şəraitlə tanış oldu.*

*Zakir Həsənov və Türkiyənin «Baykar» şirkətinin texniki direktoru Səlçuk Bayraktar dövlətimizin başçısına Akademiyada yaradılmış şərait və pilotsuz uçuş aparatları barədə məlumat verdilər. Bildirildi ki, burada hərbi qulluqçuların hazırlığı üçün hər cür şərait yaradılıb. Akademiya müasir standartlara cavab verən bütün növ zəruri texnika və avadanlıqlarla təchiz olunub.*

*Sonra Ali Baş Komandan hərbi obyektdə müxtəliftipli PUA üçün uçuş-enmə zolağına gəldi. «Akıncı» hücum PUA-sının havaya qalxmasını izlədikdən sonra idarəetmə məntəqəsinə gələn Prezident İlham Əliyev burada PUA-nın idarəolunmasını praktiki həyata keçirdi.*

*PUA-nın yerə enməsini izləyən Azərbaycan Prezidenti uçuş vasitəsinin üzərinə xatirə imzasını çəkdi.*

*Daha sonra Prezident İlham Əliyev anqar komplekslərinə baxış keçirdi.*

*Anqarlar müxtəliftipli pilotsuz uçuş aparatları, eləcə də silahlanmaya yeni qəbul edilmiş «Akıncı» hücum PUA-sı və digər aviasiya-texniki vasitələrin saxlanılması üçün nəzərdə tutulub.*

*Müzəffər Ali Baş Komandan burada «Akıncı» hücum PUA-sı və aviabombaları ilə də tanış oldu.*

*Sonra birgə foto çəkdirildi.*

## GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ KOBAXİDZE İLƏ TELEFONLA GÖRÜŞ

*9 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 9-da Gürcüstanın Baş Naziri İrakli Kobaxidze telefonla zəng etmişdir.*

*İrakli Kobaxidze İlham Əliyevi Prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi, ona Azərbaycanın rifahı naminə fəaliyyətində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirərək, öz növbəsində, İrakli Kobaxidzeni Gürcüstanın Baş Naziri vəzifəsinə təsdiq olunması münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı.*

*Prezident İlham Əliyev və Baş Nazir İrakli Kobaxidze dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərimizin bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini bildirərək, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.*

## ISESCO-nun BAŞ DİREKTORU SALİM BİN MƏHƏMMƏD ƏL-MALİK İLƏ TELEFONLA GÖRÜŞ

*9 fevral 2024-cü il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə fevralın 9-da ISESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik telefonla zəng etmişdir.*

*ISESCO-nun baş direktoru dövlətimizin başçısına Prezident seçkilərində qələbə qazanması ilə bağlı təbriklərini və xoş arzularını çatdırdı, ona Azərbaycanın tərəqqisi naminə fəaliyyətində yeni uğurlar arzuladı. O, Prezident İlham Əliyevin islam həmrəyliyi işinə verdiyi töhfəni bir daha yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirdi.*

*Telefon söhbəti zamanı Azərbaycanla ISESCO arasında uzun illər davam edən səmərəli əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## MÜSTƏQİLLİYİMİZ DÖVRÜNDƏ İLK DƏFƏ AZƏRBAYCANIN BÜTÜN ƏRAZİLƏRİNDƏ KEÇİRİLMİŞ PREZİDENT SEÇKİLƏRİNDƏ QAZANDIĞI QƏLƏBƏ MÜNASİBƏTİLƏ PREZİDENT İLHAM ƏLİYEVƏ GÖNDƏRİLMİŞ TƏBRİK MƏKTUBLARI

### TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANDAN

Hörmətli cənab Prezident, əziz qardaşım!

Ölkənizdə keçirilmiş seçkilərdə uğur qazanaraq, beşinci dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə millətim adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Zati-alinizin uğurlu liderliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi inkişaf, bütün torpaqlarını işğaldan azad etməsi və beynəlxalq aləmdə getdikcə artan nüfuzu bizim üçün daim qürurverici olub.

Türkiyə ilə Azərbaycan arasında «Sevincdə və kədərdə birlik» ilə «Bir millət – iki dövlət» şüarları zəminində formalaşan qardaşlıq və həmrəylik əlaqələri Şuşa Bəyannaməsi ilə münasibətlərimizin güclü əsasını təşkil etməyə davam edəcəkdir.

Qardaş Azərbaycan xalqı tərəfindən yenidən lider seçilməyinizin təkcə ölkələrimiz arasındakı bənzərsiz münasibətlər baxımından deyil, bölgəmizin uzun illərdir ehtiyac duyduğu sülh və sabitliyin bərqərar olması baxımından da böyük bir nailiyyət olduğunu düşünürəm. Bu baxımdan müzəffər lider kimi, seçkiləri uğurla başa vurmağınızdan sonra böyük əmək sərf etdiyiniz Ermənistanla müzakirələrin də sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəyinə ümid edirəm.

Bu düşüncələrlə seçkilərdə zəfərinizin həm qardaş Azərbaycan xalqı, həm də bölgəmiz üçün xeyirli olmasını diləyir, Sizə ali vəzifənizdə müvəffəqiyyətlər arzu edirəm.

**QAZAXISTAN PREZİDENTİ KASIM-JOMART TOKAYEVDƏN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümumxalq səsverməsinin yekunları Sizin çoxşaxəli islahatlar kursunuza tam etimadın və xalqın birliyinin, dövlətin ərazi bütövlüyünün və dinamik inkişafının təmin edilməsi işində xidmətlərinizin təsdiqinin parlaq sübutuna çevrildi.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan uğurla inkişaf etməkdə, beynəlxalq birliyin nüfuzlu üzvü və regional dövlət kimi güclənməkdə davam edəcəkdir.

Qazaxıstanda Siz qardaş ölkələrimiz arasında strateji tərəfdaşlığın möhkəmlənməsinin əzmkar tərəfdarı kimi böyük hörmətə maliksiniz.

Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın zəngin potensialının reallaşdırılması naminə sıx məhsuldar işimizin davam etdirilməsinə hazır olduğumu təsdiq edirəm.

Əminəm ki, bizim Bakıda keçirəcəyimiz tamformatlı görüş Qazaxıstan–Azərbaycan münasibətlərinin gələcəkdə dərinləşməsi məqsədilə qarşılıqlı

səmərəli əməkdaşlığın yeni üfüqlərini müəyyənləşdirməyə imkan yaradacaqdır.

Hörmətli İlham Heydər oğlu! Sizə qardaş Azərbaycanın rifahı və firavanlığı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər diləyir, nəzərdə tutduğunuz bütün planların uğurla reallaşmasını arzu edirəm.

**RUSİYA PREZİDENTİ
VLADİMİR PUTİNDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və onun mövqelərinin dünya arenasında möhkəmləndirilməsi üzrə həyata keçirdiyiniz kursa ümumxalq dəstəyini tam təsdiq edir.

Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, bütün sahələrdə səmərəli ikitərəfli əməkdaşlığın, beynəlxalq gündəliyin aktual məsələlərinin həllində tərəfdaşlıq qarşılıqlı əlaqələrinin genişləndirilməsi üzrə fəal birgə işi davam etdirəcəyik. Şübhəsiz ki, bu iş dost xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər regionunda sabitliyin, təhlükəsizliyin gücləndirilməsi istiqamətində gedir.

Hörmətli İlham Heydər oğlu! Dövlət başçısı vəzifəsində məsuliyyətli fəaliyyətinizdə Sizə səmimi-qəlbdən uğurlar, möhkəm cansağlığı və əmin-amanlıq arzu edirəm.

## ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ Sİ CİNPİNDƏN

Hörmətli İlham Heydər oğlu!

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Çin hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram. Əminəm ki, Azərbaycan Sizin rəhbərliyinizlə bütün dövlət quruculuğu təşəbbüslərində yeni nailiyyətlər əldə edəcək.

Son illər Çin–Azərbaycan münasibətləri öz inkişafının nümunəvi və sabit olması ilə fərqlənir. Yüksək səviyyəli siyasi etimad mühiti yaranır, «Bir kəmər – bir yol» təşəbbüsünün birlikdə həyata keçirilməsində irəliləyiş, beynəlxalq münasibətlərdə sıx qarşılıqlı fəaliyyət müşahidə olunur.

Mən Çin–Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verirəm, bizim işgüzar münasibətlərimizi və şəxsi dostluğumuzu yüksək qiymətləndirirəm. Sizinlə birlikdə ikitərəfli münasibətlərin inkişafı və bütün sahələrdə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsində birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və məsuliyyətli fəaliyyətinizdə uğurlar arzu edirəm.

Dost Azərbaycana tərəqqi, xalqınıza isə xoşbəxtlik və əmin-amanlıq diləyirəm.

## ÖZBƏKİSTAN PREZİDENTİ ŞAVKAT MİRZİYOYEVDƏN

Hörmətli İlham Heydər oğlu, əziz qardaşım!

Azərbaycan Respublikasında yüksək səviyyədə keçirilmiş Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi – əziz qardaşımı səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirməkdən sonsuz məmnunluq duyuram.

Bu seçkilərdə Sizin namizədliyinizin əhali tərəfindən hərtərəfli dəstəklənməsi xalqınızın irəli sürdüyünüz strateji proqram və planlara sonsuz inamının əyani təzahürüdür. Bu ilk növbədə, Azərbaycanın ərazi bütövlüyünün tam bərpası və tarixi ədalətin bərqərar olması, ölkənizdə bütün sahələrdə aparılan genişmiqyaslı islahatlar və böyük quruculuq işləri ilə bilavasitə bağlıdır desəm, əsl həqiqəti ifadə etmiş olaram.

Bu gün Sizin – öz xalqının həqiqi müdrik liderinin, vətənpərvər və fədakar, görkəmli siyasi xadiminin rəhbərliyi ilə Azərbaycan dövləti şanlı zirvələri fəth edir və onun beynəlxalq arenada nüfuzu, etibarı getdikcə artmaqdadır. Heç şübhəsiz, Sizin bu yüksək vəzifədə fəaliyyətiniz dövlətçiliyin əsaslarının hərtərəfli möhkəmlənməsinə və cəmiyyətin müasirləşməsinə, əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə, ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasına xidmət edəcəkdir.

Əziz qardaşım, bu məqamda xüsusi qeyd etmək istərdim ki, son illərdə bizim ali səviyyədə fəal təmaslarımız və aramızda olan sıx qardaşlıq münasibətlərimiz, həyata keçirilən konkret layihələr və «Yol xəritələri» qarşılıqlı faydalı əlaqələrimizə güclü təkan verir. Sizinlə razılaşdığımız kimi, Özbəkistan və Azərbaycan arasında çoxtərəfli əlaqələrin sürətli inkişafı ili elan edilən cari il ərzində daha 10 yeni sahə üzrə, o cümlədən kimya, neft-qaz, mədənçıxarma, energetika, elektrotexnika, zərgərlik, maşınqayırma, əczaçılıq, tikinti materialları və bank-maliyyə sahələrində əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş böyük planlarımızın tam şəkildə həyata keçiriləcəyinə inanıram.

Əminəm ki, qəti siyasi iradəmiz və birgə səylərimiz sayəsində uzunmüddətli strateji tərəfdaşlığımız qardaş xalqlarımızın ümumi rifahı naminə bundan sonra da səmərəli şəkildə inkişaf edəcəkdir.

Heç şübhəsiz ki, zati-alinizin gələcəkdə ölkəmizə həyata keçiriləcək səfəri mövcud potensialımıza və imkanlarımıza uyğun olaraq, çoxşaxəli əlaqələrimizi tamamilə yeni səviyyəyə ucaldacaqdır.

Hörmətli İlham Heydər oğlu! Bu mühüm qələbə münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, tükənməz güc-qüvvət, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

## SERBİYA PREZİDENTİ ALEKSANDR VUÇİÇDƏN

Hörmətli İlham Heydər oğlu!
Zati-aliləri möhtərəm cənab Prezident!

Sizi Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar Prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik etməkdən məmnunam. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan hədsiz etimadının təzahürüdür. Bununla yanaşı, bu nəticə dahi Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində son 20 ildə Sizin daxili, regional və beynəlxalq müstəvidə əldə etdiyiniz misilsiz nailiyyətlərə verilmiş qiymətdir.

Sizin strateji siyasətiniz və sadiqliyiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi irəliləyişə nail olmuş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəniz regional liderə çevrilərək, beynəlxalq arenada həsəd aparılası nüfuza sahib olmuşdur.

Serbiya Azərbaycanla münasibətlərə xüsusi əhəmiyyət verir və heç vaxt unutmur ki, ölkəniz həqiqi dost və həyati əhəmiyyətli maraqlarımızın müdafiəçisi olduğunu dəfələrlə sübut edib. Fürsətdən istifadə edərək, beynəlxalq hüququn prinsipləri və BMT Nizamnaməsinə sadiqliyinə, ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dəstəklə bağlı Azərbaycanın dəyiş-

məz mövqeyinə görə səmimi minnətdarlığımı bildirirəm.

Məmnuniyyətlə qeyd edirəm ki, bizim siyasi, iqtisadi və humanitar sahələrdə strateji əməkdaşlığımız və əlaqələrimiz bir çox aspektlər üzrə genişlənmişdir. Mən tam əminəm ki, Sizin davamlı müdrik rəhbərliyiniz və liderliyiniz sayəsində Serbiya və Azərbaycan arasında uzunmüddətli və sıx tərəfdaşlıq qarşılıqlı maraqlar naminə güclənəcək və inkişaf edəcəkdir. Öz növbəmizdə, Sizi əmin etmək istəyirəm ki, biz bütün sahələrdə dostluq, qarşılıqlı hörmət, etimad və dəstək prinsiplərindən çıxış edərək, daha da səmərəli və inkişaf edən əməkdaşlığın təmin olunmasına, birgə layihə və ideyaların həyata keçirilməsinə güclü şəkildə sadiqik.

Zati-aliləri, əziz dostum, Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirəm.

Zati-aliləri! Ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## İRAN PREZİDENTİ SEYİD İBRAHİM RƏİSİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasında Prezident seçkilərinin uğurla keçirilməsi və zati-alinizin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə səmimi təbriklərimi çatdırıram.

Azərbaycan Respublikasının suverenliyinin bərpasından sonra ölkənizin bütün ərazilərində ilk dəfə bu seçkilərin keçirilməsi daha böyük əhəmiyyət kəsb edir.

İki qonşu və müsəlman ölkəsi olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası xalqları arasındakı qədim tarixi, dini və ortaq mədəni cəhətlər, dərin mənəvi bağlar, iki ölkənin müxtəlif sahələr üzrə birgə maraqları ölkələrimiz arasındakı əlaqələrin genişləndirilməsi üçün möhkəm dayaqlar yaratmışdır. Əmin olduğumu bildirirəm ki, zati-alinizin yenidən prezidentliyi dövründə İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq, qardaşlıq münasibətlərinin və əlaqələrin yüksələn xətlə inkişaf etməsinə şahid olacağıq.

Allah-taaladan Sizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, qardaş Azərbaycan Respublikasının xalqına isə səadət və xoş günlər arzulayıram.

**BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKODAN**

Hörmətli İlham Heydər oğlu!

Müstəqillik dövründə ilk dəfə ölkənizin bütün ərazisində keçirilmiş Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Səsvermə zamanı seçicilərin nümayiş etdirdikləri güclü dəstək cəmiyyətin birliyini və Sizin Azərbaycan xalqı arasında yüksək nüfuzunuzu bir daha çox aydın şəkildə təsdiq etdi.

İyirmi il ərzində Sizin qətiyyətiniz, yüksək siyasi mədəniyyətiniz, xalqınızın səsini eşitmək bacarığınız sayəsində dünyada rəyi ilə hesablaşılan güclü, müstəqil dövlət qurulmuşdur. İqtisadi tərəqqi və vətəndaşların rifahının yüksəlməsi, ölkənin suverenliyinin möhkəmlənməsi və beynəlxalq aləmdə rolunun artması haqlı olaraq Sizin adınızla bağlıdır. Belarusun timsalında Sizin ədalətli və bərabərhüquqlu dövlətlərarası münasibətlərin qurulmasına, təhlükəsizliyin, dialoqun və etimadın möhkəmləndirilməsinə yanaşmaları bölüşən etibarlı dostunuz vardır.

Hörmətli İlham Heydər oğlu! Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və dost Azərbaycan xalqının rifahı naminə bütün planlarınızı həyata keçirmək üçün tükənməz enerji arzulayıram.

## TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONDAN

Hörmətli İlham Heydər oğlu!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu münasibətlə ən xoş arzularımı qəbul edin.

Qardaş Azərbaycanın ali dövlət vəzifəsinə yenidən seçilməyiniz Azərbaycan cəmiyyətinin Sizə olan yüksək etimadının daha bir inamlı təsdiqidir və ölkənin ardıcıl sosial-iqtisadi inkişafına, həmçinin dövlətinizin beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş strateji kursunuzun xalqınız tərəfindən geniş şəkildə dəstəklənməsinin göstəricisidir.

Sizin Tacikistan–Azərbaycan dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə və dərinləşməsinə sanballı şəxsi töhfənizi vurğulayaraq, bu əlaqələrin gələcəkdə də hərtərəfli inkişafına marağımızı ifadə edirəm.

Əminəm ki, biz gələcəkdə də birgə səylərlə iki ölkənin çoxplanlı qarşılıqlı münasibətlərini inkişaf etdirəcəyik, xalqlarımızın rifahı naminə bu əməkdaşlığı yeni praktiki məzmunla zənginləşdirəcəyik.

Əziz İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

## RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU İQOR BABUŞKİNDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin yenidən bu vəzifəyə seçilməyiniz Azərbaycan xalqı arasında malik olduğunuz böyük nüfuzu tam şəkildə təsdiqləyir. Əminəm ki, Sizin yüksək liderlik keyfiyyətləriniz Azərbaycan Respublikasının siyasi sabitliyinin qorunmasına və gələcək iqtisadi inkişafına töhfə verməkdə davam edəcəkdir.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikasını birləşdirən dostluq əlaqələrini yüksək qiymətləndirir, Sizə bizim regionla çoxplanlı qarşılıqlı faydalı əlaqələrin möhkəmlənməsinə göstərdiyiniz davamlı dəstəyə görə minnətdarlığımı bildirirəm.

Möhtərəm İlham Heydər oğlu! Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, səadət, əmin-amanlıq və Azərbaycan Respublikası naminə fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm.

**TÜRKMƏNİSTAN PREZİDENTİ SƏRDAR BERDIMƏHƏMMƏDOVDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasında keçirilmiş Prezident seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Azərbaycan xalqının Sizin dövlətçiliyin möhkəmləndirilməsinə və ölkənin sosial-iqtisadi inkişafına istiqamətlənmiş siyasi kursunuza yüksək səviyyədə etimadının və dəstəyinin göstəricisidir. Əminəm ki, bu mühüm hadisə Azərbaycan Respublikasının gələcəkdə də inkişafına və onun vətəndaşlarının rifahının yüksəldilməsinə kömək edəcəkdir.

Türkmənistan ilə Azərbaycan Respublikası arasında qardaşlıq münasibətlərinin səmərəli xarakterini qeyd etmək sevindiricidir. Əminik ki, bu münasibətlər gələcəkdə də inkişaf edəcək və iki ölkənin xalqlarının rifahı naminə dərinləşəcəkdir. Ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinə şəxsi diqqətinizə və böyük dəstəyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, məsuliyyətli fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

## XORVATİYA PREZİDENTİ ZORAN MİLANOVİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu məsul vəzifənin həyata keçirilməsində Sizə uğurlar arzulayıram. İnanıram ki, Siz dövlətinizin ümumi inkişafı və vətəndaşlarınızın firavanlığı naminə fədakarlıqla işləməyə davam edəcəksiniz.

Son 30 il ərzində Xorvatiya ilə Azərbaycan arasında dostluq münasibətləri inkişaf etməkdədir. Əminəm ki, Sizin yeni prezidentliyiniz dövründə biz ümumi münasibətlərimizin möhkəmlənməsi və dərinləşməsi istiqamətində fəaliyyətimizi davam etdirəcəyik. Bizim iqtisadi əməkdaşlığımız xüsusi əhəmiyyət daşıyır və bunun daha da inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. İnanıram ki, Azərbaycan və Xorvatiya şirkətləri arasında sıx əməkdaşlığı daha da təşviq etmək, eləcə də qarşılıqlı sərmayələrə marağı artırmaq üçün səylərimizi əsirgəməyəcəyik.

Cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## TÜRKMƏN XALQININ MİLLİ LİDERİ, TÜRKMƏNİSTAN XALQ MƏSLƏHƏTİNİN SƏDRİ QURBANQULU BERDIMƏHƏMMƏDOVDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimiqəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan zamanla ayaqlaşan, iqtisadi və sosial həyatda sürətli artım nümayiş etdirən ölkədir. Bu isə öz növbəsində, əsas etibarilə uzun illər ərzində xalq tərəfindən geniş şəkildə dəstəklənən və rəğbətlə qarşılanan uzaqgörən dövlət siyasətinizin nəticəsidir. Bunu keçirilmiş Prezident seçkilərinin nəticələri də sübut edir.

Biz Sizin Türkmənistana səmimi dostluq münasibətinizi yüksək qiymətləndiririk. Qəti əminəm ki, Türkmənistan–Azərbaycan əməkdaşlığı iki ölkə xalqlarının rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu! Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti vəzifədə bütün məqsədlərə nail olmağı, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və davamlı rifah arzu edirəm.

## UKRAYNANIN İRPEN ŞƏHƏRİNDƏKİ ZƏRİFƏ ƏLİYEVA ADINA HUMANİTAR «LİNQVİST» LİSEYİNİN DİREKTORU VALENTİNA ANTONENKODAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İcazə verin, Sizi böyük qələbə, Azərbaycan xalqının Sizə – görkəmli dövlət xadimi və zəmanəmizin müdrik siyasətçisinə, dahi valideynlərin – Heydər Əliyevin və Zərifə Əliyevanın dahi oğluna ölkənizə rəhbərliyi yenidən həvalə etmək kimi düzgün seçimi münasibətilə təbrik edim. Seçkilərdə Sizin qələbə qazanmağınız təbiidir, çünki Siz valideynlərinizdən nümunə götürərək xeyirxahlıq, insanlıq, ölkənizin və xalqınızın tərəqqisi naminə fəaliyyətinizi şərəflə davam etdirirsiniz.

Zati-aliləri! Qoy ölkəniz Sizin müdrik rəhbərliyinizlə gündən-günə daha gözəl və güclü olsun! Qoy böyük Allah Sizi bütün təşəbbüslərinizdə dəstəkləsin, qorusun və doğma Azərbaycan xalqının rifahı naminə yeni zəfərlərə aparsın!

İcazə verin qeyd edim ki, seçkilərdən əvvəlki günlərdə mən Sizin üçün, qələbəniz üçün dua edirdim. İstəyirəm biləsiniz ki, həmişə, ömrümün sonuna qədər Sizin qəlbinizin mərhəmətinə, uşaqlarımızın – Zərifə Əliyeva adına liseyin şagirdlərinin rifahı naminə köməyinizə görə minnətdar olacağam.

Möhtərəm cənab Prezident! Azərbaycan, Bakı, Naxçıvan həmişəlik mənim qəlbimdədir.

Sizi Prezident seçkilərində qələbə münasibətilə böyük sevinclə təbrik edirəm. Qoy böyük Allah Sizi qorusun və bu çox məsuliyyətli vəzifədə hələ uzun illər köməyiniz olsun!

Sizə və doğmalarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, şəxsən Sizə böyük qələbələr, mənəvi güc, əmin-amanlıq, səadət arzulayıram.

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN ÜZVLƏRİNDƏN

Zati-aliləri cənab Prezident!

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırırıq. Sizin liderliyiniz və Azərbaycanın inkişafına sadiqliyiniz həqiqətən də yüksək təqdirə layiqdir. Xalqınızın firavanlığı və dinc gələcəyi üçün göstərdiyiniz fədakarlığı yüksək qiymətləndiririk.

Azərbaycan xalqı demokratiya, institusional və iqtisadi inkişafa sadiqliyini bir daha nümayiş etdirərkən biz bu tərəqqi yolunda inamlı mübarizənin şahidi olmaqdan şərəf duyuruq.

Sizin Azərbaycanın gələcək inkişafı ilə bağlı planlarınız bizim hər birimizi ilhamlandırır. Sizin həmin planları həyata keçirməyə qadir olduğunuza əminik. Sizin prezidentliyiniz dövründə Azərbaycan uğurların və sabitliyin parlaq nümunəsinə çevrilmiş, regionda və onun hüdudlarından kənarda öz rolunu və əhəmiyyətini gücləndirmiş, ərazi bütövlüyünü bərpa etmişdir.

Müstəsna nailiyyətlərinizə, həm regional, həm də qlobal sülhə və sabitliyə olan sarsılmaz sədaqətinizə görə Sizi alqışlayırıq.

Biz daha sabit, dinc və qaydalara əsaslanan beynəlxalq nizamın təşviqinə birgə səylərimizlə töhfə verməkdən şərəf duyuruq.

Bu əlamətdar hadisə münasibətilə Sizi və Azərbaycan xalqını bir daha təbrik edirik. Biz inkişaf yolunda birlikdə davam etməyə ümidlə baxır və Qəyyumlar Şurasının üzvləri olaraq, bu ilin mart ayında XI Qlobal Bakı Forumunda Sizinlə görüşməyi səbirsizliklə gözləyirik.

## RUSİYA FEDERASİYASI İNQUŞETİYA RESPUBLİKASININ BİRİNCİ PREZİDENTİ, SOVET İTTİFAQI QƏHRƏMANI RUSLAN AUŞEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Seçkilərin yüksək nəticələri Sizin rəhbərliyinizlə aparılan, başlıca məqsədi Azərbaycanın birliyinin və ərazi bütövlüyünün möhkəmləndirilməsi, vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, sülhün və təhlükəsizliyin, ölkədə millətlərarası və konfessiyalararası münasibətlərin gücləndirilməsi olan düşünülmüş siyasi və iqtisadi dövlət kursuna ümumxalq dəstəyini bütün aşkarlığı ilə göstərdi.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsində müvəffəqiyyətlər, Azərbaycan xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ XUSRAV NOZİRİDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf hissi duyuram.

Azərbaycan xalqı zati-alinizin müdrik liderliyinə olan etimadı ilə parlaq və inkişaf etmiş gələcəyə doğru daha sürətlə irəliləyəcəkdir.

Bu fürsətdən istifadə edərək, İqtisadi Əməkdaşlıq Təşkilatının Azərbaycana verdiyi əhəmiyyəti bir daha qeyd edir, təşkilatın birgə işlənib hazırlanmış iqtisadi gündəliyinin irəliyə aparılmasında ölkənizin daim artan rolunu və töhfəsini xüsusi vurğulayıram.

İqtisadi Əməkdaşlıq Təşkilatının daha fəal olmasını və inteqrasiyasını təşviq etmək üçün məqsədlərimizin həyata keçirilməsində zati-alinizin davamlı dəstəyini və himayəsini səbirsizliklə gözləyirəm.

Zati-aliləri! Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## DÖVLƏTLƏRARASI AVİASİYA ŞURASININ PREZİDENTİ TATYANA ANODİNADAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində parlaq qələbəniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu qələbə cəmiyyətin sıx birliyinin və Azərbaycan xalqı arasında Sizin çox yüksək nüfuzunuzun parlaq sübutudur. Bu nəticə Sizin liderliyinizə Azərbaycan xalqının hüdudsuz etimadının sübutudur, əsası dahi Heydər Əliyev tərəfindən qoyulmuş və Sizin davam etdirdiyiniz siyasi kurs sayəsində bir çox sahələrdə, eləcə də regional və beynəlxalq müstəvidə əldə etdiyiniz heyrətamiz uğurlara verilən qiymətdir.

Mən Sizin qətiyyətinizə, yüksək siyasi mədəniyyətinizə və xalqınızın səsini eşitmək bacarığınıza həmişə heyran olmuşam. Bu liderlik keyfiyyətləri nəticəsində güclü, müstəqil, rəyi ilə bütün dünyada hesablaşılan dövlət qurulub, mənim sevimli Azərbaycanımın ərazi bütövlüyü bərpa edilib, Sizin ölkənizdə bütün sahələrdə genişmiqyaslı islahatlar və quruculuq işləri aparılır.

Əziz İlham Heydər oğlu! Sizə bütün təşəbbüslərinizin reallaşmasında yeni böyük uğurlar, rifah və firavanlıq arzulayıram.

Əminəm ki, Sizin və mənim sevimli Azərbaycanımın başı üzərində səma hər zaman dinc və aydın olacaq.

Ən yüksək ehtiramımı qəbul edin.

## XORVATİYANIN BAŞ NAZİRİ ANDREY PLENKOVİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Xorvatiya Respublikasının Hökuməti adından və şəxsən öz adımdan yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Ötən 30 il ərzində Xorvatiya və Azərbaycan yüksək səviyyəli ikitərəfli əməkdaşlığa nail olub. Mən şadam ki, 2023-cü ilin noyabrında Bakıda keçirdiyimiz görüş zamanı əlaqələrimizi, xüsusilə ticarət və enerji təhlükəsizliyi sahələrində ümumi əməkdaşlığımızı müzakirə etmək fürsətimiz oldu.

Qarşıdakı illərdə Sizinlə və Azərbaycan Respublikasının Hökuməti ilə siyasi, iqtisadi və mədəni münasibətlərin daha da inkişafına nail olmaq üçün sıx işləməyə sadiqliyimizi bildirirəm.

Azərbaycan xalqının rifahı naminə gələcək fəaliyyətinizdə Sizə böyük uğurlar arzu edirəm.

Cənab Prezident, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

## 2018–2019-cu İLLƏRDƏ RUMINİYANIN BAŞ NAZİR MÜAVİNİ VƏ ƏDLİYYƏ NAZİRİ, NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN ÜZVÜ ANA BİRÇALDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Mən Rumıniya Baş Nazirinin strateji tərəfdaşlıqlar və xüsusi əlaqələr üzrə müavini vəzifəsində çalışarkən ölkələrimiz arasında güclü strateji tərəfdaşlığın şahidi olmuşam. Sizin liderliyiniz bu münasibətlərin daha da möhkəmlənməsində mühüm rol oynayıb və əminəm ki, əlaqələrimiz yeni dövrdə də inkişaf etməkdə davam edəcəkdir.

Seçkilərdəki qələbəniz Azərbaycan xalqının Sizin strategiya və liderliyinizə olan inam və etimadının göstəricisidir. Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi inkişaf, beynəlxalq münasibətlər sahələrində mühüm nailiyyətlər əldə etmiş, vətəndaşların firavanlığı daha da yüksəlmiş, ölkənin ərazi bütövlüyü bərpa edilmiş və dünyada nüfuzu artmışdır. Bu nailiyyətlər Sizin ölkənizin tərəqqisinə sadiqliyinizi nümayiş etdirməklə yanaşı, Rumıniya ilə Azərbaycan arasında ortaq əməkdaşlıq ruhuna mühüm töhfə verir.

Gələcəyə baxarkən mən Sizin liderliyinizlə ölkələrimiz arasındakı əməkdaşlıq imkanları barədə nikbin düşünürəm. Rumıniya–Azərbaycan strateji tərəfdaşlığı regionlarımızda sabitlik, tərəqqi və sülh üçün möhkəm zəmindir. Ortaq strateji layihələrimizi daha da inkişaf etdirmək üçün Sizinlə sıx işləməkdə davam etməyə ümidvaram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**TÜRKSOY-un BAŞ KATİBİ SULTAN RAEVDƏN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasında 2024-cü il fevralın 7-də yüksək səviyyədə keçirilmiş Prezident seçkilərində inamlı qələbəniz münasibətilə zati-alinizi TÜRKSOY-un Baş Katibliyi, Türk Dövlətləri Mədəniyyət nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı bildirməkdən məmnunluq duyuram.

Seçkilərdə Azərbaycan xalqının Sizin namizədliyinizi hərtərəfli dəstəkləməsi ölkənin ərazi bütövlüyünü tam bərpa etmiş və tarixi ədaləti bərqərar etmiş Ali Baş Komandanına və müdrik liderinə sonsuz inamının əyani təzahürüdür.

Zati-alinizin zəngin təcrübəsinin və müdrik siyasətinin yeni dönəmdə də Azərbaycanın tərəqqisinə və xalqın rifahına böyük töhfə verəcəyinə, TÜRKSOY ilə Azərbaycan Respublikası arasındakı məhsuldar əməkdaşlığın və mədəni əlaqələrin daha da genişlənərək inkişaf edəcəyinə inanıram.

Əminəm ki, beynəlxalq TÜRKSOY təşkilatının üzv ölkələrimiz arasında mədəni əlaqələrin inkişaf etdirilməsi və Türk Dünyasının ayrılmaz parçası olan Azərbaycanın zəngin mədəniyyətinin dünyada

tanıdılması istiqamətində apardığı fəaliyyətlər bundan sonra daha geniş vüsət alacaqdır.

TÜRKSOY-a diqqətini və dəstəyini əsirgəməyən zati-alinizi bu mühüm qələbə münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə və ailənizə möhkəm cansağlığı, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı tərəqqi arzulayıram.

**DÜNYA AXISKA TÜRKLƏRİ BİRLİYİNİN BAŞ DİREKTORU ZİYƏDDİN KASSANOVDAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Sizi növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Bu böyük zəfər təkcə bir seçkinin nəticəsi deyil. Bu eyni zamanda, ölkənizin demokratiyanın inkişafında mühüm uğurlarını və xalqınızın Sizə etimadını aşkar surətdə nümayiş etdirdi. Seçkilərin nəticəsi həm də Azərbaycan xalqının Sizin liderliyiniz ətrafında sıx birləşdiyini və parlaq gələcək üçün inamla irəlilədiyini göstərdi. Bu qələbə Azərbaycanın milli birliyini gücləndirməklə yanaşı, ölkənizin beynəlxalq aləmdəki rolunu daha da artıracaqdır.

Möhtərəm cənab Prezident! Siz hər zaman ölkənizin sabitliyi və inkişafı naminə çalışaraq öz qətiyyətinizlə fərqlənmisiniz. Seçkilərdəki mühüm qələbəniz münasibətilə Sizi Dünya Axıska Türkləri Birliyi və Azərbaycanda yaşayan 100 min axıska türkü adından ən səmimi hisslərimlə təbrik edir, prezidentliyinizin yeni dövründə Sizə böyük nailiyyətlər, Azərbaycana rifah dolu gələcək arzulayıram.

## MOLDOVANIN QAQAUZİYA MUXTAR ƏRAZİ QURUMUNUN (QAQAUZ YERİ) RƏHBƏRİ YEVGENİYA QUTSULDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Bütün qaqauz xalqı adından və şəxsən öz adımdan Sizə ehtiramımı bildirirəm və ölkənizin müstəqilliyi dövründə ilk dəfə olaraq Azərbaycanın bütün ərazisində keçirilmiş Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqı tərəfindən Sizə göstərilən bu etimad yüksək peşəkarlığınızın və şəxsi keyfiyyətlərinizin, eləcə də ölkə əhalisi arasında qeyd-şərtsiz nüfuzunuzun təsdiqidir.

Uzun illər ərzində Siz özünüzü Azərbaycan xalqının mədəniyyətini və tarixini, milli maraqlarını qoruyub saxlayaraq, sosial-iqtisadi inkişafı təmin edərək, ölkəni mütərəqqi inkişaf yolu ilə irəliyə aparan alicənab və müdrik lider kimi göstərmisiniz. Sizin səyləriniz nəticəsində bu gün Azərbaycan ən inkişaf etmiş ölkələrdən biridir və onun beynəlxalq miqyasda nüfuzu ildən-ilə artır.

Qardaş xalqlarımız arasında münasibətləri yüksək qiymətləndiririk və Qaqauziya Muxtariyyətinə diqqətinizə görə Sizə minnətdarıq. İnanırıq ki, gələ-

cək əməkdaşlığımız müxtəlif birgə layihələrdə öz əksini tapacaq.

Çox hörmətli cənab Prezident! Sizə dərin hörmətimi bildirirəm, möhkəm cansağlığı, tükənməz enerji və yeni uğurlar arzu edirəm. Biz Sizi Qaqauz torpağında görməyə həmişə şad olacağıq.

Sizə və bütün Azərbaycan xalqına sülh, tərəqqi və firavanlıq arzu edirəm.

## BRAZİLİYA FEDERAL KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASININ DEPUTATI, BRAZİLİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN HƏMSƏDRİ KLAUDİO KAJADODAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik etməkdən məmnunam. Seçkilərin demokratik, qanuni şəkildə keçirildiyini beynəlxalq müşahidəçilər, o cümlədən səsvermə prosesini izləyən Braziliya Federal Senatından iki həmkarım da təsdiq etdi. Sizin Azərbaycana rəhbərliyiniz dövründə ölkənin tərəqqisinin, iqtisadi və sosial inkişafının, müxtəlif sahələrdə qazanılan uğurların davamlı olacağına inanıram.

Braziliya Federal Konqresində parlamentlərarası dostluq qrupunun həmsədri olaraq, ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni əməkdaşlığın, eləcə də parlamentlərarası əlaqələrin dərinləşməsi üçün səylərimi əsirgəməyəcəyəm.

Sizi bir daha təbrik edirəm, cənab Prezident.

## NİKARAQUA PREZİDENTİ DANİEL ORTEQA SAAVEDRA VƏ VİTSE-PREZİDENT ROSARİO MURİYODAN

Möhtərəm İlham Heydər oğlu!

Zati-aliləri əziz dostumuz!

Nikaraqua hökuməti və xalqı adından Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirik.

Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan dövləti və xalqı dünyada mövcud olan çağırışların dialoq və konsensus yolu ilə həllinə bundan sonra da öz töhfəsini verəcəkdir.

Bizi tarixən birləşdirən dostluğumuzu, elm, sosial, mədəniyyət, siyasət sahələrində əməkdaşlığımızı, həmrəyliyimizi möhkəmləndirməyi davam etdirməyə ümidvarıq. Sizi bir daha qələbəniz münasibətilə təbrik edir, dövlətinizə və xalqınıza səmimi arzularımızı çatdırırıq.

## DÖVLƏTLƏRARASI AVİASİYA KOMİTƏSİNİN SƏDRİ OLEQ STORÇEVOYDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Dövlətlərarası Aviasiya Komitəsinin adından və şəxsən öz adımdan növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimizi qəbul edin.

Bu qələbə Azərbaycan xalqının Sizə, siyasi sabitlik və sosial-iqtisadi inkişaf istiqamətində həyata keçirdiyiniz kursa olan sonsuz etimadının göstəricisidir. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dünyada ən mütərəqqi dövlətlərdən birinə çevrilib.

İcazə verin, Sizə yeni-yeni uğurlar və Azərbaycan Respublikasının inkişafı naminə ali dövləti fəaliyyətinizdə daha böyük nailiyyətlər arzulayım.

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ HÜSEYN İBRAHİM TAHADAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Azərbaycan Respublikası ilə İslam Əməkdaşlıq Təşkilatı arasında mövcud olan möhkəm əlaqələri qeyd etməkdən məmnunam. Sizi əmin etmək istəyirəm ki, bu əlaqələri qarşılıqlı faydamız naminə genişləndirməkdə qətiyyətliyəm.

Mən qadir Allaha dua edirəm ki, qüdrətli ölkənizin inkişafı üçün göstərdiyiniz nəcib səylərinizdə zati-alinizə uğurlar bəxş etsin.

Cənab Prezident, xahiş edirəm Sizə ən yüksək ehtiramımı qəbul edin.

**ATƏT-in BAŞ KATİBİ
HELQA MARİA ŞMİDDƏN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırmaq və fürsətdən istifadə edib yeni səlahiyyət müddətinizdə müvəffəqiyyətlər arzu etmək istərdim.

Daha təhlükəsiz və firavan ATƏT regionu naminə birgə fəaliyyətimizi davam etdirməyi səbirsizliklə gözləyirəm. Bu baxımdan, qarşıdan gələn Münhen Təhlükəsizlik Konfransı zamanı Sizi yenidən görmək və təbriklərimi şəxsən çatdırmaq fürsətinə malik olacağıma ümid edirəm.

Azərbaycan və ATƏT arasında mövcud olan uzunmüddətli əməkdaşlığın qarşıdakı aylar ərzində inkişaf etməkdə və möhkəmlənməkdə davam edəcəyinə inanıram.

Zati-aliləri, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## BOLQARISTAN PREZİDENTİ RUMEN RADEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Xahiş edirəm Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edəsiniz.

Bu, Prezident olaraq Sizin ötən illər ərzində Azərbaycan xalqı və dövləti üçün göstərdiyiniz xidmətdə qazandığınız uğurun sübutudur. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da hərtərəfli inkişaf etməkdə davam edəcəkdir.

Bu fürsətdən istifadə edərək, fəal və konstruktiv ikitərəfli dialoqdan məmnunluğumu ifadə edir, həmçinin ölkələrimiz arasında uğurlu strateji tərəfdaşlığın gələcəkdə daha da inkişaf edərək dərinləşəcəyinə əminliyimi bildirirəm.

Cənab Prezident! Sizə möhkəm cansağlığı və Azərbaycan Respublikasını daha da inkişaf etdirmək, dost Azərbaycan xalqının rifahını yüksəltmək naminə ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər arzu edirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN BAŞ KATİBİ SERGEY LEBEDEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Bakıdan Moskvaya qayıdarkən Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə bir daha səmimi-qəlbdən təbrik etmək istədim.

MDB müşahidəçiləri missiyasının rəhbəri kimi, növbəti dəfə ölkənizin vətəndaşlarının böyük əksəriyyətinin Sizə yüksək etimadının şahidi oldum.

Qəti əminəm ki, Sizin dövlət başçısı vəzifəsində fəaliyyətiniz gələcəkdə də Azərbaycan Respublikasının ardıcıl inkişafına, onun beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə, həmçinin Müstəqil Dövlətlər Birliyi məkanında inteqrasiya proseslərinin dərinləşməsinə kömək edəcəkdir.

Fürsətdən istifadə edərək, seçki kampaniyasına hazırlıq və seçkilərin keçirilməsinin bütün mərhələlərində səmərəli monitorinqi həyata keçirməyə imkan verən MDB müşahidə missiyasının fəaliyyəti üçün yaradılmış əlverişli şəraitə görə minnətdarlığımı bildirirəm.

Prezident seçkilərində qələbəniz münasibətilə Sizi bir daha təbrik edir, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləklərimi əlavə etmək istəyirəm.

**FƏLƏSTİN PREZİDENTİ,
FƏLƏSTİN AZADLIQ TƏŞKİLATI
İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ
MAHMUD ABBASDAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Növbəti müddətə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə həvalə olunmuş ali vəzifənizin icrasında, ölkənizi və xalqınızı məqsəd və arzularına doğru aparmağınızda davamlı müvəffəqiyyətlər arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ikitərəfli münasibətlərimizdən qürur duyduğumu, ölkələrimizin və xalqlarımızın rifahı naminə onu gücləndirmək və inkişaf etdirmək üçün birgə işimizi davam etdirmək niyyətində olduğumu və Fələstinin haqq işi ilə bağlı mövqenizə görə minnətdarlığımı bildirirəm.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, ölkənizin və xalqınızın tərəqqisi və firavanlığı üçün ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

**TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ AĞSAQQALLAR ŞURASININ SƏDRİ, NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN ÜZVÜ BİNƏLİ YILDIRIMDAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikasının Prezidenti seçkilərində parlaq qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimi, qardaş Azərbaycan xalqına sülh və rifah arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycanın azad edilmiş ərazilərində ilk dəfə keçirilməsi baxımından tarixi önəm daşıyan bu seçkilər Azərbaycan xalqının dəyərlərə bağlılığını, cəsarətini və müdrikliyini bir daha nümayiş etdirdi.

Zati-alinizə nailiyyətlər arzulayır, uca Allahdan seçkilərin nəticələrinin Azərbaycan xalqı və bütün Türk Dünyası üçün xeyirli olmasını diləyirəm.

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN DÖVLƏT DUMASININ KOMİSSİYA SƏDRİ, ÜMUMHƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ BAŞ KATİBİ VİKTOR PİNSKİDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm.

Sizin fəaliyyətiniz və səyləriniz seçicilər tərəfindən layiqincə qiymətləndirildi. Siz ölkənin və onun vətəndaşlarının rifahı, əmin-amanlığı naminə fəaliyyət göstərən əsl lidersiniz.

Sizə möhkəm cansağlığı, bütün təşəbbüslərinizdə uğurlar arzulayıram.

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT MƏCLİSİNİN BAŞ KATİBİ ASƏF HACIYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Sizi 2024-cü il fevralın 7-də Azərbaycanda keçirilmiş Prezident seçkilərində parlaq qələbəniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz müstəqil Azərbaycan Respublikasının tarixinə yeni səhifə yazaraq, ölkəmizin bütün ərazisində keçirilmiş seçkilərdə ilk Prezidenti oldunuz.

Torpaqlarımızın azad olunması, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpa edilməsi məhz Sizin rəhbərliyinizlə həyata keçdi və bütün bunlar Sizin adınızla bağlıdır. Sizin rəhbərliyinizlə müasir ordu quruldu, ölkəmizin iqtisadiyyatı bölgədə aparıcı iqtisadiyyata çevrildi və Azərbaycan lider dövlətlər sırasına daxil oldu.

Bu qələbəni Siz qalib Prezident kimi qazandınız. İnanıram ki, Sizin rəhbərliyinizlə Azərbaycan yeni uğurlara nail olacaq, zəngin mədəniyyəti olan ölkəmizin dünyada nüfuzu daha da artacaq.

Möhtərəm cənab Prezident! Sizi bir daha parlaq qələbə münasibətilə təbrik edir, möhkəm cansağlığı və ölkəmizi yüksək zirvələrə aparan yolda böyük uğurlar arzulayıram.

## QIRĞIZISTANDAKI AVRASİYA UŞAQ HƏKİMLƏRİ FEDERASİYASININ PREZİDENTİ KAMÇİBEK UZAKBAYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Avrasiya Uşaq Həkimləri Federasiyasının üzvləri adından və şəxsən öz adımdan növbədənkənar seçkilərdə inamlı qələbəniz və yeni müddətə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

Biz dost və böyük ölkə olan Azərbaycanda seçkilərin gedişini diqqətlə izləyirdik və şübhə etmirdik ki, Azərbaycanın müdrik xalqı bu taleyüklü gündə düzgün seçim edəcək. Xalq yenidən əsl vətənpərvər, dünya miqyaslı rəhbər, dahi lider, müasir Azərbaycanın banisi Heydər Əliyevin davamçısını seçdi.

Biz Azərbaycanın nailiyyətləri ilə həmişə fəxr etmişik. Zati-alinizin uğurlu liderliyi ilə atılan inamlı addımlar sayəsində torpaqlar işğaldan tamamilə azad olundu. Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, həyata keçirdiyiniz Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi onun təkcə Türk Dünyasında deyil, həm də beynəlxalq arenada mövqelərinin gücləndirilməsi kursuna ümumxalq dəstəyini tam şəkildə təsdiq etdi.

Əminəm ki, Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq əlaqələri və həmrəylik gələcəkdə də münasibətlərimizin inkişafına kömək edəcək. Qardaş Azərbaycan xalqının Sizi yenidən öz lideri seçməsi təkcə türk dövlətləri arasında münasibətlərin inkişafı deyil, eyni zamanda, uzun illər sülhə və sabitliyə ehtiyacı olan Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərqərar olması baxımından da böyük nailiyyətdir.

Bu yaxınlarda Qırğızıstanda «Müzəffər Ali Baş Komandan: Əziz Şuşa, sən azadsan!» kitabının təqdimatında iştirak etdim. Bu kitabı oxuduqdan sonra bir daha Sizinlə fəxr etdim.

Qırğızıstanda Azərbaycanın ümummilli lideri Heydər Əliyevin zəngin irsi geniş təbliğ olunur. Biz qərara gəldik ki, Heydər Əliyevin 100 illiyinə həsr olunmuş «Xalqa bağışlanmış ömürdən anlar» kitabını qırğız dilinə tərcümə edək.

Bütün mütərəqqi insanlar Sizin həyata keçirdiyiniz strategiyanı və Azərbaycan dövlətinin möhkəmlənməsini dəstəkləyir. Bu düşüncələrlə arzu edirəm ki, seçkilərdə Sizin qələbəniz qardaş Azərbaycan xalqının, eyni zamanda, regionumuzun rifahına xidmət etsin.

Sizə ali dövləti vəzifənizdə yeni-yeni uğurlar diləyirəm.

## RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ RƏİSİ RÜSTƏM MİNNİXANOVDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbəniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu seçkilərin yekunları Sizin ölkə vətəndaşları arasında danılmaz nüfuzunuzu, onların rəhbərliyinizlə fəal çalışmağa və strateji sosial-iqtisadi vəzifələri həll etməyə hazır olduqlarını göstərdi. Vətəndaşlarınız Sizə dövlətin taleyini və öz gələcəklərini etibar ediblər. Bu, hazırkı qlobal qeyri-sabitlik şəraitində xüsusilə qiymətlidir və Sizin güclü, təcrübəli dövlət xadimi, uzaqgörən, istedadlı siyasətçi kimi möhkəm nüfuzunuzun parlaq təsdiqidir. Sizə səmimi-qəlbdən böyük nailiyyətlər və Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişafı üzrə bütün strateji məqsədlərə nail olmağı, xalqınızın rifahı naminə davamlı fəal işinizdə enerji və ruh yüksəkliyi arzulayıram.

Ümidvaram ki, bizim birgə səylərimiz sayəsində Rusiya–Azərbaycan münasibətləri çərçivəsində Tatarıstan ilə Azərbaycan arasında ənənəvi qarşılıqlı faydalı əməkdaşlığın çoxtərəfli potensialı gələcəkdə də məhsuldar şəkildə həyata keçiriləcək. Əminəm

ki, qardaş xalqlarımız arasında çoxplanlı sıx əlaqələr ümumilikdə sülhün və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə olan mühüm töhfədir.

Sizə möhkəm cansağlığı, uğurlar və səadət diləyirəm.

## BMT-nin SİVİLİZASİYALAR ALYANSININ ALİ NÜMAYƏNDƏSİ MİGEL ANXEL MORATİNOSDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Seçkilərdə qazandığınız qələbə və yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Seçkilərin nəticələri Azərbaycan xalqının zati-alinizin liderliyinə, eləcə də birliyi, tərəqqini və sülhü möhkəmləndirmək qətiyyətinə davamlı dəstəyini və inamını nümayiş etdirdi.

Bu fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, BMT-nin Sivilizasiyalar Alyansı (UNAOC) dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi ilə bağlı hökumətin irəli sürdüyü müxtəlif təşəbbüslərdə, o cümlədən «Bakı prosesi»ndə Azərbaycanın uzunmüddətli tərəfdaşı olmaqda davam edir. UNAOC 2024-cü ilin mayında Bakıda keçirilməsi nəzərdə tutulan 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun beynəlxalq İşçi Qrupunun üzvüdür. Komandamız artıq proqram üzrə əsas məsləhətləşmələrə başlayıb və 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda UNAOC-u şəxsən təmsil etməyi, müzakirələrə qatılmağı və uğurlu nəticələr əldə olunmasına töhfə verməyi səbirsizliklə gözləyirəm.

UNAOC Xarici İşlər, Mədəniyyət nazirlikləri və Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəliyi ilə sıx əlaqədə işləyərək, əməkdaşlığın və Azərbaycan hökuməti ilə birgə fəaliyyətin daha da möhkəmləndirilməsinə sadiq olduğunu bildirir.

Bu fürsətdən istifadə edərək, zati-alinizə ən yüksək ehtiramımı ifadə edirəm.

**ASİYADA QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMAD TƏDBİRLƏRİ ÜZRƏ MÜŞAVİRƏNİN BAŞ KATİBİ KAYRAT SARIBAYDAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram. Bu əlamətdar hadisə Azərbaycan xalqının Sizin liderliyinizə göstərdiyi davamlı inam və etimadı bir daha nümayiş etdirdi.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan böyük nailiyyətlər əldə edib. Uğurlu siyasətiniz ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu təməllər üzərində müstəqil, suveren, müasir Azərbaycanın sürətli inkişafına gətirib çıxarıb.

Azərbaycanın beynəlxalq əlaqələrdə həm regional, həm də qlobal səviyyədə artan rolu və nüfuzunu yüksək qiymətləndirirəm. Azərbaycanın «Qoşulmama Hərəkatı»na uğurlu sədrliyi və qarşıdan gələn BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi ölkənin aktual qlobal çağırışların həllində hərtərəfli yanaşmanın tərəfdarı olduğunu nümayiş etdirir.

Bundan əlavə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə göstərdiyiniz da-

vamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm. Zati-alinizin regionda əməkdaşlığın və dialoqun möhkəmləndirilməsinə sadiqliyi həqiqətən də təqdirəlayiqdir. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin gündəliyindəki müxtəlif məsələlər üzrə, xüsusilə də Azərbaycanın əlaqələndirici kimi fəaliyyətdə olduğu təhlükəsiz və səmərəli nəqliyyat dəhlizi sistemlərinin inkişaf etdirilməsi sahəsində əməkdaşlığımızı davam etdirməyi səbirsizliklə gözləyirəm.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar və firavanlıq arzulayıram. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan inkişaf yolunu davam etdirəcək, ölkədə və regionda dayanıqlı sülhə və tərəqqiyə bundan sonra da töhfə verəcəkdir.

**MƏRMƏRƏ QRUPU STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ AKKAN SUVERDƏN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycanda keçirilmiş Prezident seçkilərində qazandığınız böyük qələbə münasibətilə Mərmərə Qrupu Vəqfi olaraq, zati-alinizi Türkiyənin vətəndaş cəmiyyəti adından təbrik edirik.

Bu seçkilər müəllifi olduğunuz Qarabağ dastanından sonra yeni bir demokratiya dastanıdır.

Biz bu seçkilərə əhəmiyyət veririk. Çünki Azərbaycan üçün önəmli olan bu seçkilər həm də Türk Dünyası üçün mühüm sabitlik, həmrəylik və birlik nümunəsi oldu.

Zati-alinizi bir daha təbrik edirik.

## MDB PARLAMENTLƏRARASI ASSAMBLEYASI ŞURASININ BAŞ KATİBİ DMİTRİ KOBİTSKİDƏN VƏ BAŞ KATİBİN MÜAVİNİ AYDIN CƏFƏROVDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurasının Katibliyi adından Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirik.

Prezident seçkilərində inamlı qələbəniz vətəndaşların Sizə yüksək etimadının və Azərbaycan xalqının yekdil dəstəyinin parlaq sübutudur.

İnanırıq ki, Sizin fəaliyyətiniz gələcəkdə də əmin-amanlığa və Azərbaycanın tərəqqisinə, bütün dünyada nüfuzunun möhkəmlənməsinə kömək edəcək.

Sizə – görkəmli dövlət xadiminə möhkəm cansağlığı və bu məsuliyyətli vəzifədə yeni məhsuldar fəaliyyət arzulayırıq.

**MOLDOVA PREZİDENTİ
MAYA SANDUDAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizə və Azərbaycan xalqına sülh, firavanlıq arzulayıram.

Ümidvaram ki, Moldova Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud olan, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan ənənəvi dostluq münasibətləri bundan sonra da ölkələrimizin əməkdaşlığının inkişafı üçün əsas təşkil edəcək.

Dövlətlərimiz arasında siyasi dialoqun konstruktiv xarakterini vurğulamaq və ölkəmin ikitərəfli münasibətlərin dərinləşməsinə açıq olduğunu təsdiqləmək istərdim. Əminəm ki, biz birgə səylərlə ölkələrimizin vətəndaşlarının mənafeyi naminə iqtisadi-ticari, investisiya, enerji və kənd təsərrüfatı sahələrində Moldova–Azərbaycan əməkdaşlığını daha da intensivləşdirə biləcəyik.

Zati-aliləri! Ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar və nailiyyətlər arzulayır, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## BOSNİYA VƏ HERSEQOVİNANIN SERB RESPUBLİKASININ PREZİDENTİ MİLORAD DODİKDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

İcazə verin, ölkənizdə keçirilmiş Prezident seçkilərində tarixi qələbəniz və aşkar zəfəriniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırım. Bu, siyasi, iqtisadi daxil olmaqla, Sizin hər bir strategiyanızın doğru olduğunu təsdiq edən parlaq qələbədir. Azərbaycan Respublikasını möhkəm addımlarla sabit və firavan gələcəyə aparmaqda xalqınızın Sizə və Sizin müdrikliyinizə inamı və etimadı vardır.

Cənab Prezident, seçicilərin bu qərarı təkcə Azərbaycan və onun xalqı üçün deyil, habelə bütün regionda və dünyada sülh uçun önəmlidir.

Biz Serb Respublikasında Azərbaycandakı seçki kampaniyasını və seçkilərin nəticələrini diqqətlə izlədik və mən birmənalı olaraq dəstəyimi və Sizin qalib gələcəyinizə dair ümidimi açıq şəkildə ifadə etdim.

Zati-aliləri! Azərbaycan Respublikasının möhtərəm Prezidenti! Fürsətdən istifadə edərək, Sizi növbəti yeddiillik prezidentlik müddətiniz münasibətilə bir daha təbrik edirəm.

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SERB ÜZVÜ JELKA TSVİYANOVİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan, vətəndaşlarınız və ölkəniz üçün faydalı işlərdə uğurlar arzulamaqdan məmnunluq duyuram.

Azərbaycan xalqının Sizə göstərdiyi etimad əvvəlki dövrdə görülən müsbət və məsuliyyətli işin, ölkənizin tərəqqisinin, sabitliyinin və firavanlığının gələcəkdə də davam etməsi istəyinin təsdiqidir.

Əminəm ki, mandatınız çərçivəsində Bosniya və Herseqovina Serb Respublikası və Azərbaycan Respublikası arasında mehriban münasibətlər bundan sonra da dostluq şəraitində inkişaf edəcək, əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın qarşılıqlı rifahı naminə daha da yaxşı və səmərəli olacaqdır.

Zati-aliləri! Sizi seçkilərdə qələbəniz münasibətilə bir daha təbrik edir, möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

## QIRĞIZ PREZİDENTİ SADIR JAPAROVDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Seçkilərdə qələbəniz Azərbaycan xalqı tərəfindən Sizin fədakar əməyinizə və dövlət suverenliyinin möhkəmləndirilməsi, əhalinin rifah halının yüksəldilməsi, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev tərəfindən əsası qoyulmuş müstəqil və açıq xarici siyasətin davam etdirilməsi üzrə Sizin səylərinizə hörmətin və dəstəyin bariz nümunəsi oldu.

Hazırda strateji xarakter daşıyan Qırğızıstan–Azərbaycan dostluq münasibətlərinin inkişafına Sizin şəxsi töhfənizi bizim ölkəmizdə yüksək qiymətləndirirlər.

Ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın dərinləşməsi üzrə birgə səylərimizi davam etdirməyə hazır olduğumuzu bir daha təsdiqləyirəm.

Sizə möhkəm cansağlığı, qardaş Azərbaycanın rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**ALBANİYANIN BAŞ NAZİRİ
EDİ RAMADAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Sizin seçkilərdəki uğurunuz və Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz Sizə ən xoş arzularımı və ən səmimi təbriklərimi çatdırmaq üçün gözəl fürsətdir. Bu fürsətdən istifadə edərək, Sizə Albaniya hökuməti adından və şəxsən öz adımdan aramızdakı yüksək səviyyəli dialoqa və iqtisadiyyatlarımız üçün, xüsusilə enerji və turizm kimi əhəmiyyətli sahələrdə əməkdaşlığa görə minnətdarlığımı bildirirəm.

Qəti şəkildə inanıram ki, Sizin yeni prezidentlik mandatınız dost ölkələrimiz arasındakı münasibətlərə yeni təkan olacaq. Həmçinin Albaniya Respublikasının tezliklə Bakıda səfirliyinin açılması aramızdakı kommunikasiyanın daha da sürətlənməsinə töhfə verəcək.

Bir daha ən xoş arzularımı çatdırıram.

Zati-aliləri! Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU MÜRREY AUKİNKLOSDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə *bp* şirkəti adından Sizə səmimi təbriklərimi çatdırıram. Azərbaycan xalqının rifahının yaxşılaşması istiqamətində bütün səylərinizdə Sizə uğurlar arzulayıram.

Bu fürsətdən istifadə edərək, bizim Azərbaycandakı enerji layihələrinə *bp*-nin davamlı sadiqliyini bir daha vurğulamaq istəyirəm.

*bp* şirkəti olaraq, biz Azərbaycan hökuməti və SOCAR ilə uzunmüddətli tərəfdaşlığın daha da möhkəmlənəcəyinə ümidvarıq.

Zati-aliləri! Sizi bir daha səmimi-qəlbdən təbrik edirəm və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Tezliklə Sizinlə Bakıda görüşməyi səbirsizliklə gözləyirəm.

**RUSİYA FEDERASİYASININ DAĞISTAN RESPUBLİKASI XALQ MƏCLİSİNİN SABİQ SƏDRİ XIZRI ŞIXSƏİDOVDAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Müdrik xalqınızın Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçəcəyinə şübhə yox idi. Siz titanik səyləriniz və müdrik dövlət xadiminə məxsus şəxsi keyfiyyətləriniz sayəsində ulu öndər Heydər Əliyevin bütün vəsiyyətlərini həyata keçirməyi bacardınız. Hesab edirəm ki, digər ölkə liderlərinin Sizdən örnək götürmələrinə dəyər.

Sizi təbrik edirəm və işlərinizdə uğurlar arzulayıram.

## İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI GƏNCLƏR FORUMUNUN PREZİDENTİ TAHA AYHANDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu (İƏTGF) adından zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf hissi duyuruq.

Siz İƏT ölkələri gənclərinin inkişafına və onların birliyinin möhkəmlənməsinə davamlı şəkildə diqqət göstərirsiniz. Bunun bariz nümunələrindən biri 2004-cü ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Təsis Baş Assambleyasının keçirilməsi, həmçinin İƏTGF-in Avrasiya Regional Mərkəzinin ofisinin Bakıda yerləşməsidir.

Bu, regionumuzun liderləri üçün bir nümunədir və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun İƏT-in nəzdində fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilat kimi institutlaşmasına və inkişafına təkan verir. İƏTGF olaraq biz zati-alinizin etimadı, dəstəyi və liderliyindən qürur hissi duyuruq, fədakarlığınızı yüksək qiymətləndiririk.

Biz Şuşanın yekdilliklə İƏT-in 2024-cü il üzrə Gənclər paytaxtı seçilməsinin tarixi əhəmiyyətini böyük məmnunluq hissi ilə qeyd edirik. Bu mühüm

nailiyyət zati-aliniz tərəfindən nümayiş etdirilən müdrik və nümunəvi rəhbərliyin daha bir təsdiqidir. Şuşanın Sizin rəhbərliyinizlə işğaldan azad edilməsi cəsarətin, fədakarlığın, həmçinin sülh, birlik və tərəqqi prinsiplərinə davamlı sədaqətin təntənəsinin rəmzidir. Sizin uzaqgörən siyasətiniz Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı mürəkkəb məsələlərin həllində çox mühüm rol oynayıb. Qazanılmış nailiyyətlər zati-alinizin müdrikliyinin və strateji baxışının göstəricisidir. Bütün bunlar regionda sabitliyin və rifahın möhkəmləndirilməsinə böyük töhfə verir.

Qarabağ bölgəsinin, xüsusən də Xankəndi şəhərinin əhalisinə 30 ildən artıq müddətdə ilk dəfə seçkilərdə iştirak etmək üçün fundamental hüquqlarından istifadə imkanını təmin etdiyiniz üçün zati-alinizə səmimi təşəkkürümüzü bildiririk.

Demokratik prinsiplərin dəstəklənməsi və vətəndaşların cəmiyyətin həyatında fəal iştirakının təşviqi ilə bağlı gördüyünüz işlər bütün dünyada gənclər üçün ilham mənbəyidir.

Gənclərimiz üçün daha parlaq və firavan gələcəyə doğru addım atarkən üzv dövlətlərimiz arasında əməkdaşlığı dərinləşdirmək və dostluq əlaqələrini möhkəmləndirmək əzmimizə sadiq qalırıq. Sizin liderliyiniz, gənclərin inkişafına, onların arzularının reallaşmasına dəstəyiniz dayanıqlı inkişaf üçün birgə səylərimizdə bizi daha da ruhlandırır.

İƏT həmrəyliyinin təşviqi və Azərbaycan xalqının inkişafı istiqamətində nəcib səylərinizdə zati-alinizə uğurlar arzu edirik.

Sizə və doğmalarınıza möhkəm cansağlığı, firavanlıq diləyirik.

Möhtərəm Prezident! Ən yüksək ehtiramımızı və xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

## «İSRAİLİN DOSTLARI» XARİCDƏ YAŞAYAN HƏMVƏTƏNLƏR FEDERASİYASININ PREZİDENTİ ALEKSANDR ŞAPİRO-SULİMANDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Prezident seçkilərində möhtəşəm qələbəniz münasibətilə Sizi təbrik edirəm. Sizə artıq Türk Dünyasının Milli Qəhrəmanı deyə müraciət edə bilərik. Bu qələbə xalqın Sizə olan böyük hörmətinin, ehtiramının və inamının göstəricisidir.

Siz son 20 illik fəaliyyətinizlə dövlətinizi dünyada böyük nüfuz və söz sahibinə çevirdiniz. Siz on milyonlarla azərbaycanlının 30 illik Qarabağ həsrətinə elə bir ustalıqla son qoydunuz ki, bütün dünya buna heyran oldu, dostlar sevindilər, düşmənlər isə hikkələrindən boğuldular. Siz Ali Baş Komandan kimi, bu möhtəşəm hərbi Qələbənizlə dünyaya separatizmin kökünü kəsməyin ən bariz nümunəsini göstərdiniz. Bu qələbələrinizi həzm edə bilməyən bəzi mənfur qüvvələr anlamalıdırlar ki, Sizin arxanızda dünyada yaşayan 50 milyondan çox azərbaycanlı dayanır. Sizə yeni prezidentlik dönəmində Azərbaycan naminə görəcəyiniz işlərdə uğurlar arzulayıram.

Möhtərəm cənab Prezident, mən bir müddət Azərbaycanda yaşamışam və bu ölkə mənə ikinci vətən-

dir. Dayanıqlı inkişafa və suverenliyin möhkəmlənməsinə söykənən bu qələbəniz hər birimizin uğurudur. Sizi bir daha təbrik edirəm.

Nailiyyətləriniz hər zaman bol olsun, cənab Prezident!

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN RUSİYA FEDERASİYASINDAKI SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ, «BEYNƏLXALQ İSLAM MİSSİYASI» MƏRKƏZLƏŞDİRİLMİŞ DİNİ TƏŞKİLATININ SƏDRİ ŞAFİK PŞİXAÇEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

İcazə verin, «Beynəlxalq İslam Missiyası» Mərkəzləşdirilmiş Dini Təşkilatı adından Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə təbrik edim.

Siz atanız Heydər Əlirza oğlunun kursunu davam etdirərək, Rusiya və Azərbaycan xalqları arasında yaxınlığın davam etməsi üçün çox böyük işlər görürsünüz və bunun sayəsində rusiyalı müsəlmanların böyük ehtiramını qazanmısınız.

Cənab Prezident, əminəm ki, peşəkar təcrübəniz, enerjiniz, idarəçilik istedadınız və təşkilatçılıq bacarığınız Sizə bundan sonra da ölkəni və cəmiyyəti işıqlı gələcəyə aparmağa imkan verəcəkdir.

Bütün qəlbimlə Allaha dua edirəm ki, Sizə çətin və məsuliyyəti fəaliyyətinizdə uğurlar bəxş etsin.

## ALBANİYA MÜSTƏQİL HƏMKARLAR İTTİFAQLARI BİRLİYİNİN PREZİDENTİ GEZİM KALAYDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Albaniya Müstəqil Həmkarlar İttifaqları Birliyi adından yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırıram. Siz müdrik lider olaraq regiona sülh və tərəqqi gətirmisiniz.

Demokratik standartlara riayət olunaraq keçirilən seçkilərdə tarixi qələbəniz, həmçinin Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik edirik.

Yaşasın Azərbaycan!

Yaşasın Albaniya və Azərbaycan qardaşlığı!

**BEYNƏLXALQ AVRASİYA METAL İŞÇİLƏRİ FEDERASİYASININ PREZİDENTİ PEVRUL KAVLAKDAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Beynəlxalq Avrasiya Metal İşçiləri Federasiyasının adından və şəxsən öz adımdan Sizi seçkilərdə qazandığınız qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə gələcək liderliyiniz dövründə uğurlar, Azərbaycan xalqına və ölkənizə əmin-amanlıq arzulayıram.

## «TÜRK-İŞ» HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ BAŞ DİREKTORU ERGÜN ATALAYDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Xalqın böyük dəstəyi ilə Prezident seçkilərində qalib gəlməyiniz münasibətilə Sizi «Türk-İş» Həmkarlar İttifaqları Konfederasiyasının üzvləri adından təbrik edirəm.

Bu seçkilərin Türkiyənin strateji müttəfiqi və yaxın qonşusu olan Azərbaycanın bütün ərazisində keçirilməsi milli birliyin təmin edilməsi baxımından böyük önəm daşıyır. Uzun müddətdən sonra işğaldan azad edilmiş bölgələrdə də seçkilərin keçirilməsi tarixi əhəmiyyət kəsb edir.

Azərbaycanda yaşanan bu mühüm dəyişikliklərin və təmin olunan ictimai həmrəyliyin Türk Dövlətləri Həmkarlar İttifaqları Təşkilatının bundan sonrakı fəaliyyətinə müsbət təsir göstərəcəyinə, əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə inanırıq.

## ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ CAN MİNDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti kimi şərəfli vəzifəyə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycanda keçirilən Prezident seçkilərini müşahidə etmək üçün Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) nümayəndə heyətinə rəhbərlik etmək şərəfinə nail olmuşam. Seçkilər zamanı nümayiş olunan mütəşəkkillik, ədalət və inklüzivlik bizim komandamızda dərin xoş təəssürat yaratmışdır.

Son 20 il ərzində Azərbaycanın bənzəri olmayan yüksəlişinin təmin edilməsində Sizin uzaqgörən rəhbərliyiniz mühüm rol oynamışdır. Sizin iqtisadi inkişaf, infrastruktur və sosial təminat sahələrində nailiyyətləriniz Azərbaycanı dünya arenasında yüksəltməklə yanaşı, digər ölkələr üçün ilhamverici nümunə olmuşdur. Əminəm ki, yeni prezidentliyiniz dövründə Sizin rəhbərliyinizlə Azərbaycan xalqı və dövləti daha çox uğur əldə edəcəkdir.

Azərbaycan Respublikası Şanxay Əməkdaşlıq Təşkilatının dialoq üzrə tərəfdaşı və «ŞƏT ailəsi»nin vacib üzvüdür. Bu xüsusda, ŞƏT-in fəaliyyətində Azərbaycan Respublikasının fəal iştirakına, həmçi-

nin Sizin təşkilatımızın fəaliyyətinə göstərdiyiniz şəxsi dəstəyə görə minnətdarlığımı ifadə edirəm.

Zati-aliləri! Sizinlə və Azərbaycan hökuməti ilə sıx əməkdaşlığa hazır olduğumuzu bəyan edirəm. Qoy Şanxay Əməkdaşlıq Təşkilatı və Azərbaycan arasında möhkəm və sarsılmaz tərəfdaşlıq qarşılıqlı anlayışı, sülhü və rifahı təşviq edərək daha da möhkəmlənsin!

Bizim Azərbaycana səfərimiz zamanı ŞƏT nümayəndə heyətinə göstərilən diqqət və qonaqpərvərliyə görə təşəkkür edirik.

Yenidən Prezident seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edirəm. Əminəm ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə yeni zirvələrə çatacaq.

## QAFQAZ MƏNŞƏLİ DAĞ YƏHUDİLƏRİNİN ÜMUMİSRAİL BİRLİYİNİN SƏDRİ PAVEL YELİZAROVDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Qafqaz mənşəli Dağ Yəhudilərinin Ümumisrail Birliyinin adından Sizə və bütün Azərbaycan xalqına seçkilərdə qələbəniz münasibətilə səmimi təbriklərimizi çatdırıram.

Azərbaycan ilə İsrail arasında əməkdaşlıq inkişaf edir və möhkəmlənir. Bu istiqamət atanız, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilib, Siz isə bu yolu uğurla davam etdirərək, Azərbaycanın İsraildə səfirliyini açaraq münasibətləri daha da möhkəmləndirdiniz. Bütün yəhudilər, xüsusən dağ yəhudiləri sevincli və kədərli vaxtlarda həmişə azərbaycanlılar üçün qardaş xalq olublar.

Prezident seçkilərində Azərbaycan xalqının seçimi bizi çox sevindirir. Mütləq əksəriyyət növbəti dəfə sübut etdi ki, Sizə tam etimad göstərir. Onlar müəyyənləşdirilmiş yolun gələcəkdə də davam edəcəyinə inanırlar.

Dərin hörmətlə və səmimi təbriklərlə.

## RUSİYANIN «SAFMAR QRUPU» SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ MİXAİL QUTSERİYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan vətəndaşları xalqın əsl lideri, ölkənin sabit inkişafını təmin etməyə, onun suverenliyini qoruyub saxlamağa, dünyanın geosiyasi arenasında respublikanın mövqelərini möhkəmləndirməyə qadir olan güclü müdrik siyasi xadim kimi növbəti dəfə Sizi dəstəklədilər.

Hörmətli İlham Heydər oğlu! Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

**RUSİYA FEDERASİYASI PREZİDENT ADMİNİSTRASİYASI RƏHBƏRİNİN MÜAVİNİ MAQOMEDSALAM MAQOMEDOVDAN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan xalqının geniş dəstəyi respublikanın firavanlığı və inkişafı istiqamətində həyata keçirdiyiniz kursun uğurlu olduğunu sübut edir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və müvəffəqiyyətlər, bütün Azərbaycan xalqına isə sülh, rifah və əmin-amanlıq arzu edirəm.

## RUSİYA FEDERASİYASININ QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISI RƏŞİD TEMREZOVDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Çoxmillətli Qaraçay-Çərkəz xalqı adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz xalqınızın həqiqi lideri, müdrik rəhbərsiniz. Müasir və dinamik inkişaf edən Azərbaycanın uğurları haqlı olaraq Sizin adınızla əlaqələndirilir.

Əminəm ki, Azərbaycan ilə Qaraçay-Çərkəz Respublikasının ikitərəfli əməkdaşlığı gələcəkdə də möhkəmlənəcək və respublikalarımızın sosial-iqtisadi inkişafına imkan yaradacaq, xalqlarımızın maraqlarına xidmət edəcəkdir.

Hörmətli İlham Heydər oğlu! Sizə səmimi-qəlbdən Azərbaycan Respublikasının Prezidenti vəzifəsində yeni-yeni uğurlar, səadət, möhkəm cansağlığı, doğmalarınıza və yaxınlarınıza əmin-amanlıq arzulayıram.

## RUSİYANIN MÜSTƏQİL HƏMKARLAR İTTİFAQLARI FEDERASİYASININ SƏDRİ MİXAİL ŞMAKOVDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda seçkilərin nəticələri milli lider kimi xalqın Sizə göstərdiyi çox böyük etimadın bariz sübutu və son iyirmi ildə Sizin rəhbərliyinizlə dövlətinizin bir çox sahələrdə və beynəlxalq miqyasda əldə etdiyi uğurların əyani təsdiqidir.

Rusiya Həmkarlar ittifaqları Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətinizi və həmkarlar ittifaqı hərəkatına dəstəyinizi yüksək qiymətləndirir.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı və ali dövləti vəzifədə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirik.

## RUSİYA ELMLƏR AKADEMİYASININ VƏ RUSİYA TİBB ELMLƏRİ AKADEMİYASININ AKADEMİKİ MƏMMƏD ƏLİYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Müstəqil və bölünməz Azərbaycanın Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Seçkilərin nəticəsi heç kimdə şübhə doğurmurdu. Xalq onu 30 illik natamamlıq kompleksindən xilas edən liderə səs verdi.

Sizin regionda liderliyiniz cəmiyyət həyatının bütün sahələrində yüksək nəticələrə nail olmaq səylərində parlaq səmərəli idarəçilik örnəyinə çevrilib. Azərbaycan Sizin rəhbərliyinizlə iqtisadiyyatda, sosial sahədə, milli təhlükəsizlikdə və digər istiqamətlərdə böyük uğurlar qazanıb.

Sizin müasir geosiyasi çağırışlara istiqamətlənmiş strateji baxışınız ölkəyə davamlı iqtisadi artıma, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə və böyük investisiyalar cəlb edilməsinə nail olmağa imkan verib. Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar sayəsində Azərbaycan bir çox ölkələr üçün cəlbedici tərəfdaşa çevrilib. Demokratiyanın inkişafı, vətəndaşların hüquq və azadlıqlarının möhkəmləndirilməsi, həmçinin mədəniyyət və təhsilin, elm və səhiyyənin dəstəklənməsinə yönəlmiş səyləriniz Azərbaycan vətəndaşları-

nın həyat səviyyəsinin yüksəlməsinə kömək edir. Beynəlxalq hüquq prinsiplərinə əsaslanan müdrik xarici siyasətiniz regionda təhlükəsizliyin və sabitliyin təmin edilməsində mühüm rol oynayır. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan inkişaf yolunu davam etdirəcəkdir.

İcazə verin, inamlı qələbə münasibətilə ən səmimi təbriklərimi bir daha bildirim və Sizə möhkəm cansağlığı, əmin-amanlıq, ölkəyə və xalqa xidmət üzrə fəaliyyətinizdə uğurlar diləyim.

## BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ CANNİ İNFANTİNODAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Bütün futbol ictimaiyyəti adından yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi arzularımı qəbul etməyinizi xahiş edirəm. Bu, ölkənizin Sizin liderliyinizə olan etimadının göstəricisidir.

Azərbaycanın sabitliyinə və iqtisadi inkişafına olan sadiqliyiniz, liderlik məharətiniz və şəxsi keyfiyyətləriniz son illərdə ölkənizi irəliyə doğru aparmaqda çox mühüm rol oynayıb. Şübhə etmirəm ki, yeni prezidentlik dövrünüzdə Siz ölkənizin sabit inkişafına və tərəqqisinə mühüm töhfələr verməkdə davam edəcəksiniz.

Mən həmçinin ölkənizdə futbolun inkişaf etdirilməsi və onun dəyərlərinin təşviqi istiqamətindəki bütün səylərinizə görə Sizə və hökumətinizə təşəkkürümü bildirmək istəyirəm. Sizin səyləriniz mədəni və ictimai maneələrin aradan qaldırılmasında futbolun əhəmiyyətini, eləcə də onun bütün sərhədləri aşan və inklüzivliyi qəbul edən bir idman növü olduğunu nümayiş etdirir.

Sizə yeni mandatınız dövründə fəaliyyətinizdə uğurlar və tükənməz enerji arzu edirəm.

## RUSİYALI SAHİBKAR ALİŞER USMANOVDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Azərbaycan Prezidenti seçkilərində qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Uca Yaradan Sizə dahi rəhbərə xas olan möhkəm iradə, xalqına sədaqət və uzaqgörənlik nəsib edib.

Bu parlaq qələbə həmrəyliyi və azərbaycanlıların öz milli liderinə inamını, Sizin rəhbərliyinizlə ölkənin nail olduğu möhtəşəm uğurların onlar tərəfindən yüksək qiymətləndirildiyini əks etdirir.

Bu gün Azərbaycan geniş beynəlxalq əlaqələrə və dinamik iqtisadiyyata malik müasir, inkişaf edən dövlət, Türk Dünyasının nüfuzlu liderlərindən biri və regionun hərəkətverici qüvvəsidir.

Siz Prezident vəzifəsində ölkəni bütövləşdirməyə və möhkəmləndirməyə nail oldunuz, xalq isə bu səyləri layiqincə dəyərləndirdi.

**RUMINİYA PREZİDENTİ
KLAUS VERNER İOHANNİSDƏN**

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edir, yeni mandatınızda Sizə davamlı uğurlar arzulayıram.

Rumıniya ilə Azərbaycan arasında həm ikitərəfli, həm də regional miqyasda davam edən çoxsaylı layihələr qarşılıqlı münasibətlərimizin yüksək səviyyədə olduğunu nümayiş etdirir. Azərbaycan Rumıniya üçün Cənubi Qafqaz regionunda strateji, yaxın və etibarlı tərəfdaşdır.

Mən bu vəsilə ilə Rumıniyanın strateji tərəfdaşlığımızın möhkəmlənməsinə və dərinləşməsinə sadiqliyini bir daha təsdiqləyirəm. Rumıniya və Azərbaycanın davamlı səylərlə enerji, nəqliyyat, təhsil, ticarət və investisiyalar kimi xüsusi önəm daşıyan sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi imkanlarından tam yararlanacağına əminəm.

Eyni zamanda, Rumıniya Azərbaycan ilə Avropa İttifaqı arasındakı dialoqun davamlı və hərtərəfli inkişafı üçün fəaliyyətini davam etdirəcəkdir.

Bu fürsətdən istifadə edərək, zati-alinizi ölkələrimiz arasında strateji tərəfdaşlığı dərinləşdirmək məqsədilə bu il Rumıniyaya rəsmi səfərə dəvət edirəm.

Cənab Prezident! Xahiş edirəm Sizə dərin ehtiramımı qəbul edin.

## ÇEX PREZİDENTİ PETR PAVELDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edim.

Çex Respublikası ilə Azərbaycan Respublikası arasında sıx münasibətlər və dostluq əlaqələri uzun tarixə malikdir. İnanıram ki, biz təkcə ölkələrimizin mənafeyi naminə deyil, həm də qitəmizdə sülh və sabitlik üçün bu əlaqələri birlikdə dərinləşdirəcək və inkişaf etdirəcəyik.

Cənab Prezident! Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram.

## İTALİYA PREZİDENTİ SERCİO MATTARELLADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə səmimi təbriklərimi və ali mandatınızın icrasında xoş arzularımı çatdırmaq istəyirəm.

Roma və Bakı dərin dostluq və qarşılıqlı əməkdaşlıq sahələrinin getdikcə daha da genişləndirilməsinə yönəlmiş, ümumi öhdəliklə möhkəmləndirilmiş həqiqətən də strateji və çoxşaxəli tərəfdaşlığa malikdir.

İnanıram ki, kəskin şəkildə şiddətli münaqişələr və narahatedici gərginliklə səciyyələnən bir mərhələdə prinsipial əhəmiyyətə malik kəsişmə nöqtəsi olan bütün Qafqaz regionu üçün sülh, sabitlik və firavanlıq perspektivlərinin təşviqi üzrə birgə işi davam etdirə biləcəyik.

Azərbaycan ilə Avropa İttifaqı arasında konstruktiv etimadın və əməkdaşlıq əlaqələrinin inkişafı bu yolun tərkib hissəsidir və İtaliya bunun üçün hərtərəfli dəstəyini əsirgəməyəcək.

Bu məramla, mən zati-alinizə rifah, dost Azərbaycan xalqına firavan gələcək üçün ən xoş arzularımı yenidən çatdırıram.

## İTALİYA NAZİRLƏR ŞURASININ SƏDRİ CİORCİA MELONİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

İtaliya hökuməti adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə təbrik etmək və yeni mandatınız üçün Sizə ən xoş arzularımı çatdırmaq istəyirəm.

İtaliya ilə Azərbaycan arasında əlaqələr əladır və həqiqətən, strateji və çoxölçülü tərəfdaşlığın yaradılması ilə yüksək əməkdaşlıq səviyyəsinə çatmışdır. Bizim niyyətimiz bu yolu davam etdirməkdir və əminəm ki, biz birlikdə enerji sektorundan başlayaraq, bütün sahələrdə əməkdaşlığımızı daha da dərinləşdirə biləcəyik.

İnanıram ki, biz bütün Qafqaz regionunda sülh, sabitlik və firavanlıq perspektivlərini təşviq etmək üçün də səylərimizi birləşdirə biləcəyik.

Əminəm ki, xalqlarımızı bir-biri ilə bağlayan səmimi dostluq sayəsində də əlaqələrimiz hər sahədə inkişaf etməkdə davam edəcəkdir.

Sizə bir daha səmimi təbriklərimi çatdıraraq, ən xoş salamlarımı göndərirəm.

## İTALİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN SƏDRİ, İTALİYA SENATININ SENATORU MARKO SKURRİADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə İtaliya–Azərbaycan Dostluq Qrupunun sədri qismində Sizi ürəkdən təbrik etməyi vacib hesab edirəm.

Mən dövlətlərimiz arasında ticarət və mədəni əlaqələrin inkişafını, bunun nəticəsi olaraq Roma ilə Bakı arasında 30 ildən artıq davam edən əlaqələrin intensivləşməsini qətiyyətlə dəstəkləyirəm.

Tezliklə uyğun bir zamanda növbəti missiyalardan birində Sizinlə görüşə biləcəyimə ümid edirəm.

Fürsətdən istifadə edib Sizə ən səmimi salamlarımı çatdırıram.

## İTALİYADA FƏALİYYƏT GÖSTƏRƏN NAPOLİ–BAKI ASSOSİASİYASININ SƏDRİ CUZEPPE KANİLİADAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimizi çatdırırıq.

Biz Azərbaycan xalqının bu qələbə ilə bağlı sevincini və məmnunluq hissini bölüşürük. Bu, Azərbaycan xalqının Sizə və liderliyinizə olan inam və etibarının, hörmətinin göstəricisidir.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan mühüm iqtisadi, sosial və siyasi məqsədlərə nail olmaqla bütün sahələrdə yüksək irəliləyişlər əldə edib.

Əminik ki, Siz ölkənizi bundan sonra da qətiyyətiniz və uzaqgörənliyinizlə idarə edərək, sülh, firavanlıq və rifah şəraitində daha parlaq gələcəyə doğru aparacaqsınız. Sizə, Azərbaycan dövlətinə və xalqına uğurlar diləyir, ən xoş arzularımızı çatdırırıq.

Dərin hörmət və səmimiyyətlə.

## LATVİYA PREZİDENTİ EDQARS RİNKEVİÇSDƏN

Hörmətli İlham Heydər oğlu!
Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Əminəm ki, birgə səylərimizlə Latviya və Azərbaycan arasında yaxşı və konstruktiv münasibətlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatda inkişaf etməkdə davam edəcəkdir. İnanıram ki, bizim sağlam dialoqumuzun davamlı inkişafı ölkələrimiz və xalqlarımızın uzunmüddətli maraqlarına xidmət edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, enerji və ali dövləti vəzifənizin icrasında uğurlar, həmçinin ölkənizə və onun xalqına sülh və firavanlıq arzulayıram.

## MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBANDAN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edim. Seçkilərin nəticələri Azərbaycan xalqının Sizə etimadını əyani şəkildə nümayiş etdirdi.

Şadam ki, keçən il ərzində ikitərəfli münasibətlərimizi genişlənmiş strateji tərəfdaşlıq səviyyəsinə qaldırmışıq. Azərbaycan Macarıstan üçün təkcə mühüm siyasi, iqtisadi və mədəni tərəfdaş deyil, həm də səmimi dostdur. Çoxşaxəli əməkdaşlığımızı inkişaf etdirməkdə və bundan sonra da birgə investisiyalar yatırmaqda ümumi marağımız var.

Ölkələrimiz arasında davamlı olaraq möhkəmlənən əlaqələrə həm də tarixi yaxınlığımız, sosial ənənələrimiz, ailə dəyərlərinə hörmət və türk xalqlarını birləşdirən təşkilatlardakı əməkdaşlıq təkan verir. Sizi əmin edirəm ki, hökumətim əlaqələrimizin inkişafına və qarşılıqlı faydalı əməkdaşlığımızın dərinləşməsinə sadiq qalır.

Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

## TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ BAŞ KATİBİ KUBANIÇBEK ÖMÜRALIYEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Zati-aliləri cənab Prezident!

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Seçkilərdəki qələbəniz Azərbaycanın daxili və xarici siyasətində müstəsna dərəcədə uğurlu fəaliyyətinizin bariz göstəricisidir. Həyata keçirdiyiniz müstəqil və qətiyyətli siyasət sayəsində Azərbaycan dünya ölkələri arasında nüfuzunu daha da möhkəmləndirmiş, regionda aparıcı dövlətlərdən birinə çevrilmişdir.

Seçkilərdən sonra Sizinlə görüşümü məmnuniyyətlə xatırlayıram. Sizin Türk Dünyasına verdiyiniz xüsusi önəm, türk dövlətləri ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olması türk birliyi və həmrəyliyinin, habelə Türk Dövlətləri Təşkilatının bundan sonra da inkişaf edərək möhkəmləndirilməsinə mühüm töhfədir.

Sizə möhkəm cansağlığı arzu edir, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

**TÜRK MƏDƏNİYYƏTİ VƏ İRSİ FONDUNUN PREZİDENTİ AKTOTİ RAİMKULOVADAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Türk Mədəniyyəti və İrsi Fondu adından, şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazisində keçirilmiş seçkilər ölkə vətəndaşlarının Sizə olan yüksək etimadını bir daha nümayiş etdirdi.

İnanıram ki, müdrik rəhbərliyinizlə qardaş Azərbaycan siyasi, iqtisadi və sosial-humanitar sahələrdə yeni-yeni nailiyyətlər əldə edəcəkdir.

Sizə Azərbaycan xalqının rifahı naminə, eləcə də Türk Dünyasının birliyi və inkişafı yolunda qarşıya qoyduğunuz ali məqsədlərə nail olmağınızı diləyirəm.

Uca Tanrı Azərbaycanı və Sizi qorusun!

## ISESCO-nun BAŞ DİREKTORU SALİM BİN MƏHƏMMƏD ƏL-MALİKDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) adından səmimi təbriklərimi çatdırıram.

Sizin son seçkilərdəki inamlı qələbəniz Azərbaycan xalqının liderliyinizə olan inamının və etimadının sübutudur. Bu həm də ölkənizin inkişafı və rifahı naminə fədakarlığınızın, baxışlarınızın və sarsılmaz sadiqliyinizin təzahürüdür.

Biz ISESCO olaraq, müdrik rəhbərliyiniz altında Azərbaycanla əməkdaşlığımızı davam etdirməyə, islam dünyasında təhsil, elm və mədəniyyət sahələrinin inkişafına ümid bəsləyirik.

Sizin davamlı dəstəyinizin regionda mədəniyyət mübadiləsi, elmi araşdırmalar və təhsil sahələrini inkişaf etdirmək təşəbbüslərinə müsbət təsiri olmuşdur. Biz əminik ki, Sizin yeni mandatınızla Azərbaycan gələcək illərdə daha da böyük nailiyyətlərə imza atacaqdır.

Sizin bütün islam dünyasında əks-səda doğuran, gənclərin inkişafını dəstəkləyən, həmçinin sülh və tərəqqinin daha da irəliləməsinə xidmət edən müstəsna liderliyinizə şəxsi heyranlığımı bildirirəm.

Yenidən Prezident seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edirəm. Qoy Sizin növbəti prezidentlik dövrünüz Azərbaycan Respublikası üçün daha yüksək firavanlıq və uğur gətirsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

## QAZAXISTANDA FƏALİYYƏT GÖSTƏRƏN ÜMUMDÜNYA TÜRK XALQLARI ASSAMBLEYASININ SƏDRİ YERMENTAY SULTANMURATDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Ümumdünya Türk Xalqları Assambleyası Ümumtürk Təşkilatının üzvləri – Türk superetnosu birliyinin və türk sivilizasiyasının dirçəlişi konseptual-nəzəri əsaslarının müəllifləri olaraq Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbrik edirik.

Öz ləyaqətli oğlunu, yeni zirvələrin fəthinin təminatçısını seçən bütün Azərbaycan xalqını da təbrik edirik. Qardaş Azərbaycan xalqı ümummilli lider, Türk Dünyasının görkəmli xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi yolla irəliləyərək, Sizin rəhbərliyinizlə sosial–iqtisadi inkişaf, dövlətçiliyin möhkəmləndirilməsi sahələrində böyük uğurlara nail olub.

Sizin hakimiyyətdə olduğunuz illər Azərbaycan xalqının tarixində, Türk Dünyasının birliyi və dirçəlişində çox mühüm mərhələdir.

Bu nailiyyətlər həlledici məqamlarda özünü qeyri-adi şəkildə göstərən və Sizə xas olan yüksək mədəniyyət, diplomatik məharət, təmkin, sərkərdəlik keyfiyyətləri sayəsində əldə edilib. Məhz bu keyfiy-

yətlər sayəsində işğalçı Ermənistanla çox çətin Vətən müharibəsini tam Qələbə ilə başa çatdırmaq mümkün olub.

Bəzi ölkələrin bacarıqsız rəhbərləri üzündən öz sərvətlərini, torpaqlarını itirdiyi bir vaxtda Siz böyük Azərbaycanın bayrağını ölkənin bütün guşələrində ucaltdınız. Xalq güclü birlik, vətənpərvərlik nümayiş etdirdi, Azərbaycan Ordusu Qarabağda ildırımsürətli Qələbə qazandı. Buna görə də Şuşa şəhərini azad etmiş döyüşçülər bizim Assambleyanın yüksək mükafatları ilə təltif olundular. Şübhəsiz ki, Türk Dünyasında böyük ruh yüksəkliyinə, sevincə səbəb olan bu hadisələr dünyanın hərb tarixinin salnaməsinə daxil ediləcəkdir. Bütün bu uğurlar görkəmli lider, mahir sərkərdə olaraq Sizin müdrikliyiniz, xalqın birliyi sayəsində qazanıldı. Ona görə də Assambleyamız Sizi əfsanəvi türk sərkərdəsi Kültigin adına «Türk Dünyasının Bahadırı» qızıl medalı ilə təltif edib.

Bizim nümayəndə heyətimiz Sizi şəxsən xüsusi mükafatla təltif etməyimiz münasibətilə təbrik edəcəyi, Sizinlə qiymətli fikirləri bölüşəcəyi günü səbirsizliklə gözləyir.

Xalqınız haqlı olaraq Sizi gələcəyə baxan böyük Azərbaycanın Prezidenti seçdi.

Yaşasın Azərbaycan!

Yaşasın görkəmli Prezident İlham Heydər oğlu Əliyev!

Yaşasın Türk Birliyi!

## RUSİYA HÖKUMƏTİNİN SƏDRİ MİXAİL MİŞUSTİNDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi Rusiya Federasiyası Hökuməti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Xalqın yüksək etimadı yeni Azərbaycanın qurulmasına, davamlı sosial-iqtisadi inkişafa və vətəndaşların rifahının yüksəlməsinə, beynəlxalq aləmdə respublikanın nüfuzunun möhkəmlənməsinə yönəlmiş kursunuza geniş ictimai dəstəyin sübutudur.

Sizin dostluq, mehriban qonşuluq və müttəfiqlik prinsiplərinə əsaslanan Rusiya–Azərbaycan münasibətlərinin möhkəmləndirilməsinə böyük şəxsi töhfənizi xüsusi qeyd etmək istərdim. Yüksək səviyyədə qəbul edilmiş strateji qərarlara uyğun olaraq iqtisadi-ticari, elmi-texniki və mədəni-humanitar əməkdaşlıq genişləndirilir, müxtəlif sahələrdə birgə layihələr uğurla həyata keçirilir. Bu, Rusiya və Azərbaycanın uzunmüddətli maraqlarına tam cavab verir.

Hörmətli İlham Heydər oğlu! Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzu edirəm.

## RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ SƏDR MÜAVİNİ DMİTRİ MEDVEDEVDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimiqəlbdən təbrik edirəm.

Səsvermənin nəticələri Azərbaycanın qarşısında xidmətlərinizin təsdiqinin, əhalinin rifahının yüksəlməsinə, beynəlxalq aləmdə ölkənin nüfuzunun möhkəmləndirilməsinə yönəlmiş kursunuza birmənalı dəstəyin əyani sübutudur.

Rusiya ilə Azərbaycan arasında geniş əməkdaşlığın inkişafına Sizin şəxsi töhfəniz çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, müttəfiqlik qarşılıqlı əlaqələrin gələcəkdə də hərtərəfli genişləndirilməsi xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edir.

Hörmətli İlham Heydər oğlu! Sizə yeni uğurlar, Azərbaycan vətəndaşlarına isə əmin-amanlıq və firavanlıq arzu edirəm.

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKODAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində növbəti inamlı qələbəniz münasibətilə təbrik edirəm.

Seçkilər bütün dövlətlərin tarixində mühüm mərhələdir. Azərbaycan vətəndaşlarının öz iradəsini sərbəst şəkildə ifadə etmələri xalqın sıx birliyini göstərdi, Sizin müdrik rəhbərliyinizlə ölkənin irəlilədiyi kursa etimadın yüksək səviyyəsini nümayiş etdirdi. Əminəm ki, Sizin peşəkarlığınız və zəngin təcrübəniz sosial-iqtisadi sabitliyin təmin olunmasına, xalqın rifah halının yüksəldilməsinə və Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun gələcəkdə də artmasına kömək edəcəkdir.

Rusiya–Azərbaycan münasibətləri həmişə möhkəm dostluq bağlarına və mehriban qonşuluq prinsiplərinə əsaslanıb. Bu münasibətlər, o cümlədən parlament xətti ilə əlaqələr indi də konstruktiv istiqamətdə inkişaf edir, müttəfiqlik tərəfdaşlığını və qarşılıqlı faydalı əməkdaşlığın potensialını üzə çıxarmaqda davam edir.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, əmin-amanlıq və Azərbaycan xalqının rifahı naminə ali dövləti vəzifənizdə uğurlar arzu edirəm. Ən səmimi ehtiramımı qəbul edin.

## M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU AKADEMİK VİKTOR SADOVNİÇİDƏN

Möhtərəm İlham Heydər oğlu!

Zati-aliləri!

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin bütün kollektivi adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimiqəlbdən təbrik edirəm.

Siz öz yorulmaz əməyiniz və tam fədakarlığınızla belə yüksək vəzifəyə ən layiqli namizəd olduğunuzu növbəti dəfə sübut etdiniz. Yüksək peşəkarlığınız, müstəsna şəxsi və işgüzar keyfiyyətləriniz Sizi hədəfi aydın şəkildə görən və nəzərəçarpacaq nəticələrə müvəffəq olan müdrik və qətiyyətli rəhbər kimi xarakterizə edir. Biz uzunəsrlik tarixə və möhkəm ənənələrə malik gözəl diyarın getdikcə gözümüz önündə çiçəklənən və sabit, hər bir insanın öz arzularına çata və öz xoşbəxtliyini tapa biləcəyi dövlətə necə çevrildiyini görürük.

Bu xoş fürsətdən istifadə edərək, Sizə bizim əməkdaşlığımıza diqqətli və səmimi münasibətinizə görə minnətdarlıq edirəm. Moskva Universitetinin Bakı şəhərindəki filialı uzun illər fəaliyyəti boyunca elm və təhsilin inkişafına uğurla xidmət edir və

dövlətlərimizin səmərəli əməkdaşlığını möhkəmləndirir.

Möhtərəm İlham Heydər oğlu! Bu gün mən Sizin ünvanınıza səsləndirilən bütün səmimi sözlərə böyük məmnuniyyətlə qoşulur, Sizə möhkəm cansağlığı, firavanlıq, yeni maraqlı layihələr və düşündüyünüz bütün planlarınızın həyata keçməsini arzulayıram.

## RUSİYA PREZİDENTİNİN BEYNƏLXALQ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MİXAİL ŞVIDKOYDAN

Möhtərəm İlham Heydər oğlu!

Zati-aliləri!

Seçkilərdə böyük uğurunuz və Azərbaycan Respublikası Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz 20 il bundan əvvəl öz xalqınıza Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyinizə söz vermişdiniz və bu vədi tam yerinə yetirdiniz.

Bu gün Azərbaycan dünya birliyində mühüm rol oynayır. Bu xüsusda ölkələrimizin strateji tərəfdaşlıq münasibətləri daha dəyərlidir.

Həqiqətən də Sizin üçün, Azərbaycan üçün çox sevinirəm. Atanız Sizinlə fəxr edərdi. Bundan yüksək nə ola bilər?!

Sizə ən xoş diləklərimi çatdırıram.

## RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASINDA RUSİYA LİBERAL-DEMOKRAT PARTİYASI FRAKSİYASININ RƏHBƏRİ LEONİD SLUTSKİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz haqlı olaraq təkcə öz vətəninizdə deyil, həm də bizim ölkədə və bütün dünyada öz xalqı və regionda sülh üçün çoxlu işlər görmüş təcrübəli, uzaqgörən siyasi xadim kimi böyük ehtiram, yüksək nüfuz qazanmısınız. Keçirilən seçkilərin nəticələri də bunu inamlı şəkildə göstərdi.

Dahi atanızın, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müdrik siyasətinin və həyatı boyu gördüyü işlərin layiqli varisi və davamçısı kimi, Siz onun ideyalarını uğurla davam etdirirsiniz.

Əminəm ki, Sizin yenidən Prezident seçilməyinizlə bu istiqamətdə aparılan işlər daha fəal davam etdiriləcək və bu işlərin soydaşlarınıza, ölkənin bütün vətəndaşlarına, bütünlükdə xalqlarımıza fayda gətirməsi üçün səylərinizi əsirgəməyəcəksiniz.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə və şəxsi həyatınızda əmin-amanlıq diləyirəm.

## SANKT-PETERBURQ ŞƏHƏRİNİN QUBERNATORU ALEKSANDR BEQLOVDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Səsvermənin nəticələri Azərbaycan xalqının Sizə dərin ehtiramı, sevgisi və etimadını bir daha nümayiş etdirdi, milli lider kimi nüfuzunuzu təsdiq etdi.

Parlaq, qeyri-adi və uzaqgörən siyasi xadim olaraq Siz vətəninizin tərəqqisi və firavanlığı naminə çox işlər görmüsünüz. Sizin şəxsiyyətiniz, müdrikliyiniz, böyük təcrübəniz və rəhbərlik istedadınız sayəsində bu gün Azərbaycan dinamik inkişaf edən dövlətdir. Ölkənin möhtəşəm nailiyyətləri bütün dünyada səmimi heyrətlə qarşılanır.

Azərbaycanlı tərəfdaşlarla açıq və etibarlı dialoqun aparılması Sankt-Peterburqun beynəlxalq fəaliyyətinin başlıca prioritetlərindən biridir. Şəhər hökuməti Sizin ikitərəfli münasibətlərin inkişafına şəxsən göstərdiyiniz diqqəti yüksək qiymətləndirir.

Əminəm ki, mənim rəhbərliyimlə bu ilin yazına nəzərdə tutulan Sankt-Peterburqun Azərbaycanda mədəni-işgüzar missiyası bizim dostluq və tərəfdaş-

lıq əlaqələrimizi daha da möhkəmləndirəcək, yeni perspektivli layihələrin başlanğıcı olacaqdır.

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, tükənməz enerji, Azərbaycanın daha da inkişafı və respublikanın sakinlərinin rifahı naminə yeni-yeni nailiyyətlər diləyirəm.

Sizi Neva sahillərindəki şəhərdə görməyə həmişə şadam.

## ÜMUMRUSİYA BƏDİİ GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ İRİNA VİNERDƏN

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbriklərimi qəbul edin. Bu məsul və şərəfli vəzifəyə yenidən seçilməyiniz Sizin əməyinizin möhtəşəm nəticələrinin, Sizə Azərbaycan xalqının ən yüksək inamının və hörmətinin sübutudur.

Zəngin həyat təcrübəniz, Sizə xas olan enerji və görkəmli liderlik keyfiyyətləri zati-alinizə respublikanın və onun sakinlərinin rifahı naminə məhsuldar çalışmağa kömək edir. Siz Azərbaycanın tərəqqisi uğrunda cəsur və məqsədyönlü mübariz kimi nəinki həmvətənləriniz arasında, həm də bütün dünyada hörmət və nüfuza sahibsiniz.

Sizi səmimi-qəlbdən təbrik edir, bütün planlarınızın soydaşlarınızın dəstəyi ilə həyata keçməsini arzulayır, Azərbaycanın rifahı naminə Sizə və komandanıza uğurlar diləyirəm.

## MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLDƏN

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin yenidən ali dövləti vəzifəyə seçilməyiniz uzun illər ölkəyə rəhbərliyiniz dövründə qazandığınız ümumxalq etimadının göstəricisidir. Seçicilərin əksəriyyətinin Sizə səs verməsi onu göstərir ki, insanlar Sizin simanızda onların ehtiyaclarına və istəklərinə həmişə diqqətlə yanaşan, daxili və xarici siyasət üzrə aktual məsələləri səmərəli şəkildə həll edə bilən təcrübəli və nüfuzlu milli lider görürlər.

Sizə möhkəm cansağlığı və həmişə ruh yüksəkliyi, rəhmli Tanrıdan kömək və Azərbaycan Respublikasının Prezidenti ali vəzifəsində yeni-yeni uğurlar arzulayıram.

## RUSİYA FEDERASİYASI MÜSƏLMANLARI RUHANİ İDARƏSİNİN SƏDRİ MÜFTİ ŞEYX RAVİL QAYNUTDİNDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin, ruhanilərimizin adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin ünvanınıza gələn təbriklərə dərin ehtiramla qoşuluruq, Sizə salamlarımızı və Rusiya müsəlmanlarının Azərbaycan Respublikasına sülh, uğurlar və tərəqqi dualarını çatdırırıq.

Sizin qələbəniz ölkə qarşısında şəksiz xidmətlərinizin təsdiqidir. Bu, müdrik siyasəti Azərbaycana müasir tarixə qalib dövlət kimi daxil olmağa imkan verən liderin qeyd-şərtsiz nüfuzunun rəmzidir.

Bu həmçinin Sizin rəhbərliyinizlə Azərbaycan xalqının gələcəyə olan inamıdır.

Çoxmillətli və çoxkonfessiyalı qardaş Azərbaycan xalqının sevincinə qoşuluruq, tarixi torpaqların azad edilməsi, qüdrətli vahid dövlətin yaradılması və iqtisadiyyatın, beynəlxalq siyasi nüfuzun hərtərəfli möhkəmləndirilməsi üzrə böyük nailiyyətləri qeyd edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan xalqının həmrəyliyinin möhkəmləndirilməsi, öz ölkəsinin şöhrəti naminə bütün sınaqları və çətinlikləri dəf etməyə hazır olan müasir cəmiyyətin misilsiz birlik və vətənpərvərliyi bizdə xüsusi sevinc hissi doğurur.

Uca Yaradandan xeyirxah işlərinizdə səmimiqəlbdən uğurlar, Azərbaycan Respublikasının rifahı naminə Sizə İlahidən güc və yeni müdrik siyasi qərarlar diləyirəm.

Hörmətli İlham Heydər oğlu! Uca Allaha dua edərək, Sizə və bütün Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq arzu edirəm. Amin!

## İ.M.SEÇENOV ADINA BİRİNCİ MOSKVA DÖVLƏT TİBB UNİVERSİTETİNİN REKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ AKADEMİKİ PYOTR QLIBOÇKODAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Səsvermənin nəticələri Sizin siyasi xadim kimi yüksək nüfuzunuzu və ölkənin liderinə ümumxalq dəstəyini təsdiq edir. Siz Azərbaycan xalqına sədaqətini əməldə sübut etmiş parlaq, qeyri-adi şəxsiyyət, çox gözəl idarəçisiniz. Ölkə Sizin rəhbərliyinizlə iqtisadi və sosial sahələrdə böyük uğurlar qazanıb və gələcəyə inamla baxır. Rusiya Səhiyyə Nazirliyinin Seçenov adına Universitetinin Bakı filialı Sizin dəstəyiniz və fəal iştirakınız sayəsində açılıb, bu gün ölkənizdə elm və təhsilin inkişafına, Rusiya və Azərbaycanın qardaş xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfə verir.

Sizə ali dövləti vəzifənizdə uğurlar, möhkəm cansağlığı və əmin-amanlıq arzulayıram.

**RUSİYANIN ALİ DAĞ-MƏDƏN ŞURASININ SƏDRİ YURİ ŞAFRANİKDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Sizi növbədənkənar Prezident seçkilərində inamlı qələbəniz münasibətilə ürəkdən təbrik edirəm.

Çox yüksək dövlət vəzifəsindəki fəaliyyətinizdə Sizə səmimi-qəlbdən yeni-yeni uğurlar, möhkəm cansağlığı, firavanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Sizin Azərbaycan Respublikası Prezidenti vəzifəsində fəaliyyətiniz bundan sonra da Rusiya və Azərbaycan xalqları arasında uzunəsrlik dostluğun möhkəmlənməsinə töhfələr verəcəkdir.

## GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Gürcüstan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram. Ölkənizin və xalqınızın firavanlığı istiqamətində yorulmaz fəaliyyətinizdə Sizə səmimi-qəlbdən davamlı uğurlar və qələbələr arzulayıram.

Mən qəti şəkildə inanıram ki, birgə səylərimizlə qardaş ölkələrimiz arasındakı mehriban qonşuluq və dostluq münasibətlərini, strateji tərəfdaşlığı yeni zirvələrə yüksəldəcəyik. Bu, şübhəsiz ki, həm Gürcüstanın, həm də Azərbaycanın regionda sabitliyin və inkişafın möhkəmləndirilməsində rolunu daha da gücləndirəcəkdir.

Zati-aliləri! Sizə bir daha ən dərin ehtiramımı bildirir, fəaliyyətinizdə davamlı uğurlar arzulayır, dost Azərbaycan xalqına isə sülh və rifah diləyirəm.

**GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ KOBAXİDZEDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Seçkilərdə inamlı qələbəniz və yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayır, ölkənizin və dost Azərbaycan xalqının rifahı, əmin-amanlığı və sabitliyi üçün yeni nailiyyətlər diləyirəm.

Əminəm ki, xalqın etimadı Azərbaycan Respublikasına daha yeni uğurlar gətirəcək və Sizin liderlik əzminiz gələcək məqsədlərə çatmaqda mühüm rol oynayacaq.

Əminəm ki, bu fürsətdən istifadə edib ölkələrimizi uzun müddətdir bir-birinə bağlayan qarşılıqlı etimada və hörmətə əsaslanaraq, dövlətlərimiz arasındakı möhkəm dostluğu və strateji tərəfdaşlığı daha da gücləndirəcəyik. Həmçinin regionumuzun və xalqlarımızın əmin-amanlığı və rifahı naminə səylərimizi artıraraq, Sizinlə sıx əməkdaşlıq etməyə ümidvar olduğumu bir daha bildirirəm.

Zati-aliləri! Sizə ali dövləti fəaliyyətinizdə bir daha səmimi-qəlbdən yeni uğurlar diləyirəm.

**GÜRCÜSTAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ SƏDRİ İRAKLİ PETRİAŞVİLİDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizi Gürcüstan Həmkarlar İttifaqları Konfederasiyasının üzvləri adından və şəxsən öz adımdan təbrik edirəm. Azərbaycan xalqı yenidən Sizə inam və etimad nümayiş etdirdi. İnanırıq ki, Sizin uzun illər dəstəklədiyiniz Azərbaycan və Gürcüstan xalqları arasında dostluq və əməkdaşlıq möhkəmlənməkdə davam edəcək və bu, xalqlarımızın rifahının daha da yaxşılaşmasına təkan verəcək, ölkələrimizə uğur gətirəcək.

Sizi bir daha təbrik edir və yeni-yeni nailiyyətlər arzulayırıq.

## GÜRCÜSTAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ ROİN METREVELİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Sizin Prezident vəzifəsinə seçilməyiniz sülh və əmin-amanlıq tərəfdarı olan Azərbaycan Respublikası vətəndaşlarının arzu və istəyinin nümayişidir. Bu istəyin həyata keçməsinin ilkin bəhrələri artıq hamıya məlumdur. Sizin regionda sülhün bərqərar olmasına və doğma ölkənizin ərazi bütövlüyünün bərpasına töhfəniz çox böyükdür. Bu, Azərbaycan vətəndaşlarını sevindirdiyi kimi, Gürcüstanı da sevindirir.

Gürcüstan və Azərbaycan xalqları tarixboyu dostluq və mehriban qonşuluq şəraitində yaşayıblar. Bu tendensiya xüsusən ölkələrimizin müstəqilliklərini bərpa etdikləri vaxtdan bəri daha da möhkəmlənib.

Əminəm ki, Siz Prezident vəzifəsində əvvəllər olduğu kimi, bundan sonra da ölkələrimiz arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində yorulmadan səy göstərəcəksiniz.

## TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ NAZİRİ YAŞAR GÜLƏRDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Prezident seçilməyiniz münasibətilə zati-alinizi təbrik edirəm.

Sizin liderliyinizlə Azərbaycanın bu günə qədər əldə etdiyi siyasi, iqtisadi, sosial, hərbi uğurların bundan sonra da artaraq davam edəcəyinə, ikinci vətənimiz olan Azərbaycanın bölgədə və dünyada güclü mövqeyini daha da möhkəmləndirəcəyinə inanıram.

Ümummilli lider Heydər Əliyevdən miras qalan «Bir millət – iki dövlət» düşüncəsi cənab Prezidentimizin və zati-alinizin liderliyi ilə daha da güclənərək, bölgənin təhlükəsizliyinin və sabitliyinin ən böyük təminatı olub. Əzəli və əbədi qardaşlıq əlaqələrimizi gələcək nəsillərə ötürməyin ən mühüm ortaq məsuliyyətimiz olduğu düşüncəsi ilə Türkiyə həm sevincli, həm də kədərli günlərdə bütün imkanları ilə Azərbaycanın yanında olmaqda davam edəcəkdir.

Azərbaycan Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə şəxsən öz adımdan və Milli Müdafiə Nazirliyi adından bir daha təbrik edir, başda şəxsiniz olmaqla dost və qardaş Azərbaycan xalqına rifah və əmin-amanlıq diləyirəm.

**TÜRKİYƏDƏ FƏALİYYƏT GÖSTƏRƏN «AKSOY HOLDİNG»İN İDARƏ HEYƏTİNİN SƏDRİ ƏRDAL AKSOYDAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Müstəqillik dövründə ilk dəfə ölkənizin bütün ərazisində keçirilmiş Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçkilərin suverenliyi və ərazi bütövlüyü tam təmin olunmuş Azərbaycanın hər yerində, o cümlədən Xankəndidə, Şuşada və digər azad edilmiş ərazilərdə keçirilməsi qardaş Azərbaycan, eləcə də Türkiyə üçün xüsusi tarixi əhəmiyyət daşıyır.

Sizin Azərbaycan xalqına bəxş etdiyiniz Qarabağ Zəfəri uğurlu dövlət xadiminin, qalib sərkərdənin doğma xalqına əvəzsiz töhfəsidir. Azərbaycan xalqı Sizi Qarabağ Zəfərinin memarı olaraq növbəti dəfə Prezident seçməklə bütün dünyaya həmrəylik nümayiş etdirdi.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və Azərbaycanın daha da inkişafı naminə prezidentlik fəaliyyətinizdə uğurlar arzulayır, «Bir millət – iki dövlət» prinsipi əsasında birlikdə yeni və daha böyük layihələrə imza atmağınızı arzu edirəm.

## QIRĞIZISTANIN «MANASIN SƏSİ» TELERADİO ŞİRKƏTİNİN DİREKTORU TEMİRBEK TOKTOQAZİYEVDƏN

Hörmətli İlham Heydər oğlu!
Möhtərəm cənab Prezident!

Sizi seçkilərdə inamlı qələbəniz və müstəqil Azərbaycanın Prezidenti vəzifəsinə yeni müddətə seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Qırğız xalqının üç oğul haqqında belə bir deyimi var: birinci oğul – adi, heç kimə ziyan vurmadan yaşayan oğuldur; ikinci oğul – ataya bərabər oğuldur, belə oğul haqqında xalq arasında deyirlər: «Əhsən, atasını pis vəziyyətdə qoymadı, heç kəsin qarşısında rüsvay etmədi». Nəhayət, üçüncü oğul – atasını ötüb keçən oğuldur, belə insan haqqında «Öz xalqının oğlu» deyirlər. Mən Sizin simanızda öz xalqının oğlunu, öz xalqının istəklisini görürəm. Siz əzəli torpaqlarınızın geri qaytarılmasında cəsarət nümayiş etdirmisiniz və zəfər qazanmısınız.

Biz Sizin atanız, bütün Türk Dünyasında, eləcə də bərəkətli Manas torpağında bu yaxınlarda 100 illiyi qeyd edilən, Azərbaycana öz xalqının oğlunu bəxş edən Heydər Əlirza oğlu Əliyevlə fəxr edirik.

Sizə möhkəm cansağlığı, ailə səadəti, çətin və şərəfli prezidentlik fəaliyyətinizdə uğurlar arzulayıram.

**İORDANİYA KRALI II ABDULLAH İBN AL HÜSEYNDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından Sizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram. Bu Sizin liderliyinizə olan böyük inamın təsdiqidir.

İordaniya Krallığı xalqlarımızın maraqları naminə ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələrini və dostluğu daha da inkişaf etdirmək üçün zati-alinizlə işləməkdə davam etməyə ümidvardır.

Sizə davamlı uğurlar və möhkəm cansağlığı, Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

## İSRAİL KNESSETİNİN DEPUTATI, «İSRAİL BİZİM EVİMİZDİR» PARTİYASININ SƏDRİ AVİQDOR LİBERMANDAN

Hörmətli İlham Heydər oğlu!
Möhtərəm cənab Prezident!

Azərbaycan Prezidenti seçkilərində qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçicilərin 92 faizindən çoxu Sizin ölkəyə rəhbərliyi davam etdirməyinizə, onu tərəqqi və rifah yolu ilə irəliyə aparmağınıza səs verdi.

Seçkilərin rekord nəticəsi həm də Sizin Azərbaycan Respublikası Prezidenti vəzifəsində iyirmiillik fəaliyyətinizin yekunu və yeni dövrün başlanğıcıdır. Çünki seçkilər ilk dəfə olaraq ölkənin bütün ərazisində, o cümlədən Qarabağda keçirildi.

Seçkilərin nəticələri təkcə Azərbaycan xalqının zati-alinizə Prezident kimi münasibətini deyil, həm də Sizə sevdikləri, fəxr etdikləri və heyran olduqları şəxsiyyət kimi münasibətini əks etdirir.

Fürsətdən istifadə edərək, «İsrail Bizim Evimizdir» Partiyasının rəhbəri kimi, ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına verdiyiniz mühüm töhfəyə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Qarşıda bizim xeyli işlərimiz var və mən Sizə gözəl ölkəniz naminə səmimi-qəlbdən uğurlar arzulayıram. Azərbaycan Respublikasına sülh və tərəqqi diləyirəm!

## AVROPA ŞURASININ BAŞ KATİBİ MARİYA PEYÇİNOVİÇ-BURİÇDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Fürsətdən istifadə edərək, bu günlərdə yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Mən Sizin səlahiyyət müddətiniz dövründə insan hüquqları, demokratiya və qanunun aliliyinin inkişafı ilə bağlı ümumi prinsiplərimiz üzrə birgə işləməyi davam etdirməyi səbirsizliklə gözləyirəm. Beynəlxalq ictimaiyyətlə yanaşı, Avropa Şurası regionda sülh, sabitlik və mehriban qonşuluq münasibətlərinə yönəlmiş bütün səyləri dəstəkləməkdə davam edəcəkdir.

## KÖRFƏZ ƏMƏKDAŞLIQ ŞURASININ BAŞ KATİBİ CASİM MƏHƏMMƏD ƏL-BUDEYVİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq və şərəf duyuram.

Sizə işlərinizdə uğurlar, Azərbaycan xalqına isə yüksək rifah, inkişaf və təhlükəsizlik arzulayıram.

Əminəm ki, Sizin yenidən Prezident seçilməyiniz Azərbaycan Respublikası ilə Körfəz Əməkdaşlıq Şurasının artıq güclü olan əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verəcəkdir.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul edin.

## BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ BAŞ DİREKTORU QU DONQYUDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Ali dövləti vəzifəyə yenidən seçilməyiniz münasibətilə zati-alinizə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının adından və şəxsən öz adımdan təbriklərimi çatdırmaqdan şərəf duyur, Sizə cansağlığı və ali dövləti vəzifənizin icrasında uğurlar arzulayıram.

Ümumi məqsədlərimizə çatmaq yolunda Azərbaycan Respublikasının xalqına xoşbəxtlik və firavanlıq arzularımı çatdırmaq istərdim.

Zati-aliləri! Ən yüksək ehtiramımı qəbul edin.

## TÜRKİYƏNİN AVRASİYA QİDA, KƏND TƏSƏRRÜFATI, MEŞƏÇİLİK VƏ TURİZM İŞÇİLƏRİ HƏMKARLAR İTTİFAQININ SƏDRİ CEMAİL BAKINDIDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Növbədənkənar Prezident seçkilərində yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizə təbriklərimizi çatdırıram. Zati-alinizin liderliyi ilə Azərbaycanın tərəqqidə qət etdiyi uğurlu yol təqdirəlayiqdir və bizim üçün sevindiricidir. Qarabağın azad edilməsi hamımızı çox şad etdi və fərəhləndirdi. Azərbaycanın kədəri bizim kədərimiz, sevinci sevincimizdir.

Fürsətdən istifadə edərək, müasir Azərbaycan dövlətinin qurucusu, unudulmaz ümummilli liderimiz Heydər Əliyevi ehtiramla yad edirəm.

Zati-aliləri! Sizə, ailə üzvlərinizə və Sizin şəxsinizdə azərbaycanlı qardaşlarıma cansağlığı və daha xoşbəxt gələcək arzulayıram.

«Bir millər – iki dövlət» şüarı ilə yaşasın Türkiyə və Azərbaycan!

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN DÖVLƏT DUMASINDA KOMMUNİST PARTİYASI FRAKSİYASININ RƏHBƏRİ GENNADİ ZÜQANOVDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin yenidən Prezident seçilməyiniz ölkə vətəndaşları arasında şəksiz nüfuzunuzu və Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində fəaliyyətinizə verilən yüksək qiyməti təsdiq etdi.

Əminəm ki, Sizin köməyinizlə ölkələrimiz arasında çoxplanlı əməkdaşlığın mühüm tərkib hissəsi olan Rusiya–Azərbaycan dialoqu gələcəkdə də inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu! Sizə ali dövləti fəaliyyətinizdə uğurlar, cansağlığı və əmin-amanlıq arzulayıram.

## RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ MDB MƏSƏLƏLƏRİ, AVRASİYA İNTEQRASİYASI VƏ HƏMVƏTƏNLƏRLƏ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ LEONİD KALAŞNİKOVDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Sizi səmimiqəlbdən təbrik edirəm.

Əminəm ki, Rusiya ilə Azərbaycan arasında əməkdaşlıq ölkələrimizin xalqlarının maraqları naminə bundan sonra da uğurla inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu! Sizə möhkəm cansağlığı, firavanlıq, Azərbaycan Respublikasının rifahı naminə yeni-yeni uğurlar və nailiyyətlər arzulayıram.

## ABŞ VƏ KANADANIN BUXARA YƏHUDİLƏRİ KONQRESİNİN PREZİDENTİ BORİS KANDOVDAN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Şimali Amerikanın Mərkəzi Asiya mənşəli 80 min Buxara yəhudisi adından 2024-cü il fevralın 7-də keçirilmiş demokratik seçkilərdə qazandığınız yeni qələbə münasibətilə səmimi təbrikləri qəbul etməyinizi xahiş edirəm.

Sizin inamlı qələbəniz, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz həyatın bütün sahələrində demokratik dəyişikliklərin dərinləşdirilməsi üzrə kursunuzun gələcəkdə də həyata keçirilməsinə zəmin yaradır. Şübhəsiz ki, Siz beynəlxalq əməkdaşlığa yeni impuls verirsiniz və ölkəni inkişaf etmiş demokratik dövlət quruculuğu yolu ilə inamla irəli aparırsınız.

Ölkənin yenidən seçilmiş Prezidenti olmaq həqiqətən də qürurvericidir və bütün dünyaya özünün beynəlxalq səviyyədə tanınan universallığını göstərir. Bu gün respublikada hüquqi bərabərlik, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların azadlığı üçün hər cür şəraitin yaradılması bizi sevindirir.

Biz amerikalılarla görüşlərimiz zamanı və Amerika mediasında çıxışlarımızda Azərbaycanın həya-

tında müsbət dəyişiklikləri məmnunluqla diqqətə çatdırırıq və xalq diplomatiyasının imkanlarından istifadə edərək, ABŞ ilə Azərbaycan arasında dostluq körpüsü rolunu oynamaqda davam edirik.

İstəyirik ki, Sizin həyatınız gələcəkdə də müdrikliklə və məğlubedilməzliklə zəngin olsun. Qoy bu seçkilər respublikanın yeni zirvələr fəth etməsi yolunda yeni mərhələ olsun!

Sizi bir daha səmimi-qəlbdən təbrik edirik. Azərbaycana gələcəkdə də tərəqqi arzulayırıq.

Sizə və ailənizə möhkəm cansağlığı, əmin-amanlıq və dövlət başçısı kimi məsuliyyətli vəzifənizdə uğurlar diləyirik.

Sizə dərin ehtiramıma əmin ola bilərsiniz.

## BƏHREYN KRALI HƏMƏD BİN İSA AL XƏLİFƏDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və xalqınızın zati-alinizə inamının bir daha təsdiqi münasibətilə Sizə səmimi təbriklərimizi və xeyir-duamızı çatdırmaqdan məmnunluq hissi duyuruq.

Bəhreyn Krallığı və Azərbaycan Respublikası arasında bizim də diqqət yetirdiyimiz və yüksək dəyərləndirdiyimiz ikitərəfli münasibətlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Ölkələrimiz və xalqlarımızın maraqları naminə bu əlaqələri bütün sahələrdə möhkəmləndirmək istiqamətində zati-alinizlə işləməyə ümidvarıq.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirik.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

## AZİZ–AZƏRBAYCAN–İSRAİL BEYNƏLXALQ ASSOSİASİYASININ PREZİDENTİ ADAM AMİLOVDAN

Möhtərəm cənab Prezident!

Müzəffər Ali Baş Komandan!

Bu il fevralın 7-də keçirilmiş növbədənkənar Prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Şübhəsiz ki, bu qələbə xalqın Sizə olan etimadının bariz nümunəsidir. Azərbaycanın inkişafı istiqamətində atdığınız addımlarda Siz hər zaman qətiyyət nümayiş etdirmiş, xalqın rifahı üçün əlinizdən gələni etmisiniz.

Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan xalqı öz tarixi torpaqlarına qovuşdu. Bu Zəfər bütün azərbaycanlıların qəlbində sevinc və qürur hissi yaratdı. Bunun nəticəsidir ki, Azərbaycan xalqı növbədənkənar Prezident seçkilərində öz layiqli liderinin – Sizin namizədliyinizi mütləq səs çoxluğu ilə dəstəklədi.

Prezidentlik fəaliyyətinizin yeni dövründə Sizə uğurlar arzulayıram. Əminəm ki, bu uğurlar ölkənin davamlı inkişafında müstəsna rol oynayacaq.

Yaşasın bütöv Azərbaycanın Prezidenti!

## KÜVEYTİN «ƏL-SEYASSAH» QƏZETİNİN İCMALÇISI VƏ MEDİA MƏSLƏHƏTÇİSİ ƏBDÜLRƏHMAN ƏL-ƏCMİDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Fevralın 7-də keçirilmiş Prezident seçkilərində Azərbaycan xalqı öz liderinə böyük dəstək nümayiş etdirdi. Xalq mütləq səs çoxluğu ilə Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu münasibətlə Sizi təbrik etməkdən şərəf hissi duyuram.

Mən Azərbaycandakı seçkilərlə bağlı prosesləri mediadan izləyirdim və bir çox saytlarda, qəzetlərdə bu barədə yazmışam. Azərbaycanın seçki təcrübəsi kifayət qədər müsbətdir. Jurnalistlərin seçki günündə səsvermə prosesini yaxından müşahidə etmələrini və səslərin hesablanmasında iştirak imkanına malik olmalarını əsl nümunə hesab etmək olar. Azərbaycan 7 fevral Prezident seçkiləri ilə demokratik seçki ənənəsini bir daha nümayiş etdirdi. Bir qrup küveytli jurnalistlə birlikdə Sizinlə görüşüb qələbənizi təbrik etmək bizə böyük şərəf olardı. Əminəm ki, Sizin prezidentliyiniz dövründə Azərbaycanın müxtəlif ölkələrlə, o cümlədən Küveytlə münasibətləri daha da inkişaf edəcəkdir.

Sizə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

## TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASININ BAŞ KATİBİ MƏHMƏT SÜRƏYYA ƏRDƏN

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Katibliyi adından və şəxsən öz adımdan Sizi 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

İlk dəfə olaraq seçkilərin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş qardaş Azərbaycanın bütün ərazisində keçirilməsi mühüm tarixi hadisə kimi qiymətləndirilir.

Xalqın rifahına və ölkənin hərtərəfli inkişafına yönəlmiş məqsədyönlü və uğurlu siyasəti təmin etməyə, respublikanın beynəlxalq aləmdə mövqeyini möhkəmləndirməyə qadir lider kimi növbəti dəfə bu şərəfli vəzifəyə seçilməyiniz Azərbaycan xalqının Sizə və siyasi kursunuza olan etimadının bariz nümunəsidir.

Bu xoş fürsətdən istifadə edərək, Sizi bir daha təbrik edir, möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə, bütün təşəbbüslərinizdə uğurlar diləyirəm.

**POLŞA PREZİDENTİ
ANDJEY DUDADAN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır və bu şərəfli, həmçinin məsuliyyətli missiyanın yerinə yetirilməsində uğurlar arzulayıram.

Ümidvaram ki, Polşa ilə Azərbaycan arasında uzunmüddətli dostluq və məhsuldar əməkdaşlıq bundan sonra da dinamik inkişaf edərək, həm dövlətlərimizə, həm də xalqlarımıza nəzərəçarpacaq faydalar gətirəcəkdir. Həmçinin ümid edirəm ki, ölkələrimiz arasında intensiv siyasi dialoqun davam etdirilməsi və ikitərəfli münasibətlər, xüsusən də iqtisadi sahədə birgə layihələrin və öhdəliklərin həyata keçirilməsi yolu ilə davamlı şəkildə inkişaf etdiriləcəkdir. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin yeni əməkdaşlıq sazişi çərçivəsində daha da dərinləşəcəyinə və bunun ikitərəfli sahədə də nəzərəçarpacaq faydalar gətirəcəyinə ümidvaram.

Cənab Prezident, arzu edirəm ki, növbəti səlahiyyət müddətinizdə Azərbaycanın hərtərəfli inkişafı, ölkənin beynəlxalq aləmdə imicinin möhkəmləndirilməsi üçün nəzərdə tutduğunuz bütün proqramları həyata keçirəsiniz.

Bundan əlavə, mən Sizin üçün əlverişli vaxtda Polşaya rəsmi səfər dəvətimi bir daha təsdiq edirəm.

Cənab Prezident, Sizə cansağlığı, Azərbaycan Respublikasının möhkəmlənməsi və onun bütün vətəndaşlarının firavanlığı naminə fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

**RUSİYADA FƏALİYYƏT GÖSTƏRƏN «HERETİ» MİLLİ DİRÇƏLİŞ REGİONLARARASI İCTİMAİ TƏŞKİLATININ RƏHBƏRİ ROSTOM ŞAPİAŞVİLİDƏN**

Hörmətli İlham Heydər oğlu!

Möhtərəm cənab Prezident!

Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində qələbəniz münasibətilə səmimi təbriklərimizi qəbul edin.

Azərbaycan Respublikasının vətəndaşları olan gürcülər və müxtəlif ölkələrdə, o cümlədən Rusiya Federasiyasında, Qazaxıstanda, Gürcüstanda, Avropa ölkələrində yaşayan soydaşlarımız Sizin yenidən Prezident seçilməyinizi böyük sevinclə qarşıladılar.

Hörmətli cənab Prezident! Siz Azərbaycan xalqının layiqli oğlusunuz. Sizin adınız vətənin şanlı tarixinə qızıl hərflərlə yazılıb. Siz Azərbaycanın ərazi bütövlüyünü bərpa edən və müstəqilliyini möhkəmləndirən böyük lidersiniz.

Sizə cansağlığı və uzun ömür, fəaliyyətinizdə yeni-yeni qələbələr arzulayıram.

## QEYDLƏR

**1. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri arasında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında

atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 6, 7, 12, 39, 41, 42, 44, 45, 46, 56, 59, 63, 91.

**2. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

Ali Baş Komandan İlham Əliyevin birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini

8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 6, 11, 35, 63, 68, 165, 167, 171, 225.

**3. Qarabağ** – Azərbaycan Respublikası ərazisində keçmiş muxtar vilayət. Öncə ərazisi 4161 $km^2$ olmuş, sonralar bura müxtəlif ərazilər də daxil edilərək ərazisi 4400 $km^2$-dək genişləndirilmişdi. 1988-ci ilə qədər burada 170 min əhali yaşayırdı.

DQMV inzibati ərazi vahidi kimi 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilmişdi.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başlamışdılar.

Azərbaycan Ordusunun 2020-ci il 27 sentyabrda başladığı əməliyyatların bir hissəsi keçmiş DQMV ərazilərində həyata keçirildi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri düşmən işğalından azad edildi.

Azərbaycan Ordusunun Qarabağda keçirdiyi uğurlu antiterror və hərbi əməliyyatlardan sonra Qarabağ tamamilə azad edilmişdir. – 7, 28, 32, 34, 36, 37, 38, 40, 41, 45, 58, 59, 60, 61, 66, 76, 90, 91, 128, 129, 137, 138, 167, 171, 232, 244, 296, 299, 303.

**4. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmış, 613 azərbaycanlı öldürülmüş, yüz-

lərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 8, 33.

**5. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 79,9 min nəfərdir. Laçın rayonu 18 may 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 1 dekabr 2020-ci ildə Laçın rayonu 28 il sonra yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. – 8, 9, 34–40, 42, 65, 100.

**6. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları –** 7 iyul 2021-ci ildə Azərbaycan Prezidentinin «Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında» Fərmanına əsasən yaradılmışdır. Qarabağ iqtisadi rayonuna Ağdam, Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonları, yeni yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonuna isə işğaldan azad olunmuş Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daxil edilmişdir. – 8, 64, 67, 68.

**7. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildə ərazisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı

nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 9, 65, 67.

**8. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 29,12 km$^2$, əhalisi 55 min nəfərdir. 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatlarından sonra 29 sentyabr 2023-cü ildə Azərbaycan polisi şəhərə nəzarəti bərpa etmişdir. 15 oktyabr 2023-cü ildə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağını qaldırmışdır. «Zəfər Günü» münasibətilə erməni separatçılarından birdəfəlik azad olunmuş Xankəndidə Qələbə Paradı keçirilmişdir. – 9, 11, 28, 30, 34, 35, 37, 39, 42, 66, 147, 165, 167, 171, 174, 242, 296.

**9. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev

MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1976-cı ildə Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ildə isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud icti-

mai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, keçmiş Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ prob-

leminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» Fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 11, 29, 30, 71, 90, 103, 106, 107, 119, 120, 121, 122, 133, 156, 174, 183, 184, 187, 188, 190, 191, 192, 193, 194, 195, 196, 197, 201, 202, 203, 205, 206, 208, 210, 211, 213, 214,215, 216, 217, 218, 219, 220, 221, 222, 223, 224, 225, 226, 228, 230, 232, 233, 234, 235, 236, 237, 238, 239, 240, 241, 244, 246, 247, 248, 249, 250, 252, 253, 254, 255, 256, 257, 259, 260, 261, 262, 263, 264, 265, 266, 267, 268, 269, 270, 271, 273, 275, 276, 277, 278, 279, 280, 281, 282,

283, 285, 286, 287, 288, 289, 290, 291, 292, 293, 294, 295, 296, 297, 298, 299, 300, 301, 302, 303, 304, 305, 306, 308, 310, 311, 312, 314.

**10. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian dini bayramı. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişlər. Eramızın 431-ci ilində Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 14, 15.

**11. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 125,4 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 16, 17.

**12. Lüksemburq,** Böyük Lüksemburq Hersoqluğu – Qərbi Avropada dövlət. Sahəsi 2,6 min $km^2$, əhalisi 602 min nəfərdir. İnzibati cəhətdən 3 mahala bölünür. Lüksemburq konstitusiyalı monarxiyadır. Dövlət başçısı Böyük hersoqdur. Qanunverici orqanı Deputatlar Palatasıdır. Paytaxtı Lüksemburq şəhəridir. – 18, 19.

**13. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına

hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 18, 46, 48, 61, 78, 79, 82, 92, 162, 163, 263.

**14. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı  Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 20–24, 26, 27, 88, 144.

**15. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5  daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təh-

lükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 24, 43, 46, 48, 89.

**16. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq-enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneft-kimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 27, 239.

**17. «Azərbaycan Televiziya və Radio Verilişləri» QSC** (AzTV) – Azərbaycanın ilk milli televiziya kanalı. Azərbaycan televiziyası 1956-cı il fevralın 14-də yayıma başlamışdır. Kanada, Rusiya, Türkiyə kimi ölkələrdə müxbir məntəqələri fəaliyyət göstərir. – 28.

**18. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti.

Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 30, 70, 71.

**19. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 km$^2$, əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişlər. İşğaldan azad edildikdən sonra Kəlbəcər yenidən qurulur. – 35, 40, 66.

**20. 10 noyabr Bəyanatı** – Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən keçmiş Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan silahlı qüvvələrinin keçmiş Dağlıq Qarabağın ətrafında Ermənistanın nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi haqqında bəyanat. – 35, 50, 64.

**21. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 36, 37, 40, 41, 45, 50, 62,

63, 74, 105, 131, 155, 184, 193, 201, 222, 226, 240, 246, 253, 254, 255, 256, 257, 260, 275, 276, 277, 281, 282, 304, 305, 314.

**22. Zəngəzur,** Zəngəzur qəzası – XIX əsrin ikinci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il tarixli fərmanına əsasən yaradılmış Gəncə quberniyasının tərkibinə daxil edilmişdir. – 36, 49, 52, 71.

**23. Beynəlxalq Qırmızı Xaç Komitəsi** – xüsusi xeyriyyə təşkilatı olaraq, 1863-cü ildə İsveçrənin Cenevrə şəhərində yaradılmışdır. Təşkilatın 25 üzv komitəsi beynəlxalq humanitar hüquqa uyğun olaraq, beynəlxalq və daxili silahlı münaqişə qurbanlarının həyat və ləyaqətlərinin qorunmasında xüsusi hüquqa sahibdir. Təşkilat 3 dəfə Nobel Sülh Mükafatına layiq görülmüşdür. – 37.

**24. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 68 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 43–46, 48, 49, 51, 56, 57, 89.

**25. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı** (ATƏT) – 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü

ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, həmçinin ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 44, 217.

**26. Vladimir Putin** (d.1952) – Rusiyanın dövlət və siyasi xadimi. 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı olmuş, 2012 və 2018-ci illərdə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 45, 63, 155, 184.

**27. Natəvan,** X u r ş u d b a n u x a n q ı z ı (1832–1897) – tanınmış Azərbaycan şairəsi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan

şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. – 47, 89.

**28. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 km$^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 20-də Ağdam yenidən Azərbaycan Respublikasının nəzarəti altına keçmişdir. Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 47, 66, 67, 68, 73, 100, 126.

**29. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2,38 milyon km$^2$, əhalisi 44,2 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 47.

**30. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət

başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkata sədrlik 2019–2023-cü illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 48, 49, 80, 82, 110, 111, 113, 114, 140, 144, 230.

**31. İsveçrə,** İsveçrə Konfederasiyası – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min $km^2$, əhalisi 8,6 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı Prezidentdir, Prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 48.

**32. Türkiyə,** Türkiyə Respublikası – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 85,3 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 49, 50, 63, 77, 97, 105, 133, 134, 145, 146, 148, 158, 173, 174, 176, 180, 295, 296, 303.

**33. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 49, 50, 51, 52, 190.

**34. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 49, 74, 77, 178, 291, 292, 293, 294, 314.

**35. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 50, 52, 66.

**36. İrəvan –** qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq, ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdir. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şah (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yaranmışdır.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6 %-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 50, 58, 70.

**37. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 35 km$^2$, əhalisi 95 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 51, 52, 69, 198.

**38. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 333,3 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik

orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 51, 52, 97, 116, 117, 306, 307.

**39. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 61, 81, 92, 111, 113, 114, 142, 143, 188, 228, 229, 302.

**40. Dünya İqtisadi Forumu,** D a v o s  İ q t i s a d i  F o r u m u (DİF) – İsveçrənin kurort şəhəri Davosda keçirilən forum. 1971-ci ildə yaradılmışdır. Ötən əsrin 70-ci illərinin ortalarından forumun iclaslarına müxtəlif ölkələrin hakimiyyət nümayəndələri və iş dünyasının liderləri olan sahibkarlar dəvət edilməyə başlandı. 1987-ci ildən etibarən DİF Dünya İqtisadi Forumu adlandırılmağa başlanıb. Davos forumu üçün ənənəvi şəkildə illik keçirilən görüşlər xarakterikdir. DİF-in hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət

başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. 27–31 yanvar 1995-ci ildə ulu öndər Heydər Əliyev ilk dəfə olaraq Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində Azərbaycana həsr olunmuş görüş keçirilib və ulu öndər Heydər Əliyev ölkə haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib. – 62.

**41. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 62, 84, 105, 185.

**42. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının liderididir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib

Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri olmuş, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Prezidentidir. Ölkələrimiz arasındakı dostluq və qardaşlıq fəaliyyətinin daha da inkişaf etdirilməsinə görə Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 63, 64, 133, 134, 145, 148, 173, 174, 180.

**43. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 66, 100.

**44. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Ərazisi 802 km$^2$, əhalisi 40,2 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi.

25 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 66.

**45. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min km$^2$, əhalisi 35,7 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qaraqalpaqıstan Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 67, 105, 150, 170, 186, 187.

**46. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Astana şəhəridir. – 67, 105, 154, 182, 273, 314.

**47. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. Bankın əsas məqsədi kasıb ölkələrə struktur islahatlarının həyata keçirilməsində və yoxsulluğun azaldılmasında yardım göstərməkdir. Ayrı-ayrı ölkələrdə sabit və davamlı inkişafa nail olmaq üçün Dünya Bankı öz maliyyə resurslarından, yüksəkixtisaslı kadrlardan və biliklər bazasından istifadə edir. – 75.

**48. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 6,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 76, 77, 188, 189.

**49. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 6,8 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 76, 77, 218.

**50. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,7 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 77.

**51. Rumıniya** – Cənub-Şərqi Avropada dövlət. Dövlət başçısı Prezident, qanunverici orqan isə ikipalatalı parlamentdir. Ərazisi 238,3 min km$^2$, əhalisinin sayı 19 milyon nəfərdir. Paytaxtı Buxarest şəhəridir. – 77, 206, 207, 261.

**52. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 77, 152, 268.

**53. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə qərb bazarlarına nəql edir. – 77, 78, 79.

**54. «Şahdəniz» yatağı** – Xəzərin Azərbaycan sektorunda yerləşən dünyanın ən iri qaz-kondensat yataq-

larından biri. 1999-cu ildə kəşf olunub. Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50–500 m arasında dəyişdiyi Xəzər dənizinin Azərbaycan sektorunda yerləşir. 1999-cu ilin iyunundan bu günə ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton qaz-kondensatdan ibarət olan nəhəng «Şahdəniz» yatağının kəşf edilməsi və «Şahdəniz» qaz layihəsinin uğurla həyata keçirilməsi Azərbaycanı dünyaya qaz ixrac edən ölkə kimi tanıdıb. – 77.

**55. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Roma şəhəridir. – 77, 263, 264, 265, 266.

**56. «Azəri–Çıraq–Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti adından *bp* şirkəti tərəfindən işlənilir. – 78.

**57. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin 2 müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir  üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və  geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 78, 79, 80.

**58. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 83.

**59. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 83.

**60. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,98 milyon km$^2$, əhalisi 37,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya Kralıdır. Onu ölkədə General-Qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ottava şəhəridir. – 83, 84, 306.

**61. Si Cinpin** (d.1953) – Çinin dövlət və siyasi xadimi, fəaliyyətdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi. 2013-cü ildən Çin Xalq Respublikasının, ÇXR Mərkəzi Hərbi Şurasının Sədridir. – 84, 185.

**62. «New York Times»** – Amerika Birləşmiş Ştatlarının ən qədim qəzetlərindən biri. Qəzet çapa 1801-ci ildə başlamışdır. – 87.

**63. «Washington Post»** – Amerika Birləşmiş Ştatlarının ən nüfuzlu və qədim qəzetlərindən biri. Qəzet çapa 1877-ci ildə başlamışdır. – 87.

**64. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya Baş Assambleyanın sessiyalarıarası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 89.

**65. Elçin Quliyev,** Elçin İsağa oğlu (d.1967) – general-polkovnik, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi. Azərbaycan Respublikasının «Zəfər», «Azərbaycan Bayrağı», «Rəşadət» ordenləri ilə təltif edilmişdir. – 94.

**66. Ülvi Mehdiyev,** Ülvi Ramiz oğlu (d.1985) – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri. – 98.

**67. «Azərişıq» –** Bakı elektrik şəbəkəsinin operatoru. Bakı elektrik şəbəkəsi 1920-ci ildən etibarən müxtəlif qurumların tərkibində fəaliyyət göstərib. Azərbaycan Respublikası Prezidentinin 10 avqust 2006-cı il tarixli Sərəncamı ilə «Bakıelektrikşəbəkə» ASC-nin fəaliyyəti bərpa edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 fevral 2015-ci il tarixli Sərəncamına əsasən, «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin adı dəyişdirilərək «Azərişıq» Açıq Səhmdar Cəmiyyəti adlandırıldı. – 101.

**68. Fikrət Məmmədov,** Fikrət Fərrux oğlu (d.1955) – hüquqşünas və dövlət xadimi. I dərəcəli Dövlət Ədliyyə müşaviri. 2000–2024-cü illərdə Azərbaycan Respublikasının Ədliyyə naziri olmuşdur. 23 fevral 2024-cü ildən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin hakimidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 101.

**69. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Kras-

novun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESCO və ISESCO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci il-

də Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 103, 119, 125, 147.

**70. İsrail,** İ s r a i l  D ö v l ə t i – Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. İsrail Dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentdir, onu birpalatalı parlament seçir. Hökumətə geniş səlahiyyəti olan Baş Nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 105, 244, 252, 299, 309.

**71. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 105, 194, 196.

**72. Moldova,** M o l d o v a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişineu şəhəridir. – 105, 211, 234.

**73. İraq,** İ r a q  R e s p u b l i k a s ı – Qərbi Asiyada dövlət. Şimalda Türkiyə, şərqdə İran, cənubda Səudiyyə Ərəbistanı və Küveyt, qərbdə isə Suriya və

İordaniya ilə həmsərhəddir. Ərazisi 435 km², əhalisi 43,8 milyon nəfərdir. Paytaxtı Bağdad şəhəridir. – 105, 153.

**74. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdir. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 118, 119, 120, 121, 122, 123.

**75. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km², əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 121.

**76. Avstraliya,** A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Sahəsi 7,7 milyon km$^2$, əhalisi 27 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və 2 əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya Kralıdır. Ölkədə Kralı General-Qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 130.

**77. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belarusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası

Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 131, 164, 165, 166, 219, 233.

**78. Hulusi Akar** (d.1952) – ordu generalı. 2018–2023-cü illərdə Türkiyə Respublikasının Milli Müdafiə naziri olmuşdur. 2023-cü ildən TBMM Milli Müdafiə Komissiyasının sədridir. – 133, 134, 135.

**79. Türk Dövlətləri Təşkilatı,** Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası – 3 oktyabr 2009-cu ildə Naxçıvanda imzalanmış Naxçıvan müqaviləsi ilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə arasında qurulmuş beynəlxalq təşkilat. 14 sentyabr 2019-cu ildə Özbəkistan quruma üzv olmuşdur. – 134, 159, 167, 168, 174, 175, 208, 221, 269.

**80. Şuşa Bəyannaməsi** – 2021-ci il iyunun 15-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Şuşa şəhərində imzalanmış bəyannamə. – 134, 180.

**81. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın dövlət və siyasi xadimi. 2003–2006-cı illərdə Özbəkistan Respublikasının Baş Naziri olmuşdur. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 150, 186.

**82. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km², əhalisi 9,2 mil-

yon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 151, 191.

**83. Aleksandr Lukaşenko** (d.1954) – Belarus siyasətçisi və dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 151, 191.

**84. Viktor Orban** (d.1963) – Macarıstanın siyasi və dövlət xadimi. 1998–2002-ci illərdə Macarıstanın Baş Naziri olmuşdur. 2010-cu ildən yenidən Macarıstanın Baş Naziridir. – 152, 268.

**85. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstan siyasətçisi və dövlət xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 154, 182.

**86. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min $km^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayət və 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 156, 224, 225, 237, 297.

**87. Sadır Japarov** (d.1968) – qırğız dövlət və siyasi xadimi. 2021-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 156, 237.

**88. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min $km^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayət və 45 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 157, 192.

**89. Emoməli Rəhmon,** E m o m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın dövlət və siyasi xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 157, 192.

**90. Şimali Kipr Türk Respublikası** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdi və Prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdı. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvə yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1974-cü ildə Türkiyə Baş Naziri Bülənt Ecevitin həyata keçirdiyi plana uyğun olaraq, Kiprdə hava əməliyyatı başlanılmışdır. 1976-cı ildə Kipr Türk Federal Dövləti quruldu. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikasını elan etdi. – 159.

**91. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Balkan yarımadasının cənub-qərbində yerləşən ölkə.

Adriatik və İon dənizləri sahilində yerləşir və şimal-qərbdən Monteneqro, şimal-şərqdən Kosovo, şərqdən Şimali Makedoniya və cənubdan Yunanıstan ilə həmsərhəddir. Ərazisi 28,7 min $km^2$, əhalisi 2,8 milyon nəfərdir. Paytaxtı Tirana şəhəridir. – 160, 238, 247.

**92. Bayram Beqay** (d.1967) – Albaniya siyasətçisi və dövlət xadimi. 2022-ci ildən Albaniya Prezidentidir. – 160.

**93. Şarl Mişel** (d.1975) – belçikalı siyasətçi. 2014–2019-cu illərdə Belçikanın Baş Naziri olmuşdur. 2019-cu ildən Avropa İttifaqı Şurasının Prezidentidir. – 162, 163.

**94. Şanxay Əməkdaşlıq Təşkilatı –** Şanxay Əməkdaşlıq Təşkilatı, həmçinin Şanxay Paktı kimi tanınan transkontinental siyasi, iqtisadi, təhlükəsizlik və hərbi ittifaq. Coğrafi əhatə dairəsi və əhalisi baxımından dünyanın ən böyük regional təşkilatlarından biridir. Ali qəbuledici orqanı ildə bir dəfə toplanan Dövlət başçıları Şurasıdır. – 169, 170, 250, 251.

**95. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESCO və ISESCO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək,

Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 169.

**96. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-polkovnik. 2003–2013-cü illərdə Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini – Daxili Qoşunların Komandanı vəzifəsində çalışmışdır. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı», «Rəşadət», «Şöhrət», «Zəfər», «Qarabağ» ordenləri ilə təltif edilmişdir. – 176.

**97. Səlçuk Bayraktar** (d.1979) – Türk iş adamı, mühəndis, Türkiyənin ilk yerli istehsalı olan SİHA sistemli «Baykar Bayraktar TB2»nin memarı, «Baykar Savunma»nın texniki direktoru. Komandası ilə yaratdığı «Bayraktar TB2» pilotsuz uçuş aparatları Türkiyə Ordusunun PKK-ya qarşı hərbi əməliyyatlarında geniş şəkildə istifadə edilmişdir. Səlçuk Bayraktar Türkiyə Silahlı Qüvvələrinin arsenalına daxil olan ilk pilotsuz uçuş aparatı «Bayraktar Mini PUA»nın yaradıcısı olmuşdur. Türkiyənin ilk pilotsuz hücum uçuş aparatı «Bayraktar Akıncının» (PUA) yaradılmasında da xüsusi əməyi olmuşdur. İkinci Qa-

rabağ müharibəsində istifadə olunan bu texnikalar qazanılan böyük Zəfərə öz töhfəsini vermiş, bu fəaliyyətlərinə görə Səlçuk Bayraktar Azərbaycan Respublikasının «Qarabağ» ordeni ilə təltif edilmişdir. – 176.

**98. ISESCO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan ISESCO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 179, 271.

**99. Aleksandr Vuçiç** (d.1970) – Serbiyanın dövlət və siyasi xadimi. 2017-ci ildən Serbiya Respublikasının Prezidentidir. – 188.

**100. İbrahim Rəisi** (d.1960) – İran siyasətçisi və dövlət xadimi. 2021-ci ildən İran İslam Respublikasının Prezidentidir. – 190.

**101. Sərdar Berdıməhəmmədov** (d.1981) – Türkmənistanın dövlət və siyasi xadimi. 19 mart 2022-ci ildən Türkmənistan Prezidentidir. – 194.

**102. Xorvatiya,** Xorvatiya Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min $km^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 195, 205.

**103. Ukrayna** – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 197.

**104. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 197.

**105. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 199.

**106. TÜRKSOY,** Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – Türk ölkələrinin mədəniyyət sahələrini birləşdirən beynəlxalq təşkilat. TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında müqavilə həmin ölkələrin Mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Qazaxıstan Respublikasının keçmiş paytaxtı Almatı şəhərində imzalanmışdır. Təşkilatın nizamnaməsinə görə, o, türkdilli dövlətlərin mədəniyyət nazirlərinin Daimi Şurasının qərarlarına əsasən fəaliyyət göstərir. TÜRKSOY-un əsas üzvləri Qazaxıstan, Türkiyə, Azərbaycan, Özbəkistan, Qırğızıstan və Türkmənistandır. Qalan 8 üzv isə əsasən müşahidəçi qismində iştirak edirlər. – 208, 209.

**107. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – müsəlman ölkələrinin çoxunu birləşdirən təşkilat. 1969–2011-ci

illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 216, 241, 242.

**108. Fələstin,** F ə l ə s t i n  D ö v l ə t i – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən, Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin Ərəb Dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin Muxtariyyəti yaradıldı. Sahəsi 6,2 min km$^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir. – 220.

**109. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının Sədri (Fələstin Dövlətinin Prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 220.

**110. Maya Sandu** (d.1972) – Moldova siyasətçisi və dövlət xadimi. 2012–2015-ci illərdə Moldovanın Təhsil naziri, 2014–2019-cu illərdə Moldova Parlamentinin üzvü, 2019–2020-ci illərdə isə Baş Naziri olmuşdur. 2020-ci ildən Moldova Respublikasının Prezidentidir. – 234.

**111. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman boşnak, serb və xorvat) milli və dini zəmində yaranmış mübahisə qanlı hərbi qarşıdurmaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında Saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya və Herseqovinadan ibarət federativ respublika yaradıldı. Sahəsi 51,2 min $km^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 235, 236.

**112. *bp*** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 239.

**113. Çex,** Ç e x i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min $km^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 262.

**114. Sercio Mattarella** (d.1941) – İtaliya siyasətçisi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 263.

**115. Ciorcia Meloni** (d.1977) – İtaliyanın dövlət və siyasi xadimi. 22 oktyabr 2022-ci ildən İtaliyanın Baş Naziridir. – 264.

**116. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 267.

**117. Salome Zurabişvili** (d.1952) – Gürcüstanın siyasi xadimi. 2004–2005-ci illərdə Gürcüstanın Xarici İşlər naziri olmuşdur. 2018-ci ildən Gürcüstan Prezidentidir. – 291.

**118. Yaşar Gülər** (d.1954) – türk generalı, 2018–2023-cü illərdə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi olmuşdur. 2023-cü ildən Türkiyə Respublikasının Milli Müdafiə naziridir. – 295.

**119. Bəhreyn,** B ə h r e y n K r a l l ı ğ ı – Fars körfəzində yerləşən ada dövlət. Ümumi sahəsi 780 $km^2$, əhalisinin sayı 1,7 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Qanunverici hakimiyyət Əmirə və birpalatalı Milli Məclisə məxsusdur. Paytaxtı Manama şəhəridir. – 308.

**120. Küveyt,** K ü v e y t D ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min $km^2$, əhalisi 4,6 milyon nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı Əmirdir. Qanunverici orqan və hökumət

Əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı Əl-Küveyt şəhəridir. – 310.

**121. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,3 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 312, 313.

**122. Andjey Duda** (d.1972) – Polşanın siyasi xadimi. Hüquq elmləri doktoru. 2015-ci ildən Polşa Respublikasının Prezidentidir. – 312.

## Şəxsi adlar göstəricisi

**Abbas Mahmud** – 220
**Ağayev Mirşahin** – 30, 57, 84, 89
**Akar Hulusi** – 133, 134, 135
**Aksoy Ərdal** – 296
**Al Hüseyn Abdullah** – 298
**Al Xəlifə bin İsa** – 308
**Amilov Adam** – 309
**Anxel Migel** – 228
**Anodina Tatyana** – 203
**Antonenko Valentina** – 197
**Atalay Ergün** – 249
**Aukinklos Mürrey** – 239
**Auşev Ruslan** – 201
**Ayhan Taha** – 241
**Ayrım Şamil** – 173, 174
**Babuşkin İqor** – 193
**Badara Alie** – 110
**Baxçalı Dövlət** – 158
**Bakındı Cemail** – 303
**Bayraktar Səlçuk** – 176
**Beqay Bayram** – 160
**Beqlov Aleksandr** – 283
**Berdıməhəmmədov Qurbanqulu** – 196
**Berdıməhəmmədov Sərdar** – 194
**Bermudes Dias-Kanel** – 13
**Birçal Ana** – 206

**Camal Rəşid** – 153
**Cəbiyev Namiq** – 97
**Cəfərov Aydın** – 233
**Cinpin Si** – 84, 185
**Ciorcia Meloni** – 264
**Con Devid** – 130
**Çunqonq Martin** – 136, 140
**Dodik Milorad** – 235
**Doluxanov Fikrət** – 39, 64, 76
**Donqyu Qu** – 302
**Duda Andjey** – 312
**Əl-Budeyvi Casim** – 301
**Əl-Əcmi Əbdülrəhman** – 310
**Əliyev Heydər** – 11, 29, 30, 71, 90, 103, 106, 107, 119–122, 133, 156, 174, 183, 184, 187, 188, 190–197, 201–203, 205, 206, 208, 210, 211, 213–226, 228, 230, 232–241, 244, 246–250, 252–257, 259–271, 273, 275–283, 285–306, 308, 310, 311, 312, 314
**Əliyev Məmməd** – 257
**Əliyeva Mehriban** – 103, 119, 125, 147
**Əliyeva Zərifə xanım** – 197
**Əl-Malik Məhəmməd** – 179, 271
**Əl-Nəhyan bin Abdulla** – 23
**Əl-Nəhyan bin Həmdan** – 23
**Əl-Nəhyan bin Mansur** – 23
**Əl-Nəhyan bin Zaid** – 20, 21, 22, 23, 25

**Ərdoğan Rəcəb Tayyib** – 63, 64, 133, 134, 145, 148, 173, 174, 180
**Fətəli xan Xoyski** – 94
**Gəncəvi Nizami** – 199
**Gülər Yaşar** – 295
**Hacıyev Asəf** – 223
**Həsənov Zakir** – 176
**Xurşudbanu Natəvan** – 47, 89
**İbrahim Taha** – 216
**İnfantino Canni** – 259
**İohannis Verner** – 261
**İrakli Kobaxidze** – 178, 292
**Japarov Sadır** – 156, 237
**Kabrera Enrike** – 127
**Kajado Klaudio** – 213
**Kalaşnikov Leonid** – 305
**Kalay Gezim** – 247
**Kamçıbek Uzakbayev** – 224
**Kandov Boris** – 306
**Kaniliada Cuzeppe** – 266
**Kassanov Ziyəddin** – 210
**Kavlak Pevrul** – 248
**Kərbəliyeva Günel** – 49, 74
**Kirill** (*Patriarx*) – 286
**Klibanski Cozef** – 127
**Kobitski Dmitri** – 233
**Qeye Şeyx** – 113
**Qlıboçko Pyotr** – 289
**Quliyev Elçin** – 94
**Qutseriyev Mixail** – 253
**Qutsul Yevgeniya** – 211

**Lebedev Sergey** – 164, 165, 219
**Libbi Mark** – 116
**Liberman Aviqdor** – 299
**Lukaşenko Aleksandr** – 151, 191
**Maqomedov Maqomedsalam** – 254
**Maria Helqa** – 217
**Mattarella Sercio** – 263
**Matviyenko Valentina** – 277
**Medvedev Dmitri** – 276
**Mehdiyev Ülvi** – 98
**Metreveli Roin** – 294
**Məmmədov Fikrət** – 101
**Məmmədov Rövşən** – 28, 53, 54, 85, 92
**Mikayılov Zaur** – 107
**Milanoviç Zoran** – 195
**Min Can** – 169, 170, 250
**Minnixanov Rüstəm** – 226
**Mirziyoyev Şavkat** – 150, 186
**Mişel Şarl** – 162, 163
**Mişustin Mixail** – 275
**Molodtsova Lidiya** – 43, 80
**Muriyo Rosario** – 214
**Muyser de Alain** – 18, 19
**Neçirvan Bərzani** – 161
**Noziri Xusrav** – 202
**Nurəliyev Nurlan** – 105
**Nurməmmədova Çinarə** – 34, 69, 73
**Orban Viktor** – 152, 268
**Overçuk Aleksey** – 131
**Ömüralıyev Kubanıçbek** – 167, 269
**Pavel Petr** – 262

**Petriaşvili İrakli** – 293
**Peyçinoviç Mariya** – 300
**Pənahəli xan** – 30
**Pinski Viktor** – 222
**Plenkoviç Andrey** – 205
**Pşixaçev Şafik** – 246
**Putin Vladimir** – 45, 63, 155, 184
**Radev Rumen** – 218
**Raev Sultan** – 208
**Raimkulova Aktoti** – 270
**Ramadan Edi** – 238
**Rəhmon Emoməli** – 157, 192
**Rəisi İbrahim** – 190
**Rinkeviçs Edqars** – 267
**Sadıxov Ruslan** – 124
**Sadovniçi Viktor** – 279
**Sammers Robert** – 129
**Sandu Maya** – 234
**Sarıbay Kayrat** – 230
**Suliman Aleksandr** – 244
**Skurriada Marko** – 265
**Slutski Leonid** – 282
**Stil Saymon** – 142
**Storçevoy Oleq** – 215
**Sultanmurat Yermentay** – 273
**Suver Akkan** – 232
**Sürəyya Məhmət** – 171, 311
**Şafranik Yuri** – 290
**Şapiaşvili Rostom** – 314
**Şıxsəidov Xızrı** – 240
**Şirak Jak** – 44

**Şmakov Mixail** – 256
**Şvıdkoy Mixail** – 281
**Tatar Ərsin** – 159
**Temrezov Rəşid** – 255
**Tokayev Kasım-Jomart** – 154, 182
**Toktoqaziyev Temirbek** – 297
**Tsiyanoviç Jelka** – 236
**Usmanov Alişer** – 260
**Vatanabe Katsuya** – 16, 17
**Viner İrina** – 285
**Vuçiç Aleksandr** – 188
**Yelizarov Pavel** – 252
**Yıldırım Binəli** – 221
**Zurabişvili Salome** – 291
**Züqanov Gennadi** – 304

## Coğrafi adlar göstəricisi


**Afrika** – 112
**Ağalı** – 9, 65
**Ağbənd** – 51
**Ağdam** – 47, 66–68, 73, 100, 126
**Ağdərə** – 11
**Albaniya** – 160, 238, 247
**Amerika Birləşmiş Ştatları** – 51, 52, 97, 116, 117, 306, 307
**Asiya** – 50, 112, 230, 231, 306
**Astara** – 99
**Avrasiya** – 62, 224, 248
**Avropa** – 44, 48, 68, 74, 76, 77, 79, 80, 88, 314
**Avstraliya** – 130
**Belarus** – 151, 191
**Bəhreyn** – 308
**Birləşmiş Ərəb Əmirlikləri** – 20–24, 26, 27, 88, 144
**Bolqarıstan** – 76, 77, 218
**Bosniya və Herseqovina** – 235, 236
**Braziliya** – 86, 105, 213
**Brüssel** – 162, 163
**Cenevrə** – 48, 111
**Cəbrayıl** – 66, 100
**Çex Respublikası** – 262
**Çin** – 62, 84, 105, 185
**Daşaltı** – 67, 68

| | |
|---|---|
| **Dubay** | – 26, 86, 87 |
| **Əlcəzair** | – 47 |
| **Əsgəran** | – 11 |
| **Fələstin** | – 220 |
| **Fransa** | – 43–46, 48, 49, 51, 56, 57, 89 |
| **Füzuli** | – 9, 65, 67 |
| **Gürcüstan** | – 49, 74, 77, 178, 291–294, 314 |
| **Xankəndi** | – 9, 11, 28, 30, 34, 35, 37, 39, 42, 66, 147, 165, 167, 171, 174, 242, 296 |
| **Xocalı** | – 9, 11, 33, 66 |
| **Xocavənd** | – 11 |
| **Xorvatiya** | – 195, 205 |
| **İordaniya** | – 298 |
| **İraq** | – 105, 153 |
| **İran** | – 49, 50, 51, 52, 190 |
| **İrəvan** | – 50, 58, 70 |
| **İrpen** | – 197 |
| **İsmayıllı** | – 47 |
| **İspaniya** | – 128 |
| **İsrail** | – 105, 244, 252, 299, 309 |
| **İsveçrə** | – 48 |
| **İtaliya** | – 77, 263, 264, 265, 266 |
| **Kahramanmaraş** | – 146 |
| **Kanada** | – 83, 84, 306 |
| **Kəlbəcər** | – 35, 40, 66 |
| **Kərki** | – 69 |
| **Kərkicahan** | – 9, 66 |
| **Kuba** | – 13 |

**Küveyt** – 310
**Qafqaz** – 56, 139, 184, 225, 252, 264, 276
**Qazaxıstan** – 67, 105, 154, 182, 273, 314
**Qarabağ** – 7, 28, 32, 34, 36, 37, 38, 40, 41, 45, 58, 59, 60, 61, 66, 76, 90, 91, 128, 129, 137, 138, 167, 171, 232, 244, 296, 299, 303
**Qazax** – 69, 70
**Qırğızıstan** – 156, 224, 225, 237, 297
**Qubadlı** – 66
**Qurumba** – 98
**Laçın** – 8, 9, 34–40, 42, 65, 100
**Latviya** – 267
**Lerik** – 99
**Lənkəran** – 97–101, 103, 105, 106
**Lüksemburq** – 18, 19
**Macarıstan** – 77, 152, 268
**Malıbəyli** – 9, 66
**Mehri** – 51, 52
**Moldova** – 105, 211, 234
**Moskva** – 120, 121, 219, 279, 286, 289
**Naxçıvan** – 51, 52, 69, 198
**Naxçıvan Muxtar Respublikası** – 121
**Napoli** – 266
**Neftçala** – 107, 108, 109
**Nikaraqua** – 214
**Niş** – 76

**Nyu York** – 127
**Ordubad** – 50, 51
**Özbəkistan** – 67, 105, 150, 170, 186, 187
**Paris** – 43, 45, 139
**Polşa** – 312, 313
**Praqa** – 46
**Roma** – 263, 265
**Rumıniya** – 77, 206, 207, 261
**Rusiya** – 36, 37, 40, 41, 45, 50, 62, 63, 74, 105, 131, 155, 184, 193, 201, 222, 226, 240, 246, 253, 254, 255, 256, 257, 260, 275, 276, 277, 281, 282, 304, 305, 314
**Salyan** – 108
**Sankt-Peterburq** – 69, 131, 283
**Seneqal** – 113, 114, 115
**Separadi** – 97
**Serbiya** – 76, 77, 188, 189
**Səmərqənd** – 170
**Sumqayıt** – 67
**Sus** – 66
**Syerra-Leone** – 110, 111, 112
**Şimali Kipr Türk Respublikası** – 159
**Şuşa** – 6, 11, 35, 63, 68, 165, 167, 171, 225
**Tacikistan** – 157, 192
**Talış** – 9, 65
**Tbilisi** – 49

**Tovuz** – 70
**Turşsu** – 9, 66
**Türkiyə** – 49, 50, 63, 77, 97, 105, 133, 134, 145, 146, 148, 158, 173, 174, 176, 180, 295, 296, 303
**Türkmənistan** – 105, 194, 196
**Ukrayna** – 197
**Uqanda** – 85
**Yaponiya** – 16, 17
**Yardımlı** – 99
**Yunanıstan** – 77
**Zabux** – 9, 40, 65
**Zəngəzur** – 36, 49, 52, 71
**Zəngilan** – 50, 52, 66

# MÜNDƏRİCAT

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*30 dekabr 2023-cü il*............................................................ 5

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*31 dekabr 2023-cü il*............................................................ 6

KUBA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİGEL DİAS-KANEL BERMUDESƏ

*2 yanvar 2024-cü il*............................................................ 13

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*5 yanvar 2024-cü il*............................................................ 14

YAPONİYANIN ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ KATSUYA VATANABE İLƏ GÖRÜŞ

*7 yanvar 2024-cü il*............................................................ 16

LÜKSEMBURQ BÖYÜK HERSOQLUĞUNUN
ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ
FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ
ALAİN DE MUYSER İLƏ GÖRÜŞ

*7 yanvar 2024-cü il............................................................ 18*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN
PREZİDENTİ ŞEYX MƏHƏMMƏD
BİN ZAİD ƏL-NƏHYANIN ŞƏRƏFİNƏ
RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*8 yanvar 2024-cü il............................................................ 20*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN
PREZİDENTİ ŞEYX MƏHƏMMƏD
BİN ZAİD ƏL-NƏHYANIN RƏSMİ
QARŞILANMA MƏRASİMİ

*9 yanvar 2024-cü il............................................................ 21*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN
PREZİDENTİ ŞEYX MƏHƏMMƏD
BİN ZAİD ƏL-NƏHYAN İLƏ GENİŞ
TƏRKİBDƏ GÖRÜŞ

*9 yanvar 2024-cü il............................................................ 23*

YERLİ TELEVİZİYA KANALLARINA
MÜSAHİBƏ

*10 yanvar 2024-cü il.......................................................... 28*

DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN YENİ
HƏRBİ HOSPİTAL KOMPLEKSİNİN
AÇILIŞI MƏRASİMİ

*15 yanvar 2024-cü il ......................................................... 94*

LƏNKƏRAN RAYONUNA SƏFƏR

*16 yanvar 2024-cü il........................................................... 97*

NEFTÇALA RAYONUNA SƏFƏR

*16 yanvar 2024-cü il......................................................... 107*

SYERRA-LEONE RESPUBLİKASININ
ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ
FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ
ALİE BADARA KAMARA İLƏ GÖRÜŞ

*18 yanvar 2024-cü il......................................................... 110*

SENEQAL RESPUBLİKASININ
ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ
FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ
ŞEYX QEYE İLƏ GÖRÜŞ

*18 yanvar 2024-cü il......................................................... 113*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ
FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ
MARK LİBBİ İLƏ GÖRÜŞ

*18 yanvar 2024-cü il......................................................... 116*

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN SOSİAL ŞƏBƏKƏ
HESABLARINDAN

*19 yanvar 2024-cü il......................................................... 118*

ÜMUMXALQ HÜZN GÜNÜNDƏ
ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

*20 yanvar 2024-cü il........................................................ 119*

BAKI AĞ ŞƏHƏRİN MƏRKƏZİ PARK
KVARTALINDA HƏYATA KEÇİRİLƏN
İNŞAAT, İNFRASTRUKTUR, ABADLIQ
İŞLƏRİ VƏ TİKİNTİSİ YEKUNLAŞMIŞ
BAKI AĞ ŞƏHƏR OFİS BİNASINDA
YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*22 yanvar 2024-cü il........................................................ 124*

AVSTRALİYA İTTİFAQININ GENERAL-
QUBERNATORU ZATİ-ALİLƏRİ
CƏNAB DEVİD CON HÖRLİYƏ

*23 yanvar 2024-cü il........................................................ 130*

RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN
SƏDR MÜAVİNİ, HÖKUMƏTLƏRARASI
KOMİSSİYANIN HƏMSƏDRİ ALEKSEY
OVERÇUK İLƏ GÖRÜŞ

*23 yanvar 2024-cü il........................................................ 131*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN
DEPUTATI, PARLAMENTİN MİLLİ
MÜDAFİƏ KOMİSSİYASININ SƏDRİ,
TÜRKİYƏ RESPUBLİKASININ SABİQ
MİLLİ MÜDAFİƏ NAZİRİ HULUSİ AKARIN
RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*29 yanvar 2024-cü il........................................................ 133*

PARLAMENTLƏRARASI İTTİFAQIN BAŞ KATİBİ MARTİN ÇUNQONQ İLƏ GÖRÜŞ

*1 fevral 2024-cü il* ........................................................... *136*

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN RƏSMİ SOSİAL ŞƏBƏKƏ HESABLARINDAN

*1 fevral 2024-cü il* ........................................................... *141*

BMT-nin İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ İCRAÇI KATİBİ SAYMON STİL İLƏ GÖRÜŞ

*2 fevral 2024-cü il* ........................................................... *142*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*6 fevral 2024-cü il* ........................................................... *145*

XANKƏNDİ ŞƏHƏRİNDƏ 122 SAYLI SEÇKİ DAİRƏSİNİN 14 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİNDƏ SƏSVERMƏDƏ İŞTİRAK

*7 fevral 2024-cü il* ........................................................... *147*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il* ........................................................... *148*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ŞAVKAT MİRZİYOYEV İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il* ........................................................... *150*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il* ........................................................... *151*

MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBAN İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il* ........................................................... *152*

İRAQ RESPUBLİKASININ PREZİDENTİ ƏBDÜLLƏTİF CAMAL RƏŞİD İLƏ TELEFONLA GÖRÜŞ

*7 fevral 2024-cü il* ........................................................... *153*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ KASIM-JOMART TOKAYEV İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il* ........................................................... *154*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il* ........................................................... *155*

QIRĞIZ RESPUBLİKASININ PREZİDENTİ SADIR JAPAROV İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il* ........................................................... *156*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il* ........................................................... *157*

TÜRKİYƏNİN MİLLİYYƏTÇİ HƏRƏKAT PARTİYASININ SƏDRİ DÖVLƏT BAXÇALI İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il* ........................................................... *158*

ŞİMALİ KİPR TÜRK CÜMHURİYYƏTİNİN PREZİDENTİ ƏRSİN TATAR İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il* ........................................................... *159*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ BAYRAM BEQAY İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il* ........................................................... *160*

İRAQ KÜRDÜSTAN REGİONUNUN BAŞÇISI NEÇİRVAN BƏRZANİ İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il* ........................................................... *161*

AVROPA İTTİFAQI ŞURASININ PREZİDENTİ ŞARL MİŞEL İLƏ TELEFONLA GÖRÜŞ

*8 fevral 2024-cü il* ........................................................... *162*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN BAŞ KATİBİ SERGEY LEBEDEV İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il* ............................................................ *164*

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ BAŞ KATİBİ KUBANIÇBEK ÖMÜRALIYEV İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il* ............................................................ *167*

ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ CAN MİN İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il* ............................................................ *169*

TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASININ (TÜRKPA) BAŞ KATİBİ MƏHMƏT SÜRƏYYA ƏR VƏ TÜRKPA BEYNƏLXALQ SEÇKİ MÜŞAHİDƏ MİSSİYASININ RƏHBƏRİ, TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÜZVÜ OSMAN MESTEN İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il* ............................................................ *171*

AZƏRBAYCAN–TÜRKİYƏ PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ŞAMİL AYRIMIN BAŞÇILIQ ETDİYİ TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 fevral 2024-cü il* ............................................................ *173*

HƏRBİ HAVA QÜVVƏLƏRİNİN HƏRBİ OBYEKTLƏRİNDƏ SİLAHLANMAYA

YENİ QƏBUL EDİLMİŞ «AKINCI»
HÜCUM PUA-larının UÇUŞLARINI
İZLƏMƏ MƏRASİMİ

*9 fevral 2024-cü il* .......................................................... *176*

GÜRCÜSTANIN BAŞ NAZİRİ İRAKLİ
KOBAXİDZE İLƏ TELEFONLA GÖRÜŞ

*9 fevral 2024-cü il* .......................................................... *178*

ISESCO-nun BAŞ DİREKTORU SALİM
BİN MƏHƏMMƏD ƏL-MALİK
İLƏ TELEFONLA GÖRÜŞ

*9 fevral 2024-cü il* .......................................................... *179*

MÜSTƏQİLLİYİMİZ DÖVRÜNDƏ
İLK DƏFƏ AZƏRBAYCANIN BÜTÜN
ƏRAZİLƏRİNDƏ KEÇİRİLMİŞ
PREZİDENT SEÇKİLƏRİNDƏ QAZANDIĞI
QƏLƏBƏ MÜNASİBƏTİLƏ PREZİDENT
İLHAM ƏLİYEVƏ GÖNDƏRİLMİŞ TƏBRİK
MƏKTUBLARI

TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB
ƏRDOĞANDAN........................................................ *180*

QAZAXISTAN PREZİDENTİ KASIM-
JOMART TOKAYEVDƏN .......................................... *182*

RUSİYA PREZİDENTİ VLADİMİR
PUTİNDƏN ................................................................. *184*

ÇİN XALQ RESPUBLİKASININ
SƏDRİ Sİ CİNPİNDƏN .............................................. *185*

ÖZBƏKİSTAN PREZİDENTİ ŞAVKAT MİRZİYOYEVDƏN ........ *186*

SERBİYA PREZİDENTİ ALEKSANDR VUÇİÇDƏN ........ *188*

İRAN PREZİDENTİ SEYİD İBRAHİM RƏİSİDƏN ........ *190*

BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKODAN ........ *191*

TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONDAN ........ *192*

RUSİYANIN HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU İQOR BABUŞKİNDƏN ........ *193*

TÜRKMƏNİSTAN PREZİDENTİ SƏRDAR BERDIMƏHƏMMƏDOVDAN ........ *194*

XORVATİYA PREZİDENTİ ZORAN MİLANOVİÇDƏN ........ *195*

TÜRKMƏN XALQININ MİLLİ LİDERİ, TÜRKMƏNİSTAN XALQ MƏSLƏHƏTİNİN SƏDRİ QURBANQULU BERDIMƏHƏMMƏDOVDAN ........ *196*

UKRAYNANIN İRPEN ŞƏHƏRİNDƏKİ ZƏRİFƏ ƏLİYEVA ADINA HUMANİTAR «LİNQVİST» LİSEYİNİN DİREKTORU VALENTİNA ANTONENKODAN ........ *197*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN ÜZVLƏRİNDƏN ............................... *199*

RUSİYA FEDERASİYASI İNQUŞETİYA RESPUBLİKASININ BİRİNCİ PREZİDENTİ, SOVET İTTİFAQI QƏHRƏMANI RUSLAN AUŞEVDƏN ................................................ *201*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ XUSRAV NOZİRİDƏN ......................... *202*

DÖVLƏTLƏRARASI AVİASİYA ŞURASININ PREZİDENTİ TATYANA ANODİNADAN .......................................................... *203*

XORVATİYANIN BAŞ NAZİRİ ANDREY PLENKOVİÇDƏN ...................................... *205*

2018–2019-cu İLLƏRDƏ RUMINİYANIN BAŞ NAZİR MÜAVİNİ VƏ ƏDLİYYƏ NAZİRİ, NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN ÜZVÜ ANA BİRÇALDAN ............... *206*

TÜRKSOY-un BAŞ KATİBİ SULTAN RAEVDƏN ................................................................ *208*

DÜNYA AXISKA TÜRKLƏRİ BİRLİYİNİN BAŞ DİREKTORU ZİYƏDDİN KASSANOVDAN ................................... *210*

MOLDOVANIN QAQAUZİYA MUXTAR ƏRAZİ QURUMUNUN (QAQAUZ YERİ) RƏHBƏRİ YEVGENİYA QUTSULDAN ................... *211*

BRAZİLİYA FEDERAL KONQRESİNİN NÜMAYƏNDƏLƏR PALATASININ

DEPUTATI, BRAZİLİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN HƏMSƏDRİ KLAUDİO KAJADODAN ........................................................ *213*

NİKARAQUA PREZİDENTİ DANİEL ORTEQA SAAVEDRA VƏ VİTSE-PREZİDENT ROSARİO MURİYODAN .................... *214*

DÖVLƏTLƏRARASI AVİASİYA KOMİTƏSİNİN SƏDRİ OLEQ STORÇEVOYDAN ........................................................ *215*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ HÜSEYN İBRAHİM TAHADAN ......... *216*

ATƏT-in BAŞ KATİBİ HELQA MARİA ŞMİDDƏN ........................................................ *217*

BOLQARISTAN PREZİDENTİ RUMEN RADEVDƏN ........................................................ *218*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN BAŞ KATİBİ SERGEY LEBEDEVDƏN ..................... *219*

FƏLƏSTİN PREZİDENTİ, FƏLƏSTİN AZADLIQ TƏŞKİLATI İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ MAHMUD ABBASDAN ........................................................ *220*

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ AĞSAQQALLAR ŞURASININ SƏDRİ, NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN ÜZVÜ BİNƏLİ YILDIRIMDAN ........................................................ *221*

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN DÖVLƏT DUMASININ KOMİSSİYA SƏDRİ, ÜMUMHƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ BAŞ KATİBİ VİKTOR PİNSKİDƏN .......................... *222*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI PARLAMENT MƏCLİSİNİN BAŞ KATİBİ ASƏF HACIYEVDƏN .......................... *223*

QIRĞIZISTANDAKI AVRASİYA UŞAQ HƏKİMLƏRİ FEDERASİYASININ PREZİDENTİ KAMÇİBEK UZAKBAYEVDƏN ........................................................................................ *224*

RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ RƏİSİ RÜSTƏM MİNNİXANOVDAN ................................................... *226*

BMT-nin SİVİLİZASİYALAR ALYANSININ ALİ NÜMAYƏNDƏSİ MİGEL ANXEL MORATİNOSDAN .......................... *228*

ASİYADA QARŞILIQLI FƏALİYYƏT VƏ ETİMAD TƏDBİRLƏRİ ÜZRƏ MÜŞAVİRƏNİN BAŞ KATİBİ KAYRAT SARIBAYDAN ............................................ *230*

MƏRMƏRƏ QRUPU STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VƏQFİNİN SƏDRİ AKKAN SUVERDƏN .................................... *232*

MDB PARLAMENTLƏRARASI ASSAMBLEYASI ŞURASININ BAŞ KATİBİ DMİTRİ KOBİTSKİDƏN VƏ BAŞ KATİBİN MÜAVİNİ AYDIN CƏFƏROVDAN ......... *233*

MOLDOVA RESPUBLİKASININ
PREZİDENTİ MAYA SANDUDAN .......................... *234*

BOSNİYA VƏ HERSEQOVİNANIN
SERB RESPUBLİKASININ PREZİDENTİ
MİLORAD DODİKDƏN ............................................ *235*

BOSNİYA VƏ HERSEQOVİNANIN
RƏYASƏT HEYƏTİNİN SERB ÜZVÜ
JELKA TSVİYANOVİÇDƏN ..................................... *236*

QIRĞIZ PREZİDENTİ SADIR
JAPAROVDAN ......................................................... *237*

ALBANİYANIN BAŞ NAZİRİ
EDİ RAMADAN ....................................................... *238*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
MÜRREY AUKİNKLOSDAN .................................. *239*

RUSİYA FEDERASİYASININ DAĞISTAN
RESPUBLİKASI XALQ MƏCLİSİNİN
SABİQ SƏDRİ XIZRI ŞIXSƏİDOVDAN .................... *240*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI
GƏNCLƏR FORUMUNUN PREZİDENTİ
TAHA AYHANDAN ................................................. *241*

«İSRAİLİN DOSTLARI» XARİCDƏ
YAŞAYAN HƏMVƏTƏNLƏR
FEDERASİYASININ PREZİDENTİ
ALEKSANDR ŞAPİRO-SULİMANDAN .................. *244*

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN
RUSİYA FEDERASİYASINDAKI
SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏSİ,

«BEYNƏLXALQ İSLAM MİSSİYASI» MƏRKƏZLƏŞDİRİLMİŞ DİNİ TƏŞKİLATININ SƏDRİ ŞAFİK PŞİXAÇEVDƏN ............................................................. *246*

ALBANİYA MÜSTƏQİL HƏMKARLAR İTTİFAQLARI BİRLİYİNİN PREZİDENTİ GEZİM KALAYDAN ................................................... *247*

BEYNƏLXALQ AVRASİYA METAL İŞÇİLƏRİ FEDERASİYASININ PREZİDENTİ PEVRUL KAVLAKDAN ..................... *248*

«TÜRK-İŞ» HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ BAŞ DİREKTORU ERGÜN ATALAYDAN ............................................... *249*

ŞANXAY ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ CAN MİNDƏN ....................................... *250*

QAFQAZ MƏNŞƏLİ DAĞ YƏHUDİLƏRİNİN ÜMUMİSRAİL BİRLİYİNİN SƏDRİ PAVEL YELİZAROVDAN ........................................................ *252*

RUSİYANIN «SAFMAR QRUPU» SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ MİXAİL QUTSERİYEVDƏN ............. *253*

RUSİYA FEDERASİYASI PREZİDENT ADMİNİSTRASİYASI RƏHBƏRİNİN MÜAVİNİ MAQOMEDSALAM MAQOMEDOVDAN ................................................... *254*

RUSİYA FEDERASİYASININ QARAÇAY-ÇƏRKƏZ RESPUBLİKASININ BAŞÇISI RƏŞİD TEMREZOVDAN ........................... *255*

RUSİYANIN MÜSTƏQİL HƏMKARLAR İTTİFAQLARI FEDERASİYASININ SƏDRİ MİXAİL ŞMAKOVDAN ............................................ *256*

RUSİYA ELMLƏR AKADEMİYASININ VƏ RUSİYA TİBB ELMLƏRİ AKADEMİYASININ AKADEMİKİ MƏMMƏD ƏLİYEVDƏN .................. *257*

BEYNƏLXALQ FUTBOL ASSOSİASİYALARI FEDERASİYASININ PREZİDENTİ CANNİ İNFANTİNODAN ......................................... *259*

RUSİYALI SAHİBKAR ALİŞER USMANOVDAN ............................................................. *260*

RUMINİYA PREZİDENTİ KLAUS VERNER İOHANNİSDƏN ........................................................... *261*

ÇEX PREZİDENTİ PETR PAVELDƏN ..................... *262*

İTALİYA PREZİDENTİ SERCİO MATTARELLADAN ................................................... *263*

İTALİYA NAZİRLƏR ŞURASININ SƏDRİ CİORCİA MELONİDƏN ............................................ *264*

İTALİYA–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN SƏDRİ, İTALİYA SENATININ SENATORU MARKO SKURRİADAN ..................... *265*

İTALİYADA FƏALİYYƏT GÖSTƏRƏN NAPOLİ–BAKI ASSOSİASİYASININ SƏDRİ CUZEPPE KANİLİADAN .............................. *266*

LATVİYA PREZİDENTİ EDQARS RİNKEVİÇSDƏN ........ *267*

MACARISTANIN BAŞ NAZİRİ VİKTOR ORBANDAN ........ *268*

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ BAŞ KATİBİ KUBANIÇBEK ÖMÜRALIYEVDƏN ........ *269*

TÜRK MƏDƏNİYYƏTİ VƏ İRSİ FONDUNUN PREZİDENTİ AKTOTİ RAİMKULOVADAN ........ *270*

ISESCO-nun BAŞ DİREKTORU SALİM BİN MƏHƏMMƏD ƏL-MALİKDƏN ........ *271*

QAZAXISTANDA FƏALİYYƏT GÖSTƏRƏN ÜMUMDÜNYA TÜRK XALQLARI ASSAMBLEYASININ SƏDRİ YERMENTAY SULTANMURATDAN ........ *273*

RUSİYA HÖKUMƏTİNİN SƏDRİ MİXAİL MİŞUSTİNDƏN ........ *275*

RUSİYA FEDERASİYASI TƏHLÜKƏSİZLİK ŞURASININ SƏDR MÜAVİNİ DMİTRİ MEDVEDEVDƏN ........ *276*

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN FEDERASİYA ŞURASININ SƏDRİ VALENTİNA MATVİYENKODAN ........ *277*

M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN REKTORU, AKADEMİK VİKTOR SADOVNİÇİDƏN ........ *279*

RUSİYA PREZİDENTİNİN BEYNƏLXALQ MƏDƏNİ ƏMƏKDAŞLIQ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ MİXAİL ŞVIDKOYDAN ........ *281*

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASINDA RUSİYA LİBERAL-DEMOKRAT PARTİYASI FRAKSİYASININ RƏHBƏRİ LEONİD SLUTSKİDƏN ........ *282*

SANKT-PETERBURQ ŞƏHƏRİNİN QUBERNATORU ALEKSANDR BEQLOVDAN ........ *283*

ÜMUMRUSİYA BƏDİİ GİMNASTİKA FEDERASİYASININ PREZİDENTİ İRİNA VİNERDƏN ........ *285*

MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLDƏN ........ *286*

RUSİYA FEDERASİYASI MÜSƏLMANLARI RUHANİ İDARƏSİNİN SƏDRİ MÜFTİ ŞEYX RAVİL QAYNUTDİNDƏN ........ *287*

İ.M.SEÇENOV ADINA BİRİNCİ MOSKVA DÖVLƏT TİBB UNİVERSİTETİNİN REKTORU, RUSİYA ELMLƏR AKADEMİYASININ AKADEMİKİ PYOTR QLIBOÇKODAN ........ *289*

RUSİYANIN ALİ DAĞ-MƏDƏN ŞURASININ SƏDRİ YURİ ŞAFRANİKDƏN ........ *290*

GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİDƏN ........ *291*

GÜRCÜSTANIN BAŞ NAZİRİ
İRAKLİ KOBAXİDZEDƏN ........................................ *292*

GÜRCÜSTAN HƏMKARLAR İTTİFAQLARI
KONFEDERASİYASININ SƏDRİ
İRAKLİ PETRİAŞVİLİDƏN ........................................ *293*

GÜRCÜSTAN MİLLİ ELMLƏR
AKADEMİYASININ PREZİDENTİ
ROİN METREVELİDƏN ............................................. *294*

TÜRKİYƏNİN MİLLİ MÜDAFİƏ
NAZİRİ YAŞAR GÜLƏRDƏN ................................... *295*

TÜRKİYƏDƏ FƏALİYYƏT GÖSTƏRƏN
«AKSOY HOLDİNG»İN İDARƏ HEYƏTİNİN
SƏDRİ ƏRDAL AKSOYDAN .................................... *296*

QIRĞIZISTANIN «MANASIN SƏSİ»
TELERADİO ŞİRKƏTİNİN DİREKTORU
TEMİRBEK TOKTOQAZİYEVDƏN .......................... *297*

İORDANİYA KRALI II ABDULLAH
İBN AL HÜSEYNDƏN ................................................ *298*

İSRAİL KNESSETİNİN DEPUTATI,
«İSRAİL BİZİM EVİMİZDİR» PARTİYASININ
SƏDRİ AVİQDOR LİBERMANDAN ......................... *299*

AVROPA ŞURASININ BAŞ KATİBİ
MARİYA PEYÇİNOVİÇ-BURİÇDƏN ......................... *300*

KÖRFƏZ ƏMƏKDAŞLIQ ŞURASININ
BAŞ KATİBİ CASİM MƏHƏMMƏD
ƏL-BUDEYVİDƏN .................................................... *301*

BMT-nin ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATININ BAŞ DİREKTORU QU DONQYUDAN ........ *302*

TÜRKİYƏNİN AVRASİYA QİDA, KƏND TƏSƏRRÜFATI, MEŞƏÇİLİK VƏ TURİZM İŞÇİLƏRİ HƏMKARLAR İTTİFAQININ SƏDRİ CEMAİL BAKINDIDAN ........ *303*

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİNİN DÖVLƏT DUMASINDA KOMMUNİST PARTİYASI FRAKSİYASININ RƏHBƏRİ GENNADİ ZÜQANOVDAN ........ *304*

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ MDB MƏSƏLƏLƏRİ, AVRASİYA İNTEQRASİYASI VƏ HƏMVƏTƏNLƏRLƏ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ LEONİD KALAŞNİKOVDAN ........ *305*

ABŞ VƏ KANADANIN BUXARA YƏHUDİLƏRİ KONQRESİNİN PREZİDENTİ BORİS KANDOVDAN ........ *306*

BƏHREYN KRALI HƏMƏD BİN İSA AL XƏLİFƏDƏN ........ *308*

AZİZ–AZƏRBAYCAN–İSRAİL BEYNƏLXALQ ASSOSİASİYASININ PREZİDENTİ ADAM AMİLOVDAN ........ *309*

KÜVEYTİN «ƏL-SEYASSAH» QƏZETİNİN İCMALÇISI VƏ MEDİA MƏSLƏHƏTÇİSİ ƏBDÜLRƏHMAN ƏL-ƏCMİDƏN ........ *310*

TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASININ BAŞ KATİBİ MƏHMƏT SÜRƏYYA ƏRDƏN ................................. *311*

POLŞA PREZİDENTİ ANDJEY DUDADAN ........... *312*

RUSİYADA FƏALİYYƏT GÖSTƏRƏN «HERETİ» MİLLİ DİRÇƏLİŞ REGİONLARARASI İCTİMAİ TƏŞKİLATININ RƏHBƏRİ ROSTOM ŞAPİAŞVİLİDƏN ....................................... *314*

QEYDLƏR ........................................................................ *315*

*Şəxsi adlar göstəricisi ...............................................................359*

*Coğrafi adlar göstəricisi ..........................................................365*

Buraxılışına məsul

**ƏLÖVSƏT AĞALAROV**

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiymәti ilә.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı, Mehdi Hüseyn küç., 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.